# MÜNDƏRİCAT




3 | İBRAHİM ƏLİYEV

2017-Cİ İL: GÖZLƏNTİLƏR VƏ NƏTİCƏLƏR



5 | TOFİQ NƏCƏFLİ: BAKI NEFTİ ORTA ƏSR MƏNBƏLƏRİNDƏ

10 |

SƏFİYƏ MEHBALIYEVA: ERMƏNİSTANIN AZƏRBAYCANA QARŞI TƏCAVÜZKAR SİYASƏTİ VƏ MÜNAQİŞƏNİN BEYNƏLXALQ-HÜQUQİ ASPEKTLƏRİ

16 |

ANAR EMİNOV, AYNUR LƏTİFLİ: SOSİAL SAHƏLƏRƏ AYRILAN XƏRCLƏRİN EFFEKTİVLİYİNİN ÖLÇÜLMƏSİNƏ YENİ YANAŞMALAR (Təhsil sahəsi timsalında)



20 |

NAFİLƏ RƏHİMOVA: MÜASİR DÖVRDƏ TÜRKİYƏ- RUSİYA MÜNASİBƏTLƏRİ

23 |

LALƏ MAHMUDOVA: MİLLİ İQTİSADİYYAT SAHƏLƏRİNİN İNNOVASİYALAŞDIRILMASININ STRATEJİ ASPEKTLƏRİ

27 |

СЕВИЛЬ КЕРИМОВА: ИКОНОГРАФИЯ ЦАРИЦЫ ТОМИРИС В МИРОВОМ И ОТЕЧЕСТВЕННОМ ИЗОБРАЗИТЕЛЬНОМ ИСКУССТВЕ

33 |

САБИНА ГАРАШОВА: ГЕОПОЛИТИЧЕСКИЕ ИНТЕРЕСЫ США В МИРЕ И ВОЗМОЖНОСТИ ИХ РЕАЛИЗАЦИИ

39 |

BƏXTİYAR NƏBİYEV: BAKI-TBİLİSİ-QARS DƏMİR YOLU XƏTTİNDƏN TEHRAN SAMMİTİNƏ DOĞRU: UĞURLARIN GEOSİYASİ DƏYƏRLƏNDİRİLMƏSİ

43 |

ELGÜN ƏLİYEV: ABŞ-DA FEDERAL SƏVİYYƏDƏ UŞAQ SİYASƏTİNİN MÜHÜM CƏHƏTLƏRİ

47 | SEVİNC MƏLİKZADƏ: AZƏRBAYCAN SƏFƏVİ İMPERİYASINDA NÜFUZ UĞRUNDA AVROPA DÖVLƏTLƏRİNİN MÜBARİZƏSİ (“KARMELİT XRONİKASI” ƏSASINDA)

51 | VASİF NƏBİYEV: QIRĞIZISTAN RESPUBLİKASININ AZƏRBAYCAN RESPUBLİKASI İLƏ ƏLAQƏLƏRİ (1993-2016-cı illər)

55 | HUMAY TAĞIYEVA: ETNOSİYASİ MÜNAQİŞƏLƏR BEYNƏLXALQ MÜNAQİŞƏLƏRİN BİR NÖVÜ KİMİ

63 | GÜNEL QARAYEVA: NƏSİMİNİN FƏLSƏFİ GÖRÜŞLƏRİNDƏ İDEAL İNSAN OBRAZI

65 | XUMAR ABDULLAYEVA: AZƏRBAYCAN-TÜRKİYƏ İQTİSADİ-TİCARƏT ƏLAQƏLƏRİNDƏ ƏN SON TRENDLƏR, BUNA TƏSİR EDƏN QLOBAL FAKTORLAR VƏ YENİ ƏMƏKDAŞLIQ İSTİQAMƏTLƏRİ

69 | AZƏR BAYRAMOV: DÖVLƏT QULLUĞU SİSTEMİNİN MÜASİR İNKİŞAF PROBLEMLƏRİ VƏ PERSPEKTİVLƏRİ




59 | LYUDMİLA İSMAYİLOVA: KİÇİK BİZNESİN İNKİŞAFINDA KLASTER ŞƏBƏKƏLƏRİNİN YARADILMASININ ƏHƏMİYYƏTİ

**GEO STRATEGİYA**

**Təsisçi:**
**“Kaspi” Geosiyasi Araşdırmalar Mərkəzi**

**Baş redaktor:**
**Əli Həsənov**
**Redaktor:**
**İbrahim Əliyev**
**Redaktor müavini:**
**İsmayıl Qasımov**

**Korrektor:**
**Leyla Binyatova**

**Dizayner:**
**İman Hüseynov**

**Redaksiya heyəti:**

**Əli Həsənov**
**Mübariz Qurbanlı**
**Səlahəddin Xəlilov**
**Rüstəm Məmmədov**
**Rasim Musabəyov**
**Çingiz İsmayılov**
**Musa Qasımlı**
**İbrahim Əliyev**
**Ərəstun Mehdiyev**
**Cəfər Cəfərov**
**Elman Nəsirov**
**Hikmət Məmmədov**
**Elçin Əhmədov**

**Ünvan:**
**Mətbuat pr. 23M. Beynəlxalq Mətbuat Mərkəzinin 4-cü mərtəbəsi.**
**Tel: (+994 12) 537 16 05**
**Faks: (+994 12) 537 16 05**
**E-poçt:**
**geostrategiya.az@mail.ru**
**strategiya.az@mail.ru**

**“Azərbaycan” nəşriyyatının mətbəəsində çap olunmuşdur.**

**Sifariş № 0055**

**Redaksiyanın icazəsi olmadan dərgidəki materiallardan istifadə etmək qadağandır.**

***“GEOSTRATEGİYA”*** jurnalı Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən Azərbaycan Respublikasının dissertasiyaların

***Tarix, Antropologiya, Siyasi elmlər, Fəlsəfə, Sosiologiya və İqtisadi elmlər***

üzrə əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısına salınmışdır.

# Gündəm



İBRAHİM ƏLİYEV
Tarix üzrə fəlsəfə doktoru

## 2017-Cİ İL: GÖZLƏNTİLƏR VƏ NƏTİCƏLƏR




2017-ci il başa çatır. Ilin axırında olub keçənlərə yekun vurmaq məqamıdır. Ötən il ərzində ölkənin ictimai-iqtisadi, siyasi və mədəni həyatında əhəmiyyətli hadisələr baş vermiş, bütün sahələrdə xeyli nailiyyətlər əldə edilmişdir. Müstəqilliyin növbəti ili arxada qaldı. Bu il ərzində Azərbaycan həm daxili həyatında, həm də dünya miqyasında öz yerini daha da möhkəmləndirmişdir. İqtisadi inkişaf sahəsində sonuncu illərdə atılan addımlar bu vaxta qədər əldə olunmuş nəticələrin üzərində təşəkkül tapmış, müstəqil iqtisadiyyatın qurulması və inkişafı prosesində mühüm bir mərhələni təşkil etmişdir. Ölkə iqtisadiyyatının mühüm sahələrindən birini təşkil edən kənd təsərrüfatının dirçəldilməsi, ona külli miqdarda investisiyaların yönəldilməsi, zəifləmiş bir sıra kənd təsərrüfatı məhsulları istehsalı sahələrinin bərpası və müasir dövrün standartlarına uyğun səviyyədə yenidən qurulması, onun dünya bazarına çıxarılması problemlərinin qoyulması və həlli istiqamətində tədbirlər görülməsinin məqamı çatmışdır. Faktiki olaraq Azərbaycanın iqtisadi potensialının dirçəldilməsi və tam gücü ilə işləməsi üçün real addımlar atılır. Ölkənin sənaye və kənd təsərrüfatı məhsullarının dünya bazarına çıxarılması, Azərbaycan brendinin formalaşdırlması yönəmində ciddi işlər görülmüşdür. Son ildə pambıqçılıq, üzümçükük-şərabçılıq, tütünçülük və digər sahələrin genişləndirilməsi və əsaslı şəkildə yenidən qurulması, onların becərilməsindən tutmuş satışına qədər dövlət qayğısı ilə əhatə olunması kənd təsərrüfatında əsaslı dönüş üçün zəmin yaradır.

Azərbaycanın sənaye potensialının dirçəldilməsi üçün müasir sənaye parklarının yaradılması iqtisadiyyatın neft amilindən asılılığının azaldılması üçün atılan vacib addımlardır. Azərbaycan sənayesinin məhsulları öz ixrac imkanlarını genişləndirir.

Qonşu dövlətlərlə ticarət-iqtisadi əlaqləri güclənib. "Made in Azerbaycan" brendinin dünya iqtisadi məkanında təşviqi və dəstəklənməsi artıq öz nəticələrini verməkdədir.

Turizm sahəsində irəliləyiş göz qabağındadır. Cari ildə ölkəyə gələn turistlərin sayının göstəriciləri bu sahədə artan inkişaf dinamikasını bir daha təsdiq edir.

Azərbaycanın beynəlxalq enerji, nəqliyyat layihələrinin həyata keçirilməsində gücü artmaqdadır. Neft strategiyasının reallaşması ilə öz potensialını təsdiq etmiş Azərbaycan həmin kursu tam gücü ilə davam etdirməkdədir. Bu layihələrin miqyası daha da genişlənmiş, yeni-yeni sahələri əhatə etmiş, onun şaxələnməsi istiqamətində xeyli irəliləyiş əldə edilmişdir. Bütün bu işlərin sayəsində Azərbaycan dünyanın iqtisadi durumunda öz yerini daha da möhkəmləndirmiş, regionun vühüm geosiyasi və geoiqtisadi aktoruna çevrilmişdir. 2017-ci il bu sahədə yenilikləri və əlavələri ilə yadda qalmışdır. Bu ilin sentyabr ayında 1994-cü ildə əsası qoyulmuş "Əsrin müqaviləsi"nin müddətinin uzadılması haqqında yeni sazişin imzalanması, dünyanın nəqliyyat sistemində nəhəng nəqliyyat





layihəsinin tərkib hissəsi olan Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi, Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin reallaşması üçün görülən işlər yüksəlişin mühüm göstəriciləridir.

Azərbaycan müstəqil dövlət olaraq eyni zamanda müasir dünyada humanist ideyaların təlqin edildiyi bir mərkəz kimi çıxış etmişdir. Dünyada, xüsusən regionda milli, dini zəmində düşmənçilik zəminində münaqişələrin qızışdırıldığı bir zamanda Azərbaycam multikulturalizm, xalqların dinc-yanaşı yaşaması, bütün xalqların hüquqlarının tanınması və dəstəklənməsi mövqeyindən çıxış edir. Əvvəlki illərdə olduğu kimi, Bakı yenə də regionda qarşıdurmaların aradan qaldırılması, ikitərəfli, üçtərəfli və çoxtərəfli görüşlərin keçirilərək regionun qlobal problemlərinin həlli yollarının müzakirə edildiyi bir məkan rolunu oynayır. 2017-ci ildə də bu ənənəvi xətt davam etdirilmişdir.

Qeyd edək ki, 2017-ci il Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fərmanı ilə "İslam həmrəyliyi ili" elan olunmuşdu. Müasir dövrdə bu çağırışın əhəmiyyəti çox böyükdür. Bir daha qeyd etmək vacibdir ki, islam dünyası son bir neçə onilliklər ərzində daha çox təzyiqlərə, böhtanlara, düşmənçilik təbliğatına məruz qalır, terrorçu münaqişə ocaqlarına çevrilir, əsassız ittihamlarla hərbi müdaxilə obyektinə çevrilirlər. Belə bir mürəkkəb vəziyyətdə islam dünyasının haqqını müdafiə etmək, ona qarşı atılan böhtanları və təxribatları ifşa etmək, islam ölkələrinin vahid mövqedən çıxış etməsinə nail olmaq həyati əhəmiyyət kəsb edir. Azərbaycan gənc və miqyasına görə kiçik bir dövlət olsa da, islam həmrəyliyinin önündə getmək missiyasını öz üzərinə götürmüş, bu istiqamətdə konkret addımlar atır.

Eyni zamanda, Azərbaycan dünyanın bütün ölkələri ilə mehriban dostluq siyasəti xəttinə sadiq qalır, bütün dövlətlərlə normal dostluq və əməkdaşlıq mövqeyini qoruyub saxlayır. Avropa İttifaqı ilə əlaqələr güclənir. Bu təşkilatla yeni razılaşmanın hazırlanması istiqamətində danışıqlara da start verilmişdir.

Bütün bunlarla yanaşı, təəssüflə qeyd etmək lazımdır ki, Azərbaycanın başlıca problemi olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi bütün kəskinliyi ilə qalmaqda davam edir. Böyük dünya dövlətlərinin açıq-aşkar və ya gizli dəstəklədiyi Ermənistanın qeyri-konstruktiv mövqeyi ucbatından münaqişənin həlli uzanır. Problemlə bilavasitə məşğul olan ATƏT-in Minsk qrupunun uzun illər davam edən səmərəsiz fəaliyyəti onun uğuruna ümid etməyə əsas vermir. Lakin problemin gedişində pozitiv məqamları da qeyd etmək vacibdir. Böyük dövlətlərin və nüfuzlu beynəlxalq təşkilatlarım məsələyə uzun illər boyu qeyri-ciddi yanaşması üzündən radikal dəyişikliklər baş verməsə də, Azərbaycan dövlətinin qəti mövqeyi, gərgin diplomatik səyi, aparılan intensiv məlumatlandırma işi sayəsində ilk baxışda kiçik görünən prinsipial nailiyyətlər göz qabağındadlr. Bu illər ərzində Ermənistanın işğalçı dövlət olduğu və Azərbaycan torpaqlarının xeyli hissəsini işğal altında saxlaması faktı bütün dünya dövlətləri və beynəlxalq təşkilatlar tərəfindən birmənalı şəkildə qəbul edilir. Bu vaxta qədər danışıqlara şərtlər irəli sürməklə gəlirdisə, atrıq 2017-ci ildə danışıqlara onun heç bir şərt qoymaq imkanı olmamışdır. Buna Azərbaycanın diplomatik fəaliyyəti ilə yanaşı 2016-cı ilin Aprel döyüşlərində Azərbaycan ordusunun ilk uğurları da səbəb olmuşdur. Bu gün təkcə ermənilər deyil, dünya dövlətlərinin əksəriyyəti Azərbaycan ordusunun öz torpaqlarını azad etməyə qadir olduğunu başa düşür və bu faktı qəbul edirlər.

Aprel 2016-cı il döyüşlərindən sonra azad edilmiş ərazilərdə quruciuluq işləri Azərbaycanın qətiyyətini, qələbəyə iradəsini, son nəticədə isə Azərbaycanın bu müharibədə son hədəflərini hamıya, o cümlədən ermənilərə nümayiş etdirdi. Cocuq Mərcanlıda həyat bərpa olunur, burada Azərbaycan xalqın öz torpaqlarına sahib olmaq əzmini əyani şəkildə göstərir. Təsadüfi deyildir ki, Qarabağda yaradılmış qondarma respublikanın keçirdiyi referendumun nəticələrinin heç bir dövlət tərəfindən tanınmaması münaqişənin son nəticəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində olacağını nümayiş etdirir. 2017-ci il Azərbaycan Respublikasının ictimai həyatın bütün sahələrində malik olduğu məqsədlərinə doğru inamla irəlilədiyi illərdən biri kimi yadda qalır.



# Tarix



TOFİQ NƏCƏFLİ
Tarix üzrə elmlər doktoru

# BAKI NEFTİ ORTA ƏSR MƏNBƏLƏRİNDƏ



Bəşəriyyət tarixində ilk neft yataqları Xəzər dənizinin qərb sahilində yerləşən Abşeron yarımadasında və Bakı şəhərində kəşf olunmuşdur. Qədim Bizans, erməni və ərəb mənbələri Bakı ətrafında sönməyən yanar qazın və neftin olduğu haqda məlumat verirlər. Bakı ətrafında yanar qazın və neftin olması barədə V əsr Bizans tarixçisi Prisk Paniyski məlumat vermişdir. O, 395-ci ildə hun tayfalarının şimaldan – Dərbənd keçidindən Azərbaycana və Ön Asiyaya yürüş etdiyini, geri qayıdarkən Xəzər dənizi sahillərində yanar odların mövcud olduğu ərazidən keçdiyini qeyd etmişdir [17,46]. Bakı şəhəri öz yanar odları ilə atəşpərəstlərin müqəddəs ziyarətgahlarından birinə çevrilmişdir. Hələ qədim dövrlərdən Bakıda üç atəşgah mövcud olmuşdur. Atəşgahlardan biri Suraxanıda, digəri Pirallahı adasında, üçüncüsü isə Şubanı dağında idi [33,4].

Bakıda “Şirvanşahlar sarayı” ərazisində aparılan arxeoloji qazıntılar zamanı neftdən istifadə olunmasının izləri aşkar olunmuşdur [5,65; 16,164]. Musa Kalankaytuqlu “Alban tarixi” əsərində bölgənin zəngin təbii ehtiyatları arasında neftin olması barədə məlumat vermişdir [19,31]. VIII əsrdə Azərbaycanın Ərəblər tərəfindən işğalından sonra ərəb coğrafiyaçıları və tarixçiləri Bakı nefti ilə bağlı ətraflı məlumat verməyə başladılar. Bəlazuri yazır: “Hələ xəlifə Mənsurun dövründə Azərbaycan hakimi Yəzid ibn Useyd “öz adamlarını Şirvanda neft və duz çıxaranların yanına göndərdi və bu adamlar onlardan vergi aldılar; sonralar o, vergi alınmasını (xüsusi adamlara) tapşırdı” [10, 338; 11,132]. Şirvanda neft mədənlərinin olduğunu Dərbənddə 733-cü ildə neft anbarlarının tikildiyi təsdiq edir” [11,132]. “Dərbəndnamə” müəllifinin verdiyi məlumata görə, 733-cü ildə Azərbaycan valisi Məsləmə ibn Əbdülməlik 20 minlik qoşunla Dərbənd şəhərini ələ keçirən zaman dağıdılmış evlərin yerində cəbbəxana, ərzaq və neft saxlamaq üçün anbar tikdirmişdi [27,62, 75]. “Dərbəndnamə” müəllifinin verdiyi məlumata görə, Ərəblər xəzərlərə qarşı mübarizədə neftdən istifadə etmişdilər [11,133].

Xilafətin şimal sərhədində mühüm dayaq məntəqəsi olan Dərbəndin xüsusi üstünlükləri var idi, xəlifələr həmişə bunu nəzərə alaraq ətraf ərazini və gəlir mənbələrini vəqf adı ilə onun müdafiəçilərinə verirdilər. Dərbənd müdafiəçilərinə gəlir mənbəyi kimi vəqf olunan ərazilər arasında Bakı nefti mühüm yer tuturdu. “Dərbəndnamə” müəllifinin verdiyi məlumata görə, 883-cü ildə xəlifə əl-Mötəmid yenidən Şirvanın neft və duz mədənlərinin yarısını vəqf olaraq Dərbənd əhalisinə (döyüşçülərinə) verdi” və nəhayət, 885-ci ildə həmin xəlifənin verdiyi fərmanla Bakının neft və duz mədənləri vəqf olaraq Dərbəndə verildi. “O, Məhəmməd ibn Əmmarı həmin mədənlərin vergi toplayanı təyin etdi. Məhəmməd bu mədənlərin illik gəlirini Dərbənd döyüşçüləri arasında bölüşdürdü. Ondan sonra bu mədənləri Şirvan valisi Məhəmməd ibn Yəzid idarə etdi. Xəlifənin neft və duz gəlirlərinin Dərbənd əhalisinin haqqı olduğuna dair yazdığı fərmanlar əhali tərəfindən müqəddəs hesab olunmuşdur” [27,75; 2,79; 11,133]. Xəlifənin təyin etdiyi bu məmurların başlıca məqsədi neft və duz mədənlərinin mühafizəsini təmin etmək və əldə olunan gəlirləri Dərbənd mühafizəçilərinə göndərmək idi [6,65-66; 16,167].

Qeyd etmək lazımdır ki, IX əsrin II yarısında Azərbaycanda Xilafətin mövqeyi zəiflədiyi üçün Şirvanşahlar və Dərbənd əmirləri Bakıda çıxarılan neft və duzun gəlirlərini öz aralarında bölüşdürməyə başladılar.

944-cü ildə Dərbəndi nəzarəti altına almağa çalışan Şirvanşah Əbu Tahir Yəzid deyləmlilərin hücumuna məruz qaldığına görə Dərbənd əhalisindən yardım almaq məqsədilə onlarla sülh bağlamağa razı olmuşdu. O, bunun müqabilində onlara Şabran şəhəri ilə bərabər neft və duz mədənlərinin əmlakını da qaytarmağa məcbur oldu. Dərbəndlilərin yardımı ilə o, deyləmlilərin hücumunu dəf edə bildi [34,45]. “Dərbəndnamə”nin verdiyi məlumata görə, Əbu Tahir Yəzid Şirvan ərazisinin neft və duz çıxarılan torpağına göndərildi, o, onlara üstün gəldi, ona səlahiyyət verildi, o, isə onlardan aldığı Şabranı, onun kəndlərini, neft və duz rüsumlarının hamısını onlara qaytardı [34,43]. Göründüyü kimi, Bakı nefti daha əvvəllər Xilafətin, sonra Şirvanşahların, bəzən isə Dərbənd haşimilərinin düşmənə qarşı həyata keçirdiyi hərbi əməliyyatlar zamanı ordunun xərclərini qarşılamaq üçün

başlıca gəlir mənbəyi olmuşdur.

X-XIII əsr ərəb coğrafiyaçıları Bakı nefti ilə bağlı ətraflı məlumat verirlər. Əl-İstəxri, Əbu Dulaf, Məsudi, İbn-Hövqəl, Yaqut Həməvi Bakıda neft çıxarılması və satılması barədə ətraflı məlumat verirlər. X əsr müəllifi Əbu Dulaf Bakı ətrafına gəlişi zamanı neftin çıxarılması barədə mühüm məlumat verir. O, yazır: "Mən Mukandan böyük Təbəristan (Xəzər) dənizi sahili ilə ağaclar altında 80 fərsəx yol getdim, nəhayət, Şirvan vilayətinin Bakuya adlanan yerinə çatdım. Mən orada bir neft mənbəyi gördüm; bunun gündəlik icarə haqqı min dirhəmə çatır; onun yanında isə gecə-gündüz, ara vermədən yasəmən yağı kimi ağ neft verən başqa bir mənbə var idi; bunun da icarə haqqı birinciyə bərabərdir" [28,35; 11,132-133].

X əsr ərəb coğrafiyaşünası əl-Məsudi "Xəbərdarlıq və yenidən gözdən keçirmə" adlı əsərində Xəzər dənizi haqqında məlumat verərkən bu dənizin sahilində Bakuh (Bakı) adlı şəhərin yerləşdiyini və Şirvan ölkəsinin bu şəhərinin neftli torpaqlara malik olduğunu qeyd edir. O, Bakıda ağ neftin çıxarıldığını və digər ölkələrə göndərildiyini də qeyd edir [35,74]. Əl-Məsudi "Muruc əz-zəhəb və kitab əl-tanbih" adlı əsərində də dünyanın heç bir yerində Bakının ağ nefti kimi neftin olmadığını qeyd etməklə yanaşı, yanan neft quyularının alovlarının gecələr uzaq məsafədən göründüyünü və Bakının qarşısındakı dənizin içində üç günlük məsafədə olan adadakı vulkandan bəhs etməkdədir. Bu adada yüksək dağlarla eyni boyda göy üzünə alovlar saçan böyük bir atəş mənbəyinin olduğunu və bu atəş mənbəyinin dənizin önəmli bir bölümünü işıqlandırdığını və qurudan 100 fərsəx uzaqlıqdan göründüyünü bildirir [26,78-79; 34,42; 24,253]. Ə.Z.Vəlidinin fikrincə, belə bir adanın o vaxtlar mövcud olub indi batmış olduğunu demək mümkündür [34,42].

Əl-İstəxri Bakıda yaşıl və ağ neftin olduğunu, bununla Muğan şəhəri arasında şəmayi balıqları tutulan yerlərin mövcudluğunu bildirir [34,42]. Bu məlumatı XI əsr müəllifi əl-Biruni də təsdiq edir. O, "Məsud cədvəli" adlı əsərində "Bakı ağ neft mədəni ocağıdır" deyərək şəhərin eni və uzunluğu barədə məlumat vermişdir [34,42; 35,145-146; 24,253].

XII əsrin Ərəb coğrafiyaşünası Əbu Hamid əl-Əndalusi öz əsərində Şirvan ölkəsinin Bakuh (Bakı) adlı şəhərində qara torpaqdan mazut, ağ və qara neft çıxarıldığını yazır. O, Bakıda və qarşısındakı adadan gecələr kükürd alovuna bənzəyən alovun yüksəldiyini və mavi alovun istiliyi olmadığını, odun üstünə yağış yağdığı anda alovun artdığını və göyə yüksəldiyini qeyd edir. Onun fikrincə, Bakıdakı neft mədənləri dünyanın möcüzələrindən biridir [34,43; 35,162; 24,253-254]. "Hu-dudül-aləm" müəllifi yazır ki, "Bakı dağların yaxınlığında dəniz sahilində bir şəhərdir. Deyləman ölkəsində istifadə olunan bütün neft buradan aparılır" [29,145].

XIII əsrin əvvəllərində bir neçə dəfə Azərbaycanda olan ərəb coğrafiyaşünası Yaqut əl-Həməvi "Mucəm əl-buldən" ("Ölkələrin lüğəti") adlı əsərində Bakı şəhərindən bəhs edərkən yazır: "Orada icarə



haqqı gündə min dirhəmə çatan çox böyük neft mənbəyi var. Yanında civə yağına oxşayan ağ nefti sel kimi gecə-gündüz axan başqa bir mənbə də var. Onun icarə haqqı da əvvəlki mənbədə olduğu kimidir. İnandığım mənbələrdən biri mənə danışdı ki, o, orada həmişə yanan bir yer görüb. Mən belə güman edirəm ki, kimsə təsadüfən ora od salıb, yer mədən tərkibli olduğundan o da sönmür" [15,144; 34,43; 24,254].

XIV əsrin əvvəllərində ibn Mühənnanın öz lüğətində "yer yağı" adı altında neft və neft yağı barədə məlumat verməsi, bu dövrdə neftin Azərbaycanda geniş istifadə olunduğunu bir daha təsdiq edir [1,90; 24,254].

XIV əsrin əvvəllərində Elxani hökmdarı Olcaytu Xudabəndənin (1304-1316) Bakı şəhərinin qala hissəsində Cümə məscidi minarəsinin bünövrəsinə bitişik daşda aşkar olunan fərmanının mətnindən bəlli olur ki, şəhərin və vilayətin rəiyyətlərindən adam başına neftə görə alınan "nefti" vergisi ləğv olunmuşdur. "Nefti" termini neft çıxarılan rayonlarda, yəni Bakıda və onun həndəvərində tutulan yerli vergini bildirirdi. XIV əsrin əvvəllərində bu verginin ləğv olunması sübut edir ki, "nefti" vergisi neft çıxarmaqla məşğul olan əhali üçün çox ağır idi. Güman etmək olar ki, Elxanilər dövrünə kimi bu cür vergi tutulmuş və Şirvanşahların xəzinəsinə daxil olmuşdur [3,266].

XIV əsrin tanınmış tarixçisi və coğrafiyaşünası Həmdullah Qəzvini "Nüzhətül-Qülub" adlı əsərinin Şirvan maddəsində və əsərinin sonundakı "Əcayibi-aləm" hissəsində Bakı nefti barədə mühüm məlumat verir. "Neft quyuları çoxdur və onlardan ən çox yanacaq verənləri Bakıdadır. Burada torpaqda dayaz quyular qazıb neftli laya çatırlar və bu quyulara vurulan su nefti basıb yuxarı qaldırır" [36,58; 8,174; 24,254]. Neft quyularına və laylarına su vurmaq üsulunun tətbiq edilməsi haqqında Həmdullah Qəzvininin verdiyi məlumat Azərbaycanda neftçıxarma işinin qədim ənənəsi olduğunu göstərir. Kimyəvi çəkisinə və sıxlığına görə su neftdən ağır olduğu üçün onu öz ağırlığı ilə basıb yuxarı qaldırır, özü isə onun yerini tutur. Yüz illərin sınağından çıxmış bu üsul indi də Abşeron neft quyularında daxili təzyiqi qaldırmaq və quyuların məhsuldarlığını artırmaq üçün istidə edilməkdədir.

XIII-XVII əsr Qərbi Avropa səyyahları da Bakıda neftin çıxarılması barədə geniş məlumat verirlər. Məşhur venesiyalı Marko Polo ilk avropalıdır ki, Bakıda "qara qızılın" çıxarıldığı haqqında məlumat verir. Marko Polonun yolu Cənubi Azərbaycan, Təbrizdən keçirdi. O, Bakıda olmasa da, neftlə bağlı onun verdiyi məlumat çox maraqlı idi. "Gürcüstanla sərhəddə yağ mənbəyi var, özü də lap çox, həmin yağı birdəfəyə yüzədək gəmiyə yükləmək mümkündür. Yeməli deyil, yandırmaq, qotur və qartmaqlı dəvələrin dərisinə sürtmək olur. Bu yağ üçün uzaq yerlərdən gəlirlər, onu ölkənin hər yerində yandırırlar [23,56-57; 14,1]. Marko Polonun bu qısa məlumatında söhbət, şübhəsiz ki, Bakı neftindən gedir. O, xeyli neft çıxarıldığını, onun müalicə məqsədilə istifadə olunduğunu, ölkənin hər yerində yanacaq və işıq vasitəsi kimi işlədildiyini bildirir.

1320-ci ildə Azərbaycandan keçən Fransa missioner rahibi Jurden Katalani de Severak öz qeydlərində yazır ki, "Bakı adlanan bir yerdə quyular qazmışlar, bu quyulardan "naft" adlı yağ çıxarırlar. Bu yağ əla yanır və müalicə edir, o, həqiqətən çox yaxşı alovlanır" [7,108; 14,1]. Jurdenin məlumatı ona görə maraq doğurur ki, Marko Polodan fərqli olaraq, o, neft yatağının Bakıda olduğunu, quyulardan çıxarıldığını, həmçinin yanan yağın yerli əhali tərəfindən "naft" adlandırıldığını bildirir.

Məşhur Azərbaycan coğrafiyaşünası Əbdürrəşid Bakuvi "Abidələrin xülasəsi və qüdrətli hökmdarın möcüzələri" adlı əsərində Bakı nefti haqqında yazır: "Burada qatran (qır) yataqları və neft bulaqları var və hər gün iki yüz dəvə yükündən çox neft hasil olunur. Bunların yaxınlığında arası kəsilmədən, gecə-gündüz, yasəmən yağı kimi ağ neft axıdan başqa bir bulaq var. Bunun icarə haqqı təxminən min dirhəmə yaxındır.

Bulaqların yanında şam kimi yanan sarı rəngli bərkimiş torpaq var. Bundan parça-parça qoparıb şəhərə aparırlar və evlərin, hamamların qızdırılmasında istifadə edirlər" [13,117; 24,255]. Ə.Bakuvinin verdiyi məlumata görə Bakı şəhərindən bir fərsəx aralı bir yer var ki, oradan heç vaxt sönməyən alov çıxır. Deyirlər ki, bu kükürd mədənidir. O, həmçinin Bakı şəhərinin yaxınlığında yerləşən adada bəzi illərdə dənizdən çıxıb yüksəkliyə qalxan və uzaqlardan, iki günlük və daha çox məsafədən görünən böyük alov müşahidə olunduğunu qeyd edir [13,117].

Azərbaycanda olmuş Venesiya səfiri İosafat Barbaro 1474-cü ildə Azərbaycan Ağqoyunlu hökmdarı Uzun Həsənin sarayında olmuş və Bakıda olmasa da, şəhər haqqında eşitdiklərini yazmışdır. "Dənizin (söhbət Xəzərdən gedir-T.N.) bu tərəfində Bakı adlı başqa bir şəhər var, dəniz də buna görə Bakı dənizi adlanır. Bu şəhərin yaxınlığında ucalan dağdan çox üfunətli qara yağ axır ki, onu gecələr çıraqlarda yandırırlar və ildə iki dəfə dəvələrin dərisinə sürtürlər, çünki sürtməsələr dəvələrdə qoturluq olar" [9,107; 14,2; 16,165].

XV əsrin son rübündə Bakıya səyahət dən rus səyyahı Afanasi Nikitin də burada yerdən çıxan yanar qazları görüb heyrət etmiş və əsərində Bakıda "ataş sönmədən yanmaqdadır" yazaraq yanar odla bağlı mühüm məlumat vermişdir [22,56-57; 24,255].

XVI-XVII əsr Avropa səyyahlarının əsərlərində də Bakı nefti ilə bağlı son dərəcə qiymətli məlumat vardır. Bu dövrdə Qərbi Avropa dövlətlərinin Şərqlə, o cümlədən Azərbaycanla ticarət əlaqələrinin yaradılması və inkişaf etdirilməsində marağının güclənməsi müşahidə olunurdu.

1955-ci ildə Londonda yaradılmış "Moskva şirkəti" özünün ticarət agentlərini Rusiyadan keçməklə Azərbaycana göndərmişdi. İngilislər Azərbaycana altı səfər etmişdilər, lakin ən mühüm səfər Tomas Benisterin və Ceffri Düketin rəhbərliyi ilə şirkət agentlərinin 1568-ci ildən 1574-cü ilədək davam edən beşinci səfəri idi. C.Düket Bakı nefti haqqında aşağıdakıları yazırdı: "Şəhərin (Bakının – T.N.) yaxınlığında qəribə hal müşahidə olunur – burada yerin altından heyrət doğuran qədər yağ çıxır; İranın uzaq yerlərindən bura gəlib həmin yağdan aparırlar; ölkənin hər yerində bu yağ işlədilir. Rəngi qaradır və "nefte" adlanır. Onu 400-500 qatıra və ulağa yükləyib ölkənin hər yerinə daşıyırlar, belə karvanlara tez-tez rast gəlirsiniz. Göstərilən Bakı şəhərinin yaxınlığında başqa növ yağ da var – ağ rəngli və çox qiymətlidir, güman edilir ki, bizdə petroleum adlanan mayenin eynidir" [18,439-440; 14,2; 16,169].

İngilis tacirinin təsvir etdiyi karvanlardakı heyvanların sayı göstərir ki, o zaman Bakıda böyük həcmdə neft çıxarılırdı və xeyli neft daşınırdı. C.Düketin verdiyi məlumatlar təsdiq edir ki, o dövrdə neftdən həm də gəmilərdə istifadə edilmişdir [18,439]. Görünür, gəmilərin taxta hissələrini qorumaq və suyun sızmasının qarşısını almaq üçün neft qatranından istifadə edilmişdir.

1578-1590-cı illər Səfəvi-Osmanlı müharibəsi zamanı Özdəmiroğlu Osman paşanın şəxsi katibi olan Asafi Dal Mehmed Çələbi "Şücaətnamə" əsərində içi neftlə dolu olan quyuların olduğu Bakıda minlərlə yük neft çıxarıldığını və burada ağ neft mədənlərinin olduğunu qeyd etmişdir [4,114]. O, Bakı nefti barədə daha ətraflı məlumat verir. Asafi burada neft quyuları ilə yanaşı, neft anbarların olduğunu, neftdən istifadə olunan sahələr və eləcə də onun ticarəti barədə məlumat verir. O, neftin hasilatının gün ərzində min yük həcmində olduğunu və bundan da on yük axça gəlir əldə edildiyini göstərir. O, eyni zamanda bulaq kimi yerdən qaynayan ağ neftin olduğunu da qeyd edir:

*Neçə min yük olur neft hasilləri* — *Nəqd on yük aqcadır gəlirləri.*
*Ağ neftin mədəni var orda həm dəmbədəm.* — *Su kimi çah içrə qaynar*
*Var daha yanında bir duz mədəni məxzəni.* — *Doldurur hər il otuz yüz*
*Balıq bəndi var, adı "Şil" adıdır* — *Qızıl simli balıqların damıdır.*



*Gündə on min aqcadır bil xəracı bacı.* — *Belə ayrılmış ilk zamandan*
*Gəmilər ilə gəlir hər dəm qumaş* — *Neftlə əvəz edib alırlar maaş.*
*Gilan gəmisinin kəsilməz ardı ayrı.* — *Xocalar sevdadan ilmazlar*
*Satdığı malları tam alacadır* — *Sanki Misir malıdır, əlacadır*
*Hər malından iyirmi beşdə bir* — *Alınır, tamqa deyə, ey binəzir*
*[4,114; 34,45-46; 32,39].*

Asafinin məlumatına görə, neft quyularında qaynayan neft qatranından Bakı hamamlarında geniş istifadə olunurdu. Hamamların suyunu və hamamın qızdırılması üçün neft qatranından istifadə edilirdi [4,114; 33,45-46; 31,39].

Asafi Mehmed Çələbi Bakı neftinin satılmaq üçün daha çox Gilan limanına aparıldığını qeyd edir. O, gəmilərlə daşınan neftin başlıca olaraq ipək parçalara dəyişdirildiyini yazır. Müəllif bu idxal prosesində hər maldan iyirmi beşdə bir tamğa (gömrük) vergi alındığını xüsusi olaraq vurğulayır [4,114; 34,45-46; 32,39].

Asafinin Bakı ilə bağlı məlumatları arasında şəhər ətrafındakı Yanar dağla bağlı verdiyi məlumat xüsusi maraq doğurur. O, yağış və qar altında sönmədən yanan bu odun onu heyrətləndirdiyini qeyd edir.

*Hem o sahralarda çok müddet ile,* — *Üstüne kar ile yağmurlar yağar,*
*Sönmeyip odlar yanar kudret ile. yanar* — *Yine dinlenmez o sahralar*
*[4,114; 34,45-46; 32,39].*

İtaliya səyyahı Pyetro della Valle də Bakı neftindən bəhs edərək şəhərin yaxınlığında ucuz başa gələn xeyli neft çıxarıldığından və bunun şaha böyük gəlir gətirdiyindən danışır [7,225; 14,3].

XVII əsr Osmanlı müəlliflərindən Katib Çələbi "Cihannuma" adlı əsərində Bakının Şamaxının şimal-şərqində Xəzər dənizi sahilində məşhur şəhər olduğunu qeyd edərək yazır: "Ətrafı 10 fərsəxə yaxın daşlıq olub bitkisi çox azdır. Amma 10 qarış qazılsa torpaq çıxar. Bu daşların bəzilərini odun yerinə yandırırlar. Bu şəhərə bağlı olan yerlərdə biri ağ və 500 yaxın qara neft yağı çıxarılan quyusu vardır" [20,485; 16,165]. Katib Çələbi əsərində Xəzər dənizi haqqında məlumat verərkən dənizdəki adaların çoxunda ağ və qara neft yağı çıxarıldığını da qeyd etmişdir [20,488; 16,165].

1647-ci ilin fevralında Bakıya gələn tanınmış türk səyyahı Evliya Çələbinin neft haqqında məlumatı xüsusilə maraqlıdır. O, göstərir ki, şəhərin "suyundan neft yağının iyi gəlir. Çünki bu şəhər yaxınlığında yeddi yerdə neft mədənləri vardır ki, hər biri bir rəngdədir. Sarı, qırmızı və qara nefti olur. Bu diyarın nahiyələrindən olan Müskir, Səndan, Rinəbin əhalisi əsla bal mumu və yağ yandırmayıb qara neft yağı yandırırlar" [12,107; 25,265; 16,165-166]. Evliya Çələbinin səyahəti



zamanı neft artıq dövlətin iqtisadi həyatında xüsusi rol oynayırdı. Bakı nefti dünyanın bir çox ölkələrinə ixrac olunur, ondan yanacaq kimi və hərbi işdə istifadə olunurdu. Bakı ətrafındakı neft quyularını o zaman öz gözləri ilə görmüş səyyah yazır: "Neft dövlət gəlirinin xüsusi mənbəyidir və hər il şaha yeddi min tümən gəlir verir. Neft çıxarmaqla məşğul olan adamlar gecə-gündüz quyulara düşüb neft çıxarır və onu keçi dərisindən olan tuluqlara doldururdular. Sonra onu tacirlər alır və müxtəlif ölkələrə aparırlar. Yedd-səkkiz cür neft olur, amma sarı neft ən çox istifadə ediləndir. Qara neft şahın mülkiyyətidir... Qara nefti Özbəkistan, İraq, Hindistan, Gürcüstan, Dağıstan və Osmanlılarla sərhəddə yerləşən qalalara göndərirlər və həmin yerlərdə bundan işıq üçün istifadə edirlər. İslam ordusunun qalalarına hücum etdikdə üzərlərinə və ayaqlarının altına neftli yorğan, köhnə əşyalar atıb alovlandırırlar. Bəzisinə də qalaların və şəhərlərin işləri üçün lazımdır. Hətta İran şahı və Osmanlı paytaxtı üçün hazırlanan çıraqlar da Bakı nefti ilə yandırılır. Neft gündüz də, gecə də qarovulçular tərəfindən qorunur. Çünki ona od düşsə, yanıb qurtaranadək sönməz. Elə buna görə də neft mədənlərinin yanında həmişə hazır qum təpələri düzəldib saxlayırlar. Neft mənbəyi alışdıqda əhali hamılıqla yüyürüb alovun üstünə qum tullayıb söndürür. Çünki neft quyularındakı yanğını söndürmək üçün başqa vasitə yoxdur" [12,108-109; 25,265-266].

Evliya Çələbinin Bakı nefti haqqında verdiyi mühüm məlumatı 1683-cü ildə İsveç səfirliyinin katibi sifəti ilə Bakıda olan alman səyyahı Engelbert Kempferin məlumatları bir daha tamamlamış olur. E.Kempferin 1693-cü ildə latın dilində yazdığı beş hissədən ibarət olan əsərinin ikinci hissəsində bakının və Abşeron yarımadasının neft quyuları haqqında qiymətli məlumat verilir [21,264-286].

Kempfer Abşeronun Balaxanı, Ramana, Binəqədi, Suraxanı kəndlərində neft yataqları sahələrinə getmişdi. Onun yazdığına görə Suraxanıda uzunluğu təqribən 100, eni 200 addım olan sahədə ağ neft çıxarmaq üçün qazılmış iki işləyən quyu vardı, səkkiz işləməyən quyu. Dar quyuların dərinliyi təqribən 70 metr olardı. Quyuların ağzına daş və kol döşənmişdi [21,274-275; 14,3]. Quyular primitiv üsulla – bel və kərki ilə qazılsa da, "gilli süxur quyunun divarlarını möhkəmlətməkdə, kankanların həyatı üçün təhlükə doğurmadan istənilən dərinliyə çatmağa imkan verir" [21,277-278].

Alman səyyahı Balaxanıda qərbdən şərqə 100 addım uzanan sahədə qara neft yatağı ərazisini də gəzmişdi. Burada neft çıxarılması üçün müxtəlif yerlərdə nizamsız şəkildə çoxlu quyu qazılmışdı, hamısı da işləmirdi. O, daha sonra yazırdı: "Quyular otuz qulac və daha dərinliyə qazılmışdır, ona görə yox ki, neft damarları bu dərinlikdən axır, ona görə ki, səhər açılanda fəhlələrin çıxaracaqları mayenin gecə sızılıb yığılacağı çox dərin xəndək olması gərəkdir" [21,276-277; 14,4].

Kempferin neftin çıxarılması üsulları barədə verdiyi məlumat xüsusi maraq doğurur. Onun fikrincə, neft yuxarıdan endirilən tuluqlarla və ya vataşırı dəyişdirilən bir cüt atın hərlətdiyi dolamaçarxlar vasitəsilə quyudan çıxarılırdı. İş ancaq gecələr, cəmi bir neçə saatlığa dayandırılırdı. Digər quyular arasında daha çox neft verən quyunun ağzına bayırdan daş düzülmüş, üstündə qurğu düzəldilmişdi. "Neft güclü şırıltı ilə ora axırdı". Kempferin sözlərinə görə, neft xüsusi olaraq düzəldilmiş tağlı tikililərdə saxlanılırdı – "eni yeddi addım, uzunluğu on yeddi addım idi, dərinliyini ölçmədim... Təkcə neft saxlanması üçün deyil, həm də oradan neft çıxarılması üçün çox münasib idi, çünki hər iki tərəfdən açıq idi, istənilən səviyyəyə enməkdən ötrü pillələr düzəltmişdilər" [21,278; 14,4].

Kempferin məlumatına görə, Suraxanıda hər gün 8 mindən 10 min batmanadək neft çıxarılıb daşınırdı, hərçənd onlar 100 min batmanadək neft çıxara bilərdilər. Hər gün 80 arabada neft daşınırdı; hər arabaya müxtəlif ölçülü 7 və 8 dəri kisələrdə 10-20 batman neft yüklənirdi. Neft quyuları əsas etibarı ilə şah xəzinəsinə məxsus idi, neftin satışından əldə edilən gəlir ora verilirdi. Kempferin dediyinə görə, xəzinə neft quyularından hər il 7 min tümən xalis gəlir əldə edirdi. Bir batman ağ neft 1 şahıya satılırdı, qara neft ucuz idi. S.Aşurbəylinin hesablamalarına görə, Kempferin bildirdiyi gündəlik 8-10 min batman neft hasilatı orta hesabla təqribən 600 min pud deməkdir [7,228; 14,4,7].

Kempfer Bakıda zəngin ağ neft yataqlarının nəzarətsiz, başlı-başına buraxıldığına heyrətlənərək yazırdı: "Quyuları heç bir çəpər və ya divarla dövrəyə almamışdılar, üstünü qapaqla örtməmişdilər; ağzına daş düzüb torpağı bərkitmişdilər, daşlar burada quyu olduğunu bildirir, qoymurdu ki, içəriyə zirzibil düşsün. Məni iki şey heyrətə saldı: 1) zərif maye açıq quyunun dibində qalsa da azalmırdı, öz təsirini və büllur saflığını itirmirdi, halbuki ağzı kip bağlanan bardaqlarda saxlananda korlanırdı və 2) təbiətin nadir dəfinəsi qıfılsız və mühafizəsiz qalırdı" [21,275; 14,6].

Bakı ağ nefti ölkənin hüdudlarından kənara aparılırdı. Neft çıxarıldığı yerlərdən tuluqlarda qatır, eşşək ilə, at arabaları və dəvələrlə Bakıya çatdırılırdı. Bakıdan onu dəniz yolu ilə İranın Xəzər sahilindəki vilayətlərinə, Orta Asiyaya, Dağıstana və Şimali Qafqaza aparırdılar.

Qeyd etmək lazımdır ki, Bakıdakı neft quyularının bir qismi Bibiheybət türbəsi vəqfinə məxsus idi və gəlir şeyxlərin ixtiyarına keçirdi. Quyuların digər hissəsinin sahibləri olan ayrı-ayrı şəxslər dövlətə vergi ödəyirdilər [14,5]. Azərbaycan Səfəvi hökmdarı şah I Abbasın 1607-ci ilin fevral tarixli, Şah II Abbasın 1650-ci il yanvar tarixli fərmanlarından görünür ki, Bakı şəhəri yaxınlığında yerləşən Zığ kəndinin bütün əmlakı və o cümlədən üç neft quyusu Bibiheybət türbəsinə vəqf olunmuşdur [30,65-68].

XVII əsrdə daxili və xarici bazarlarda neftə böyük tələbat onun həm məişətdə, həm də hərbi işdə müxtəlif məqsədlər üçün işlədilməsi ilə bağlı idi. Kempferin yazdığına görə, neft "çıraqlarda və məşəllərdə yandırılan yağ" kimi işlədilirdi. Kənd sakinləri gün altında qatılaşıb bərkiyərək qır şəklinə düşən nefti yerin səthindən yığıb hamam qızdırmaq üçün arabalarda şəhərə və uzaq kəndlərə aparırdılar [21,282; 14,6]. Bakuvinin qeyd etdiyi kimi, hələ XIV-XV əsrlərdə hamamları qızdırmaq üçün neft qatranından istifadə edilmişdi. Asafi bir daha təsdiq edir ki, XVI əsrin sonlarında Bakıda evlərin və hamamların qızdırılmasında neftdən istifadə edilmişdi.

Kempfer yazır ki, ağ neft əşyaları pardaxlamaq, lak hazırlamaq üçün də işlədilirdi. "O, üstünə yaxıldığı qabları misilsiz şəkildə parıldadırdı; işlənməkdən qaralan əşyalar onunla (ağ neftlə) pardaxlanarkən parıltı dərhal bərpa olunurdu" [21,276; 14,6].

Orta əsr mənbələrinin Bakı və Abşeronda neftin çıxarılması haqqında verdiyi məlumatlar bir daha təsdiq edir ki, o dövrdə neftdən məişətdə, tibdə və hərbi işdə geniş istifadə etmişdilər. Dövrün mənbələrinin verdiyi məlumatlara görə, Bakı və Abşeron yarımadası özünün strateji təbii ehtiyatları – nefti ilə yüz illərdir ki, beynəlxalq əlaqələrdə öz yerini qoruyub saxlamışdır.

Neft kəşf olunduğu andan günümüzə qədər xalqımızın sosial-iqtisadi

inkişafında ən mühüm güc mənbəyi olmuşdur. Dünyanın qüdrətli və rəqibsiz xam maddəsi olan neftə sahib olmaq güc sahibi olmaq deməkdir. Dünyanın neftlə zəngin olan əraziləri neftin kəşfi ilə əlaqədar olaraq son dərəcə diqqət çəkici olmuşdur. Beynəlxalq ticarət yollarının üzərində yerləşən Bakı şəhəri Qərb və Şərq ölkələri arasında ticarətdə önəmli rol oynamışdır. Neft insanlıq üçün bəzən bir nemət, bəzən də çəkilməz bir yük olmuşdur. "Neft elə bir qüvvədir ki, bütün dünyanı özünə məhkum etmişdir. Rusiya bütün əzəmət və qüdrətini neftə bağlamışdır. Qafqaz onunla canlı yaşamaqdadır. Avropanın yanacaq həsrəti ilə yanan könlü, neft eşqi ilə yanmaqdadır. Azərbaycanın həyatı isə damarlarında cərəyan edən bu qara qanla ayaqları üstünə durmaqdadır. Nefti ondan aldığınız gün, o bütün gözəlliklərini itirər və iflic olmuş bir halə gəlir" [31,39; 24,256].

### ƏDƏBİYYAT


1. *Abdullah Battal. İbn Mühenna lüğatı. Ankara, 1997.*
2. *Акташи М.А. Дербендназме. Махачкала, 1992.*
3. *Ализаде А. Социально-экономическая и политическая история Азербайджана XIII-XIV века. Баку, 2012.*
4. *Asafi Dal Mehmed Çelebi ve Şeca`atname. Hazırlayan Doç.dr. H.Mustafa Eravçı. İstanbul, 2009.*
5. *Aşurbəyli S. Bakı şəhərinin tarixi. Bakı, 2006.*
6. *Aşurbəyli S.B. Şirvanşahlar dövləti. Bakı, Avrasiya Press, 2006.*
7. *Ашурбегли С.Б. История города Баку. Баку, 1992.*
8. *Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı, 1989.*
9. *Barbaro İosaphat. Anadoluya ve İrana Seyahat. Çeviri ve notlar:Tufan Gündüz. Yeditepe Yayınları, İstanbul, 2005.*
10. *Belazuri. Fütuhul-Buldan. (çeviren Z.K.Ugan), cilt 2. İstanbul, 1956.*
11. *Bünyadov Z.M. Azərbaycan VII-IX əsrlərdə. Bakı, 1989.*
12. *Evliya Çələbi Səyahətnaməsində Azərbaycan. Nəşrə hazırlayan Mehmet Rıhtım. Bakı, Qafqaz Universiteti Nəşriyyatı, 2012.*
13. *Əbdürrəşid əl-Bakuvi. Abidələrin xülasəsi və qüdrətli hökmdarın möcüzələri. Ərəbcədən tərcüməsi, müqəddimə və şərhləri akademik Ziya Bünyadovdur. Bakı, 1992*
14. *Əfəndiyev O.Ə. XIII-XVII əsrlərin Qərbi Avropa səyyahları Bakı nefti haqqında. //Azərbaycan neft sənayesi tarixinə dair Birinci Beynəlxalq Konfransın Materialları. Bakı, 1996, s. 1-7.*
15. *Əliyava N. Azərbaycan Yaqut Həməvinin əsərlərində. Bakı, 1999.*
16. *Gökçe M. 9-17. Yüzyıl Kaynaklarına göre Hazar denizi çevresinde neft (petrol) üretimi ve ticaret. //History studies İnternasional Jurnal of History, Prof.dr. Enver Konukçu Armağanı, 2012, s. 159-172.*
17. *Grek seyyahı Priskos (V. Asır)`a göre Avropa Hunları. Neşre hazırlayan Ali Ahmedbeyoğlu. İstanbul, 1995.*
18. *Jenkinson A. Early Voyages and Travels to Rusia and Persia. (Ed. E.Delmar Morgan), Volume II. Burt Frnklin Press, New York, 1964.*
19. *Kalankatlı M. Alban tarihi. (Tercüme Yusuf Gedikli), Selenge Yayınları, İstanbul, 2006.*
20. *Katib Çelebi. Cihannüma. (Neşre hazırlayan Said Öztürk). İstanbul Büyükşehir Belediyesi Yayınları, İstanbul, 2008.*
21. *Kaempfer E. Amoenitatum exoticarum politicopfisico-medicarum, facisuli 5, Lemgo, 1712, page 264-286. (M.A.Baybakovun latın dilindən rus dilinə tərcüməsi. AMEA Tarix İnstitutunun Elmi arxivi, inv. №5091).*
22. *Kəmərov N. Qırx il səyahətdə. Bakı, 1977.*
23. *Книга Марко Поло. Перевод старофранцузского текста И.П.Минаева. М., 1955.*
24. *Kürkçüoğlu E. V-Xv. Yüzyıllarda Bakü petrolleri ve bölgenin sosyo-ekonomik hayatına etkileri. //A.Ü.Türkiyat Araştırmaları Enstitüsü Dergisi, sayı 27. Erzurum, 2005, s. 247-256.*
25. *Mahmudov Y.M. Səyyahlar, kəşflər, Azərbaycan. Bakı, Təhsil, 2012.*
26. *Mesudi. Muruz ezZehab. (Çeviren Ahsen Batur). Selenge yayınları, İstanbul, 2004.*
27. *Minorsky V. A history of the Sharvan and Darband in the 10.th -11 th centuries. Cambridge, 1958.*
28. *Minorsky V. Abu Dulaf Mis`ar ibn Muhalhil`s Travels in İran. Cairo University Press, Cairo, 1955.*
29. *Minorski V. Hududül-Alem. (çeviren Murat Ağaları, Abdullah Duman). Kitabevi Yayınları, İstanbul, 2008.*
30. *Musəvi T.M. bakı tarixinə dair orta əsr sənədləri. Bakı, 1967.*
31. *Rəsulzadə M.E. Əsrimizin Siyavuşu. Bakı, 1992.*
32. *Rıhtım M. Azerbaycan tarihi için kaynak bir eser: Şecaatname ve XVI. asrda Bakü. // Journal of Qafqaz University, Number 20, 2007, s.*
33. *Süleymanov M. Eşittiklərim, oxuduqlarım və gördüklərim. Bakı, 1989.*
34. *Vəlidi Ə.Z. Azərbaycanın tarixi coğrafiyası. Türkcədən çevirəni, ön sözün, şərh və qeydlərin, göstəricilərin müəllifi əməkdar elm xadimi, t.ü.e.d., prof. Vaqif Piriyevdir. Bakı, Təhsil, 2009.*
35. *Vəlixanlı N. IX-XII əsr ərəb coğrafiyaşünas-səyyahları Azərbaycan haqqında. Bakı, 1974.*
36. *Йагут ал-Хамави. Муджам ал-Булдан (Сведения об Азербайджане), Хамдуллах Казвини. Нузхат ал-Кулуб (Материалы по Азербвйджану). Баку, 1983.*


***Key words:*** *Azerbaijan, Baku, Caspian Sea, oil well.*
***Ключевые слова:*** *Азербайджан, Баку, Каспийское море, нефтяные колодцы.*

### SUMMARY
### Baku oil in the medieval sources

The first oilfields in the history were discovered in the Absheron peninsula on the west coast of the Caspian Sea and in Baku. Ancient sources provide us üith information that still two thousand years ago there was burning gas and oil in the Absheron peninsula. The goal of the presented article is to provide the scientific community and large readers with detailed information about oil extraction and export to neighboring countries in the Absheron peninsula, including Baku namely in the Middle Ages referred to those sources.

The information provided by medieval sources of oil extraction in Baku and Absheron once again confirms that oil was widely used in household, medicine and military operations at that time. According to the sources of the period, Baku and the Absheron peninsula due to their strategic natural resources - oil for many centuries have been preserving their place in international relations.

### Бакинская нефть в средневековых источниках
### Резюме

Впервые в истории нефтяные залежи были обнаружены на расположенном в западном побережье Каспийского моря Апшеронском полуострове и городе Баку. Как сообщают древние источники, ещё две тысячи лет назад на Апшеронском полуострове имелись не угасающие горючие газы и масла. Основной целью статьи является, опираясь на данные источники, дать подробную информацию о добыче в средние века на Апшеронском полуострове, в том числе в Баку нефти и её вывозе в соседние страны.

Средневековые источники доказывают, что в тот период нефть использовалась в быту, медицине и военном деле. По сведению источников стратегические природные ресурсы Апшеронского полуострова и Баку х- нефть и газ на протяжении столетий сохраняли свое значение в международных связях.

# Beynəlxalq münasibətlər



SƏFİYƏ MEHBALIYEVA
Azərbaycan Respublikasının
Prezidenti yanında Dövlət
İdarəçilik Akademiyası

## ERMƏNİSTANIN AZƏRBAYCANA QARŞI TƏCAVÜZKAR SİYASƏTİ VƏ MÜNAQİŞƏNİN BEYNƏLXALQ-HÜQUQİ ASPEKTLƏRİ




**Soyqırımı cinayəti.** Bu gün soyqırımı olaraq adlandırılan cinayət ilk dəfə Nürnberq Tribunalında insanlıq əleyhinə işlənmiş cinayət olaraq mühakimə edilmişdir. Bu cinayət Keçmiş Yuqoslaviya üçün Beynəlxalq Cinayət Tribunalı (KYBCT) və Ruanda üçün Beynəlxalq Cinayət Tribunalı (RBCT) yaradılmasından əvvəl ilk dəfə həmin tribunalda mühakimə edilmişdir (11).

Soyqırım cinayətinin "Soyqırım cinayətinin qarşısının alınması və cəzalandırılmasına dair" 1948-ci il Konvensiyasında (Soyqırım Konvensiyası) tərifi təqdim edilmiş, beynəlxalq hüququn adətlərindən biri və jus cogens normalarından biri halına gəlmişdir. Yuxarıda göstərilən konvensiyanın 2-ci Maddəsində soyqırım, milli, etnik, irqi və ya dini qrupu tamamilə və ya qismən məhv etmək niyyəti ilə törədilmiş aşağıdakı hərəkətlərdən hər hansı birinin törədilməsi olaraq tərif edilmişdir:

a. Qrup üzvlərini öldürmək;

b. Qrup üzvlərinə ciddi fiziki və ya mənəvi ziyan vurmaq;

c. Qrupun tam və ya qismən fiziki məhvi məqsədilə qrupda həyat şərtlərini düşünülmüş şəkildə aşağı salmaq;

d. Qrupda olacaq doğumların qarşısını almaq üçün tədbirlər görmək;

e. Uşaqları bir qrupdan zorla digər qrupa köçürmək (12).

Bu müddəalar KYBCT Nizamnaməsi (Maddə 4(2)), RBCT Nizamnaməsi (Maddə 2(2)) və Beynəlxalq Cinayət Məhkəməsi (BCM) Nizamnaməsində (Maddə 6) təkrarlanmışdır. Eyni zamanda, ölkələrin bir çoxu bu müddəaları öz qanunvericiliklərində əks etdirmişdir (Soyqırım Konvensiyasını təsdiqləyən ölkələrdə). Soyqırım ən ağır cinayətlərdən biri hesab edilir. İttiham olunan öz fərdi cinayət məsuliyyətləri əsasında təqsirləndirilməlidir. Lakin soyqırım cinayətinin qurbanları fərdlər deyil, qruplardır.

Bundan əlavə, soyqırımın günahkar əməli (actus reus) isə qrupun faktiki olaraq məhv edilməsini nəzərdə tutmur. Soyqırım Konvensiyasında təqdim edilmiş hərəkətlərlərdən hər hansı biri mens rea tələbi ilə tam və ya hissələr ilə törədildikdə soyqırım törədilmiş sayılır (13-14)

Mens rea hissəsində ittiham olunanı günahkar hesab etmək üçün onun milli, etnik, irqi və ya dini qrupu tamamilə və ya qismən məhv

etmək üçün xüsusi niyyəti (dolus specialis) və ya fiziki nəticə ilə günahkarın əqli vəziyyəti arasında psixoloji neksusu olmalıdır, yaxud da, milli, etnik, irqi və ya dini qrupu tamamilə və ya qismən məhv etmək üçün olan soyqırımda iştirak etdiyindən xəbərdar olmalıdır (conscience claire) (15).

Bununla yanaşı, soyqırım insanlıq əleyhinə törədilmiş cinayət olan təqibetmədən fərqləndirilməlidir. Təqibetmə cinayətini həyata keçirən öz qurbanını hər hansı bir cəmiyyətə aid olması ilə seçir, lakin həmin cəmiyyətin tamamilə məhv edilməsinə çalışmır.

**İnsanlıq əleyhinə cinayətlər.** İnsanlıq əleyhinə törədilmiş cinayətlərin soyqırımdan fərqi, insanlıq əleyhinə cinayətlərdə hər hansı bir qrupun məhv edilməsi üçün xüsusi niyyətin olmasına ehtiyac duyulmur (16). İnsanlıq əleyhinə cinayətlər ilk dəfə Nürnberq və Tokyo Tribunallarında mühakimə olunmuşdur. Daha sonra isə insanlıq əleyhinə cinayətlər konsepti Fransa, İsrail və digər ölkələrin yerli məhkəmələrində inkişaf etməyə başlamışdır. Hal-hazırda insanlıq əleyhinə cinayətlər beynəlxalq hüququn adətlərinə uyğun olaraq beynəlxalq cinayətdir və cinayəti törədənlər fərdi olaraq mühakimə olunur. Beynəlxalq hüquq adətlərinə uyğun olaraq insanlıq əleyhinə cinayətlər beynəlxalq münaqişələr (Nürnberq və Tokyo Statutları tələb olunduğu kimi) və ha hər hansı bir münaqişə ilə əlaqəli olması tələb olunmur (17).

Bundan əlavə, Roma Statutunun 7-ci Maddəsində göstərilir ki, soyqırım aşağıdakı hərəkətlərin geniş və ya sistemli şəkildə hər hansı bir siravi cəmiyyətə hücum olaraq, məlumatlı şəkildə həyata keçirilməsidir: qətl; məhv edilmə; qul edilmə; deportasiya və ya məcburi köçürülmə; beynəlxalq hüququn əsas qanunlarına əməl etməyərək fiziki azadlığın əlindən alınması və ya məhkum edilmə; işgəncə; zorlama, cinsi istismar, məcburi fahişəlik, məcburi hamiləlik, məcburi sterilizasiya və ya cinsi zorakılığın eyni ağırlıqdakı digər formaları; siyasi, irqi, milli, etnik, mədəni, dini, cins və başqa əlamətlərə görə hər hansı bir qrupun və ya icmanın beynəlxlaq hüquqla bir araya sığmayan, Maddə 7(1)-də verilənlərlə və ya BCM yurisdiksiyasında olan digər cinayətlərlə əlaqəli olan təqibi; şəxslərin məcburi yoxa çıxması; aparteid cinayəti; qəsdən ağır əzab, və ya fiziki və psixoloji sağlamlığa ağır xəsarətlə müşayət olunan digər analoji qeyri-insani əməllər (18).

Bununla yanaşı, insanlıq əleyhinə törədilmiş cinayətlərin actus reus-una təbiət və xarakter olaraq insafsızca olan, böyük əzaba və ya bədəzə, yaxud əqli olaraq və yaxud fiziki olaraq ciddi zədələnmələrə səbəb olan hərəkətlər aid edilir. Əsaslarından bir digəri isə hərəkətlərin geniş yayılmış və ya sistemli olaraq siravi vətəndaşlara qarşı törədilməsidir. Həmçinin, insanlıq əleyhinə cinayətlərin mens rea-sına gəldikdə isə, insanlıq əleyhinə törədilmiş hər bir cinayəti törədənlərin hər biri cinayəti bilərəkdən törətməli və ümumilikdə törətdiyi cinayətin böyük şəklini başa düşməlidir. Cinayəti törədən hərəkətlərinin ümumilikdə siravi vətəndaşlara qarşı yönəldilmiş geniş və sistemli hücumun bir hissəsi olduğunu bilməli, eyni zamanda siyasət və plana uyğun olaraq kütləvi cinayətin kontekstini əmələ gətirdiyindən xəbərdar olmalıdır (19).

**Müharibə cinayətləri.** Bu cinayətlər silahlı münaqişələr zamanı olan Beynəlxalq humanitar hüquq (BHH) normalarının pozulması ilə törədilir. Burada əsas qayda qarşı tərəfə olunan hücumların üç əsas prinsipə uyğun həyata keçirilməsidir: zərurət, insanlıq və mərdlik (20). Silahlı münaqişələrdə törədilən bütün cinayətlər müharibə cinayəti adlandırılmır. Müharibə cinayəti silahlı münaqişə ilə kifayət qədər əlaqəli olmalıdır və münaqişə tərəflərindən biri tərəfindən rəsmi olaraq icazə verilən və ya dözülən siyasət olmasına ehtiyac yoxdur.




*Здание суда присяжных. Нюрнберг*

Roma Statutunda isə, müharibə cinayətləri dörd əsas kateqoriyaya aid edilir. (Rome Statute, supra note 65, article 8(2).) Beynəlxalq silahlı münaqişələrdə müharibə cinayətləri beynəlxalq hüquq çərçivəsində 1949-cu il Cenevrə Konvensiyalarının kəskin pozulmalarını cəzalandıran 8(2)(a) maddəsi və beynəlxalq silahlı münaqişələrə aid olan digər hüquq və adət normalarının pozulmasını cəzalandıran 8(2)(b) maddəsi ilə idarə edilir. Beynəlxalq olmayan silahlı münaqişələrdə olan müharibə cinayətləri 1949-cu il Cenevrə Konvensiyalarının 3-cü Maddəsinin ciddi pozulmasını cəzalandıran (2)(c) maddəsi və beynəlxalq olmayan silahlı münaqişələrə dair digər hüquq və adət normalarının pozulmasını cəzalandıran 8(2) (b) Maddəsi ilə idarə edilir (21).

Ümumiyyətlə, Roma Statutunda verilən müharibə cinayətlərinin siyahısı xeyli genişdir və heç bir beynəlxalq xarakter daşıyan hüquq sənədində bu qədər geniş siyahı təqdim edilməmişdir. Lakin Roma Statutunun 8-ci Maddəsində bildirilir ki, cinayət elementləri silahlı münaqişələrə dair beynəlxalq hüquq çərçivəsində şərh edilməlidir. Bu müddəa BHH-un adətlərinin təkamüldə olduğunu göstərir.

Bundan əlavə, Roma Statutunda cinayət sayılan hərəkətlərə qəsdən adam öldürmə, işgəncə və ya qəddar rəftar, insan bədəni və sağlamlığına qəsdən zərər vermə və ya zədələmə, BHH tərəfindən mühafizə olunan insan və mülklərə qarşı törədilmiş hərəkətlər, siravi vətəndaşlara bilərəkdən hücum məqsədi ilə mülkün dağıdılması və ya mənimsənilməsi və s. Müharibə cinayətlərini törədənlər hərbçilər və ya siravi vətədaşlar ola bilər. Lakin siravi vətəndaşın müharibə cinayətlərində təqsirli bilinməsi üçün onun müharibə fəaliyyətləri və silahlı güclər ilə əlaqəsi sübut olunmalıdır. Hər bir müharibə



cinayətinə ayrılıqda baxılmalı və material dəlillər və faktlar nəzərə alınmalıdır.

Eyni zamanda, müharibə cinayətinin müəyyən olunması üçün beynəlxalq və daxili silahli münaqişələr fərqləndirilməlidir. Beynəlxalq silahlı münaqişələr iki və ya daha çox ölkə arasında baş verir. Daxili silahlı münaqişə isə bir ölkənin daxilində baş verir. Kənar bir ölkə daxili münaqişəyə silahlı qüvvələri ilə qoşulduğu zaman, yaxud da daxili münaqişənin iştirakçılarından bəziləri digər ölkə adından çıxış etdiyi zaman o münaqişə beynəlxalq münaqişəyə çevrilə bilər və ya eyni zamanda həm daxili, həm də beynəlxalq münaqişə ola bilər (22)

**Təcavüz.** Roma Statutuna əsasən BCM-nin təcavüz cinayəti üzərində yurisdiksiyası mövcuddur. Lakin Statutun 5(2)-ci maddəsinə əsasən, BCM təcavüz üzərindəki yurisdiksiyasını yalnız Roma Statutunun 121 və 123-cü maddələrinə uyğun olaraq qəbul edildiyi halda işə sala bilər (23). Hər bir halda, bu müddəa Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin müvafiq müddəalarına uyğun olmalıdır. Roma Statutuna düzəlişlər edilməsi proseduruna əsasən, Roma Statutunun qüvvəyə minməsindən 7 il sonra, hər bir üzv dövlət Roma Statutuna dəyişikliklər təklif edə bilər və bu düzəlişlər üzv dövlətlərin konsensusu nəticəsində – 2/3 əksəriyyətinin razılığı ilə – qəbul edilə bilər. Düzəlişlər bütün üzv dövlətlər üçün şamil olunur, ancaq düzəlişi qəbul etmək istəməyən üzv dövlət dərhal Statutdan çıxa bilər. Lakin 5-ci Maddənin düzəlişi ümumi qaydadan istisna təşkil edir. Bu maddəyə edilən düzəlişlər, ancaq həmin düzəlişi qəbul edən üzv dövlətlərə şamil edilir.

BCM-nin yurisdiksiyasında açıq-aydın təcavüz cinayəti dövlətlərin bənzər cinayəti cəzalandırmaq arzusudur və Nürnberq və Tokio Məhkəmələrində "sülhə qarşı cinayət" başlığı altında bu məsələyə baxılmışdır. Lakin Nürnberq məhkəməsində "təcavüz" anlayışı dəqiq müəyyənləşdirilməmişdir. Bu işdə ancaq "təcavüzkar fəaliyyət" və "təcavüzkar müharibə" fərqləndirilmişdir. Bundan başqa, BMT Nizamnaməsinə əsasən, gücdən istifadə qadağan olunsa da, təcavüz anlayışı qeyri-müəyyən qalır. Əsas qorxu bu idi ki, yeni və inkişaf etdirilmiş müasir müharibə üsullarına görə müəyyənləşdirilmiş təcavüz hərəkətlər və ya fəaliyyət siyahısı həmişə natamam edəcək və təcavüzkar tərəf belə bir siyahıdan öz xeyrinə istifadə etməyə imkan yaradacaq (24). Təcavüz anlayışı BMT-nin Ümumi Şurası tərəfindən nəhayət ki, 1974-cü il dekabr 14-də qəbul edilsə də, təcavüz cinayəti anlayışı qeyri-müəyyən qalır. Ona görə də, bu cür cinayətin ancaq elementlərindən həmin anlayış müəyyənləşdikdə danışmaq mümkün olacaq. Yenə də, bundan sonra təcavüz cinayəti elementi barəsində alimlərin fikirlərini təqdim etmək istərdim. Cinayətin ümumi actus reus anlayışı təcavüz cinayətinin planlaşdırılması, hazırlaması, başladılması və baş verməsi BCM tərəfindən izləniləcək. Ancaq konspirasiya cinayət təcavüzü komissiyası kimi qiymətləndirilmir (25).

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüququn pozulması prizmasında** təhlil edərkən qeyd etmək lazımdır ki, Ermənistanın ölkəmizə qarşı açıq-aşkar təcavüzü bütün beynəlxalq hüquq norma və prinsiplərinə ziddir. Belə ki, dünyada sülhün və təhlükəsizliyin təminatçısı olan BMT Nizamnaməsinin 1-ci maddəsinin 1-ci bəndində təşkilatın əsas vəzifəsi kimi "beynəlxalq sülhü qorumaq və bu məqsədlə təcavüz hərəkətlərinə və ya sülhün pozulmasına yönəlmiş digər pozuntulara qarşı təsirli kollektiv tədbirlər həyata keçirmək" nəzərdə tutulur. Nizamnamə nəinki təcavüzü, həm də dövlətlərarası münasibətlərdə qüvvə və ya hədə tətbiq etməni də qadağan edir (2-ci maddənin 2-ci bəndi), dövlətlər arasında baş verə biləcək hər cür mübahisələri ancaq dinc vasitələrlə həll etməyi tələb edir (2-ci maddənin 3-cü bəndi) (28, s.3, 19-20).

Təcavüz aktının baş verməsilə təcavüzə məruz qalmış dövlət BMT Nizamnaməsinin 39-cu maddəsinə uyğun olaraq BMT Təhlükəsizlik Şurası qarşısında təcavüzkar dövlətin məsuliyyəti məsələsini qoyur. Təcavüz anlayışının müddəalarının birində göstərilən faktın olması kifayət edir ki, Təh-lükəsizlik Şurası təcavüzkara qarşı Nizamnamənin VI-VII fəsillərinə uyğun olaraq məcburiyyət tədbirləri görsün (312, s.19-28). BMTBaş Məclisinin 1967-ci il 18 dekabr tarixli 2330 (XXII) saylı qətnamə layihəsində təcavüz hərəkətlərinin qarşısını almaq və BMT Nizamnaməsinə uyğun olaraq beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və təsirli tədbirlər həyata keçirmək üçün təcavüz anlayışının mahiyyəti öz əksini tapmışdır (29, s.38).

1974-cü il dekabrın 14-də BMT Baş Məclisinin XXIX sessiyasının 3314 (XXIX) saylı qətnaməsində ilk dəfə olaraq təcavüz anlayışının mahiyyəti və məzmunu açıqlandı və ona beynəlxalq hüquqi qiymət verildi.

8 maddədən ibarət olan qətnamədə təcavüzün nədən ibarət olması müəyyənləşdirildi.

1-ci maddədə göstərilirdi ki, bir dövlət tərəfindən digər dövlətin suverenliyinə, ərazi bütövlüyünə və siyasi müstəqilliyinə qarşı silahlı qüvvə tətbiq edilməsi BMT Nizamnaməsinə ziddir və təcavüzkarlıq hesab olunur.

2-ci maddədə deyilir ki, dövlətin BMT Nizamnaməsini pozaraq birinci olaraq silahlı qüvvə tətbiq etməsi təcavüz aktına sübutdur.

3-cü maddədə: a) bir dövlətin silahlı qüvvələrinin digər dövlətin ərazisinə müdaxilə və ya hücum etməsi, yaxud müvəqqəti xarakter daşımasından asılı olmayaraq hər hansı bir hərbi işğal və ya müdaxilə nəticəsində ərazinin ilhaqı; b) bir dövlətin silahlı qüvvələri tərəfindən digər dövlətin ərazisinin bombardman edilməsi..; v) bir dövlət tərəfindən və ya onun adından, silahlı qüvvələrin, qeyri-nizami dəstələrin və ya muzdluların göndərilməsi və s. təcavüz aktı kimi qiymətləndirilir.

Qətnamənin 5-ci maddəsində göstərilir ki, heç bir siyasi, iqtisadi, hərbi və ya başqa mülahizələr təcavüzə haqq qazandıra bilməz; təcavüz beynəlxalq sülhə, əmin-amanlığaqarşı cinayətdir və bu cinayəti törədənlər beynəlxalq məsuliyyət daşımalıdırlar; təcavüz nəticəsində ərazi əldə edilməsi və yaxud hər hansı mənfəət qazanılması qeyri-qanunidir (29, s.38).

Ermənistan Respublikası tərəfindən qətnamədəki hər hansı bir bəndin, ümumiyyətlə əksər maddələrin pozulması belə bir

nəticəyə gəlməyə imkan verir ki, bu, əsl təcavüz hərəkətləridir. Ermənistanın bu təcavüzkarlığı BMT Nizamnaməsində nəzərdə tutulan öz müqəddaratını təyin etmək hüququnun həyata keçirilməsi deyil, Nizamnamənin 2-ci maddəsinin 4-cü bəndinin kobud şəkildə pozulması – başqa dövlətin ərazi bütövlüyünə və siyasi müstəqilliyinə qarşı zor işlədilməsi deməkdir. Bunu belə bir fakt da təsdiq edir ki, Ermənistan parlamenti, bütün beynəlxalq hüquq normalarını kobudcasına pozaraq, hələ 1989-cu il dekabrın 1-də Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin Ermənistana birləşdirilməsi, yəni qonşu dövlətin ərazisinin bir hissəsinin ilhaq olunması haqqında qeyri-qanuni qərar qəbul etmiş və bu qərarın indi də qüvvədə qalması Ermənistanın ölkəmizə qarşı dövlət səviyyəsində ərazi iddiasında olmasına sübutdur.

Ümumiyyətlə, Ermənistan Respublikası bütün beynəlxalq hüquqi sənədləri, xüsusilə BMT Nizamnaməsinin I və II maddələrində, 1970-ci il 24 oktyabr tarixli beynəlxalq hüququn prinsipləri haqqında bəyannamədə, eləcə də 1975-ci il 1 avqust tarixli ATƏM/ATƏT-in Helsinki Yekun Aktındaifadə olunmuş beynəlxalq hüququn əsas prinsiplərini kobudcasına pozmuşdur. Bununla yanaşı, Ermənistan başqa dövlətlərin ərazisində yaşayan erməni icmalarının hüquqlarını müstəqil xalqların əsas kütləsinin hüquqları ilə qəsdən qarışdırır və müstəqil dövlətlərin ərazi bütövlüyünə münasibətdə erməni etnik qruplarının hüquqlarına əsassız üstünlük verir. Beynəlxalq hüquq normalarının bu cür ermənisayaq təfsiri dövlətlərin ərazi bütövlüyü və sərhədlərin pozulmasının qeyri-mümkünlüyü haqqında 1990-cı il noyabrın 21-də qəbul edilmiş yeni Avropa üçün Paris Xartiyasına da tamamilə ziddir və qəbuledilməzdir (9).

Dağlıq Qarabağ bölgəsinin erməniləri isə digər ölkələrdə yaşayan ermənilər kimi Azərbaycan Respublikasında yaşayan milli azlıqlardan biridirlər. Beynəlxalq hüquq normalarına görə milli azlıqlar öz müqəddəratlarını təyin edə bilərlər (internal self-determination). Lakin bu, müstəqillik formasında ola bilməz. Çünki müstəqil dövlətin ərazisində yaşayan milli azlıqların belə hüquqları yoxdur. Eyni zamanda, xalqların öz müqəddəratını təyinetmə məsələsi beynəlxalq hüququn əsas prinsiplərindən olan ərazi bütövlüyü prinsipini pozmamalı, bu prinsiplə ziddiyyət təşkil etməməlidir. Bu baxımdan, ermənilərin öz müqəddəratını təyin etmə hüququnu bəhanə etməsi beynəlxalq hüquq normalarının, xüsusilə, dövlətlərin suveren bərabərliyi, zor işlətməmək və zor işlətməklə hədələməmək, sərhədlərin toxunulmazlığı, dövlətlərin ərazi bütövlüyü, mübahisələri dinc yolla nizama salmaq və başqa dövlətlərin daxili işlərinə qarışmamaq və beynəlxalq hüquqi öhdəlikləri vicdanla yerinə yetirmək kimi ATƏT-in Helsinki prinsiplərinin kobud şəkildə pozulması deməkdir (7).

Bundan əlavə, Ermənistan münaqişənin nizama salınması üçün aparılan danışıqlarda Dağlıq Qarabağın erməni icmasının tərəf kimi iştirakının təmin olunmasını istəyir. Ancaq bu tələb də əsassızdır və beynəlxalq hüquq prinsiplərinə uyğun deyil. Çünki Dağlıq Qarabağ ermənilərinin müstəqil tərəf kimi danışıqlarda iştirakı məsələsi nəinki ATƏT-in Minsk qrupunun mandatına ziddir, eyni zamanda 2008-ci ilin sonunda Moskvada imzalanmış məlum bəyannamədə də açıq şəkildə bildirilir ki, münaqişənin nizamlanması istiqamətində aparılan danışıqlar prosesində yalnız Azərbaycan və Ermənistan tərəfləri iştirak edə bilər. Bununla yanaşı, Dağlıq Qarabağ Azərbaycanın əzəli torpağı və ayrılmaz tərkib hissəsi olmaqla yanaşı, danışıqlar Ermənistanla Azərbaycan arasında aparılır və bu beynəlxalq formatdır, əgər Dağlıq Qarabağ münaqişə tərəfi olsaydı, onda Ermənistan tərəfi adıçəkilən bəyannaməni imzalamazdı.

Azərbaycan Respublikası 1949-cu il Cenevrə Konvensiyalarına tərəfdaşdır, ancaq əlavə edilmiş protokolları təsdiqləməmişdir. Ermənistan Respublikası isə bu sənədlərin hər ikisini təsdiqləmişdir. 1949-cu il Cenevrə Konvensiyasının 2-ci Maddəsində deyilir "Konvensiya həmçinin razılığa gələn yüksək tərəflərdən birinin ərazisinin qismən və ya tamamilə işğal olunduğu bütün hallarda, hətta bu işğal heç bir silahlı müqavimətlə qarşılaşmadıqda belə, tətbiq edilir". Dağlıq Qarabağ ərazisi və onun ətrafındakı 7 rayon daxil olmaqla, Azərbaycan ərazisinin təxminən 20%-i Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. Daha sonra Ermənistanın davranışı beynəlxalq silahlı münaqişələrə aid olan 1 saylı protokolla tənzimlənir. Azərbaycan isə, protokolları qəbul etmədiyi üçün, o 1 saylı protokolun müddəaları ilə bağlı öhdəlik daşımır. Ancaq 1 saylı protokolun bir çox müddəaları beynəlxlaq humanitar hüququn adət normalarının bir hissəsinə çevrildiyindən, münaqişə tərəfdarlarına aid edilir (26).

1991-ci ildə Azərbaycan Respublikası SSRİ-dən ayrılıb müstəqilliyini elan etdikdə, Dağlıq Qarabağ Azərbaycan ərazisinin bir hissəsi kimi dünya birliyi tərəfindən təsdiq edilmişdir. Sonradan Dağlıq Qarabağ öz müstəqilliyini elan etsə də, beynəlxalq ictimaiyyət bunu tanımamışdır. XX əsarin sonunda, yəni münqişədən əvvəl ümumilikdə 145.000-ə yaxın əhali təxminən 3,388 kv. km ərazidə yaşamış və həmin dövrdə azərbaycanlılar əhalinin bölgədə 1/3-ni təşkil etmişdir.

Azərbaycan və Ermənistan Respublikaları arasındakı münaqişə Cenevrə Konvensiyalarının 2-ci Maddəsi ilə nizamlanır - "Konvensiya həmçinin razılığa gələn yüksək tərəflərdən birinin ərazisinin qismən və ya tamamilə işğal olunduğu bütün hallarda, hətta bu işğal heç bir silahlı müqavimətlə qarşılaşmadıqda belə, tətbiq edilir" (27). Münaqişəni beynəlxalq münaqişə kimi klassifikasiya edə bilmək üçün defakto olaraq, Ermənistan və Azərbaycan arasında düşmənçiliyin baş verdiyini göstərmək lazımdır.

Ümümiyyətlə, BHH-nin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə tətbiq olunması ilə bağlı qısaca olaraq qeyd etmək olar ki, Cenevrə Konvensiyası 2-ci Maddəyə əsasən, dövlətlərdən biri imtina etsə belə, iki dövlət arasında baş verən istənilən silahlı müdaxilə, bunun neçə gün davam etməyi və nə qədər insan tələf etməyindən asılı olmayaraq, silahlı münaqişə sayılır.

Ermənistanın Azərbaycana təcavüzü zamanı uşaqların və qadınların hüquqlarının kobud şəkildə pozulması məsələlərinə gəldikdə isə, Ermənistan BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyansını ratifikasiya etmiş, lakin buna baxmayaraq, uşaqlara qarşı zorakılıq əməlləri törətməkdən çəkinmir, istər müharibə, istərsə də atəşkəs zamanı öz çirkin niyyətlərini həyata keçirir. Ermənistanın Azərbaycan mülki əhalisinə və mülki obyektlərə birbaşa və qəsdən hücumları, beynəlxalq humanitar hüququn və insan haqlarının, xüsusilə 1949-cı il Cenevrə konvensiyaları və ona 1 saylı Əlavə, həmçinin Uşaqların hüquqlarının və İnsan hüquqlarının müdafiəsi və fundamental azadlıqlara dair Konvensiyanın ciddi şəkildə pozulmasıdır. Buna dünya ictimaiyyəti və BMT-nin üzv dövlətləri tərəfindən layiqli qiymət verilməlidir.

Bununla yanaşı, azərbaycanlı olub-olmamasından asılı olmayaraq, uşaqların müharibədən əziyyət çəkməsi yolverilməzdir. 1988-1994-cü illər ərzində Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanda uşaqların qətlə yetirilməsi ilə bağlı kifayət qədər faktlar vardır.1988-ci ildə azərbaycanlılar Ermənistan SSR-dəki doğma yurd yerlərindən zorla qovulan zaman 216 soydaşımız qətlə yetirilmişdir ki, onların da 57-si qadın, 23-ü uşaqdır. Ancaq şahidlər öldürülən uşaqların sayının



daha böyük olduğu haqqında faktlar da vardır. Belə ki, 1988-ci il dekabrın 5-də ermənilər Hamamlı şəhərində (Spitak) 17 azyaşlı uşağı iri diametrli boruya dolduraraq hər iki tərəfini qaynaq ediblər. Borunu hündür uçurumdan dərəyə ataraq uşaqları qətlə yetirmişlər. Həmin ilin noyabrında Quqarkda (Qarakilsə-Pəmbək mahalı) 70-ə yaxın 5-12 yaşlarındakı uşağı yenə boruya dolduraraq hər iki tərəfini bağlamışlar. Qətliamın üstü yalnız 1988-ci ilin dekabrında baş verən zəlzələ zamanı köməyə gələn fransalı xilasedicilər tərəfindən açılmışdır (32).

Qeyd etmək lazımdır ki, Xocalıda öldürülən 613 nəfərdən 63-ü uşaq idi. Bu kütləvi qırğın, vandalizm aktı zamanı 56 nəfər xüsusi qəddarlıq və amansızlıqla qətlə yetirilmiş, başları kəsilmiş, yaxud başlarının dərisi soyulmuş, gözləri çıxarılmış, hamilə qadınlar süngü ilə deşik-deşik edilmişdir. Xəsarət alanlardan 487 nəfəri şikəst olmuşdur ki, onlardan 76 nəfəri azyaşlıdır (2, s.106). Günahsız mülki əhalini özünə hədəf seçən Ermənistanın insanlıq əlehinə törətdiyi bu cinayət əməli təsadüfi xarakter daşımır, belə əməllərin törədilməsi sistemli xarakter daşıyır və cinayətkar Ermənistan həm işğal zamanı, həm də işğalın davam etdiyi 25 il ərzində mütəmadi olaraq cəbhəyanı ərazilərdə Azərbaycan vətəndaşı olan mülki əhalini, əsasən də qadınları və azyaşlı uşaqları xüsusi qəddarlıqla qətlə yetirmişdir (32).

Ermənistanın mülki əhalini, xüsusi ilə qadınların və körpə uşaqların qəddarcasına qətlə yetirməsinin qısa statistikası rəsmi İrəvanın cinayətkar hakimiyyətinin və ümumi ictimai həyatın faşizm ideologiyasına büründüyünü, terrorun dövlət siyasəti səviyyəsinə yüksəldiyini bütün qabarıqlığı ilə bir daha aşkara çıxarır. Ermənilərin qətlə yetirdiyi uşaqlar haqqında onu qeyd etmək vacibdir ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində 193 Azərbaycanlı körpə erməni vandalları tərəfindən qətlə yetirilmiş, 61 uşaq itkin düşmüş, 27-si isə hələ də əsirlikdədir. 1994-cü ildə atəşkəs rejiminin elan olunmasına baxmayaraq, son dövrdə də 32 uşaq erməni terrorunun qurbanı olmuşdur ki, onlardan 13-ü həlak olmuş, 19-u isə yaralanmışdır (30).

Əlbəttə, Ermənistan işğalla bağlı beynəlxalq təşkilatların qəbul etdiyi sənədlərin icra edilməməsini və onların kağız üzərində qalmasını görərək, beynəlxalq təşkilatlarda işğalçı ilə işğala məruz qalan arasında fərq qoyulmamasından və işğalçı siyasətinə görə ona qarşı heç bir sanksiyanın tətbiq edilməməsinən ruhlanaraq qanlı cinayətlər törətməkdə davam edir. Belə ki, 2017-ci il iyulun 4-də Ermənistan silahlı qüvvələri Azərbaycanın Füzuli rayonunun Alxanlı kəndini 80 və 102 millimetrlik minaatanlardan və dəzgahlı qumbaraatanlardan atəşə tutmuş və bu təcavüz nəticəsində 2 yaşlı Quliyeva Zəhra və anası həlak olmuşlar (384). Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin 24 oktyabr 2017-ci ilə olan məlumatına gorə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi müddətində 1440 nəfər əsir və girovluqdan azad edilmişdir ki, onların 278 nəfəri qadındır. Münaqişə nəticəsində 265 qadın itkin düşmüş, 98 qadın isə hələ girov kimi qeydiyyatdadır (31).

Heç şübhəsiz ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin indiyədək davam etməsinə və onun ağır nəticələrinə görə birbaşa məsuliyyət terrorçuluğu dövlət siyasəti səviyyəsinə qaldıran Ermənistanın üzərinə düşür. Eyni zamanda bu dövləti müxtəlif yollarla himayə edən tərəflər və bir çox hallarda kənar seyrçi mövqeyində dayanan beynəlxalq ictimaiyyət də məsuliyyət yükünü paylaşmalıdırlar. Əslində, heç kəsə sirr deyildir ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin qarşısının vaxtında alınmaması və bəzi beynəlxalq, regional güclərin ondan öz geosiyasi maraqları çərçivəsində istifadə etmək cəhdləri, sonrakı illərdə ciddi faciələrə, soyqırımı və qətliamlara, bu tip onlarla yerli və regionda münaqişənin başqa ərazilərdə alovlanmasına səbəb olmuşdur (5, s.831). Eyni zamanda, dövlət terrorizmi və soyqırımı siyasəti yeridən Ermənistan və işğal olunmuş ərazilərdəki separatçı rejim tərəfindən ümumilikdə, müxtəlif səpkili (sərnişin avtobuslarında, sərnişin və yük qatarlarında, Bakı Metropolitenində, hava nəqliyyatında, sərnişin daşıyan dəniz bərəsində, yaşayış məntəqələrində, mülki və dövlət obyektlərində) 373 terror aktı törədilmişdir ki, nəticədə 1200 nəfər həlak olmuş, 1705 nəfər yaralanmışdır (4, s.147; 8, s.158-159).

Bu səbəbdən, terror siyasətinə qarşı beynəlxalq aləmdə adekvat təzyiq rıçaqları ilə üzləşməyənErmənistan məlum davranışını yeni elementlərlə zənginləşdirmişdir. Başqa sözlə, Ermənistan işğal etdiyi Azərbaycan ərazilərində ekoloji terror siyasətini həyata keçirmiş və bu gün də həmin proses davam etdirilməkdədir. Ermənistanın Azərbaycana qarşı ekoloji terror siyasəti öz mahiyyəti və reallaşdırılması mexanizmləri baxımından olduqca müxtəlifdir. Bu siyasətin əsas elementlərindən birini də işğal ərazilərində nüvə zonalarının yaradılması taktikası təşkil edir.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş ərazilərdə 900-ə yaxın yaşayış məntəqəsi, 22 muzey və 4 rəsm qalereyası, tarixi əhəmiyyəti olan 9 saray, nadir tarixi əhəmiyyətli 40 min muzey sərvəti və eksponatı, 144 məbəd və 62 məscid dağıdılmış, talan edilmiş və yandırılmışdır. Bundan əlavə, 927 kitabxanada 4,6 milyon kitab və qiymətli tarixi əlyazmalar məhv edilmişdir (3, s.92; 6, s.27). İşğal nəticəsində 464 tarixi abidə və muzey, 100-dən çox arxeoloji abidə, 6 dövlət teatrı və konsert studiyası dağıdılmışdır. Nadir tarixi əhəmiyyətli 40 min muzey sərvəti – çox qiymətli əşyalar, nadir eksponatlar talan olunmuş və oğurlanmışdır.

Silahlı münaqişələr zamanı mədəni mülkiyyət və mədəni irsə qarşı qanunazidd əməllər beynəlxalq cinayət hüququ ilə hərbi cinayət hesab olunur. Ona görə də Ermənistanın bu mədəni vandalizm əməllərinə görə birbaşa beynəlxalq hüquqi məsuliyyət daşıyır. Ermənistan Azərbaycan Respublikasının qanunları ilə barəbər,beynəlxalq humanitar hüququ, YUNESKO-nun "Silahlı münaqişələr zamanı mədəni mülkiyyətin mühafizəsi" haqqında 1954-cü il Konvensiyası (Convention for the Protection of Cultural Property in the Event of Armed Conflict with Regulations for the Execution of the Convention 1954) və "Mədəni mülkiyyətin qanunsuz idxalı, ixracı və onun üzərində sahiblik hüququnun ötürülməsinin qadağan edilməsi vasitələri" haqqında1970-ci il Konvesiyanın (Convention on the Means of Prohibiting and Preventing the Illicit Import, Export and Transfer of Ownership of Cultural Property 1970) müddəalarını da kobud şəkildə pozmuşlar (33).

Ermənistanın Azərbaycanın işğal olunmuş ərazilərində

Azərbaycan xalqının tarixi irsinə aid olan İslam və xristian məbədlərini, digər maddi-mədəniyyət abidələrini özününküləşdirməsi, memarlıq üslubunun və digər xüsusiyyətlərini dəyişdirməsi beynəlxalq humanitar hüquq, xüsusilə Cenevrə konvensiyalarının kobud şəkildə pozulmasıdır. Ermənistanın belə cinayətkar əməlləri beynəlxalq humanitar hüquqa zidd olsa da, təəssüf ki, beynəlxalq birlik belə çirkin "siyasət"in qarşısının alınmasında qəti mövqe göstərmir, bu vandalizmə ikili standartlarla yanaşır.

## ƏDƏBİYYAT


1. *Azərbaycan Respublikasının Konstitusiyası // http://www.president.az/azerbaijan/constitution*

2. *Dağlıq Qarabağ: hadisələrin xronikası (1988-1994). Bakı, 2012, 108 s.*

3. *Əhmədov E.İ. Ermənistanın Azərbaycana təcavüzü: Etnik təmizləmə, soyqırım, terror, işğal. II kitab. Bakı, "Letterpress"nəsriyyat evi, 2013, 408 s.*

4. *Əhmədov E.İ. Ermənistanın Azərbaycana təcavüzü: təhlili xronika (1987-2011). Bakı, "Letterpress"nəsriyyat evi, 2012, 912 s.*

5. *Həsənov Ə.M. Azərbaycanın geosiyasəti. Bakı, "Zərdabi LTD", 2015, 1048 s.*

6. *Həsənov Ə.M. Azərbaycanlılara qarşı etnik təmizləmə və soyqırımı siyasətinin mərhələləri. (Azərbaycan, türk, rus, ingilis, fransız, alman, ərəb və Çin dillərində). Bakı, "Zərdabi LTD", 2017, 400 s.*

7. *Заключительный акт Совещания по безопасности и сотрудничеству в Европе (1975). //http://www.osce.org/ru/mc/39505?download=true*

8. *Преступления армянских террористических и бандитских формирований против человечества (XIX-XXI). Баку: 2002, 294 с.*

9. *Парижская хартия для новой Европы. Париж, 19-21 ноября 1990 года.*

10. *Azerbaijan: Seven years of conflict in Nagorno-Karabakh. In: Human Rights Watch /Helsinki. New York, 1994, 114 p.*

11. *Jelisic case (Prosecutor v. Goran Jelisic), 14 December 1999, Case No. IT-95-10, para.60.*

12. *Convention on the Prevention and Punishment of Crime of Genocide of 1948. - www.preventgenocide.org/law/convention/text.htm,visited 29 June 2007.*

13. *Akayesu case (Prosecutor v. Jean-Paul Akayesu), 2 September 1998, Case No. ICTR-96- 4-T, para. 497.*

14. *Kambanda case (Prosecutor v. Jean Kambanda), 4 September 1998, Case No. ICTR-97-23-S, para. 40.*

15. *Jelisic, supra note 71, para. 66, Oral Judgment of 19 October 1999.*

16. *Akayesu, supra note 73, paras. 565-568.*

17. *Tadic, supra note 63, para.141.*

18. *Akayesu, supra note 73, para.578.*

19. *Tadic, supra note 63, Judgement, paras. 626, 638, 656, 657.*

20. *Green L.C. The Contemporary Law of an Armed Conflict. Manchester University Press, 1993, chaps. 2, 18.*

21. *Meron T.War Crimes Law Comes of Age: Essays.Clarendon Press, 1998, chap. XIV.*

22. *Kayishema and Ruzindana case (Prosecutor v. Kayishema and Obed Ruzindana), 21 May 1999, Case No. ICTR-95-1-T, para. 176.*

23. *Rome Statute, supra note 65, article 5(1) (d).*

24. *Hebel H. Von and Robinson D. Crimes within the Jurisdiction of the Court", The International Criminal Court: The Making of the Rome Statute – Issues, Negotiations, Results, Kluwer, 1999, pp. 80-85.*

25. *Kittichaisaree, supra note 47, pp. 220-221.*

26. *Gasser H.P.Internationalized Non-International Armed Conflicts: Case Studies of Afghanistan, Kampuchea, and Lebanon. American University Law Review 33.*

27. *Commentary on the Additional Protocols of 1977. ICRC, Geneva, 1987, p.1345.*

28. *Charter of the United Nations and Statute of the International Court of Justice. United Nations. New York, 1999, 87 p.*

29. *The Work of the International Law Commission. United Nations. New York, 1996, 38 p.*

30. *https://video.azertag.az/video/53529*

31. *http://xezerxeber.az/son_x%C9%99b%C9%99r/183819.html*

32. *https://apa.az/dagliq_qarabag/dovlet-komitesi-32-azerbaycanli-usaq-ermeni-terrorunun-qurbani-olub-2889.html*

33. *https://apa.az/xarici_siyaset/xin-susa-mescidi-etrafinda-ermenistan-terefinden-qazinti-islerinin-aparilmasi-vandalizm-siyasetinin-terkib-hissesidir.html*



**Açar sözlər:** *Ermənistanın Azərbaycana təcavüzü, beynəlxaq hüquq, ərazi iddiaları, etnik təmizləmə, terror, soyqırımı, işğal.*

**Key words:** *Aggression of Armenia against Azerbaijan, international law, territorial claims, ethnic cleansing, terror, genocide, occupation.*

**Ключевые слова:** *Агрессия Армении против Азербайджана, международное право, территориальные претензии, этнические чистки, террор, геноцид, оккупация.*



## SUMMARY

**The aggressive policy of Armenia against Azerbaijan and International legal aspects of the conflict**

At the beginning of 1988 the Republic of Armenia laid unfounded territorial claims against Azerbaijan in order to occupy Nagorno-Karabakh (Nagorno-Karabakh - it is Russian translation of "Daghlig Garabagh" that means a mountainous part of Garabagh, that is, "Upper Garabagh"), which is an indivisible part of the Republic of Azerbaijan. The political-legal aspects of aggression policy of Armenia against Azerbaijan, ethnic cleansing and occupation at the end of the XX century are examined in the article. The article says that having managed to build a mono ethnic state under the USSR, i.e. in 1988-1991, the Republic of Armenia pursued an overt policy of aggression against Azerbaijan, which saw massacres of civilians, destruction, plunder and burning down of settlements. In addition, the occupation policy of Armenia against Azerbaijan in the context of the violation of international law is widely studied in the article.



## РЕЗЮМЕ

**Захватническая политика Армении против Азербайджана и международно-правовые аспекты конфликта**

В начале 1988 года Армянская Республика выдвинула необоснованные претензии против Азербайджана с целью захвата Нагорного Карабаха (Нагорный Карабах в переводе с русского на азербайджанский язык подразумевает горную часть Карабаха, что означает Верхний Карабах), который является неотъемлемой частью Азербайджана. В статье исследуются политико-правовые аспекты захватнической политики, этнической чистки и агрессии Армении в отношении Азербайджана, совершенной в конце XX века. В статье указывается, что Армянская Республика, которой удалось создать моноэтническое государство, в период существования СССР в 1988-1991 гг. открыто осуществило захватническую политику против Азербайджана, в результате чего были убиты мирные жители, разрушены и сожжены населенные пункты. Наряду с этим, захватническая политика Армении в отношении Азербайджана анализируется в контексте нарушения норм международного права.

# SOSİAL SAHƏLƏRƏ AYRILAN XƏRCLƏRİN EFFEKTİVLİYİNİN ÖLÇÜLMƏSİNƏ YENİ YANAŞMALAR (Təhsil sahəsi timsalında)

ANAR EMİNOV
İqtisadiyyat üzrə fəlsəfə doktoru

AYNUR LƏTİFLİ
Azərbaycan Turizm və Menecment Universiteti

**Araşdırmanın əsas istiqamətləri**

Sosial təhsil iqtisadi siyasətin əsas parametrlərinin öyrənilməsi və bu istiqamətdə Azərbaycanın ümimi keçdiyi iqtisadi yol, tətbiq etdiyi maliyyə siyasətləri, yeni təhsil strategiyasının qarşıya qoyduğu həllini gözləyən problemlərin təhlili tədqiqatın əsas hədəflərindən hesab edilir.

Ümumiyyətlə təhsildə investisaya faktorunun təhlili təhsil xərclərinin öyrənilməsindən başlamalı və geniş tətqiq edilməlidir. Burada ən çox aşağıdakılar diqqət edilməlidir:

- Dövlət maliyyələşməsi;
- Özəl maliyyələşmə;
- Beynəlxalq maliyyələşmə;
- Qarışıq formalı maliyyələşmə.

Təhsil-İnsanın davranışlarında öz təcrübəsi ilə instənilən dəyişikliyi meydana gətirmə prosesi şəklində xarakterizə olunur. Yetkinlik yaşına çatmayan nəsillər tərəfindən sosial həyat üçün hazır olmayan nəsillərə tətbiq edilən təhsil, mədəniyyətin köçürülməsi və sosial həyatın bir prosesidir. Təhsilə bir proses kimi baxanlara görə,təhsil azadlığı genişləndirən bir proses olmaqdan çox, fərdi öz xaricindən xəbərdar edən, minimum ortaqlıqları başa salan, bunlar üzərində ortaq fikir təmin edən bir fəaliyyət olmaqdadır. Təhsil, təhsildən faydalananların sosial təbəqələşmə piramidasından yuxarı doğru hərəkət etmələri ilə əldə edəcəkləri sosial status sayəsində, peşə sahibi olmasına da zəmin yaradır. Təhsil-məlumat, davranış və qabiliyyətlərin  inkişaf etdirilməsi və sürətləndirilməsi üçün tətbiq olunan daimi fəaliyyətlər silsiləsi kimi xarakterizə olunur.

Təhsilin tərifini verərkən, fərqli düşüncə tərzləri olsa da, təhsil faktoruna fərqli aspektlərdən yanaşılır. Bunun nəticəsidir ki, təhsil mövzusuna müxtəlif təriflər verilir. Misal olaraq, Aristotelə görə təhsil, insanın əxlaqi davranışlar qazanma vəsaiti, Çiceroiyə görə, insan zehninin intizam edilməsi, Descartesə görə ağlın düzgün istifadəsini öyrənmə prosesi, Roussanye görə, anadangəlmə insanlarda olmayan və yetkinlər tərəfindən qazandırılan hər şey kimi xarakterizə olunur. Bu konteksdə təhsil anlayışı əslində insan həyatının hər bir sahəsinə öz tövhəsini verir. Təhsil insana sadəcə sosial sahədə deyil, iqtisadi siyasi və mədəniyyət olmaq üzrə bir çox sahələrdə asanlıq təmin edir.

Təhsil amilinin təsiri ilə ölkələrin qlobal rəqabətdə önə çıxmasını təmin edən bəşəri kapital anlayışı yaranır. Bəşəri kapitalı yüksək olan insanlar yetişdirən ölkələr həm iqtisadi, həm də sosial baxımdan yüksək inkişaf etməkdədirlər.

Məhsuldarlığın artması eyni zamanda bir cəmiyyətdə inkişafa da töhfə verir. Təhsilin önəmi isə, ölkələrin inkişaf səviyyələrində yaratdığı fərqliliklərin görülməsilə ortaya çıxır. Məlumatlı və keyfiyyətli işçi





qüvvəsinin birləşməsi milli iqtisadiyyatlarda böyük fərqlər yaratmışdır və bunun nəticəsi olaraq hər bir ölkə ilk növbədə təhsil və başəri kapital tarazlığını mühakimə etməyə başlamışdır.

Təhsil cəmiyyətin sağlam bir quruluşa sahib olmasında ən təsirli funksiyadan biri olaraq qarşımıza çıxır. Təhsilin ən əsas vəzifəsi fərdlərə cəmiyyətdə istənilən keyfiyyətləri verməkdir. Bundan əlavə təhsil bir ölkənin daha irəli nöqtələrə çata bilməsi üçün yetişdirdiyi bəşəri kapitalı yüksək insan gücü ilə istehsalada olduqca böyük tövhələr verir.

Bir ölkənin təhsil siyasəti ümumi olaraq müxtəlif ehtiyacların meyllərin və gözləntilərin bir nəticəsi olaraq ortaya çıxır. Keçmişdən etibarən baxıldığı zaman hər bir ölkənin özünə məxsus bir təhsil siyasətinin olduğu görülür. Çünki cəmiyyətin quruluşu fəaliyyəti və qaydaları bu siyasi quruluşu yaradır. Ancaq indiki vaxtda ölkələrin təhsil siyasəti ümumi olaraq bir-birlərinə təsir etməyə başlamışdır. Bunun səbəbi kimi isə inkişaf edən kommunikasiya şəbəkələri siyasi maneələrin azalması yeni fikir və inkişafın sərbəst şəkildə yayılması göstərilir. Qloballaşan dünyada ölkələrin bir-birlərinə təsir etməmələri mümkün deyil. Ümumiyyətlə, ölkələr arasında olan təhsil siyasətindəki fərqliliklər qısa müddətli planlaşdırmada görülür.

Təhsil planlaması, ümumi təhsil fəalliyyətinin şüurlu bir sistem şəkilində araşdırılması, təhsil prosesinin xüsusiyyət və kəmiyyətinin təyin olunması və ictimai, iqtisadi və siyasi məqsədlər istiqamətində gələcəkdəki inkişaf proseslərinin qısa və orta müddətli təxmini olaraq açıqlanır.

Mal və xidmətlərin faydalarından ehtiyacların vasitəsiz təmini üçün yaranlanmaya istehlak adı verilməkdədir.Yatırım isə satın alma anında deyil irəliləyən zamanlarda əldə edilən davamlılıq göstərən fayda ilə tanımlanmaqdadır.Yəni bir xərcləmə gələcəkdə fərdlərə fayda təmin edəcəksə bu investisiya olaraq xarakterizə olunur. Misal olaraq bir fabrikə satın alınan bir istehsal maşını investisiya maliyyə olaraq xarakterizə edilərkən bir oteldə bir həftə tətil edilməsi istehlak olaraq dəyərləndirilir. Çünki fabrikə alınan bir maşın davamlı olaraq istehsala daxil edildiyi üçün fabrikin də qazancına davamlı olaraq töhfə verir. Yəni investisiya sərmayə kapital ehtiyatına edilən dəqiq əlavələrdir. Təhsil də bəşəri sərmayəyə əlavə olduğu üçün investisiya olaraq qəbul edilə bilər.

Təhsili bu vəziyyət üçün qiymətləndirdikdə qarşımıza hər ikisi üçündə etibarlı olduğu çıxır. Yəni təhil həm bir istehlak həm də bir investisiya olaraq qiymətləndirilə bilər. Bu iki vəziyyətdə bəzi göstəriciləri var. Belə ki bəzi təqiqatçılar təhsilin istehlak tərəfinin olduğunu, bəziləri isə investisiya tərəfinin olduğunu bildirir.

Təhsil anında faydalar təmin etdiyi üçün istehlak xüsusiyyəti göstərir. Təhsilin istehlak faydası, xüsusilə təhsil zamanı mövzu olmaqdadır. Şəxs təhsil aldığı zaman fayda verir. Əgər təhsil normal bir istehlak malı olaraq görülərsə, o zaman digər bütün mallarda olduğu kimi fərdlər üçün təkcə ali təhsil almış olmasından qaynaqlanan fayda qarşımıza çıxır. Bu fayda daha təhsilli olan insanların yüksək gəlirləri olduğu qədər daha çox istehlak etmə meylində olması şəkildə əks olunur.

Təhsil gələcəkdə effektivlik və qazanc qabiliyyətini artırma daha çox gəlir daha çox mal və xidmətlərdən bəhrələnmə şəklində faydalar təmin etdiyi üçün investisiya özəlliyi göstərir. Təhsilin yarandığı dövrdən tamamlanana qədər sərf edilən bütün xərclər uzun müddətli dövrdə şəxsi qazanc və milli gəlir üzərindəki təsiri səbəbi ilə əlaqədar olaraq bir investisiya faktoru kimi xarakterizə olunur. Buna görə də təhsilə qoyulan investisiyalar artıqca həm milli gəlirdə həm də insanların gəlirində artım olur. Təhsil investisiyası işçi qüvvəsinin keyfiyyətini yüksəldərək ictimai məhsula olan tövhəsini artırır xüsusilə də ümumi təhsil alanlara yeni işlərə uyğunlaşmaqda daha çevik olmasını təmin edən faydalar yaradır.

Hər bir mal və xidmətin xərci olduğu kimi təhsil xidmətinin də xərci olur. Təhsil müəyyən bir xərc tələb edə bilər amma ancaq insan üçün adətən qısa müddətli dövrdə cəmiyyət üçün isə adətən uzun müddətli dövrdə söz mövzusu olur. Dəyər olaraq bəs edilən bu konsepsiya insan üçün söz mövzusu ola biləcəyi kimi cəmiyyət və ölkə üçündə söz mövzusu olur. Təhsilə olan tələbət güc keçdikcə.dünya ölkələri inkişaf etdikcə artmaqdadır.Bu vəziyyət isə bir göstərici olaraq təhsilə olan dəyəri göstərir. Təhsil xidmətinə aid xərclərin müəyyən olunmasındakı digər bir məqam da əhali və resurs problemləri olaraq qarşımıza çıxır. Az inkişaf etmiş və ya inkişaf etməkdə olan ölkələr yüksək nisbətdə gənc əhaliyə malik olmalarına baxmayaraq inkişak etmiş ölkələrə nisbətən yüksək məbləği olmayan bir UDM və dövlət büdcəsinə malik olurlar. Bu zidd vəziyyət dövlət büdcəsinə malik olurlar. Bu zidd vəziyyət dövlət qarşısında. təhsil və təhsil xərcləri mövzusunda ən uyğun nöqtənin olub-olmadığı mübahisə mövzusu olmaqdadır.

Təhsilin xərci anlayışı müxtəlif şəkillərdə açıqlanmağa çalışılmışdı. Bunlar ikiyə ayrılmaqla təhsilin dolayı və birbaşa xərcləri kimi ifadə edilir.

Təhsilin dolayı xərci bir fəaliyyətə nə qədər xərc sərf edildiyini birbaşa müəyyənləşdirməyən, bir çox fəaliyyətdə birgə istifadə edilən resursların xərci kimi tanınır. Dolayı xərclər içərisində fürsət xərci böyük əhəmiyyət daşıyır. Fürsət xərci bir məhsulu istehsal etmək üçün digər məhsuldan imtina edilən xərc kimi xarakterizə olunur.

Birbaşa təhsil xərci yəni maddi xərci dövlətin və insanların təhsil xidmətinə birbaşa çəkdiyi xərclər kimi xarakteriz olunur. Belə xərclərin hesablanması dolayı xərclərin hesablanmasından asandır. Çünki bu mövzuda rəsmi statistikaya çatmaq mümkündür. Təhsil xidmətinin dövlət iqtisadiyyatında yerinə yetirilməsi halında, ictimai iqtisadiyyatının dəyəri açıq-aydın bir reallıq kimi qarşılanır. Təhsilə ən böyük qatqı dövlət iqtisadiyyatı tərəfindən təmin edilir. Dövlət büdcəsinin təhsil xidmətinə cəlb edilən bütün bu xərcləri birbaşa sosial xərcləri təşkil edir.

Təhsilin birbaşa dəyəri ilə əlaqəli iki xərc anlayışı var. Bunlar ümumi xərc və orta xərc olaraq qarşımıza çıxır. Ümumi xərc təhsilin təmin edilməsi və davamı üçün vəsaitlərin ümumi dəyərini; ortalama xərc isə adam başına başına düşən xərci ifadə etməkdədir. Ümumi xərc anlayışının içində təhsil üçün edilən cari xərclər ilə təhsil prosesində istifadə edilən kapital üçün edilən xərclər yer alır.

Təhsil həm ictimai, həm də iqtisadi ölçüsünün olması səbəbiylə bu cür fəaliyyətlər əksəriyyətlə ictimaiyyət tərəfindən çıxarılmaqda və ya nəzarət edilməkdədir. Məlumatın təməl güc,öyrədilmiş insanın bəşəri sərmayə olaraq qəbul edildiyi indiki vaxtda təhsilin əhəmiyyəti daha da artmaqdadır. Məlumat istehsalının əsas prinsip sayıldığı indiki vaxtda

xüsusilə təhsil sahəsinə investisiya edilməsi lazımdır. Az inkişaf etmiş və ya inkişaf etməkdə olan ölkələrdə təhsil üçün qaynaqlar ictimaiyyət tərəfindən təmin edilməlidir.

Təhsil xərcləri əsl etibarilə yarı ictimai məhsul olaraq xarakterizə edilməkdədir. Yarı ictimai məhsullar dövlətin təməl xidmət sahəsini təşkil edir. Misal olaraq sağlamlıqda  xüsusi xəstəxanalar kimi və ya təhsildə xüsusi məktəblər nümunəsində olduğu kimi dövlətin gücünün çatmadığı halda tək bir mərkəzdən xidmət verilməsi yerinə yarı-rəqabətə açıq bir sektorda bu xidmətləri cəmiyyətin almasına imkan tanıdan məhsul olaraq qarşımıza çıxmaqdadır.

Cəmiyyətin həyata keçirmiş olduğu təhsil xərcləri cari xərclər investisiya xərcləri və transfer xərcləri olaraq üç qrupa ayrılır.

Cari xərclər: Dövlət nizamını, fəaliyyətini təmin etmək üçün dövlətin mal və xidməti satın alması və istehlakı ilə əlaqədar xərclər olaraq təyin olunmaqdadır. Dövlətin personalına ödədiyi maaş, ödədiyi icarə, elektrik, su vərəqələri cari xərclər sinifinə girməkdədir.

İnvestesiya xərcləri: İnvestisiya xərcləri, iqtisadiyyatda səmərəliliyin artırılması ilə bağlı xərclər kimi qarşılanır. Bu xərclərin faydaları, ümumiyyətlə, uzunmüddətlidir və milli gəlir və iqtisadiyyatda əhəmiyyətli dərəcədə məşğulluq həcminə təsir göstərir. Məsələn, dövlətin inkişafı üçün təhsil investisiyaları böyük əhəmiyyət daşıyır. Tədris  investisiyaları uzunmüddətli gəlir gətirir. Ancaq ölkədə təhsilə verilən əhəmiyyət, gələcəkdə insan kapitalının yüksək rəqabət qabiliyyətli işçi qüvvəsinə malik olmasını nəzərdə tutur.

Transfer Xərcləri: Dövlətin hər hansı bir mal, xidmət və ya istehsal faktoru qarşılığı olmadan etmiş olduğu xərcləmə növü olaraq təyin olunmaqdadır. Bu məzmunda dövlət əslində satın alma gücünü fərdlər və ictimai qruplar arasında paylaşdırmaq məqsədi daşımaqdadır.Çağdaş dövlətin ən əhəmiyyətli vəzifələri arasında olan gəlir dağılımındakı ədalətsizliyin aradan qaldırılması və rifah səviyyəsinin artırılması məqsədi ilə təhsilə ayrılan transfer xərcləri təhsil xidmətlərindən aşağı gəlirlilərin faydalandırılması üçün edilən iqtisadi məqsədli yardımlar olaraq göstərilməkdədir.

Ölkələrin inkişafı baxımından əhəmiyyət verilən ünsürlərdən biri də hər istiqamətdə yetişmiş  olan insan gücü olmasıdır. Ölkələrin inkişaf səviyyələri adambaşına düşən milli gəlirin, eləcə də ölkələrdəki təhsilli insan gücünün nisbəti ilə izah edilir. Savadlı insan gücünün mövcudluğu ölkələrə əhəmiyyətli dərəcədə təsir göstərir. Buna görə bir ölkənin inkişafında təməl olan iqtisadiyyat və səhiyyə faktorlarının yanı başında, bunlar qədər əhəmiyyət qazanan, hətta bunların qaynağı olan təhsil, tədris fəaliyyəti də ölkələr tərəfindən  qəbul edilir. Son illərdə ölkələrin inkişaf səviyyələri açıqlanarkən sahib olunan kefiyyətli iş gücü nisbətləri də istifadə edilir. Yetişmiş və kefiyyətli  insan gücünün artmasını təmin edəcək ən əhəmiyyətli vasitə isə təhsil olaraq qarşımıza çıxmaqdadır.

Keyfiyyətli əməyi təmsil edən bir anlayış olaraq qarşımıza çıxan bəşəri sərmayə müxtəlif şəkillərdə təyin olunmaqdadır. Bu anlayış ilk dəfə iqtisadiyyat ədəbiyyatına Smith, Mill və Marşallın işləri ilə daxil olmuşdur. Daha sonra bu görüşlərin işığında indiki vaxtda istifadə edilən bəşəri sərmayə təyin etmələri çıxmışdır.

Bəşəri sərmayə (human capital), əmək tərəfindən daxil edilən məlumat və bacarıqların məbləği olaraq təyin olunmaqdadır. Digər bir ifadə ilə istehsalı reallaşdıran fərdin sahib olduğu və ümumi mənada insanın xüsusiyyətini (kefiyyətini) vurğulayan məlumat, bacarıq, təcrübə və dinamizm kimi müsbət dəyərlər bəşəri sərmayə olaraq qəbul olunmaqdadır. Bu dəyərlər həm yeni texnologiyaların inkişaf etdirilməsinə, həm də mövcud istehsal faktorlarının daha məhsuldar bir şəkildə istifadə edilməsinə imkan təmin etməkdədir.

Təhsil həm fərdi qazanca həm də ictimai qazanca təsir etməkdə və bu baxımdan iqtisadi inkişafa da böyük nisbətdə qatqı təmin etməkdədir. Yaxşı təhsil almış bir adamın işə girməsi, bir tərəfdən onun şəxsi qazancını artırarkən, digər yandan da bu cür kefiyyətli iş gücünün qiymətləndirilməsi, həm insana, həm də o ölkəyə ictimai istiqamətdə də qazanclar təmin etməkdədir. Məsələn, ölkədə savadlıların nisbətinin artması, mədəniyyət səviyyəsinin yüksəlməsi, şüurlu cəmiyyət yaradılması kimi müsbət ictimai qazanclar ortaya çıxmaqdadır.

Bu vəziyyət eyni zamanda insanın həyat standartında da müsbət bir təsir yaratmaqdadır. Təhsil səviyyəsində reallaşan yüksəlmə ilə məhsuldarlıq artımı arasında sıx bir əlaqə olması və bu məhsuldarlıq artımının da gəlirərdə də əks olunma meyli daşıması səbəbiylə, məşğulluq sahəsində bir azalma olmaması fərziyyəsi altında, təhsil səviyyəsi yüksələn çalışan seqmentin gəlirinin də yüksəlməsi gözlənilir. Daha əvvəl aşağı gəlir əldə edən bu kəsimdəki gəlir yüksəlməsi isə, cəmiyyətdəki gəlir bölgüsünə düzəldici təsir göstərir. Digər bir ifadə ilə dövlətin təhsili təbliği siyasətinin tətbiqi bir tərəfdən milli gəliri artırarkən, digər tərəfdən də gəlir bölüşdürülməsinin düzəlməsinə də öz töhfəsini verir. Məlum olduğu kimi, dərhal bütün ölkələrdə bir ictimai sinifdən digərinə keçidi təmin edən ən əhəmiyyətli faktor təhsildir, çünki təhsil, yoxsul seqmentlərin kefiyyət və bacarıqlarını artıraraq onların həm mənəvi cəhətdən təmin olmalarını həm də rəqabətli bir mühitdə kefiyyətli iş tapa bilmə imkanını təmin etməkdədir.

Ümumi olaraq təhsil və texnologiya arasında bir çox əlaqənin mövcudluğu olmaqdadır. Davamlı irəliləyən və inkişaf edən texnologiya mühitində həyatına davam etmək vəziyyətində olan insana, bu inkişaf edən mühitə uyğunlaşma göstərməsi üçün, lazımlı olan öyrənmə və bacarığın təmin edilməsi baxımından təhsil mühüm əhəmiyyət daşımaqdadır. Digər tərəfdən müəyyən bir texnologiyanın tələb etdiyi insan gücünün yəni, əməyin yetişdirilməsi baxımından da təhsil və texnologiya arasındakı əlaqəyə ehtiyac duyulmaqdadır. Sənayeləşmənin inkişafı, yeni şərtlərin davamlı ortaya çıxması və bunların təşkil edilməsi və inkişaf etdirilməsi baxımından təhsil qaynağına böyük nisbətdə ehtiyac duyulmaqdadır.

Ümumi olaraq baxıldığı zaman təhsilin bir çox amillərə əhəmiyyətli təsirləri var. Bu təsirlər ümumi olaraq müsbət və inkişaf edən bir mühit yaradır. Təhsilin istehsal üzərində də müsbət istiqamətdə təsir yaratdığı görülməkdədir.

Hər səviyyədə təhsil imkanlarının inkişaf etdirilməsi və artırılması eyni zamanda əmək faktorunun yəni işçi qüvvəsinin daha yaxşı məlumat və biliklərlə təchiz edilməsi, məhsuldarlığı artıran vəiqtisadi inkişafı təmin edən bir ünsür olaraq qarşımıza çıxmaqdadır. Bu imkanlarınartırılması yalnız fərdin yəni, işçi qüvvəsinin məhsuldarlığı artırmaz, eyni zamanda birlikdə çalışdığı kəslərin məhsuldarlığını da əhəmiyyətli dərəcədə artırır. Təhsilin istehsala müsbət təsirinin bir başqa yolu da təhsilli şəxslərin peşə baxımdan digərlərinə görə daha hərəkətli olmalarıdır. Yəni,öyrədilmiş bəşəri sərmayəsi yüksək olan insanlar ekoloji faktorları daha yaxşı müşahidə üçün, digər alternativlərə qarşı daha həssas davrana bilirlər. Bu hərəkətliliyə bağlı olaraq da, əmək faktoru daha uyğun şəkildə yayılaraq istehsala  müsbət istiqamətdə təsir etməkdədir.

Təhsil səviyyəsi yüksəldikcə doğum nisbətinin azalması həm ailə, həm də dövlətbaxımından adam başına daha çox bəşəri sərmayə yatırımı edilməsini mümkün edərək, gələcək dövrlərdə işçi qüvvəsinin keyfiyyətinin yüksəlməsinə qatqı təmin edəcək. Üstəlik enən əhali artım sürəti, əmək bazarında tələbin daha yavaş artmasına səbəb olaraq, ödənişlərin daha yuxarıda qalmasını təmin edəcək. Bənzər şəkildə daha təhsilli şəxslərin ailə planlaması mövzusunda daha məlumatlı və həssas davranmaları daha kiçik ailələrin ortaya çıxması ilə nəticələnməkdədir. Bu da ailələrin həm maddi, həm də zaman mənasında uşaqlarına daha çox maddi mənəvi vəsait ayırmalarımənasını verməkdədir. Bu vəziyyətdə yetişən uşaqların təhsilinə daha çox əhəmiyyət verilir.

Bir iqtisadiyyatda yüksək ölüm sürəti, yüksək doğum nisbəti və aşağı bəşəri sərmayə mövcud isə bu iqtisadiyyatın inkişafı aşağı olmaqdadır. Əksinə bir iqtisadiyyatda aşağı ölüm nisbəti, aşağı doğum nisbəti və yüksək bəşəri sərmayə var isə bu ölkənin inkişafı yüksək olmaqdadır. Bu məzmunda bəşəri sərmayəsi yüksək inkişaf etmiş və ya inkişaf etməkdə olan ölkələrdə körpə doğum sürəti aşağı olmaqdadır. Aşağı doğum nisbətləri isə insan sərmayəsinə edilən investisiyaların xərclərini də azaldır. Bu səbəblə ailələr uşaq başına etmiş olduğu təhsil sərmayələrini da artıra bilir.

Dünyadakı bir çox qadın bir əvvəlki nəsilə görə daha yüksək təhsil səviyyəsinə sahib olmaqdadır. Bu səbəbdədir ki,qadınların ilk doğum yaşlarında bir artım ayrıca ,digər bir doğuş müddətində də azalma meydana gəlməkdədir. Eyni zamanda qadınların təhsil səviyyəsində meydana gələn artım işgücünə iştirak səviyyələrini də artırmaqdadır. Ayrıca, bu vəziyyət onların fikirlərində dəyişiklik və onlara həyatlarının bir çox sahəsində muxtariyyət təmin etmişdir. Bu məzmunda səhiyyə mövzusunda da bir çox fərqə səbəb olmuş və qadınların doğum idarəsi haqqında qorunmağa istiqamətli texnologiyaları istifadəyə imkan təmin etmişdir.

Dünyadakı ölkələrin demokratikləşmə proseslərinə baxıldığında, demokratik quruluş ilə təhsil səviyyəsi arasında möhkəm bir bağ olduğu görülməkdədir Çünki, cəmiyyətlərin təhsil səviyyəsi artdıqca, sahib olduqları rəhbərliyin demokratikliyi də eyni nisbətdə artmaqdadır. Ayrıca, təhsil səviyyəsi artan bir cəmiyyət daha şüurlu və məntiqli qərarlar alma istiqamətində hərəkət edir. Demokratiya mənasını daşıyan bir cəmiyyətdə bu vəziyyət böyük əhəmiyyət daşımaqdadır bu səbəbdən təhsil fərdin özünə olan etibarını artıraraq, fərdi hüquq mövzusunda daha şüurlu davranmasını təmin etməkdədi. Demokratiklik insanların haqqlarını istifadə edə azadlıqlarına görə müəyyənləşdirilir. Qanunlar qarşısında bərabərlik, dini inanc azadlıqları, müstəqil ticarət otaqlarının varlığı kimi hüquqların bir cəmiyyətdə olması, o cəmiyyətin demokratiklik baxımından inkişaf etdiyinin bir göstəricisi olmaqdadır.

Fərdlərin cinayət işləmə dərəcələri ümumi olaraq iqtisadi çatışmazlıqlardan ötəri meydana gəlməkdədir. Bu vəziyyət fərdi daha içindən çıxılmaz bir hala gətirdiyindən, qarşısının alınması da olduqca çətin olur. Ancaq təhsil səviyyəsi yüksəldikcə fərdlərin gəlirlərində meydana gələn artım bu vəziyyətə də təsir etməkdədir. Gəlir səviyyəsi yüksələn bir fərd eyni zamanda həbsə girərək keçirdiyi zamanda itirəcəyi gəliri gözə almadığından, dolayıda cinayət işləmə nisbətlərində azalma meydana gəlməkdədir. Ümumi olaraq təhsil səviyyəsində meydana gələn bir artım tərs mütənasib olaraq cinayət nisbətlərinin azalmasında təsirli olmaqdadır. Cinayət törətməyin tək qaynağı iqtisadi deyil, bir çox qaynağı var. Ancaq təhsil, cinayət nisbətlərinin azalmasında böyük nisbətdə təsir edən bir faktor olaraq görülməkdədir.

## ƏDƏBİYYAT


1. ABDULLAH, Abdul Jabbar (2013), *''Education and Economic Growth in Malaysia: The Issues of Education Data'', Procedia Economics and Finance.*

2. ATAUZ, Akın (2002), *''Eğitim-Nüfus ve Kalkınma İlişkileri'', Kentsel ve Bölgesel Araştırmalar Ağı Yayını.*

3. ATİK, Hayriye (2006), *'' Beşeri Sermaye, Dış Ticaret ve Ekonomik Büyüme'', Ekin Kitabevi, Bursa*

4. ÇAKMAK, Özlem (2008), *''Eğitimin Ekonomiye ve Kalkınmaya Etkisi'', D.Ü Ziya Gökalp Eğitim Fakültesi Dergisi, S: 11.*

5. KARAMAN, Elif (2007), *'' Beşeri Sermaye ve İktisadi Kalkınma Üzerine Etkileri: Türkiye Üzerine Bir Analiz'', İnönü Üniversitesi, Sosyal Bilimler Enstitüsü, İktisat, Anabilim Dalı Yayınlanmış Yüksek Lisans Tezi.*

6. *http://www.dogrulukpayi.com/bulten/oecd-egitime-bakis-raporu-egitim-finansmani*



**Açar sözlər:** *sosial sahə, təhsil, bəşəri sərmayə, təhsil xərcləri.*

**Key words:** *social sphere, education, human capital, educational expenditures.*

**Ключевые слова:** *социальная сфера, образование, человеческий капитал, образовательные расходы.*



### SUMMARY
### NEW APPROACHES TO MEASUREMENT OF EXPENDİTURES EFFECTİVENESS OF SOCIAL SPHERES (IN THE FIELD OF EDUCATION)

Recently, education is one of the key priorities in social policy of the country. In general, we see the struggle of science, education, and the "golden brains" more rather than the demonstration of wars, military intervention, and power in the changing political system of the world.That is, the struggle for life is one of the key factors that require education today.Looking from this point, creating a modern education system in Azerbaijan is one of the important social issues facing the government.The modern educational system itself requires a wider spectrum approach to this area.The civilization of the human being and its present day has been realized through the continuous changes. This evolution has been made possible by the transition of the information and values produced by the generations from the date on which human beings exist on the earth to the present day. Whether planned or not it has given its own advice to the formation of an educational program. Therefore, the existence and development of human beings on Earth requires the formation of an educational factor.From this point of view there are many characteristics of the educational factor.The article summarizes the investment factors in education by analyzing the curriculum, general education activity in a systematic manner, identifying the nature and extent of the educational process, and short and medium-term development trends in the future for social, economic and political goals.



### РЕЗЮМЕ
### НОВЫЕ ПОДХОДЫ К ИЗМЕРЕНИЮ РАСХОДОВ ЭФФЕКТИВНОСТИ СОЦИАЛЬНЫХ СФЕР (В ОБЛАСТИ ОБРАЗОВАНИЯ)

В последнее время образование является одним из ключевых приоритетов в социальной политике страны.В целом мыбольше видим борьбу науки, образования и «золотых мозгов»,чем демонстрацию войн, военной интервенции и власти, в меняющейся политической системе мира. То есть борьба за жизнь является одним из ключевых факторов,которое требует образование сегодня. Исходя из этого, создание современной системы образования в Азербайджане является одной из важных социальных проблем, стоящих перед правительством. Современная система образования требует более широкого спектра подхода к этой области.Эта эволюция стала возможной благодаря переходу информации и ценностей, порождаемых поколениями, с даты существования людей на Земле по настоящее время. Независимо от того, планировалосьэто или нет, оно дало свои собственные рекомендации по формированию образовательной программы.Поэтому существование и развитие людей на Земле требует формирования образовательного фактора.С этой точки зрения существует множество характеристик образовательного фактора. В статье обобщаются инвестиционные факторы в образовании путем систематического анализа учебной программы, общей образовательной деятельности, определения характера и масштабов образовательного процесса, а также краткосрочных и среднесрочных тенденций развития в будущем для достижения социальных, экономических и политических целей.

# Beynəlxalq münasibətlər

## MÜASİR DÖVRDƏ TÜRKİYƏ-RUSİYA MÜNASİBƏTLƏRİ

NAFİLƏ RƏHİMOVA
Siyasi elmlər üzrə fəlsəfə doktoru



Türkiyə-Rusiya münasibətlərinin yeni çalarları bütövlükdə regionda baş verən siyasi proseslərə bilavasitə təsir edən mühüm amillərdəndir. İki dövlət arasında mövcud olan siyasi, iqtisadi əlaqələrin təhlili kifayət qədər böyük maraq kəsb edir. Ənənəvi olaraq ziddiyyətli olan münasibətlərin son dövrdə istiləşməsi müşahidə olunur.

Məlum olduğu kimi, 2015-ci ildə Rusiyanın Suriyadakı hərbi aviasiya qrupuna məxsus "Su-24" döyüş təyyarəsinin Türkiyənin hava sərhədini pozduğundan vurulması ilə bağlı insidentdən sonra münasibətlər gərginləşir. Rusiya bu hadisəyə olduqca kəskin reaksiya verərək, Türkiyəyə qarşı müxtəlif sanksiyalar qəbul edir, vizasız rejimi ləğv edir. Bu tədbirlərlə yanaşı, bütövlükdə iki dövlət arasında mövcud olan siyasi məsləhətləşmələr mexanizmi dondurulur. Eyni zamanda, Yüksək səviyyəli əməkdaşlıq Şurası və İqtisadi əməkdaşlıq üzrə hökumətlərarası komissiyanın fəaliyyəti dayandırılır.

Münasibətlərin tədricən bərpası 2016-cı il 27 iyun tarixində Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın rusiyalı həmkarı Vladimir Putinə məktub yazaraq, "Su-24" pilotunun ölümünə görə başsağlığı verib, təyyarənin vurulmasından təəssüf hissi keçirdiyini ifadə etdikdən sonra baş verir. İkitərəfli əlaqələrdə mövcud olan böhrana baxmayaraq, həm Ankara, həm də Moskva öz maraqlarından irəli gələrək, yaxınlaşmaq qərarına gəldilər. 9 avqust 2016-cı ildə Sankt –Peterburqda Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan və Rusiya prezidenti Vladimir Putin arasında münasibətlərdə baş verən böhrandan sonra ilk görüş baş verdi. Görüşdə hər iki dövlət başçısı əməkdaşlığın bütün istiqamətlərdə bərpa olunmasının vacibliyini qeyd etdilər. Həmçinin, Suriya məsələsi və "Türk axını" layihəsi müzakirə olundu. Bütövlükdə, hər iki tərəf müdriklik nümayiş etdirərək, olduqca mürəkkəb bir vəziyyətdən çıxmağa müvəffəq oldu.

Məhz, 2016-cı ilin sonundan Türkiyə və Rusiya Suriyadakı münaqişənin tənzimləməsi ilə bağlı qarşılıqlı fəaliyyət göstərməyə başlayırlar. Belə ki, Türkiyə və Rusiya uzun danışıqlardan sonra 30 dekabr 2016-cı ildə Suriya ərazisində atəşkəs haqqında razılaşmanın imzalanmasına nail oldular (3). Nəticədə üç sənəd imzalandı: birinci –Suriya hökuməti və silahlı müxalifət arasında Suriya ərazisində atəşkəs haqqında, ikinci- atəşkəs rejiminə nəzarətlə bağlı tədbirlər haqqında, üçüncü- Suriya münaqişəsinin həlli ilə bağlı danışıqlar prosesinin başlanması ilə bağlı. Suriyada hərbi əməliyyatların dəyandırılması rejiminin monitorinqini həyata keçirən Türkiyə-Rusiya komissiyası (Barışıq komissiyası) təsis olundu.

Beləliklə, danışıqlar prosesinin yeni formatı yaradıldı və bu prosesə, həmçinin, Suriya müxalifəti də cəlb edildi. Suriya müxalifətinin danışıqlarda təmsil olunmasını məhz Türkiyə təmin edir.

Türkiyə-Rusiya əməkdaşlığı nəticəsində Suriyada vəziyyətin qismən normallaşması baş verdi. Lakin, məsələnin olduqca mürəkkəb olduğunu nəzərə alsaq, atəşkəs rejiminə riayət olunmasının təmin edilməsindən tutmuş, gələcəkdə postmünaqişə mərhələsində- Suriya Ərəb Respublikasının təsir sferalarına bölünməsi prosesi də daxil olmaqla, iki ölkə arasında gərginliyin yaranması ilə bağlı böyük ehtimal var. Bir çox rusiyalı ekspertlər bu məqamları nəzərə alaraq, Türkiyədə böyük enerji layihələrinin reallaşdırılmasına və investisiyaların yatırılmasına tələsməməyə çağırırlar.

Suriya Ərəb Respublikası vaxtilə Türkiyə və Rusiya arasında ziddiyyət mənbəyi olduğu səbəbindən, hal hazırda iki dövlətin münasibətlərinin istiləşməsi həm ekspertlər, həm də əhali tərəfdən bir qədər şübhə ilə qəbul olunur. Bu həm Şərqi Aleppoda həyata keçirilən əməliyyat, həm də "Efrat qalxanı" adlı əməliyyatın reallaşdırılması prosesində əhalinin reaksiyasından müşahidə olunurdu.



Lakin, bununla yanaşı, qeyd etmək lazımdır ki, hər iki tərəf çox böyük səy göstərərək, danışıqlar prosesini yenidən fəallaşdırmağa və müəyyən dərəcədə vəziyyətin stabilləşdirilməsinə nail olmuşdur.

İndiki vəziyyətdə bu müəyyən irəliləyiş kimi qiymətləndirilə bilər. Ankara və Moskva Suriya münaqişəsi ilə bağlı "ağrılı nöqtələri" neytrallaşdıra bilməsələr də, onları donduraraq, konsensus əldə ediblər. Türkiyə və Rusiyanın Suriya kimi mürəkkəb məsələyə dair müəyyən razılıq əldə etmələri olduqca böyük nailiyyətdir. Bununla yanaşı, qeyd etmək lazımdır ki, bu kontekstdə elə bir təəssürat yaranır ki, sanki iki dövlətin liderləri bu məsələ ilə bağlı əməkdaşlıq edərkən, onların daxili auditoriyası bu əlaqələri hələ tam adekvat qəbul etməyə hazır deyildir.

Türkiyə və Rusiya arasında digər ziddiyyət doğuran məqam Krım məsələsidir. Ankara Krımın Rusiya tərəfindən anneksiyasından sonra bəyan etmişdir ki, heç bir zaman beynəlxalq hüququn normalarının pozulması nəticəsində Krımın Rusiyaya birləşdirilməsini tanımayacaq və yarımadanın türk-tatar əhalisinə dəstək göstərməyə davam edəcəkdir. Bununla yanaşı, Türkiyə hökuməti İstanbul və Krım arasında mövcud olan parom reyslərinin ləğv edilməsi ilə bağlı qərar qəbul etdi. Sevastopol, Kerç, Yalta, Feodosiya və Evpatoriyadan keçən gəmilərin Türkiyə limanlarına daxil olmaları qadağan edildi. Parom reysləri yalnız 2016-cı ilin oktyabr ayında bərpa olundu.

Bütövlükdə, Krımın Rusiya tərəfindən anneksiyasından sonra, Türkiyə tərəfindən səsləndirilən kəskin bəyanatların mövcud olmasına baxmayaraq, qeyd etmək lazımdır ki, ölkənin iqtisadi maraqları kontekstində Türkiyə hökuməti Rusiyaya qarşı əlaqələri məhdudlaşdıran heç bir qərar qəbul etməyibdir. Qərb dövlətlərinin Rusiyaya qarşı müxtəlif sanksiyalar qəbul etdiyini nəzərə alsaq, Türkiyə bu kimi tədbirlər həyata keçirməyibdir. Əksinə, bu amil Türkiyənin Rusiya ilə müxtəlif iqtisadi əlaqələrinin gücləndirilməsi ilə bağlı danışıqlar prosesinə də təsir etməmişdir.

Ümumilikdə, qeyd etmək lazımdır ki, son zamanlar iki dövlət arasında siyasi səviyyədə hər hansı bir mübahisə yarandığı zaman, iqtisadi maraqlar ön plana çəkilir və biznes strukturları hökumətə təsir edərək vəziyyətin stabilləşməsinə müvəffəq olurlar.

Beləliklə, Türkiyə və Rusiya arasında iqtisadi əlaqələrin rolu həlledici amil olaraq, bilavasitə digər sahələrdə əməkdaşlığa təsir edir.

İlk növbədə qeyd etmək lazımdır ki, Rusiya Almaniyadan sonra Türkiyənin ən böyük ticari tərəfdaşıdır. 2013-cü ildə Türkiyədən Rusiyaya malların və xidmətlərin ixracı 7 milyard dollar təşkil edirdi. Rusiyadan idxalın həcmi isə 25 milyard dollara bərabər idi. Türkiyə və Rusiya arasında ticarət dövriyyəsinin həcmi 32 milyard dollar təşkil edirdi. 2014- cü il ərzində isə Türkiyəyə idxalın həcmi 25,3 milyard, Rusiyaya ixracın həcmi isə 6 milyard dollar təşkil etmişdir. 2016–cı ildə idxalın həcmi 20,4 milyard təşkil etdiyi halda, 2016-cı ildə bu göstərici 13, 8 milyard dollara endi. Təbii, ki bu məlum hadisələrdən sonra Türkiyəyə qarşı iqtisadi məhdudiyyətlərin qəbul edilməsi ilə bağlı idi (4).

Bütövlükdə, Türkiyə biznes strukturlarının Rusiyanın ticarət və biznes mərkəzlərinin tikintisi və onların idarə edilməsi sahəsinə, qida sənayesi, mebel və təchizat, şüşə istehsalı sferasına, bank sektoruna yatırdıqları investisiyaların ümumi həcmi 10 milyard dollar təşkil edir. Bununla yanaşı, qeyd etmək lazımdır ki, Rusiya Türkiyənin tikinti şirkətləri üçün çox əhəmiyyətli ölkədir. Belə ki, 1989-cu ildən 2014-cü ilədək Türkiyənin tikinti şirkətləri Rusiyada 1923 layihə həyata keçiriblər. Bu layihələrin ümumi dəyəri 61,7 milyard dollar təşkil edir. Rusiyanın Türkiyədəki sərmayələrinin həcmi 10 milyard dollara çatır. Eyni zamanda, son zamanlar Rusiya vətəndaşları Türkiyədə daşınmaz əmlak əldə etməyə meyillidirlər. Belə ki, Türkiyədə Rusiya vətəndaşlarına aid olan daşınmaz əmlakın sayı 8000-ə çatır (4).

1992-ci ildən yaradılan ticari-iqtisadi əməkdaşlıq üzrə Türkiyə-Rusiya birgə hökumətlərarası komissiyasının fəaliyyəti sözügedən sahədə əlaqələrin tənzimlənməsi və stimullaşdırılmasına istiqamətlənir. Komissiyanın həmsədrləri hər iki dövlətin energetika nazirləridir.

Təbii ki, Türkiyə Rusiya münasibətlərinin ən önəmli komponentlərindən biri turizm sektorudur. Almaniyadan sonra Türkiyəni ən çox Rusiya turistləri ziyarət edirlər. 2014-cü ildə Rusiyadan Türkiyəyə 4,47 milyon, 2015-ci ildə isə 3,65 milyon turist səfər etdikləri halda, 2016-cı ildə bu göstərici məlum hadisələrdən sonra 0,8 milyon təşkil etmişdir (4).

İki dövlət arasında həmçinin, enerji sahəsində də əməkdaşlıq həyata keçirilir. Belə ki, Türkiyədə ilk atom elektrik stansiyanın tikintisi layihəsi məhz Rusiya tərəfindən həyata keçirilir. "Akkuyu" adlandırılan atom elektrik stansiyanın tikintisi haqqında saziş iki dövlət arasında 2010-cu ildə imzalanmışdır. Layihə hər biri 1200 Mbt gücü olan dörd enerji blokunun tikintisini nəzərdə tutur. Layihənin baş sifarişçisi və investoru "Akkuyu nuklear" aksioner cəmiyyətidir. Cəmiyyətin 95% aksiyaları "Rosatom" dövlət korporasiyası və onun bölməsi olan "Rosenerjiatom"a aiddir. Layihənin ümumi dəyəri 22 milyard dollar civarındadır. Tikinti işləri artıq 2015-ci ilin aprel ayından başlanmışdır. Atom elektrik stansiyasının ilk enerji blokunun istismara verilməsi 2020-ci ilə planlaşdırılır. Gələcəkdə atom elektrik stansiyasında müvafiq profil üzrə Rusiyada təhsil alan türkiyəli mütəxəssislərin çalışması nəzərdə tutulur.

Eyni zamanda, Türkiyə ilə Rusiya arasında münasibətlərin normallaşması iki ölkə arasında bir sıra layihələrin yenidən gündəmə gəlməsinə səbəb oldu. Bu həmçinin, Rusiya qazının Qara dənizdən və Türkiyədən keçməklə, Avropaya nəqlini nəzərdə tutan "Türk axını" layihəsinə aiddir.

Rusiya və Türkiyə 10 oktyabr 2016-cı ildə qaz sahəsində bütün mübahisəli məsələləri tənzimləyərək, razılıq əldə etdilər. Prezidentlər Vladimir Putinin və Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə sazişi Rusiya energetika naziri Aleksandr Novak və Türkiyənin energetika və təbii ehtiyatlar naziri Berat Albayrak imzalamışdırlar.

Saziş Qara dənizin dibi ilə qaz kəmərinin iki qolunun çəkilməsini nəzərdə tutur. Onların hər birinin gücü 15,75 milyard kubmetr olacaqdır. Bunlardan biri Türkiyə bazarına, digəri Avropaya tranzit üçündür.

Xatırladaq ki, "Türk axını"nın dəniz hissəsinin uzunluğu təxminən 900 km olacaqdır: Anapada başlanğıc götürən boru kəməri İstanbuldan 100 kilometr qərbdə sahilə çıxacaqdır. Borunun çəkilişi zamanı maksimum dərinlik 2200 metr nəzərdə tutulur.




Boru kəməri 2019-cu ilin sonunda istismara verildikdən sonra 2020-ci ildən başlayaraq Türkiyə Rusiya qazının idxalını tam həcmdə heç bir ölkədən tranzit olmadan ala biləcəkdir. Qeyd edək ki, hazırda Türkiyə birbaşa olaraq Rusiya qazını yalnız 2002-ci ildən istismarda olan "Mavi axın" boru xətti ilə idxal edir. Onun gücü ildə 16 milyard kub metrdir (1).

Təbii ki, "Türk axını" yalnız enerji faktoru ilə məhdudlaşmayan layihədir. Onun geosiyasi əhəmiyyəti olduqca böyükdür. İlk növbədə məlumdur ki, Rusiya Ukraynanın qərbə inteqrasiya meyillərini nəzərə alaraq, həmçinin iqtisadi və geosiyasi maraqlardan irəli gələrək, ixrac marşrutlarını şaxələndirməyə başlamışdır. Kreml ixrac xətlərini şaxələndirməklə, bir layihədən asılı olmaq istəmir, eyni zamanda, Qərbi özündən asılı saxlamağa çalışırdı. Türkiyə üçün də layihənin müsbət tərəfləri az deyildir. Belə ki, 2020-ci ilə kimi Azərbaycan, Yaxın Şərq ölkələri və Rusiyadan enerji marşrutları Türkiyədə cəmləşməlidir. Bu o deməkdir ki, faktiki olaraq cəmi bir neçə ilə Türkiyə dünyanın nəhəng enerji marşrutlarının keçdiyi tranzit ölkəyə çevriləcəkdir.

Azərbaycanın təşəbbüskar kimi çıxış etdiyi TANAP layihəsinə gəldikdə, Türkiyənin energetika naziri Taner Yıldız iki paralel xəttin bir-birinə mane və rəqib olmadığını bildirib. Türkiyə hər iki layihədə iştirak edərək, yalnız udur.

Prezident T.Ərdoğan Rusiya ilə əməkdaşlıqdan Avropaya təzyiq vasitəsi kimi istifadə edərək müəyyən mənada Moskvanı da öz təsirində saxlayır. Eyni zamanda, bununla Türkiyə də enerji mənbələrini şaxələndirmiş olur. Bütün qeyd olunan məqamların fonunda "Türk axını" layihəsi çox ciddi əhəmiyyətə malikdir.

Beləliklə, Türkiyə və Rusiya münasibətlərinin son dövrdə inkişafına nəzər yetirdikdə, aşağıdakı məqamları qeyd etmək məqsədəuyğun olardı:

1. Mövcud olan gərginlikdən sonra Türkiyə-Rusiya münasibətləri kifayət qədər stabil inkişaf edir. Hətta Türkiyədə Rusiya səfirinin öldürülməsi kimi ciddi bir insidentin üzərindən nisbətən "ağrısız" keçilməsi bunun bariz nümunəsi kimi qəbul oluna bilər.

2. Tərəflər arasında mövcud olan olduqca ziddiyyətli problemlərə baxmayaraq, hər iki dövlətin liderləri siyasi iradə nümayiş etdirərək, onların bir çoxunu tamamilə həll etməsələr də, müəyyən razılığa gəlməyə müvəffəq olmuşdurlar;

3. Türkiyə və Rusiyanın ayrı-ayrılıqda qərb dövlətləri ilə kifayət qədər mürəkkəb münasibətlərini nəzərə alsaq, onların bir-biri ilə əməkdaşlıqlarının inkişafı üçün ümumi platforma formalaşır;

4. Türkiyə və Rusiyanın siyasi elitası əməkdaşlığın inkişafında bilavasitə maraqlı olduqları halda, hər iki dövlətin daxili auditoriyası üçün münasibətlərin sürətlə istiləşməsi bir qədər gözlənilməzdir;

5. Siyasi elitanın mövqeyini dəstəkləmək məqsədi ilə Rusiyanın bəzi akademik dairələri son zamanlar çox irəli gedərək, Türkiyənin "avrasiyaçılıq" ideologiyasına yaxın olduğunu və Avrasiya inteqrasiya strukturlarına inteqrasiyasının zəruriliyini əsaslandırmağa çalışırlar;

6. Çox güman ki, hər iki dövlətin liderləri və siyasi elitası maraqlarına uyğun olaraq, tərəflər arasında mövcud olan münaqişəli məqamları neytrallaşdırmaq sahəsində səy göstərməyə davam edəcəklər.

## ƏDƏBİYYAT


*1. Rusiya "Türk axını" boru kəmərinin tikintisinə başladı.08.05.2017. Caspian Barrel. http://caspianbarrel.org/az/2017/05/rusiya-turk-axini-boru-k-m-rinin-tikintisin-basladi/*

*2. Türk Akımı Haberleri. http://www.sabah.com.tr/haberleri/turk-akimi*

*3. Türkiye - Suriye Siyasi İlişkileri. Türkiye Cumhuriyyeti Dışişleri Bakanlığı. http://www.mfa.gov.tr/turkiye-suriye-siyasi-iliskileri-.tr.mfa*

*4. Торгово-экономические отношения Турции и России, 09.01.2017. Посольство Турецкой Республики в Москве. http://moscow.emb.mfa.gov.tr/ShowInfoNotes.aspx?ID=220069*



**Açar sözlər:** *Türkiyə, Rusiya, əməkdaşlıq, "Türk axını", Suriya münaqişəsi*

**Ключевые слова:** *Турция, Россия, сотрудничество, «Турецкий поток», Сирийский конфликт*

**Key words:** *Turkey, Russia, collaboration, "Turkish stream", Syrian conflict*



## РЕЗЮМЕ

**Отношения между Турцией и Россией в современный период**

**Нафиля Рагимова**

В статье исследуется современное состояние взаимоотношений между Турцией и Россией в различных областях. В частности, рассматривается сотрудничество между Турцией и Россией по урегулированию Сирийского конфликта, отражается позиция Турции по Крымскому вопросу. Помимо этого, освещается сотрудничество между двумя государствами в экономической и энергетической сфере. В данном контексте оценивается строительство первой турецкой атомной электростанции «Аккую» и участие России в данном проекте. Также в статье находит отражение проект строительства газопровода «Турецкий поток» и оценивается его геополитическое значение.



## SUMMARY

**Relation between Turkey and Russia in contemporary period**

**Nafile Rahimova**

In the article relations between Turkey and Russian in contemporary period in different areas have been investigated. Particularly, article reflects the collaboration between Turkey and Russia on Syrian conflict, position of Turkey on Crimean problem. In addition, cooperation between two states in economic and energy fields has been studied in the article. Author investigates the collaboration between Turkey and Russian on construction of first Turkish atomic power station "Akkuyu". The article also contains information on "Turkish stream" project.

# İqtisadiyyat

## MİLLİ İQTİSADİYYAT SAHƏLƏRİNİN İNNOVASİYALAŞDIRILMASININ STRATEJİ ASPEKTLƏRİ

LALƏ MAHMUDOVA
İqtisad üzrə fəlsəfə doktoru



Müasir dövrdə milli iqtisadiyyatın davamlı inkişafının və dayanıqlı strukturunun təmin edilməsi problemləri kifayət qədər aktuallığı ilə diqqət çəkir. Qlobal təhlükələrin artdığı bir şəraitdə, dünya iqtisadi proseslərinin yeni çağırışlarının sürətləndiyi bir vaxtda milli iqtisadiyyatın strukturunun təkmilləşdirilməsi və onun ayrı-ayrı sahələrinin modernizasiya edilməsi, fəaliyyət mexanizmlərinin yenilənməsi, strateji hədəflərin müəyyənləşdirilməsi vacib məsələlər kimi xarakterizə olunurlar. Bu proseslərdə səmərəliliyin təmin edilməsi və milli iqtisadiyyatın inkişafının intensivləşdirilməsi üçün mühüm və effektiv istiqamətlərdən biri milli iqtisadiyyatın innovasiyalaşdırılmasının təmin edilməsidir. Milli iqtisadiyyatın əsas mexanizmlərinin məhsuldarlığı və onun ayrı-ayrı sahələrinin fəaliyyətinin gücləndirilməsi texnologiyaların yenilənməsini, əsas fondların təzələnməsini, daha məhsuldar və rəqabət qabiliyyətli mexanizmlərinin dövriyyəyə cəlb edilməsini, istehsal-texnoloji münasibətlərin müasir tələblər səviyyəsində təşkilini, yüksək texnologiyalara əsaslanan innovasiya texnologiyalarının və innovasiya sistemlərinin tətbiqini şərtləndirir. İqtisadi proseslərin və iqtisadi institutların fəaliyyətinin təkmilləşdirilməsi, innovatik mexanizmlərin əsasında yenilənməsi milli iqtisadiyyatın və onun ayrı-ayrı sahələrinin inkişafında yeni səhifələr açmaqla bərabər, həm də iqtisadiyyat sahəsinin kəmiyyət və keyfiyyətcə yeni inkişaf mərhələsinə daxil olmasına imkan verir[1]. Dünya ölkələrinin bir qrupunda iqtisadiyyatın innovasiyalaşdırılmasına strateji baxışlar və strateji yanaşmalar milli iqtisadiyyatın inkişafının məhsuldar modelləşdirilməsinə uzunmüddətli zəmin yaratmış və dünya bazarlarında üstünlük qazanmağa imkan vermişdir. Bundan əlavə, elmi-texniki potensialdan səmərəli istifadə hesabına milli iqtisadiyyatın müxtəlif sahələrində yüksək məhsuldarlığa malik fəaliyyət istiqamətlərinin inkişafının reallaşdırılırmasında innovasiya amilindən istifadə mühüm əhəmiyyət kəsb edir[2]. ABŞ və Qərbi Avropa ölkələrində son 20-30 il ərzində hər 10 ildən bir mühüm texnoloji avadanlıqlar və texnologiyaların özü tamamilə yenilənir və bu səbəbdən həmin ölkələrdə yüksək texnologiyaların işlənməsi, tətbiqi və yeni innovatik məhsulların alınması məsələləri strateji səviyyədə baxılır. Şübhəsiz, milli iqtisadiyyatlarını yenicə müstəqil mexanizmlər üzərində formalaşdıran ölkələrdə bu səviyyəyə çatmaq üçün müəyyən dövr, təcrübə və külli miqdarda maliyyə resursları tələb olunur. Digər tərəfdən, texnoloji baxımdan və innovatik kontekstdən çıxış etməklə qeyd edək ki, yüksək texnologiyaların əldə edilməsi, işlənməsi, tətbiqi, innovatik funksiyaların və xüsusilə nanotexnologiyaların alınması və tətbiqinə uzun illər, məqsədli proqramlar, davamlı güclü maliyyə resursları lazım gəlri və bu problemləri həll etmək heç də asan məsələ deyildir. Amma, milli iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması və dinamik inkişafının təmin edilməsi prioritetləri bu istiqamətdə konseptual yanaşmanı və strateji aspektlərin ciddi baxılmasını şərtləndirir. Tədqiqatçı İ.Nikiforov bildirir ki.

Müasir dövrdə innovasiya fəaliyyəti iqtisadi artımın, məhsulların rəqabət qabiliyyətinin yüksəldilməsinin və ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsinin əsas strateji aspektlərinin biri kimi çıxış edir. İnnovasiya proseslərinin effektivliyi onların tətbiq olunan sahədə yüksək məhsuldarlığa imkan verməsi və istehsal olunan məhsulun dünya bazarlarına çıxış imkanlarının artması ilə daha da yüksəlir[3]. Əvvəldə qeyd etdiyimiz kimi, Qərbi Avropa ölkələrində iqtisadiyyat sahələrinin innovasiyalaşdırılmasına yüksək səviyyədə strateji yanaşma təmin edilir və bunun nəticəsində həmin ölkələrin əksəriyyətinin milli iqtisadiyyatları əsasən innovasiyalaşdırılmışdır, həmin proseslər hazırda Avropa Birliyini əhatə etmişdir. Avropa Birliyi ölkələrində iqtisadiyyatın bütün sahələrinin inkişafının stimullaşdırılması məqsədilə ümumiqtisadi xarakter daşıyan mexanizmlərin tətbiqinə geniş yer verilir, sahibkarlıq fəaliyyətinin innovasiyalaşdırılması əhəmiyyətli səviyyədə stimullaşdırılır. İqtisadiyyatın rəqabətqabiliyyətinin artırlması üçün xüsusi və məqsədli innovasiyalaşdırılma tədbirləri həyata keçirilir. Son illərdə isə Avropa Birliyi üzrə ümumi innovasiya siyasəti formalaşdırılmış və milli innovasiya sistemi formatı bütövlüdə bütün Avropa Birliyi ölkələrini əhatə etmək şərtilə təkmilləşdirilmişdir. Bu Birliyin ölkələrində innovasiyalaşdırma siyasətinin əsasında iqtisadiyyatın ayrı-ayrı sahələrinin innovasiya klasterləri vasitəsilə inkişafına üstünlük verilməkdədir və Avropa Klaster Alyansı özündə 50-dən çox strateji partnyorları, məsələn innovasiya agentliklərinini, nazirliklər və yerli hakimiyyət strukturlarını birləşdirir[4]. Belə olduğu halda milli innovasiya sistemlərinin səmərəli təşkili, iqtisadiyyat sahələrinin innovasiyalaşdırılması problemlərinin həll edilməsi, bu proseslərin milli və regional aspektlərinin ciddi nəzərə alınması, xüsusi və məhsuldar innovasiya strukturlarının - innovasiya zonalarının, innovasiya klasterlərinin səmərəli təşkilinə əlverişli şərait yaranır. Bir çox dünya ölkələrində milli iqtisadiyyatın sahələrinin innovasiyalaşdırılmasının sürətləndirilməsində xüsusi iqtisadi zonalardan və elmi-texniki parklardan da fəal istifadə olunur[5]. Bu proseslər xüsusilə Cənubi-Şərqi Asiya ölkələrində daha geniş inkişaf etmişdir. Çin, Sinqapur, Cənubi Koreya kimi ölkələrdə innovatik funksiyaların tətbiqinin genişlənməsində azad iqtisadi zonalardan və texnoparklardan kifayət qədər yüksək məhsuldarlıqla istifadəyə nail olunmuşdur. Həmin ölkələrdə yüksək texnoloji əsaslı iqtisadiyyat sahələrinin yaradılmasında və milli iqtisadiyyatın innovasiyalaşdırılmasının sürətləndirilməsində innovasiya zonalarından, innovasiya yönümlü elmi-texniki və texnoloji parklardan, innovasiya klasterlərindən geniş istifadə olunmaqdadır[6].

Qeyd edək ki, milli iqtisadiyyat sahələrinin innovasiyalaşdırılmasının strateji aspektlərinin kompleks və sistemli baxılmasında milli maraqları nəzərə alan innovasiya mexanizmlərinin və innovasiya sisteminin formalaşdırılması vacib şərtlərdəndir. Dövlət bu proseslərdə nə qədər çox fəallıq göstərərsə, özəl sektorla əməkdaşlıq üçün dəstək mexanizmləri formalaşdırarsa, bir o qədər yüksək nəticələrin əldə edilməsi mümkünləşər. Xüsusilə, keçmiş SSRİ-nin süqutundan sonra formalaşmış yeni müstəqil dövlətlərdə milli iqtisadiyyatın strukturunun modelləşdirilməsi və təkmilləşdirilməsində innovasiya amilinə daha ciddi önəm verilməlidir. İlk növbədə bu dövlətlərdə, o cümlədən Azərbaycanda innovasiya fəaliyyətinin güclü qanunvericilik bazası və maddi-texniki təminatı - infrastrukturunun yaradılması təmin olunmalıdır[7]. Məsələn, Rusiyada elmi-texniki inkişafın heç də zəif olmadığı məlumdur, amma Rusiya hələlik bu sahədə, xüsusilə milli iqtisadiyyatın innovasiyalaşdırılmasında Qərbi Avropa ölkələri ilə rəqabət aparmaq səviyyəsinə tam çata bilməmişdir. Bununla belə, Rusiyada son on ildə innovasiya təyinatlı və yönümlü iqtisadiyyat sahələrinin inkişaf etdirilməsi üçün "dövlət-özəl sektor" əməkdaşlığı xeyli genişlənmişdir. Rusiyada innovatik proseslərin



sürətlənməsinə baxmayaraq, bu ölkədə bazar iqtisadiyyatı mexanizmlərinin dərin inkişafı təmin olunmadığından, hələlik innovasiya proseslərinin səmərəliliyinin tam mənada artırılması mümkün olmur. Belə ki, bu proseslər qeyri-sabit iqtisadi şəraitdə gedir və həmin proseslərin sabitləşdirilməsi, təkmilləşdirilməsi, sahibkarlıq sektorunda elmi-texniki fəaliyyətin gücləndirilməsinə mane olan problemlərin aradan qaldırılması tez bir zamanda həll edilməlidir[8]. Bu problemlərin aradan qaldırılması üçün dövlət özünün təkmilləşdirilmiş innovasiya siyasətini formalaşdırılmalı və xarici bazarda yüksək rəqabətə malik innovasiya məhsullarının istehsalının genişləndirilməsini təmin etməlidir[9]. Keçmiş sovet respublikalarından olan Ukrayna və Belorusda da milli iqtisadiyyatın innovasiyalaşdırılması üçün aparılan tədbirlər də hələlik yüksək nəticələrə gətirib çıxarmamışdır. Belorusda innovasiya fəaliyyətinin inkişafına dövlət dəstəyi güclü olsa belə, özəl sektorda innovasiya prosesləri hələlik intensivləşmiyib. Bunun əsas səbəbləri sırasında ölkədə bazar iqtisadiyyatı mexanizmlərinin dərindən inkişaf etməməsi, innovatik biliklərin zəif mənimsənilməsi, müəssisələrin innovasiyaların inkişafı üçün maliyyə vəsaitinin məhdud olması və bütövlükdə ölkə üzrə innovasiya fəaliyyətinin maliyyələşdirilməsi mənbələrinin zəifliyi daha çox diqqət çəkir. Ukraynada isə müxtəlif iqtisadiyyat sahələrinin innovasiyalaşdırılmasına ilk növbədə maliyyə resursları çatışmır və investisiyaların yatırılması prosesləri isə zəifdir. Ukrayna müəssisələrinin Avropanın innovasiya mərkəzləri və innovasiya kompaniyaları ilə əlaqələrinin genişləndirilməsi potensialınan lazımınca istifadə edilməməsi də, bu ölkədə innovasiyaların inkişafını ləngidən səbəblərdəndir[10]. Azərbaycanla iqtisadi inkişaf və iqtisadi sistemlərinin oxşarlığı baxımından nisbətən yaxın olan MDB ölkələrindən Rusiya və Qazaxstanda innovasiyalaşdırılma proseslərinin yaxın prespektivdə az da olsa intensivləşəcəyi proqnozlaşdırılır və fikrimizcə, daha çox bu ölkələrin innovasiya mərkəzləri ilə əlaqələr genişləndirilməli və birlikdə dünya təcrübəsindən yararlanmağın maksimum səmərəli modellərinin seçilməsinə nail olunmalıdır. Bu baxımdan ölkəmizdə milli innovasiya sisteminin inkişafına mane olan problemlərin sistemləşdirilməsi və həlli istiqamətində müəyyənləşdirilmiş strateji hədəflərin reallaşdırılması istiqamətində tədbirlər sürətləndirilməlidir. Avropa yenidənqurma və inkişaf bankının qiymətləndirməsinə görə Azərbaycanda hazırki şəraitdə istehsal sahəsində fəaliyyət göstərən kompaniyaların cəmisi 5% də innovasiyalar tətbiq edilir[11]. Ölkəmizdə innovasiyaların tətbiqi və genişləndirilməsi üzrə iri layihələr təkcə hasilat sənayesi ilə kifayətlənməməli, milli iqtisadiyyatın qeyri-neft sahələrinin innovasiyalaşdırılması prosesləri sürətləndirilməlidir. İnnovasiyaların tətbiqinin genişləndirilməsi üçün stimullaşdırıcı mexanizmlər hazırlnmalı və reallaşdırılmalıdır[12]. İnnovasiya fəaliyyətinin Azərbaycanda starteji istiqamətlərdən biri kimi qəbul edilməsinə baxmıyaraq, bu sahədə dövlət siyasətinin təkmilləşdirilməsi və daha məhsuldar mexanizmlərin işlənib hazırlanması zərurətidə qalmaqdadır. Professor R.Cəbiyev bildirir ki, innovasiya sahəsində dövlət siyasətinin mühüm vəzifələrindən biri rəqabət qabiliyyətli məhsulların buraxılmasını və istehsalın effektivliyinin artırılmasını təmin edən elmi texniki və innovatik inkişafın prioritetlərinin müəyyənləşdirilməsi, həm də həyata keçirilməsidir[13]. Bu baxımdan, yaxın perspektivdə ölkəmizdə milli iqtisadiyyatın müxtəlif sahələrinin innovasiyalaşdırılması



proseslərini sürətləndirilməsi vacib məsələlər kimi diqqət çəkir. Bu məqsədlə, əvvəldə qeyd etdiymiz kimi istehsal sahələrinin innovasiyalaşdırılmasının stimullaşdırılması və innovasiya potensialından daha səmərəli istifadə təmin olunmalıdır. "Azərbaycan 2020: gələcəyə baxiş" İnkişaf konsepsiyasında qeyd olunur ki, innovativ sahibkarlığın inkişaf etdirilməsi və yeni fəaliyyət növlərinin və məhsullarının inkişafı üçün əlverişli mühit yaradılması ilə yanaşı, qabaqcıl texnologiyaların transferi və mənimsənilməsi istiqamətində tədbirlərin gücləndirilməsi, elmtutumlu məhsulların və texnologiyaların işlənməsi və tətbiqi üçün texnoparklar və innovasiya zonaları yaradılması da nəzərdə tutulur. Bu baxımdan, müvafiq normativ hüquqi baza hazırlanaraq qəbul ediləcək, innovativ sahibkarlığın və biliklərə əsaslanan iqtisadiyyatın inkişafını təmin etməkdən ötrü İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondunun fəaliyyətinin təşkili nəzərdə tutulur[14]. Şüphəsiz, bu tədbirlərin reallaşdırılması ölkəmizdə innovasiya fəaliyyətinin genişləndiriliməsinə və iqtisadiyyatın ayrı-ayrı sahələrinin innovasiyalaşdırılmasının intensivləşdirilməsinə imkan verəcəkdir. Ancaq hələlik ölkəmizdə innovasiya məhsullarının həcmi cüzidir və iqtisadiyyat sahələrində innovasiya məhsullarının çeşidi məhduddur. 2015-ci ilin yekunlarına görə ölkəmizin sənaye müəssisələrində yenilik səviyyəsinə və iqtisaiyyat fəaliyyət növlərinə görə innovasiya məhsulunun həcminə nəzər salsaq, görərik ki, il ərzində əhəmiyyətli dəyişikliklərə məruz qalmış və ya yeni tətbiq olunmuş məhsulun həcmi cəmisi 930 min manata yaxın olmuşdur. Halbuki, bu göstərici 2012-ci ildə 23,1 mln manat, 2013-11,6 və 2014-cü ildə 12,3 mln manat təşkil etmişdir. Təəssüf ki, 2014-2015-ci illər ərzində ölkənin kimya və toxuculuq sənayesində, neft məhsullarının emalı sahəsində, tikinti materiallarının istehsalında və əksər qeyri-neft sektoru sahələrində innovasiya məhsullarının alınması təmin edilməmişdir[s.91,15]. Ölkədə innovasiya fəaliyyətinin genişləndirilməsi və iqtisaiyyat sahələrində innovatik məhsulların alınması mexanizmləri bir daha baxılmalı və adelvat tədbirlər götülməlidir. Belə ki, Milli iqtisaiyyat və iqtisaiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezdentinin 6 dekabr 2016-cı il tarixli Fərmanında qeyd olunur ki, Azərbaycan Respublikasında qeyri-neft sektorunun davamlı və rəqabətqabiliyyətli inkişafı dövlətin iqtisadi siyasətinin prioritet istiqamətidir[16]. Bu mühüm Fərmanda yer almış strateji yol xəritələrinin həyata

keçirilməsində innovasiya fəaliyyətinin gücləndirilməsi mühüm məsələlərdən biri kimi diqqət çəkir və yaxın perspektivdə bir sıra strateji vəzifələrin yerinə yetirilməsi təmin olunmalıdır:

-ilk növbədə, ölkədə milli iqtisadiyyatın innovasiyalaşdırılmasıma konseptual yanaşma yenilənməli və strateji yol xəritələrinin strateji hədəflərinə adekvat olaraq, innovatik inkişafın prioritet istiqamətləri və hədəfləri müəyyənləşdirilməlidir;

-milli iqtisadiyyat sahələrinin innovasiyalaşdırılması mexanizmləri işlənib hazırlanmalı, stimullaşdırıcı mexanizmlər təkmilləşdirilməli, bu sahələrə xarici investorların və texnoloji kompanyiyalrın cəlbinin sürətləndirilməsi təmin edilməlidir və s.

## ƏDƏBİYYAT


1. *Aliyev Sh.T. Importance of Special Economic Zones in Innovation of National Economics. Pensee multidisciplinary journal – Paris, France (IF = 0,063 – by Thomson Reuters), 2014, Vol.76, Issue, 11.-P. 12-20.*
2. *Nəcəfov Z. M. İnnovasiya strategiyasında klasterlər // AMEA Xəbərləri. Elm və innovasiya seriyası, №1-9, 2012.- S.10-15.*
3. *Никифоров И.К. Инновационная деятельность как фактор развития экономических систем. Дисс. канд. экон. наук. Улан-Удэ, 2004.-124 с.*
4. *Захарова Н. В. Формирование инновационной экономики и инновационных систем стран Европейского союза. Дисс. д-ра экон. наук. Москва, 2010.-380 с.*
5. *Əliyev Ш.Т. Хцсуси игтисади зоналарин тяшкили вя инкишаф перспективляри. Игтисад елтляri доктору диссертасийасı. ADİU, Бакы - 2015- 359 s.*
6. *Нга Ф.Т. Теория и практика перехода на инновационно-ориентированную модель развития экономики в странах Юго-Восточной Азии. Дисс. канд. экон. наук, Москва, 2008.*
7. *Алиев Ш.Т. Вектор специальных экономических зон в инноватизации//Журнал «Инновационная деятельность», Саратов, № 4 (13), 2010.-С. 7-11.*
8. *Семенова А.А. Создание национальной системы управления инновационной деятельностью: теория и методология. Дисс. д-ра экон. наук. Москва, 2005.-312 с.*
9. *Окружко В.Я. К разроботке программы долгосрочного социально – экономического развития России. Проблемы перехода к инновационной экономике // Евразийский международный научно – аналитический журнал «Проблемы современной экономики», №4(32), 2009.*
10. *Клименко А. Инновационная развитие аграрного сектора экономики Украины // Progress in economic Sciences Nr1(2014), P.29-43.*
11. *EBRD: В Азербайджане только 5 % действующих компаний применяют инновации в производстве. http://www.abc.az.*
12. *Мамедзаде Э. Глобальные вызовы и формирование инновационной экономики в Азербайджане // Институт центральноазиатских и кавказских исследований Швеции и Института стратегических исследований Кавказа Азербайджанской Республики. CA&CC Press® AB. Central Asia & Central Caucasus Press AB, 2014. http://www.ca-c.org.*
13. *Джабиев Р. Развитие инновационной сфры – одно из приоритетных направлений государственной политики Азербайджана. http://www.1news.az.*
14. *Azərbaycan 2020: gələcəyə baxiş. İnkişaf konsepsiyasi. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir. http://www.president.az/files/future_az.pdf.*
15. *Azərbaycan sənayesi. Statistik məcmuə. Bakı, 2016.-344 s.*
16. *Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritələrinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 6 dekabr 2016-cı il/ http://www.president.az.*


**Açar sözlər:** *milli iqtisadiyyat, milli iqtisadiyyat sahələrinin innovasiyalaşdırılması, strateji yol xəritələri, strateji aspektlər, innovasiya, innovasiya funksiyaları, yüksək texnologiyalar.*

**Ключевые слова:** *национальная экономика, инноватизация сфер национальной экономики, стратегические дорожные карты, стратегические аспекты, инновация, инновационные функции, высокие технологии.*

**Key words:** *national economy, innovation spheres of national economy, strategic road maps, strategic aspects, innovation, innovative functions, high technologies.*


## РЕЗЮМЕ

### Стратегические аспекты инноватизации сфер национальной экономики

В статье исследованы стратегические аспекты инноватизации сфер национальной экономики. Анализированы спецификация и сущность инноватизаций отдельных сфер национальной экономики, их значимость. Обоснована важность расширения применения инновационных функций и ускорения инноватизаций в целом национальной экономики страны. Раскрыты эффективность инноватизаций отдельных сфер национальной экономики и их модеринизация. В конце статьи дан ряд предложений и рекомендаций по стратегическим аспектам инноватизации сфер национальной экономики в современных условиях.



## SUMMARY

### Strategic aspects innovation spheres of national economy

The strategic aspects innovation spheres of the national economy are explored in the article. The specification and essence innovation separate spheres of the national economy, their importance are analyzed. The importance of the expansion of the use of innovative features and acceleration innovation the whole of the national economy is proved. The efficiency innovation separate spheres the national economy and their modernization is disclosed. A number of proposals and recommendations on the strategic aspect of innovation spheres of the national economy in modern conditions are given at the end of the article.

# Искусства

## ИКОНОГРАФИЯ ЦАРИЦЫ ТОМИРИС В МИРОВОМ И ОТЕЧЕСТВЕННОМ ИЗОБРАЗИТЕЛЬНОМ ИСКУССТВЕ

СЕВИЛЬ КЕРИМОВА
Азербайджанский Государственный Университет Культуры и Искусства

Современная ситуация в отечественной искусствоведческой науке предполагает активизацию ряда методик, направленных на выявление конкретных парадигм, систематизацию типологических признаков и схем, коими оперирует иконография. Данный метод, сложившийся в 1840-х гг. во Франции и Германии «как средство изучения средневекового искусства, его источников, связей с религиозными и литературными явлениями путём истолкования символики, аллегорий, атрибутов», в дальнейшем был развит русским историком искусства Н.П.Кондаковым, который успешно использовал его для изучения византийских традиций в средневековом русском искусстве. Термин и последующая направленность метода на первых этапах на определение типологических структур христианской иконописи и более того, сугубо библейской тематики, во многом предопределили формирование впоследствии иконологии. В трудах американского ученого Э.Панофского иконография выдвигается как «основа иконологического метода исследования сюжетной стороны произведений искусства, чтобы определить их значение и смысл в контексте данной культуры, выявить отражённые в них черты миросозерцания. Обращение к иконографии не как к самоцели, а сочетающееся с разносторонним исследованием социальных и эстетических аспектов искусства, является одним из условий верного понимания художественного произведения» (). Иконология значительно расширила диапазон объектов исследования иконографии и позволила определять ее в следующем контексте: иконография есть совокупность изображений какого-либо лица (исторического, общественного деятеля, художественного образа, сакральной персоны); конкретных сюжетов, характерных для культурно-исторической эпохи, направления в искусстве. Чуть позже термин нашел также объективное применение в естественно-научном блоке.

В азербайджанском искусствознании иконографический метод достаточно долго имел особую направленность. Будучи представленно в течении длительного периода традиционными направлениями, национальное искусство выработало специфику применения иконографического метода, прежде прочего, в исследовании произведений миниатюры, характеризируемой стабильностью изобразительных канонов на протяжении столетий. Подобная фиксация отражена в анализе произведений декоративно-прикладного искусства, единиц орнамента и еще шире, в самом принципе орнаментальности. Следует отметить, что иконография как принцип обобщения образа, образности не кодировалась, исключая вышеуказанные сферы, в качестве особого приоритета в отечественном искусствознании. В последние десятилетия, в свете переоценки культурного наследия, выработки новых методик и инструментов для его охраны и передачи, формы и способы анализа иконографических схем визуальных искусств приобретают новые категории значимости. В данном аспекте важным направлением стало исследование наследия общетюркского культурного ареала, выявление типологических черт его конкретных объектов, повлиявших на формирование отдельных изобразительных образных схем мирового масштаба, опыт интерпретации которых имея общие исходные, отразил как региональные, так и идеологические установки. Так, выработались узнаваемые каноны образов Деде Горгуда, Короглу, Тамерлана, тюркского мифологического пантеона (Асена, Умай и т.д.).

Образ легендарной царицы массагетов Томирис начальную свою изобразительную фиксацию получил, как бы это парадоксально не выглядело, в европейском искусстве в период развитых Средних веков. Именно в этот период в тематике итальянского искусства появляется образ Томирис, - пожалуй, единственной небиблейской и не светской фигуры в огромном живописном пространстве Возрождения. Более того, образ Томирис до периода Нового Времени это, практически, единственный в европейской живописи тип тюркской женщины. Обращение к представителям тюркского этноса к тому времени практиковалось в художественной среде итальянского Возрождения, однако, носило строго ограниченный характер. Яркими репрезентациями стали портреты Османских и Сефевидских правителей в великолепном исполнении семейства Беллини и их художественного круга. Позже к данной теме обращаются Тициан, Тинторетто, Веронезе, но в этом случае мы имеем дело с современниками художников и с заказным характером работ, что во многом определяло официальный статус картин.

В контексте эволюции иконографии Томирис интерес представляют работы, посвященные Эмиру Тимуру, поскольку их характеризует более выраженное символическое начало. Образ Великого Хромого, победившего Султана Баязида и временно остановившего османское нашествие на Европу воспринимался на

Западе как образ Освободителя. В самом начале XV века во Франции ему поставили памятник «Освободителю Европы», Перондино создал в 1553г. во Флоренции исторический роман «Величие Тамерлана Скифского», в 1655г. гениальный Рембрандт написал картину « Польский всадник. Тамерлан настигает Баязита», в XVIIв. итальянский композитор Гаспирини создает оперу «Тамерлан». Однако, в сравнительной парадигме изобразительных трактований Тамерлана и Томирис, следует исходить из нескольких аспектов. Репрезентации Тимура воспроизводились с небольшим промежутком времени от его реального бытия; история, сюжеты и образы были достаточно свежи; геополитическая ситуация оставалась крайне актуальной. Таким образом, в средневековом западном восприятии мифология Тимура к тому времени не успела еще обрести ореол сакральности, священной древности, наконец, символичности, столь характерной для образа Томирис.

Первоисточником истории Томирис – царицы массагетов – является Геродот, (484–425 гг.до н.э.). Соотнести его «Историю» с современными знаниями географии и этнографии довольно затруднительно, поскольку сообщения автора зачастую вызывают серьезные полемики. В контексте данной работы это, в первую очередь, вопросы относительно географической локализации массагетов, обширный ареал расселения которых является объектом научного спора за родину Томирис в тюркоязычной среде и требует тщательного междисциплинарного исследования в отечественной исторической и этнологической науке и последовательной культурной политики в отношении ее пропаганды. Так, устоялась традиция, связывающая Томирис с Казахстаном, где ее образ талантливо воплощен в качестве национальной героини в художественной культуре и изобразительном искусстве.

Не менее существенной является рассмотрение известного противостояния массагетов и Персидской Империи, олицетворяющих соответственно традиционное тюркское общество и один из первых вариантов глобализированной культуры. Образы Томирис и Кира в данной культурологической дилемме выступают как исконное противоборство Света и Тьмы, Преступления и Наказания, Свободы и Тирании.

Изобилующие данными рассказы геродотовской «Истории» носят характер обширных путевых заметок, что придает порой реальным историческим событиям и персонажам оттенок мифологизации. В аспекте темы Томирис и ее производных (локализации течения р.Аракса, за которой Геродот поселяет массагетов, скифских обрядов, многослойной истории Кира) Геродот выступает достаточно уверенно, утверждая, что «Из многих рассказов о кончине Кира этот мне кажется наиболее достоверным. (1, 214)».

Осмысление истории Томирис в художественной форме с позиций западно-католической культуры зарождается именно в Италии, наиболее знакомой с тюркско-мусульманской средневековой средой. На фоне ренессансного гуманизма, интереса к античному научно-литературному наследию, нарастающей урбанизации и кризиса аграрной культуры, возрождение и последующая эволюция образа Матроны и Девы-Воительницы (2, 89) представляло собой сложный социокультурный феномен. Его исходными выступали первичные нравственные структуры, связанные с универсалиями Добра и Зла, и их производными – Преступлением и Наказанием, неизбежной карой. Таким образом, Томирис уже на заре своей популяризации в итальянской живописи представляла архетипичный многослойный образ матери-царицы-воина, способной отстоять свободу своего народа, образ нежной любящей материнской души, исходящий к Деве Марии, победившей Сатану, и достаточно жестокий, мстительный женский персонаж, отсылающий к более древним матриархальным культам и их производным из античной (амазонки) и раннесредневековой европейской традиции (валькирии).

Иконография образа Томирис как аллегории мести, кары за содеянное зло представляет собой однозначные композиции, отличающиеся достаточно устойчивым изобразительным мотивом.



*Иллюстрации к «Истории» Геродота, представленные в манускриптах XV-XVIвв*

Первые ее образцы представляют собой иллюстрации к хрестоматийной на тот период «Истории» Геродота, представленные в манускриптах XV-XVIвв., исполненные в монастырях Северной Италии (2,91). Примитивные композиционные приемы данных образцов определили, тем не менее, характер и стилистику последующих произведений на данную тему, изобразив кульминацию исторической ситуации – торжество Томирис, ее победу над Киром. Символическая сцена, когда по приказу царицы и при присутствии ее двора отрубленную голову Кира погружают в чашу с кровью – «жестокий сюжет, который художники использовали в качестве аллегории правосудия, неизбежного возмездия за зло, обман, предательство» (3,353). При этом образ героини предельно унифицируется в этнокультурном понимании западно-католической христианской добродетели. Как и в последующих интерпретациях, Томирис полностью абстрагирована от своей естественной, кочевой исторической социокультурной среды. Придавая легитимность ее действиям, средневековая европейская мораль, несомненно подчеркивала царственные черты Томирис.




*Андреа дель Кастаньо, Царица Томирис, около 1450гг., Галерея Уффици.*

biləcək hala gətirdi. İndi Azərbaycan dünya üçün, region üçün tək karbohidrogen ixracatçısı rolunu oynamır, həmçinin region ölkələrinin iqtisadi inkişafına birbaşa təsir edən rıçaqlar əldə edir. Sevindirici haldır ki, bütün bu fəaliyyətin avanqardı iki qardaş ölkə Azərbaycan və Türkiyədir. Türkiyənin Qafqaz siyasəti baxımından ən əhəmiyyətli ölkə Azərbaycandır. Türkiyə ilə olan xüsusi əlaqələri və zəngin enerji resurslarına malik Azərbaycanın ərazi bütövlüyü və beynəlxalq sistemə inteqrasiyası Türkiyə üçün də əhəmiyyət kəsb edir. Türkiyə Dağlıq Qarabağ probleminin Azərbaycanın ərazi bütövlüyü qorunaraq həll edilməsini müdafiə etmiş və erməni işğalına qarşı beynəlxalq təşkilatlar çərçivəsində cəhdlər göstərmişdir. Dünya yeni geosiyasi kataklizmləri yaşayır. Hadisələrin gedişi o qədər də uzaq olmayan perspektivdə bəzi hadisələrin ola biləcəyini göstərir. Türkiyənin türk və müsəlman dövlətlərinin yönəlmiş fəaliyyətində Azərbaycan ilə birgə fəaliyyətini daha sistemli bir şəkildə gücləndirməsi lazımdır.

Bakı-Tbilisi-Qars dəmir yolunun sabitliyə və təhlükəsizliyə xidmət göstərəcəyini vurğulayan Prezident İlham Əliyev deyib: “Bu yolun istifadəsi zamanı əminəm ki, turizmin inkişafı da geniş vüsət alacaq, turistlərin sayı artacaq və təbii ki, Bakı-Tbilisi-Qars dəmir yolunun uğurlu fəaliyyəti ölkələrimizin geosiyasi əhəmiyyətini artıracaq və bizim üçün əlavə imkanlar yaradacaqdır. Biznesin inkişafı üçün, qarşılıqlı faydalı əməkdaşlıq üçün Bakı-Tbilisi-Qars dəmir yolunun çox böyük əhəmiyyəti vardır” (7). Türkiyənin dövlət başçısı isə bildirib ki, yatırdığımız bu sərmayələrlə Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin üstünlüyünü və cəlbediciliyini daha da artırdıq: “Azərbaycanın Ələt limanı ilə də yalnız üç ölkəni deyil, bütün Orta Asiya respublikalarını Qərb nəqliyyat marşrutları ilə birləşdiririk. Eyni qaydada Türkmənbaşı limanı vasitəsilə Türkmənistanın, Aktau limanı vasitəsilə Qazaxıstanın Avropaya çıxışını təmin edirik.”. Hər iki çıxışa diqqət yetirdikdə görmək olur ki, dövlət başçıları layihəyə təkcə iqtisadi aspektdən baxır. Onlar layihənin geosiyasi əhəmiyyətinə vurğu edirlər. Əslində Bakı-Tbilsi-Qars dəmir yolu işə düşməsi gələcəkdə türk dünyasının real birliyinin yaranması üçün iqtisadi əsasa çevriləcək.

BTQ Azərbaycanın və Türkiyənin geosiyasi və geoiqtisadi təsir imkanlarının artmasını istəməyən bütün ölkələrin planlarını pozdu. Asiya və Avropa bazarları arasında mal mübadiləsi üçün şimala getmədən alternativ imkanlar açıldı. İtirənlərin içərisində isə “lider” yenə Ermənistandır. Onsuz da beynəlxalq nəqliyyat sisteminə çıxış imkanları məhdud olan işğalçı rejim indi bir qədər də pis vəziyyətə düşdü. Çünki regionda Azərbaycan ilə Gürcüstanın bir-biri ilə bağlılığı daha da artdı. Ümumiyyətlə, Azərbaycan kimi Gürcüstan da ara-sıra erməni separatizmi təhlükəsi ilə üzləşir. Son vaxtlar ermənilərin yeni xülyalarının konturları cızılmaqdadır. Ha¬zırda ən böyük hədəf Gürcüstan torpaqlarıdır. Samsxe-Cavaxetiyadakı ermənilərin separatçı çıxışları günü-gündən art¬ır. Hazırda onlar ilkin mərhələdə ərazi-inzibati bölgü baxımından Kvemo-Kartli regionuna daxil olan Çalk bələdiyyəsinin (əhalisinin təxminən ya¬rısı ermənilərdir) Cavaxetiyaya birləşdirilməsini tələb edirlər. Bundan sonra Samsxe-Cavaxetiyaya muxtariyyət verilməsi, erməni dilinə rəsmi dil, erməni apostol-qriqorian kilsəsinə isə statusun verilməsi ilə bağlı iddialar səslənir. Təbii ki, Gürcüstanda bunu çox yaxşı anlayırlar. Beləliklə, tarixi köklər, birgə problemlər və maraqlarla bərabər regionda geosiyasi vəziyyət də ölkələr arasında sıx əməkdaşlığa zəmin yaratmışdır.

Azərbaycanın milli maraqları üçün müstəqil Gürcüstanın mövcudluğu ölkənin Qərblə enerji və nəqliyyat layihələrində strateji alternativi formalaşdırır. Məhz müstəqil Gürcüstanın vasitəsi ilə Azərbaycan Şərq-Qərb dəhlizini aktiv istifadə edə bilir. Digər tərəfdən, Azərbaycan Gürcüstanın enerji təhlükəsizliyini təmin edir (3). BTQ-nin açılışı ilə bağlı çıxış edən Gürcüstanın baş nazirinin bu sözləri fikirlərimizi sübut edir: “Bugünkü tədbirə görə Prezident İlham Əliyevə, eyni zamanda, öz dostlarımıza, dost ölkələrin liderlərinə, hökumət nümayəndələrinə, bu illər ərzində öz fədakar və yorulmaz əməyi ilə bu mürəkkəb layihənin reallaşmasına dəstək verən insanlara bir daha təşəkkürümü bildirmək istəyirəm. Ən əsası isə odur ki, bu layihədə burada təmsil olunan ölkələrin mütəşəkkilliyi və birliyi nümayiş olundu. Əminəm ki, bu cür layihələr və bir-birimizin yanında olmağımız əlaqələrimizi daha da dərinləşdirəcək və təkcə bizim ölkələrimizə deyil, eyni zamanda, regionumuza uğur gətirəcək.” .

Bu çıxışda diqqəti cəlb edən məqam Gürcüstanın baş naziri Giorgi Kvirikaşvilinin bir birimizin yanında olmaq ifadəsidir. ***Cənubi Qafqazda siyasi, hərbi, iqtisadi və sosial uğurun bir adı vardır – Azərbaycanın yanında olmaq!!!*** Regionda ***müstəqil ola bilməmə kompleksi yaşayan*** Ermənistanın artıq tamamilə iflic vəziyyətində olduğunu anlaması lazımdır. Artıq bu ölkədə ictimai rəy də işğalın heç də xeyir gətirməməsi yönündə dəyişməkdədir. Erməni Kubatyan “Regnum” saytında yazır ki, Ermənistan bu yolun açılışı ilə mühüm yollarının ondan yan keçməsi reallığının ortasında oturan kor bayquşa çevrilir. Beləliklə, artıq şərhə ehtiyac yoxdur.

Burada bir sıra ekspertlər Azərbaycan-Gürcüstan-Türkiyə dostluq formatına böyük önəm verir. Onlardan biri siyasi elmlər doktoru, millət vəkili E. Nəsirov bildirir ki, indiki çətin və mürəkkəb bir şəraitdə Azərbaycan, Türkiyə və Gürcüstan işbirliyi regionda beynəlxalq aləm üçün qovşağa çevrilməklə yanaşı, bu münasibət həm də xarici qüvvələr qarşısında dostluq və əməkdaşlığın bariz nümunəsidir (1). Ermənistanın belə bir vəziyyətə düşməsi fonunda Azərbaycan regionun və dünyanın idarə edildiyi mərkəzlərdən birinə çevrilməkdə davam edir. Ermənistanın özünü təcrid etməsi hətta bir sıra xarici ölkələrin diplomatlarının belə diqqətindən yayınmır. ABŞ-ın Ermənistandakı səfiri vəzifəsinə namizəd olmuş Mills bu ölkənin qəbul etdiyi bir sıra qərarlarla özünü beynəlxalq ictimaiyyətdən təcrid etməkdə olduğunu deyib (6). Baş verən son hadisələr onu deməyə əsas verir ki, artıq dünyada yeni güc mərkəzləriyaranır. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın bildirdiyi kimi dünya beşdən böyükdür. Bu mənada Azərbaycan və Türkiyə birliyi regional baxımından yeni güc mərkəzini əmələ gətirir. Hadisələrin məntiqi davamı olaraq Bakıda Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının altıncı iclası keçirilib. Prezident İlham Əliyev bildirib ki, Türkiyə-Azərbaycan əlaqələri ən yüksək səviyyədədir, ən yüksək zirvədədir. Qardaş ölkənin başçısı isə bəyan edibdir ki, dünən və bu gün keçirdiyimiz görüşlərlə birlikdə Türkiyə ilə Azərbaycan arasındakı qardaşlığın, dostluğun necə yüksək səviyyəyə çatdırıldığını xüsusilə sevinc içərisində müşahidə edirik. Azərbaycan və Türkiyə arasında münasibətlərin bir qədər də inkişaf edərək dərinləşməsi hər iki ölkəni sevməyən qüvvələri fakt qarşısında qoyur. Bu fakt nədir? ***Tarixi qardaşlıq, təbii resurslar, ortaq təhlükələr, tranzit imkanlar və möhtəşəm perspektivlər baxımından yeni güc Azərbaycan-Türkiyə ittifaqı.*** Bu ittifaq bir təsadüfün nəticəsi deyi, Ümummilli lider Heydər Əliyevin siyasi dühasının məhsulu olan “bir millət iki dövlət” strategiyasının bəhrəsidir. Balanslaşdırılmış xarici siyasət kursu daxilində Ümummilli lider Heydər Əliyevin Türkiyəyə verdiyi önəmin müasir nailiyyətidir BTQ.

***BTQ-nin reallaşmasının yol xəritəsini anlamaq üçün təbii ki, tarixi bir ekskursa ehtiyac vardır.*** 1990-cı illərdən başlanan strateji yaxınlaşmanın təməlləri 1992-ci ilin martında qoyulmuşdur. Ümummilli Lider Heydər Əliyevin 1992-ci il mart ayının 22-dən 24-dək Türkiyəyə səfəri çərçivəsində “Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında əməkdaşlıq protokolu” imzalanmış, Naxçıvanla Türkiyə Cümhuriyyəti arasında gediş-gəlişi təmin etmək




məqsədilə Sədərək-Dilucu körpüsünün tikintisinə başlanılmışdır. Həmin il mayın 28-də iki ölkə arasında iqtisadi, mədəni, sosial, siyasi əlaqələrin inkişaf simvolu hesab olunan Sədərək-Dilucu körpüsü istifadəyə verilmişdir. Ümummilli liderimiz Heydər Əliyev körpünün açılış mərasimində demişdir: "Araz çayının o sahilində, bu sahilində dost, qardaş kimi yaşamışıq. Ancaq 70 ildir ki, bir-birimizlə görüşmək üçün, əlaqə saxlamaq üçün həsrət çəkmişik. 70 il biz bu günü böyük həsrətlə gözləmişik. İndi isə bizim bu arzularımız, bizim bu diləklərimiz həyata keçibdir. Naxçıvan ilə, Azərbaycan ilə Türkiyəni bağlayan nəhəng bir körpü tikilibdir". Türk dünyasının coğrafi bütünlüyünü təmin edən bu körpünün açılışında Türkiyənin o zamankı Baş naziri S. Dəmirəl və Türkiyənin digər yüksək səviyyəli hökumət nümayəndələri də iştirak etmişdilər. S. Dəmirəl körpünün açılmasının əhəmiyyəti barədə danışaraq demişdir: "Bu körpü, sadəcə, Türkiyə ilə Azərbaycanı deyil, dünyanı, iki ayrı dünyanı, Avropayla Asiyanı, Avropayla Qafqazları – hamısını bir-birinə bağlayacaqdır. Məhz onu dəyərli edən də budur". Ümummilli lider Heydər Əliyevin Türkiyəyə sonrakı işgüzar, rəsmi səfərləri zamanı aparılan danışıqlar, imzalanmış sənədlər Naxçıvan-Türkiyə münasibətlərinin inkişafında yeni mərhələ yaratmış, muxtar respublikanın sosial-iqtisadi problemlərinin həllinə öz müsbət təsirini göstərmişdir (2).

Bu günkü uğurlar həm də Ümummilli lider Heydər Əliyevin neft strategiyasının, "Əsrin müqaviləsinin", BTC-nin və digər cahanşümül layihələrin nəticələridir. Təbii ki, ilk olaraq "Əsrin müqaviləsi" katalizator rolunu oynadı. 20 sentyabr 1994-cü ildə Bakıda "Gülüstan" sarayında Azərbaycan Dövlət Neft Şirkəti ilə xarici neft şirkətlərinin konsorsiumu arasında müqavilə imzalandı. Mərasimdə Heydər Əliyev çıxış edərək deyirdi: "Bu gün Azərbaycan Respublikasının həyatında tarixi bir hadisə baş verir. Xəzərin Azərbaycan Respublikasına aid sektorunun "Azəri", "Çıraq" neft yataqlarının və "Günəşli" neft yatağının bir hissəsinin müştərək işləməsi haqqında Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə xarici ölkələrin neft şirkətləri arasında davam edən üçillik danışıqlar sona çatmış və layihə hazırlanmışdır. Biz bu müqaviləni imzalamaqla müqavilədə iştirak edən şirkətlərin: "Amoko", "Bi-pi", "Statoyl", "Lukoyl", "Mak Dermot", "Penzoyl", "Remko", "Türkiyə Petrolleri", "Yunokal", "Delta İntənəşl"-in mənsub olduğu ölkələrlə – ABŞ, Rusiya, İngiltərə, Türkiyə, Norveç, Səudiyyə Ərəbistanı kimi dövlətlərlə dostluq əlaqələrinin, iqtisadi əməkdaşlığın və ümumiyyətlə, bü-tün sahələrdə əlaqələrin möhkəmlənəcəyinə ümid bəsləyirik». Azərbaycan Respublikası Prezidenti Heydər Əliyev danışıqların Bakıda aparılması və müqavilənin burada imzalanmasına böyük əhəmiyyət vermişdi: «Bu imzanın Bakıda atılması Azərbaycanın müstəqilliyini bir daha aydın sübut edir» (4). Bu strategiyanın davamı olaraq reallaşan BTC Azərbaycanın gücünü bir qədər də artırdı və nüfuz dairəsini genişləndirdi. Bakı-Tbilisi-Ceyhan (BTC) neft kəməri Xəzər neftini Aralıq dənizinin sahillərində yerləşən Ceyhan limanına nəql etmək üçün 1,773 kilometrlik xəttdir. Boru kəmərinin rəsmi açılışı 13 iyul 2006-cı ildə Ceyhanda (5, 6) olmuşdur. Neft boru kəməri Azərbaycan (442 km), Gürcüstan (248 km) və Türkiyə (1.070 km) ərazisindən keçir (5).

Onu da xüsusi vurğulamaq lazımdır ki, Ümummilli Lider Heydər Əliyevin düşüncə və strateji xəttinin davamı Prezident İlham Əliyevin fədakar, gərgin fəaliyyəti ilə bağlıdır. Onun rəhbərliyi ilə biz bu gün dünyaya yeni reallıqları qəbul etdirə bilən regional güc olan Azərbaycanda yaşayırıq. Azərbaycan son illər dünya miqyaslı tədbirlərin mərkəzidir. Bunlardan 2012-ci il Avroviziya Mahnı Müsabiqəsini, 2015-ci il Avropa Oyunlarını, 2017 İslam Həmrəyliyi Oyunlarını və digər tədbirləri misal göstərmək olar. Beləliklə, Azərbaycanın iqtisadi və siyasi uğurları davam edir. Bir daha sübut olundu ki, ölkəmizin xarici və daxili siyasəti bir birini tamamlamaqdadır. İqtisadi və siyasi imkanlardan istifadə edilmə metodları düşünülmüş və elmi əsaslara dayanan siyasi konsepsiyanın mövcudluğunu göstərir. ***Ona görə də, Azərbaycanın dostu olmaq özü bir siyasi üstünlüyə çevrilir.*** Məhz bunun nəticələrindən biri də Azərbaycan-Rusiya-İran prezidentlərinin ölkəmizin təşəbbüsü ilə keçirilən zirvə görüşləridir. 2016-cı ildə Bakıda keçirilən zirvədə xeyli irəliləyişlər əldə edilmişdi. Burada qəbul edilən bəyannamədə ölkələr bərabər və qarşılıqlı faydalı əməkdaşlığın hərtərəfli inkişafının davam etdiriləcəyini, qarşılıqlı maraq doğuran bütün məsələlər üzrə müxtəlif səviyyələrdə siyasi dialoqun dərinləşdirilməsini və genişləndirəcəyini bildirdi. Bundan əlavə, üçlük terrorizm, ekstremizm, transmilli mütəşəkkil cinayətkarlıq, narkotik maddələrinin qanunsuz dövriyyəsi, insan alveri və informasiya və kommunikasiya texnologiyaları sahəsində cinayətlərə qarşı mübarizə aparmaq niyyətində olduğunu ifadə etdi.



2017-ci il noyabrın 1-də Tehranda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, İran İslam Respublikasının Həsən Ruhani və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin zirvə görüşü olmuşdur. Görüşdə üç ölkə üçün əhəmiyyətli məsələlər müzakirə olundu və birgə bəyanat imzalandı. Danışıqlarda prioritet təşkil edən məsələ "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinin reallaşdırılmasıyla bağlı idi. Hər üç ölkə "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizi boyunca sərnişin və malların daşınması imkanlarını yaxşılaşdırmaq məqsədi ilə nəqliyyat-rabitə infrastrukturunun inkişafı üçün effektli addımlar atmaq niyyətindədir. Bu sammit zamanı ölkə başçımız eyni zamanda ayrılıqda İran və Rusiya prezidentləri ilə görüşmüşdür. Ümumiyyətlə, Azərbaycan dövləti tərəfindən təklif edilən bu zirvə görüşlərində aparıcı imperativimiz Rusiya və İran dövlətlərinin beynəlxalq müstəvidə oynadığı rolla bağlıdır. Azərbaycan Respublikasının şimalında dünyanın böyük siyasi, hərbi və iqtisadi aktorlarından biri olan Rusiya Federasiyası yerləşir. Rusiya qədim tarixə malik olan bir dövlətdir və onun istər regional, istərsə də dünya miqyaslı iddiaları tarixi və bazislidir. Bu məsələni bir qədər də açmağa çalışaq. Rusiya dünya hökmranlığına can atmış, onu idarə edənlərin və siyasi idarə şəkillərinin dəyişilməsi bu iddiaları dəyişdirməmişdir. Hər bir yeni hakimiyyətin Rusiyaya qeyd edilən istiqamətdə fəaliyyət göstərmək üçün yeni imkanlar və mexanizmlər verməsi amilinin təhlükəli tərəfləri Ümummilli lider Heydər Əliyevin balanslaşdırma siyasəti nəticəsində zərərsizləşdirilə bildi. Bundan sonra Azərbaycanın iqtisadi və siyasi güclənməsi, inteqrasiya proseslərində fəal iştirakı Rusiyanın ritorikasını dəyişməsinə gətirib çıxardı. Azərbaycan Respublikası prezidenti İlham Əliyevin xarici siyasi kursunda da Rusiya amilinə önəm verildi. Əsas prinsip faktiki olaraq bu oldu "Rusiya biz sənin düşmənin deyilik". Bu həm də Rusiya üçün də bir mesaj anlamına gəlməkdədir ki, "sən də bizi

düşmənləşdirmə". Hazırda Rusiya ilə Azərbaycan arasında normal münasibətlərmövcuddur. Qarşılıqlı əməkdaşlıq getdikcə inkişaf edir. Azərbaycan bu baxımdan gözəl qonşuluq nümunəsini göstərir.

İran da bizim üçün mühüm əhəmiyyətə malikdir. İran Azərbaycanın cənubunda yerləşən və ölkəmizlə sıx tarixi bağları olan bir dövlətdir. İran da beynəlxalq fəaliyyət məkanında iddialı çıxışları ilə gündəmə gəlir. Rusiya qədər imkanları olmasa da son dövrlər Suriya və İraq ətrafında gedən proseslərdə hərbi və siyasi iştirakı ilə İran özünün mərhələli olaraq dünya dövləti olmaq istəklərini ortaya qoymuşdur. Bunun üçün keçiləcək ilk mərhələ regional güc olmaqdır. İranda azərbaycanlıların yaşaması və onların siyasi fəaliyyətlərinin zaman-zaman gündəmə gəlməsi əslində bizim üçün olduqca önəmli bir vasitədir. Doğrudur, tarixi keçmişimizdə bəzi insanların emosional və dərin olmayan çıxışları səbəbi ilə İran ilə əlaqələrimizə bu amil mənfi təsir etmişdi. Ancaq burada da Ümummilli lider Heydər Əliyevin apardığı siyasət hissiyyat üzərində qurulmuş düşüncəni məntiqi və konseptual siyasətlə əvəz etdi. Azərbaycan İranı qıcıqlandıracaq hissi davranışlardan deyil, İran dövlətinin Cənubi Qafqazda Azərbaycana olan ehtiyacından istifadə etməyə başladı. Azərbaycan Respublikası Prezidenti İlham Əliyev İran ilə konstruktiv əməkdaşlığa müsbət baxdığını öz addımları ilə ortaya qoydu. Bütün problemli tərəflərə baxmayaraq Azərbaycan İranla münasibətləri daim qonşuluq və qarşılıqlı hörmət əsasında qurmağa çalışmaqdadır. İran Azərbaycanın ən böyük iqtisadi tərəfdaşlarından biridir. Azərbaycan-İran ikitərəfli münasibətlərində iqtisadi əlaqələrin xüsusi çəkisi var. Qeyd edilən amillər kontekstində 2017-ci il noyabrın 1-də Tehranda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, İran İslam Respublikasının Həsən Ruhani və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin zirvə görüşünü bizim üçün önəmli hadisə hesab etmək lazımdır. Bunu bariz şəkildə ortaya qoyan sammitdə ölkə başçımızın çıxışıdır. Prezident İlham Əliyev birinci üçtərəfli Zirvə görüşünün Azərbaycanın təşəbbüsü ilə keçən ilin avqustunda Bakıda keçirildiyini, bu formatın gözəl gələcəyinin olduğunu bildirdi: "Üçtərəfli əməkdaşlıq formatının regional təhlükəsizlik üçün böyük əhəmiyyəti var. Bizim uğurlu əməkdaşlığımız regionda sabitliyin və təhlükəsizliyin təmin edilməsində mühüm rol oynayır", - deyən dövlətimizin başçısı qeyd etdi ki, Azərbaycan dünyada yeganə ölkədir ki, onun Rusiya və İranla quru sərhədi var və bu coğrafi yerləşmə bizə bütün sahələrdə uğurlu əməkdaşlıq etməyə imkan verir. Bütün bunlar hər iki məsələdə istər BTQ-nin reallaşmasında, istərsə də 2017-ci il noyabrın 1-də Tehranda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, İran İslam Respublikasının Prezidenti Həsən Ruhani və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin zirvə görüşündə ölkəmizin təşəbbüskarlığını və dominantlığını ortaya qoyur.

## ƏDƏBİYYAT


1. *Bədəlov Ə. Azərbaycan-Türkiyə-Gürcüstan formatı dostluğa, qardaşlığa və müttəfiqlik münasibətlərinə söykənir. // "Xalq qazeti" 7 noyabr 2017-ci il, № 245 (28630), s.3*

2. *Qasımov Ə. Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövrü (1990-1993-cü illər). // Tarix və onun problemləri, №2 2013, s.101-105, s.103*

3. *Mahmudov N. Gürcüstanın yeni hakimiyyətinin regionda prioritetləri və Azərbaycan. // "Strateji təhlil", 2012, № 5, s.169*

4. *Şahverdiyev Z. Heydər Əliyevin imzaladığı "Əsrin müqaviləsi" müstəqil Azərbaycan iqtisadiyyatının təməlidir. // Tarix və onun problemləri, №2 2013, s.132-139, s.134*

5. *Ибрагимова Г.И., Агакишиева Н.А. Вопросы экологической безопасности Б-Т-Д. // Bakı universitetinin xəbərləri. Humanitar elmlər seriyası 2012, №4, s.151-157, s.152*

6. *Ermənistan özünü təcrid edir. https://525.az/site/ ?name =xeber& news_id =25501#gsc.tab=0*

7. *İlham Əliyev Bakı-Tbilisi-Qars dəmir yolunun açılış mərasimində iştirak edib. http://president.az/articles/25639*

8. *"Bakü-Tiflis-Kars Demiryolu Projesi, Yeni İpek Yolu'nun Halkalarından Birisidir". https://www.tccb.gov.tr / haberler/410/86167/ baku-tiflis-kars-demiryolu-projesi-yeni-ipek-yolunun-halkalarindan-birisidir.html*

9. *https://azvision.az/news/129861/prezidentlerin-tehran-gorusu-neler-muzakire-edildi-fotolar-yenilenib.html*



**Açar sözlər:** *sammit, geosiyasi, BTQ, uğur, mexanizm, iqtisadi*

**Key words:** *summit, geopolitical, BTK, success, mechanism, economic*

**Ключевые слова:** *саммит, геополитика, БТК, успех, механизм, экономический*



**SUMMARY**

**Geopolitical evaluation of successes from the Baku-Tbilisi-Kars railway to the Tehran summit**

**Bakhtiyar Nabiyev**

In the article geopolitical evaluation of the achievements towards the Tehran Summit from the Baku-Tbilisi-Kars railway has been carried out. The author states here that the Baku-Tbilisi-Kars railway has begun to work and has strengthened Azerbaijan's position in the international transport system. This project is a serious change in the political, economic, social and military aspects of the region in recent years. The methods of economic and political accessibility are a thought-provoking and scientifically-based political concept. One of the results of these meetings is the summit of the Azerbaijani-Russian-Iranian presidents held at the initiative of our country. All of this demonstrates the initiative and dominance of our country during the summit meeting of the President of the Republic of Azerbaijan Ilham Aliyev, Hasan Ruhani of the Islamic Republic of Iran and President of the Russian Federation Vladimir Putin in Tehran on November 1, 2017.



**РЕЗЮМЕ**

**Геополитическая оценка успехов от железной дороги Баку-Тбилиси-Карс до саммита в Тегеране**

**Бахтияр Набиев**

В статье проведена геополитическая оценка достижений от железной дороги Баку-Тбилиси-Карса до саммита в Тегеране. Автор утверждает, что железная дорога Баку-Тбилиси-Карс укрепила позиции Азербайджана в международной транспортной системе. Этот проект является серьезным изменением в политическом, экономическом, социальном и военном аспектах в регионе за последние годы. Методы экономической и политической доступности - это политическая концепция Азербайджана, основанная на размышлениях и на научной основе. Одним из результатов ее является саммит президентов Азербайджана, России и Ирана, проведенный по инициативе нашей страны. Все это демонстрирует инициативу и доминирование нашей страны во время встречи на высшем уровне Президентов Азербайджанской Республики Ильхама Алиева, Исламской Республики Иран Хасан Рухани и президента Российской Федерации Владимира Путина в Тегеране 1 ноября 2017 года.

# Uşaq hüquqları

## ABŞ-DA FEDERAL SƏVİYYƏDƏ UŞAQ SİYASƏTİNİN MÜHÜM CƏHƏTLƏRİ

ELGÜN ƏLİYEV
Bakı Dövlət Universiteti



İkinci Dünya Müharibəsindən sonra ABŞ-ın daxili siyasətində, xüsusilə sosial sahədəki siyasətində mühüm yeniliklər və dəyişikliklər özünü göstərməyə başladı. Ailə və uşaq siyasətində uzunmüddətli tədqiqatlar və göstəricilər nəzərə alınmağa, bunun nəticəsi kimi ailə və uşaq siyasətində inkişafı təmin etmək üçün müxtəlif qanunvericilik aktlarının, sosial layihə və proqramların qəbul olunmasına, inkişaf mexanizminin hazırlanmasına başlandı. Bu dövr üçün xarakterik olan cəhətlərdən biri də artıq ailə və uşaq siyasətinin sosial siyasətin tərkibində ayrıca qeyd edilməsi, qəbul edilən qanunvericilik aktları, hazırlanan proqram və layihələrin adlandırılmasında birbaşa müraciətin olması idi. XX əsrin ikinci yarısının əvvəllərində ABŞ-ın uşaq siyasətinin qarşısında bir sıra prioritetlər dayanırdı. Bunların arasında uşaqların sağlamlıq və təhsil problemləri, onlara qarşı zorakılığın qarşısının alınması, uşaqlara qayğı ilə əlaqədar valideyinlərə, xüsusilə aztəminatlı və tək valideyinlərə dəstəyin göstərilməsi və bu məsələlərlə bağlı qanunvericilik aktlarının işlənilib hazırlanması idi (2, s.148).

Bir məsələni xüsusilə qeyd etmək lazımdır ki, ABŞ-da federal səviyyədə sosial siyasətin tam olaraq effektivliyinə təsir edən obyektiv manеələr vardır. Məlum olduğu kimi ABŞ-ın hər bir ştatı özlüyündə dövlət sayılır və onların öz hökumətləri, qanunvericilik sənədləri mövcuddur. Bu isə öz növbəsində federal qanunvericliyin qəbul olunmasında, habelə müxtəlif proqram və layihələrin tətbiq olunmasında özünəməxsusluğun olmasını tələb etməklə yanaşı, həyata keçirilmə prosesi və surətini ləngidir. Bununla yanaşı nəzərə alınmalıdır ki ABŞ-ın siyasi sitemində iki böyük partiya hökmranlıq edir. Sosial siyasət sahəsində və onun tərkib hissəsi kimi uşaq siyasətində bu iki partiyanın fərqli proqramları mövcud idi. Belə ki, XX əsrin ikinci yarısında Respublikaçılar partiyası uşaq siyasətində ailələrə birbaşa, individual yanaşma və dəstəyi (uşaqlara qayğı üçün subsidiyaların və vergi kreditlərinin verilməsi və s.) üstün tuturdusa, Demokratlar partiyası xüsusi proqramların yaranması və təminatında birbaşa olaraq hökumətin iştirakına üstünlük verirdi.

Qeyd edilən dövrdə sosial təminatın yaxşılaşdırılması, xüsusilə qadınların işləmək imkanlarının artırılması da uşaq siyasətinə müsbət nəticələrini vermişdi. 1960-cı ildə öhdəsində alt yaşdan aşağı uşaq (və ya uşaqlar) olan anaların üçdə biri işlə təmin olunmuşdu ki, 1996-cı ilə kimi bu göstərici silsilə üzrə üç dəfəyə yaxın artmışdı. Üç yaşına qədər uşaqları olan anaların da əmək qabililiyyətliliyində oxşar mənzərə müşahidə olunurdu. Bu mənada 1996-cı ildə qəbul edilmiş “Şəxsi məsuliyyətlər və iş imkanları haqqında” qanunvericilik aktının yaratdığı imkanlar olduqca təqdirəlayiq idi (2, s.195).

1989-cu ildə tətbiq edilən “Milli təhsil məqsədləri Paneli” məktəb yaşına çatmayan uşaqların təhsil məsələləri üzrə ümumiləşdirilmiş proqram və layihələrdən ibarət idi. Qarşıya qoyulmuş məqsədə görə 2000-ci ilə qədər ABŞ-ın bütün ştatları üzrə məktəb yaşına çatmış uşaqlar artıq oxumağa və yazmağa hazır olmalı idilər. 1980-1990-cı illərdə bu istiqamətdə müzakirələrin mərkəzində cari sahə üzrə aparılmış tədqiqatların nəticəsi idi. Belə ki, təhsil mütəxəssisləri əminliklə qeyd edirdilər ki, uşaqların uğurlu təhsili üçün məktəbəqədər tədris sisteminin mükəmməlləşdirilməsinə ehtiyac vardır. Aşağı gəlirli ailələrdə böyüyən milyonlarla uşaq isə ilkin qayğı və təhsildən kənar qalmış hesab edilirdi (6, s.148).

Erkən təhsil problemlərinin həllində hökumətlə yanaşı digər mənbə ictimai investisiyaların qoyulması ilə səmərəli, daha qənaətli proqramların qeyri-hökumət təşkilatları tərəfindən işlənilib hazırlanması idi. Bu proqramlar əhalinin müxtəlif yaş və sosial qruplarını əhatə edirdi. Uşaq bağçalarında olan uşaqlar üçün erkən təhsil proqramlarının hazırlanması da ictimai əsaslı layihələrə daxil idi. İctimai əsaslı erkən təhsil layihələri əsasən ilkin olaraq aşağı gəlirli və “risk altında olan” ailə və uşaqları nəzərdə tuturdu. Bütün bu işlər “Uşaqların Erkən Təhsil və Qayğı Siyasəti” adlanırdı.

“Əsas başlanğıc” kasıb və həssas təbəqəyə məxsus uşaqları hədəfə alan, onların təhsil məsələlərinin həlli istiqamətində hazırlanan və



federal siyasətin bu sahədə başlıca təşəbbüsü hesab edilən proqram idi. 1965-ci ildə prezident Jonson Adminstrasiyası tərəfindən işlənilmiş "Kasıblıqla müharibə", "Əsas başlanğıc" proqramları uşaqların fiziki, zehni sağlamlığı, sosial xidmətlər, qida təchizatı və valideynlərin iştirakı məsələləri üzə 1998-ci ildə yenidən layihələndirilmişdi. Bu proqram federal büdcə tərəfindən maliyyələşdirilirdi. Onun tərkibinə onlarla eyniməzmunlu və ya bənzərməzmunlu layihələr daxil idi. Qarşıya qoyulmuş məqsədlərdən biri də ümumilikdə ailələrin savadlılığını artırmaq idi. "Əsas başlanğıc" federal hökumətin 35 illik tarixə malik təşəbbüsü kimi xarakterizə edilir. Güclü yerli və ictimai əsasları olan, əsasən anti-yoxsulluq mahiyyəti daşıyan bu proqram ABŞ-ın Sağlamlıq və İnsan Xidmətləri Departamenti tərəfindən idarə olunurdu. Federal büdcədən maliyyələşən bu proqramın maliyyə ehtiyatı 1999-cu ildə 4.7 milyard dollar təşkil edirdisə 2000-ci ildə 5.27 milyard dollara bərabər idi. Bu proqramda əsas məsələlərdən biri də uşaq bağçalarına qədərki dövrdə qayğı (körpələr nəzərdə tutulur), sağlamlıq məsələlərində əhalinin ümumi yaşayış göstəricilərindən aşağı olan ailələrə müxtəlif dəstəklərin göstərilməsi idi. Bu dəstək ev əsaslı və hər hansı uşaq qayğı mərkəzində olan uşaqları nəzərdə tuturdu. 1995-ci ildən 1998-ci ilə kimi öhdəliyində körpə uşaq və uşaqları olan, həmçinin hamilə qadınlara verilən maddi dəstək üzrə federal büdcədən ayrılmaların miqdarı 47.2 milyon dollardan 279 milyon dollara qədər yüksəlmişdi (5, s.60).

Statistik məlumatlara əsasən 1997-ci ildə afrika mənşəli amerikalıların 40%-i, latın mənşəlilərin 38%-i, ağdərililərin və qeyri-ispan mənşəlilərin 13%-i əhalinin ümumi yaşayış göstəricilərindən aşağı səviyyədə olan ailələrdə yaşayırdı. ABŞ üzrə bu sahədə orta göstərici 22.0% hesab edilirdi. Maddi rifahın nəticələri kimi 1995-ci ildə altı yaşa qədərki uşaqların 60%-i ictimai əsaslarla fəaliyyət göstərən və ya özəl uşaq bağçalarında deyil ev şəraitində, qohum və yaxınların himayəsində, ailə, uşaq qayğı evlərində və mərkəzlərində məktəbəqədərki təhsilə cəlb edilmişdi. 1993-cü il öhdəsində yeni doğulmuş və beş yaşına qədər uşaq və uşaqların olduğu işləyən ailələrin əksəriyyəti uşaq qayğı mərkəzlərinə həftəlik 74 dollar məbləğində maliyyə vəsaiti ödəyirdi. ABŞ-ın Siyahıyaalma Bürosunun 1995-ci ilə olan məlumatına əsasən əgər maddi rifahları normal olan ailələr gəlirlərinin cəmi 7%-ni uşaqların saxlanılmasına sərf edirdisə, digər ailələr bu məqsədlə gəlirlərinin 18%-ni xərcləməli olurdu (5, s.11).

Kifayət qədər böyük ərazisi olan ABŞ-ın əhalisinin XX əsrin son üç dekadasında illik artımı 1%-dən yuxarı hesablanırdı. Belə ki, statistik göstəricilərə əsasən 1975-ci ildə 1999-cu ilin oktyabr ayına kimi əhalinin sayında 220 milyondan 274 milyona qədər artım baş vermişdi ki, bu göstərici Avropanın əksər ölkələri ilə müqayisədə yüksək sayılsa da, qərb sivilizasiyası hesab edilməyən digər ərazilərə nisbətən xeyli dərəcədə aşağı idi. Qərb sivilizasiyalarına xarakterik olan əhalinin yaşlanması prosesi ABŞ üçün də bənzər göstəricilərə malik idi. Bu tendensiya bütövlükdə XX əsrin II yarısında davam etmişdi və əgər 1960-cı ildə əhalinin 65 yaşın üzərində olan təbəqəsi ümumi əhalinin 9.2%-ni təşkil edirdisə 1997-ci ildə bu göstərici 12.0%-ə bərabər idi. Ancaq uşaqlar üçün bu göstəricilər əkslik təşkil edirdi. Belə ki, qeyd edilən illər üzrə 15 yaşa qədər uşaqların əhalinin ümumi sayına olan nisbəti 31.0%-dən 22.3%-ə qədər azalmışdı. Təkcə onu qeyd etmək yetərlidir ki, XX əsrin son on ili ərzində (1990-1999-cu illər) beş yaşına çatmamış uşaqların müvafiq göstəriciləri 7.6%-dən 6.9%-ə kimi (Kolorodo, Şimali Karolina, Ohayo kimi bəzi əyalətlər istisna olmaqla) enmişdi. Eyni zamanda onu da bildirməliyik ki, əhalinin etnik, dil və mədəni müxtəlifliyi üzrə uşaqların artım göstəricilərində fərqlilik müşahidə olunurdu. Belə ki, 1998-ci ilin statistik məlumatlarına əsasən ABŞ-da 15 yaşına çatmamış uşaqların 65%-i ağdərili, 15%-i qeyri-ispan, 15% afrika mənşəlilər, 5%-ni isə ispan mənşəlilər təşkil edirdi. Bu baxımdan əsrin ortalarına nisbətdə qaradərili, ispan mənşəli ailələrdə uşaqların artımı daha yüksək idi. Əhalinin yaşlanması prosesi ümumilikdə İkinci Dünya Müharibəsindən sonra başlamışdı və hətta 1950-ci ildə Federal hökumət səviyyəsində "Əhalinin yaşlanmasına dair Milli Confrans" keçirilmişdi (5, s.38).

ABŞ-da mental mühitin ənənələri və müxtəlif sosial aktların nəticəsi idi ki, İkinci Dünya Müharibəsindən sonra o, boşanmaların sayına görə dünyada lider idi. Boşanma aktları nəticəsində, eləcə də bir və ya hər iki valideyinin itirilməsi nəticəsində xüsusi qayğıya ehtiyacı olan uşaqlara sosial dəstək dövlətin bu sahədə olan siyasətinin əsas prioritetlərindən idi (6, s.98).

Aztəminatlı ailələrə yardımın dövlət üçün prioritet təşkil etməsi, əhalinin qocalmasının qarşısının alınması üçün tədbirlərin, uşaqların təhsil, sağlamlıq problemlərinin həllinə dəstəyin göstərilməsinin vacibliyi federal hökumətin bu sahəyə maliyyə ayrılmalarını artırılmasını təşviq edən səbəblərdən idi. Bu sahəyə ayrılmalar isə əsasən ABŞ-ın Sağlamlıq və İnsan Xidmətləri Departamenti, Təhsil Departamenti tərəfindən idarəçilikə baş tuturdu. Ayrılan maliyyə resurslarının Sağlamlıq və İnsan Xidmətləri Departamenti tərəfindən idarə edilən əsas irihəcmli qrant sistemləri aşağıdakılar idi:

- "Əsas başlanğıc və Erkən Əsas Başlanğıc (uşaqlara təhsil sahəsində dəstəyin göstərilməsi, üç yaşdan beş yaşadək, körpə və üç yaşınadək uşaqları olan aşağı gəlirli ailələrə göstərilən xidmətin inkişafı).
- "Uşaq Qayğı və İnkişaf Fondu" (qazancları ölkə üzrə ümumdaxili məhsulun 85%-dən az olan, valideynləri işləyən ailələr üçün uşaqlara baxım məqsədilə lazım olan subsidiyaları verirdi).
- "Sosial Xidmətlərə Blok Grant" (Sosial Müdafiə aktının XX Başlığına əsasən sosial xidmətlər üçün qrantların verilməsini təmin edirdi).

ABŞ Təhsil Departamentinin nəzarətin və idarəçiliyi ilə isə aşağıdakı qrant sistemləri fəaliyyəti göstərirdi.

- Sosial Müdafiə aktının I Başlıq proqramları (iqtisadi cəhətdən çatışmazlığı olan ailələrin himayəsində olan uşaqlar təhsil alan məktəblərin maliyyələşdirilməsi).
- "Hətta Başlayın" (ailələri maarifləndirmə proqramları).
- İDEA (Əlilliyi Olan Şəxslər üçün Fərdi Təhsil aktında nəzərdə tutulan qaydada qrantların ayrılması.

Digər federal səviyyəli fondlar isə aşağıdakılar idi.

- Qayğıya Bağlı Vergi Krediti (13 yaşadək uşaq və uşaqlara baxımın təmin edilməsi məqsədilə geri qaytarılmayan kreditin verilməsini nəzərdə tuturdu və ABŞ-ın Vergilər Departamenti tərəfindən idarə olunurdu. Bu proqrama əsasən valideynlər bir uşaq üçün baxım xərclərini 2400 dollar, birdən artıq uşaqlar üçün 4800 dollar məbləğində tələb edə bilər və bunun qarşılığında bir uşaqlı valideynlər üçün 720 dollar, birdən artıq uşaqlı valideynlər üçün 1440 dollar məbləğində geri qaytarılmayan vergi krediti ayrıla bilərdi).

- Uşaq və Yetkinlik yaşında olanlar üçün Ərzaq Proqramı (Bu proqrama əsasən lisenziyalı uşaq qayğı mərkəzləri, az gəlirli ailələr üçün qidalanma xərcləri miqdarında subsidiyalar ilə təmin edilirdi. Bu proqrama idarəçiliyi və nəzarəti ABŞ-ın Kənd Təsərrüfatı Departamenti həyata keçirirdi).

- Qayğıya Bağlı Köməklik Planı (Vergi ödəyicisi olan və öhdəsində 0-14 yaşlı uşaq olan valideyinə illik gəlirinin 5000 dollarını vergidən kənar dəyərləndirmək imkanı verirdi. Bu proqrama da ABŞ-ın Vergilər Departamenti idarəçilik və nəzarət edirdi) (5, s.59-61).

Qeyd edilən proqramlar sistemi bütövlükdə böyük maliyyə vəsaitlərini özündə ehtiva edirdi. Misal üçün qeyd etmək olar ki, 1999-cu ildə bu vəsaitlərin ümumi həcmi on milyard yüz milyon manata bərabər idi. Bundan başqa ayrı-ayrı ştatların uşaqlara və uşaqlı ailələrə dəstək məqsədilə onlarla proqramları bu sahədə federal məsuliyyətinin bölünməsini təmin edirdi.

Federal səviyyədə uşaq siyasətini həyata keçirmək üçün görülən işlərdən biri də 1995-ci ildə Uşaq Qayğı Bürosunun və Milli Uşaq Qayğı Məlumat Mərkəzinin yaradılması idi. Bundan başqa qanunvericilik aktlarındakı dəyişikliklər, habelə əlaqəli yeni aktlarının qəbul edilməsi də bu qəbildən idi. Bunların sırasında "Uşaq İstismarının Qarşısının Alınması və Müalicə Aktı" (1974), "Hindi Uşaqların Rifahı Aktı" (1978), "Uşaq İstismarı Qarşısının Alınması, Övladlığa Götürmə və Ailə Dəstəklənməsi Xidmətləri Akt" (1988) "Övladlığa Götürməyə Kömək və Uşaqların Rifahı Aktı" (1980), "Hərbi Uşaq Baxımı Aktı" (1989), "Ailə qorunması və dəstəklənməsi Xidmətləri Proqramı Aktı" (1993), "Övladlığa Götürmə və Ailələrin Qorunması Aktı" (1997), "Uşaq Zorakılığı, Məişət Zorakılığı, Övladlığa Götürmə və Ailə Xidmətləri Aktı" (1992), "Ölkələrarası Övladlığa Götürmə" (2000) kimi qanunvericilik aktlarını qeyd etmək olar (2, s.299). 1960-70-ci illərdə uşaqlara qarşı zorakılıq aktlarının sayında artım statistikasının qeydə alınması "Uşaq İstismarının Qarşısının Alınması və Müalicə Aktı"nın qəbul edilməsi ilə nəticələndi (3, s.70).

XX əsrin sonlarında federal hakimiyyət dairələrində və cəmiyyətdə daha çox müzakirə edilən məsələlərdən biri də ABŞ-da uşaqların tibbi sığortaya cəlb edilməsi məsələsi idi. Bunun səbəblərindən biri də uşaqlar arasında ölüm hallarının faiz etibarilə artması, əhalinin 18 yaşadək olan qisminin azalmasının statistik göstəricilərdə özünü göstərməsi idi. 1987-ci ildən 1994-cü ilə kimi olan müddət ərzində statistik göstəricilərə nəzər yetirərkən tam tibbi sığortaya cəlb edilmiş uşaqların ümumi göstəricilərə nisbətdən 74%-dən 66%-ə kimi azaldığını görürük. Bu zaman eyni zamanda ABŞ əhalisinin sığortalanmasında ailələrin gəlirlərinin təsirinin və hətta irqi ayrıseçkiliyin nümunələrini sezmək mümkündür. Belə ki, müvafiq dövr ərzində ağ amerikalı ailələrdən olan uşaqların 93%-i, qara ailələrdən olanların 88%, ispan mənşəli ailələrdən 79% təşkil edirdi.

Lakin bu sahədə dövlət proqramlarının icrası qısa müddətdə öz müsbət nəticəsini göstərmişdi. Əgər həmin proqramlar çərçivəsində sığortalanmaların həcmi 1987-ci ildə 19% təşkil edirdisə, 1993-cü ildə 23%-ə qədər artım olmuşdu. 1999-cu ilə kimi dövlət tərəfindən



sığortalanmada yenidən azalma baş versə də həmin ildən başlayaraq dövlətin bu sahəyə maliyyə ayırmalarının artması ilə sığortalananların faiz göstəriciləri də artmağa başladı. Sığortalamaların növü həmin dövrdə uşaqların yaş göstəricilərindən asılı olaraq dəyişirdi. Daha kiçik yaşda olanların tibbi sığortaya cəlb edilməsi əsasən dövlət proqramları çərçivəsində həyata keçirilirdisə, böyük yaşda olan uşaqların sığortalanmasında özəl sığortalama sistemi üstünlük təşkil edirdi (10, s.216).

Ştat tibbi sığortaları işləyən, lakin aztəminatlı sayılan ailələrin övladlarını sığortalamalarını üzərinə götürürdü. Müvafiq qanunvericilik aktı 1997-ci ildə prezident C.Klinton tərəfindən imzalanmış "Sosial təminat haqqında" qanun kimi tanınmışdır. Bu qanunun hazırlanmasına ehtiyac Medikeyd proqramı üzrə dəstəklənmək üçün tələb olunan aylıq müavinətlərin müəyyən edilmiş yuxarı həddi qədər aylıq qazancı olmayan ailələrin övladlarının sığortalanmaması ilə əlaqədar problemlərin getdikcə böyüməsi idi. Qeyd etmək olar ki, dövlət sığortalanması sahəsində problemlərin həll edilməsi və yeni qanunvericilik aktlarının qəbul olmasında C.Klinton böyük səy göstərmiş, hətta 1993-1994-cü ildə onun həyat yoldaşı H.Klinton da bu işə fəal qoşulmuşdu.

Uşaqlara sosial qayğının göstərilməsi prosesində önəmli məsələlərdən biri də valideyn himayəsindən məhrum uşaqların uşaq mərkəzlərində yerləşdirilməsi idi. Bu istiqamətdə sosial məqsədli ictimai birliklərin fəaliyyəti dövlətin siyasi xəttinə dəstək idi. 1874-cü ildə "Uşaqlara Qarşı Qəddarlığın Önlənməsi Nyu-York Cəmiyyəti"nin yaranması ilə uşaqların müdafiəsi ilə bağlı görüləcək işlərin siqnalı rolunu oynamağa başladı. XX əsrdə bu tip sosial cəmiyyətlərin sayı sürətlə artmağa başladı və artıq əsrin ortalarında 250 belə ictimai qurum fəaliyyət göstərirdi.

1965-ci ildə ABŞ-da yalnız 18 ştatda dövlət tərəfindən təsis edilmiş ictimai əsaslı uşaq bağçaları fəaliyyət göstərirdi. Bu tendensiyanın artması nəticəsində 1970-ci ildə artıq beş yaşınadək olan uşaqların 80%-i ictimai uşaq bağçalarına gedirdi. 2000-ci ildə isə bütün ştatlarda universal tipli uşaq bağçaları fəaliyyət göstərirdi. 1998-ci ilə qədər ştatların 28-i məktəbəqədər təhsil verməyi öhdəsinə götürmüş uşaq bağçaları yaratmışdı.

Azyaşlı uşaqların təhsil, tibbi və sosial problemlərinin dövlət tərəfindən həll edilməsinə köməklik göstərilməsi məsələləri ABŞ-da Uşaqlara Erkən Təhsil və Qayğı Sistemi (ECEC) kimi tanınmışdır. Bu sistemə müxtəlif federal və ştat səviyyəli proqramlar, aktlar daxildir. Əmək marketinqi siyasəti, ictimai (sosial) dəstək siyasəti, təhsil sistemi, uşaqların rifahı siyasəti və uşaq inkişafı araşdırmaları ECEC-in genişləndirilməsi prosesində mühüm rol oynamışdır. Bu

sistemin təsir imkanlarının genişləndirilməsində 1996-cı ildə kasıb və tənha analara, həmçinin uşaqlara sosial dəstək və yeni ictimai kömək göstərilməsini nəzərdə tutan və "rifah islahatı" adlandırılan bir sıra qanunvericilik aktlarının müzakirə və qəbulu olmuşdur. "Fərdi məsuliyyət və əmək imkanlarının razı-laşdırılması haqqında Akt"ın (PRWORA 1996) qəbul olunması onu göstərirdi ki, maddi rifahı yaxşı olmayan anaların əksəriyyətinin körpə uşaqlarının olmasına baxmayaraq daha çox işləməyə ehyitacları vardır (2, s.67).

Əlavə olaraq, ECEC-ə daxil olan uşaq qoruma, ailə dəstəkləmə proqramları valideynlik bacarıqlarının inkişaf etdirilməsinə köməklik göstərilməsi məqsədilə uşaqlara qayğının təklif edilməsi, informasiya və təbliğat işlərinin aparılması, həftəlik və ya aylıq ailələrin ziyarət edilməsi (evlərə baş çəkmə) valideynlik siniflərinin fəaliyyət göstərməsi kimi xidmətləri təşkil edilirdi. Onlar ümumilikdə üç yaş altında (daha böyük yaşlı uşaqlar da daxil ola bilərdi) uşaqları olan ailələrə xidmət göstərir, uşaqlara dəstəyi, ailələrə iş və təhsil istiqamətində təlim keçmə sahəsində əlaqələndirmə rolunu oynamağa cəhd edirdilər. Bu proqramlar daha çox az gəlirli insanları (qrupları) hədəf almışdı. Həmin ailələrə xidmət göstərən şəxslər sosial vəzifəli hesab olunurdular. Bu baxımdan ilk olaraq ananın qazancı ailənin dolanışığında əsas pay sahibi olduğu ailələrə və ya tək valideynli ailələrə müraciət edilirdi. Yoxsul (kasıb) analar övladlarını anadan olmasının üç aylı-ğından daha tez qayğı müəssisələrinə yerləşdirə bilərdilər (1, s.128).

1995-ci ildə uşaqların müdafiəsi, sosial dəstək, övladlığa götürülmə və s. kimi məsələlərə həsr olunan proqramlara federal diqqətin nəticəsi idi ki, bu sahəyə ayrılmış federal büdcə 11.2 milyard dollar təşkil edirdi. Qeyd etmək vacibdir ki, XX əsrin sonunda övladlığa götürülmə məsələləri olduqca aktual xarakter daşımış və uşaqların rifahı ilə bağlı ən böyük proqramlar məhz bu istiqamətdə maliyyələşənlər olmuşdu. Göstərilən proqramlar və layihələr içərisində "Müstəqil uşaqlı ailələrə yardım" proqramının xüsusi əhəmiyyəti var idi. Belə ki, bu proqram övladlıq edilən uşaqların federal və ştatlar səviyyəsində sosial müdafiəsinə hesablanmış və bu məqsədlə federal və ştatların büdcəsindən lazımı qədər maliyyə resursları ayrılmışdı (9, s.28).

Beləliklə qeyd edilən dövrdə ABŞ-ın uşaq siyasətində əsas prioritet olan problemlərin həlli istiqamətində federal səviyyədə xeyli işlər görülmüş oldu. Xüsusilə uşaqların sağlamlıq, təhsil, tibbi sığorta problemlərinin həlli istiqamətində mühüm işlərin həyata keçirilməsi öz müsbət nəticələrini vermiş oldu.

## ƏDƏBİYYAT

*1. American Humane Association. Twenty years after CAPTA: A portrait of the child protective services system. Englewood, CO: AHA, 1994*

*2. B.Myers: Child protection in America: past, present, future. 2010*

*3. Children out of school in America. Children Defence Fund of the Washington R/P. 1974*

*4. Children's Defence Fund. The State of America 's Children. 1991*

*5. OECD Country note early childhood education and care policy in the USA. 2000*

*6. R. Pear: Many states fail to meet mandates on child welfare. The New York Times. March 17, 1996*

*7. R.Magen: Domestic violence in child welfare preventative services. New York 1997*

*8. R.Kelly: The children's internet protection Act in public Schools. Fordham Law Rewiev/ V.71/I5. 2003*

*9. S.B.Kamerman, S.G-Gabel: Early childhood education and and care in the USA. İnternational Journal of Child Care and Education Policy. 2007, vol.1, 23-34*

*10. The Child abuse prevention and Treatment act – 40 Years of safeguarding America's children. 2014*

**Açar sözlər:** *ABŞ, uşaq siyasəti, sosial rifah, sosial layihə, uşaqlara erkən təhsil.*

**Key Words:** *USA child policy, social welfare, social project, early childhood education.*

**Ключевые слова:** *США, детская политика, социальное благополучие, социальный проект, раннее детское образование*

**SUMMARY**

**Important features of child policy at the federal level in the United States**

This article is about realizaton of child policy of USA in federal level in the second half of the 20th century. Children's rights, organization of social services, adoption of legislative acts on education, helth problems and state policy implementation in this area during the mentioned period investigated in this article as well. Preparation and application programme and projects about state child welfare policy, their mechanism in federal and states level marked in this investigation. According to research of state policy in federal level we can say that by the increasing of state's attention favouruable solution problems in the area of child welfare after Second World War positive results.

**РЕЗЮМЕ**

**Важные особенности детской политики на федеральном уровне в Соединенных Штатах.**

Статья посвящена претворению в жизнь детской политики на федеральном уровне США во второй половине 20-го века. Излагаются права детей в США, организация социальных услуг, образование, здравоохранение и принятие соответствующих законодательных актов за рассматриваемый период. В статье, также, отражены процессы разработки и механизмы реализации программ и проектов на уровне штатов в связи с федеральной детской политикой в указанной сфере. Исследования в этой сфере демонстрируют, что в США значительно возросло внимание к детской политике на федеральном уровне и на уровне штатов за период после Второй мировой войны, что дало свои положительные результаты.

# Tarix

## AZƏRBAYCAN SƏFƏVİ İMPERİYASINDA NÜFUZ UĞRUNDA AVROPA DÖVLƏTLƏRİNİN MÜBARİZƏSİ (“KARMELİT XRONİKASI” ƏSASINDA)

SEVİNC MƏLİKZADƏ
AMEA-nın Tarix İnstitutu



Aparılan araşdırmalar göstərir ki, Avropa kapitalının Səfəvi dövləti hüdudlarındakı bazara çıxışı uğrunda XVI əsrdə başlanmış mübarizə XVII əsrin əvvəllərində daha da güclənir. Şərq bazarında hökmranlıq uğrunda Hollandiya, Venesiya, Portuqaliya və İngiltərə kapitalları arasında mübarizənin gedişində Venesiya kapitalı arxa plana keçir. Bunun əsas səbəbi o idi ki, Venesiya ticarət kapitalı tacirlərin kapitalından təşkil olunmuşdu və onun inkişafı yerli istehsal məhsullarının digər ölkələrə ixracı ilə deyil, Şərq ölkələri ilə kapitalist Avropası arasında ticarət vasitəçiliyi ilə şərtlənirdi [5, 340-341]. Odur ki, XVII əsrin əvvəllərindən etibarən Şərqdəki satış bazarlarında nüfuz dairələri uğrunda mübarizə əsasən 3 ölkə - İngiltərə, Portuqaliya və Hollandiya arasında cərəyan etməyə başlayır.

Məlum olduğu kimi, Portuqaliya və İspaniya taxt-tacı II Filippin şəxsində birləşdikdən sonra Portuqaliya dənizdə super qüvvəyə çevrilir. Məğlubedilməz armada 1588-ci ildə dənizdə məğlubiyyətə düçar olduqdan sonra birləşmiş dövlətin dənizdə ... şəksiz hökmranlığı sarsılır. Bundan sonra Böyük Britaniyanın dəniz əlaqələrini genişləndirmək iddiaları daha da artır [2, 545]. G.Kurzon yazır ki, artıq 1591-ci ildə London tacirləri şəxsi təşəbbüslə şərqlə dəniz vasitəsilə ticarət etməyə cəhd edirlər, lakin bu, müvəffəqiyyətsizliklə başa çatır. Bir il sonra 1592-ci ildə Portuqaliyanın “Madre di Diaz” adlı gəmisi ingilislər tərəfindən ələ keçirilir, Dortmunda gətirilir. Onun içərisində böyük miqdarda şərqdən gətirilmiş mallardan başqa Portuqaliyanın şərqdəki ticarəti və mülkiyyəti barədə qeydiyyat jurnalı da aşkarlanır. 1599-cu ildə “Şərqi Hind Kompaniyası” yaradıcılarının Yelizavetaya (Yelizaveta Tüdor (1558-1603) – S.M.) göndərdikləri memorandum məhz bu sənədə əsaslanırdı [2, 546]. G.Kurzonun fikrincə, ingilislərin ambisiyalarını gücləndirən daha bir informasiya 1598-ci ildə Lissabonda borclu olduğuna görə saxlanılmış hollandiyalı tacir Corneli van Houtmanın Portuqaliyanın Hindistanla ticarətinin əsaslarını işləyib hazırladığı haqda məlumat alınır. Artıq İngiltərə səhnə arxasında qala bilməzdi. 1600-cü ilin 31 dekabrında ... Londonun Şərqi Hind Kompaniyası Kraliça Yelizavetadan ilk razılıq sənədi – pakt alır və gələn il Ceyms Lankasterin komandanlığı altında dörd gəmi ilk

ekspedisiyaya Gravesenddən yola düşür [2, 546]. Venesiya və başqa Qərb ölkələri ilə ipək ticarətini genişləndirməyə Ağqoyunlular kimi,Səfəvilərdə çalışırdılar.Şah Abbas Səfəvi –Avropa ticarət əlaqələrini genişləndirməyə xüsusilə böyük cəhd göstərirdi. Lakin həm Səfəvilərin (xüsusilə Səfəvilərin), həm də Qərb ölkələrinin müvafiq siyasətdə uğursuzluqlarının səbəbi bu idi ki, hər iki tərəf öz aralarında qarşılıqlı əlaqələri genişləndirmək üçün Osmanlı imperiyası ilə anlaşmaya çalışmır, onun mənafeyini nəzərə almır,əksinə onu aradan götürməyə çalışırdılar [ 4,279]. 1622-ci ildə ingilislər yaranmış siyasi vəziyyətdən şah hökumətinin rəğbətini qazanmaq üçün istifadə edirlər. Belə ki, ingilis donanması I Şah Abbasa, portuqaliyalıları, zəbt etdikləri Hörmüzdən və İran körfəzindəki bir neçə adadan qovub çıxartmaqda yardım göstərdi. 1621-ci ildə Şah Abbas ingilis tacirlərinə xam ipəyi birinci əldən almağa razılıq verir. Məlumat üçün onu da qeyd edək ki, yerli tacirlərə belə bir hüquq 1629-cu ildə onun ölümündən sonra, I Şah Səfi tərəfindən bəxş edilir [7, 98]. Məlumatlar da təsdiq edir ki, Şah Səfinin hakimiyyətə gəlişindən sonra Səfəvi dövlətində əlverişli bazar uğrunda İngiltərə-Portuqaliya rəqabətindən sonuncu məğlubiyyətlə ayrılır.

G.Kurzon yazır ki, 1613-cü ildən başlayaraq şərikli əsasda səfərlər edilir. Artıq 1617-ci ildə İsfahanda həm də Britaniya ticarət məntəqəsi bərqərar olunur. Həmin il ... cənab Konnok Şah Abbasla ticarət müqaviləsi imzalayır. 1619-cu ildə Caskda da ticarət məntəqəsi yaradılır [2, 547]. İngilis səfiri daimi olaraq Səfəvi dövlətində qala, öz nümayəndələrini istədiyi zaman ticarət məntəqələrinə təyin edə bilərdi. İngilis mənşəli şəxslərə öz dinlərinə sitayiş azadlığı təmin edilirdi. Bundan əlavə, Şah, Şərqi Hind Kompaniyasını hər il öz qiymətilə 1000-3000 tay ipəklə təmin etməyə söz verir və bu ipəyin Cask limanından gömrük rüsumu ödəmədən keçirilməsinə icazə verir [8, 114].

“Karmelit xronikası”nda Səfəvi-İngiltərə yaxınlaşması və bu yaxınlığı şərtləndirən başlıca amillər belə şərh olunur: “İmam Qulu Xanın Səfəvi imperiyasında böyük nüfuzu var. Yeni şah onunla mərhum Şah Abbasın çağırdığı adla – Xan deyə rəftar edir. Bizə qarşı səmimi və xoşniyyətlidir. Öz səlahiyyətləri çərçivəsində bizə xeyli üstünlüklər verib, biz daha artıq istəklərin də həyata keçirilməsini gözləyirik. Həqiqətən də, İmam Qulu Xan Şərqi Hind Kompaniyasının xəfiyyələrini təşviq etmək, yardım və bu kimi yollarla 1633-cü ildə Portuqaliyaya qarşı Körfəzin girişində ərəb sahillərindəki qalaya yeni bir ekspedisiya təşkil etməyə sövq edirdi” [1, 312]. Məlumatlardan belə nəticə çıxır ki, Səfəvi dövlətində siyasi vəziyyətin stabil olmaması ingilislərin ticarətini genişləndirməsinə mane olur. “Karmelit xronikası” isə məlumat verir ki, İmam Qulu Xanın qardaşı Davud Xan Şahın müdaxilə edəcəyindən ehtiyat edərək, qaynı Gürcü şahzadəsi Teymurazın yanına qaçır, sonradan Türkiyədən sığınacaq alır. Bundan sonra İmam Qulu Xan Saraya çağrıldı, itaət göstərməsinə baxmayaraq 15 övladı ilə birlikdə ölüm hökmünə məhkum edildi, yalnız bir övladı anası tərəfindən babasının yanına, Ərəbistana aparıldı. Belə qanlı hadisələr Şah Səfinin xarakterik xüsusiyyəti deyil. Əvvəlki sadiq xidmətçi İmam Qulu xanın hakimiyyətə yiyələnmək istəyindən xəbər verirdi. Belə ehtimal etmək olar ki, İmam Qulu Xan ölməmişdən əvvəl Şah Səfi ilə münasibətləri korlanmışdı. Digər tərəfdən isə, İran körfəzində Portuqaliya qərargahına hücum planlaşdırılmasını izah etmək çox çətin idi. 17 mart 1631-ci ildə Edvard Hayns və Vilyam Gibson tərəfindən Şərqi Hind Kompaniyasına göndərilən məlumatda deyilirdi: “Portuqaliyalılar Xirazla yenidən ticarət əlaqə-lərini bərpa edib, xüsusi güzəştlər qazanıblar. Avqustin və Karmelitlər İsfahanda Şah tərəfindən yaxşı qarşılanır və Fransız Kappuçinlər (Qeyd: hələ 1627-ci ildə Kardinal Rişelyö Səfəvi dövlətinə Şah I Abbasdan İsfahan və digər yerlərdə kapuçin missiyasının bərqərar olunması üçün icazə almaq



məqsədilə xüsusi elçilik göndərmişdi. Belə ki, o vaxtadək Səfəvi dövlətində avqustinçilər (kapuçinlər məhz bu ordenə daxil idilər – S.M.) ordenini yalnız portuqaliyalılar təmsil edirdi. Nəticə etibarilə İsfahan və Bağdadda missiya fəaliyyətə başlayır. Kapuçin missiyasının başçısı Fransa kralının Səfəvi dövlətindəki nümayəndəsi sayılırdı. Pyer Rafael dü Man onlardan biri idi ki, 1644-cü ildən ömrünün sonunadək Səfəvi dövlətində olmuşdu [7, 120]) şahla Fransız Kompaniyasına ipək satışını təmin etmək üçün müqavilə imzalamışlar" [1, 313]. Göründüyü kimi, Şərqi Hind Kompaniyasının nümayəndələri Səfəvi imperiyasında əlverişli məqam axtarır, bəzən isə Səfəvi bazarında artıq mövcud olan Portuqaliya və digər rəqiblərini sıxışdırıb çıxarmaq üçün Şahdan imtiyazlar qoparmağa çalışırdılar.

G.Kurzon yazır ki, britaniyalıların hər yeni şahdan əldə etdikləri fərmanlar əvvəlkiləri təsdiqləyir, bir qədər də mükəmməlləşdirir və indiyədək əldə olunmuş razılaşmaları modifikasiya edirdi ki, bu da Səfəvi monarxlarının ciddi kommersiya instinktlərinin formalaşmasından xəbər verirdi. Belə ki, Şah I Səfi öz sələfinin ingilislərə etdiyi güzəşt şərtlərini yenidən bərpa edərkən, onların qarşısında hər il 1500 livres bəxşiş edilməsini, hər il onun özündən 60 min livres dəyərində ipək alacaqları və ödənişin 1/3-nin pul, 2/3-nin isə əmtəə şəklində həyata keçirilməsi barədə şərt qoyur [2, 551]. Bir daha göründüyü kimi, məlumatlar Şah Səfinin öz sələflərinin yolu ilə gedərək, Avropa ilə ticarət əlaqələrinin möhkəmləndirilməsində maraqlı idi.

Tədqiqatlar göstərir ki, yuxarıda bəhs olunan məlumatları Avropada "türk təhlükəsi"nin yenidən alovlanması kimi qələmə verən xristian dövlətləri yenidən Səfəvi imperiyası ilə əməkdaşlığı davam etdirmək əzmində olduqlarını ortaya qoyurlar. Papa X İnnokenti (Pamfili) Şah II Abbasa 30 yanvar 1646-cı il tarixli məktubunda da deyilənlər öz əksini tapmışdır. Məktubda deyilir: "Çox möhtərəm hökmdar, Uca Yaradandan Sizə salam olsun. Zati-alinizin yaxın və uzaq dünyada böyük şöhrəti sizin hakimiyyətinizin bölünməz qüdrətinə çox böyük ümid yaradır. Əlbəttə, Siz taxt-tacınızı qoruyur və bunu təkcə düşmənlərinizin işğallarını,onların gücü və şücaətini silahlar vasitəsilə dəf etməklə deyil, lakin həm də Sizin hakimiyyətiniz və ölkəniz indi bütün dünyada qəddar Türk tiraniyasına qarşı mübarizə aparmalı olacaq. O, hazırda Venesiya Respublikasına qarşı çox təhlükəli bir vəziyyət yaradıb, Krit adasını işğal edib və gözlənilmədən Kanea şəhərini tutub ... Buna görə də xristian şahzadələri onun çirkin hücumlarına qarşı bir cəbhə yaratmaq istəyir və bu sizin üçün çox ehtiyatlı bir plan olacaq, birgə güclü ordu ilə onun sərhədlərinə qarşı düşmənçiliyə başlaya bilərsiniz. Onlarla birlikdə siz əvvəlki itirilmiş əraziləri də geri qaytara biləcəksiniz. Əlbəttə, qüvvələr az ola bilər, bununla belə, onlar xristianlar əleyhinə döyüşdə onlar böyük itki görəcəklər. Ümid edirik ki, Uca Yaradanımızın mərhəməti sayəsində onları məğlub edib, əvvəlki mövqelərinə çəkilməyə məcbur edəcəyik ... Zati-aliləri, Sizdən gizli deyil ki, bu ərazilər üçün türk tiraniyası necə təhlükəli bir vəziyyət yarada bilib ... Beləliklə, biz cəhdlərimizi imkanlarınız sayəsində birləşdirməyə ümid edirik. Qoy Uca Yaradan birgə düşmənə qarşı mübarizədə bizə öz mərhəmətini əsirgəməsin. Bu məktubları Sizə gətirən şəxsdən Sizə tam əminlik ifadə edir, şəxsinizə uğurlar diləyirəm ..." [1, 356]. Məktubun mətnindən də aydın olur ki, incə və ehtiyatlı siyasət yürüdən Papa və ardıcılları "türk təhlükəsi"ni həzm edə bilmədiklərindən Səfəvi imperiyası timsalında özlərinə dayaq axtarır, Osmanlı dövlətini qəddar və tiraniya rejimi kimi qələmə verir, özlərinin yürütdükləri xristian missiyasını isə ümumi siyasətin fonunda "unudurdular".

Aparılan araşdırmalar göstərir ki, Hollandiya ticarət kompaniyaları Şərqdə öz rəqabət qabiliyyətlərini gücləndirmək üçün 1602-ci ildə bir təşkilatda – Hollandiya Şərqi Hind Kompaniyasında birləşir və 20 il ərzində İran körfəzində ticarət sahəsində demək olar ki, inhisar hüququna malik olur. Hollandlar Səfəvi dövləti ilə ticarətdə ön plana çıxırlar [3, 317]. 1652-ci ildə Bəndər-Abbasda olmuş Tavernye isə göstərir ki, hollandiyalılar 100.000-120.000 funt-sterlinq məbləğində ticarət edirdilər. Hollandiyalıların Səfəvi dövləti ərazisində ticarət sahəsində müstəsna hüquqlar əldə etməsi məsələsinə aydınlıq gətirən A.Vilson yazır: "İran körfəzinə böyük donanma gətirmiş hollandiyalılar 1645-ci ilin payızında ... Qişmdəki qalaya hücum təşkil edirlər. Bundan qorxuya düşmüş Şah ... hollandlara daha əlverişli ticarət hüquqları bəxş olunması müqabilində sülh bağlamağı təklif edir. Müəllif daha sonra yazır ki, hollandiyalılar 1649-cu ildə İran hökumətindən ... daha yeni güzəştlər əldə edirlər ki, bu, sonuncunun (Səfəvi şahının – S.M.) onlara olan ehtiramından deyil, qorxusundan irəli gəlirdi. 1650-ci ildə hollandiyalıların üstünlüyü portuqalların Məsqətdən qovulub çıxarılması ilə daha da güclənir" [9, 164]. G.Kurzon isə yazır ki, 1652 və 1666-cı illərdə Hollandiyalı səfirlər İsfahana gələrək, ticarət əlaqələrini daha da yaxşılaşdırmaq məqsədilə danışıqlar aparırdılar. J.Şardenin yazdığı kimi, heç bir millət əsrin ortalarında (XVII əsr – S.M.) İran ticarəti sahəsində hollandiyalılarla müqayisə ediləcək belə səviyyədə deyildi və onlar İranla ticarətin ustaları idilər. İngilislər hollandiyalılarla rəqabətdən çox əziyyət çəkirdilər və bu səbəbdən XVII əsrdə İran körfəzində təəccüb doğuracaq qədər pis vəziyyətdə idilər [2, 550].

Yuxarıda qeyd olunan bu məlumatlar "Karmelit xronikası"nda da əksini tapmışdır. Keşiş İqnatius Bəsrdən Romaya 10 yanvar 1644-cü il tarixli mək-tubunda yazırdı: "İmam, Ərəb Kralı Məsqət uğrunda mübarizə aparır. O, Suharı ələ keçirib" [1, 358]. 15 fevral 1647-ci il tarixli məlumatda isə deyilirdi: "Bu il Məsqət dəhşətli müharibə meydanı olub, qonşu ərəblər buraya tez-tez hücum edir."[1, 358].Bəsrədən verilən 18 avqust 1652-ci il tarixli digər bir məlumatda isə deyilirdi: "Portuqaliyalılar çox güclü ordu ilə ərəblərə qarşı vuruşur və böyük irəliləyiş əldə ediblər" [1, 359]. Məlumatların müqayisəli təhlili də göstərir ki, Səfəvi ticarəti uğrunda Portuqaliya, Hollandiya və İngiltərə qarşıdurması XVII əsrin ortalarında toqquşmalara gətirib çıxarmışdır. Müstəmləkə və ticarət məntəqələri uğrunda mübarizədə isə yerli xalqların hüquqları o dərəcədə alçaldırılırdı ki, hətta müxtəlif vaxtlarda çoxsaylı insan itkiləri ilə müşahidə olunurdu. Bununla yanaşı, müstəmləkə siyasətini dəstəkləyən Papa və onun regiondakı

rahibləri öz qanlı əməllərinə elə don geyindirirdilər ki, sanki Hind okeanı və Fars körfəzi sahili ərazilərin əsarətdə saxlanılması xristianların hüquqlarının qorunması şüarı ilə eyniyyət təşkil edirdi.

Karmelitlərin sonrakı məlumatlarında isə ticarət sahəsində mövcud rəqabət, mənafelərin toqquşması, ingilis-holland və ingilis-portuqaliya qarşıdurmasından bəhs olunur. Bu baxımdan 1653-cü ilin müxtəlif ayları ərzində göndərilmiş məktublar olduqca maraq kəsb edir. Bəsrədən 6 fevral 1653-cü ildə rahib Feliks tərəfindən göndərilən məktubda deyilirdi: "... Hollandlar Körfəzdə Portuqaliya gəmisini ələ keçirib. Onlar özlərini Fars Körfəzinin sahibi kimi aparır ... Hollandlar bütün Hindistan və İran ticarətinin sahibi olaraq qalır. Bu il Bəsrə limanına nə İngiltərə, nə də Portuqaliya gəmiləri gəlib, burada biz maliyyə çətinlikləri ilə üz-üzəyik ... " [1, 360].

Beləliklə aparılan araşdırmalar göstərir ki, Avropa kapitalının Səfəvi dövləti hüdudlarındakı bazara çıxışı uğrunda XVI əsrdə başlanmış mübarizəsi XVII əsrin əvvəllərində daha güclənir. Şərq bazarında hökmranlıq uğrunda Hollandiya, Venesiya, Portuqaliya və İngiltərə kapitalları arasında mübarizənin gedişində Venesiya kapitalı arxa plana keçir. XVII əsrin əvvəllərindən etibarən Şərqdəki satış bazarlarında nüfuz dairələri uğrunda mübarizə əsasən 3 ölkə - İngiltərə, Portuqaliya və Hollandiya arasında cərəyan etməyə başlayır.

XVII əsrin əvvəllərindən etibarən İsfahandan Karmelit ordeninin üzvləri tərəfindən göndərilən məlumatlarda Hollandiyanın Portuqaliya və İngiltərə üzərində şəriksiz qalibiyyətindən bəhs olunurdu.

Şərqi Hind Kompaniyasının nümayəndələri Səfəvi imperiyasında əlverişli məqam axtarır, bəzən isə Səfəvi bazarında artıq mövcud olan Portuqaliya və digər rəqiblərini sıxışdırıb çıxarmaq üçün Şahdan imtiyazlar qoparmağa çalışırdılar.

Roma Papalarının və Avropa səfirlərinin Səfəvi hökmdarları ilə yazışma-larının mətni isə açıq-aşkar göstərir ki, incə və ehtiyatlı siyasət yürüdən Papa və ardıcılları "türk təhlükəsi"ni həzm edə bilmədiklərindən Səfəvi imperiyası timsalında özlərinə dayaq axtarır, Osmanlı dövlətini qəddar və tiraniya rejimi kimi qələmə verir, özlərinin yürütdükləri xristian missiyasını isə ümumi siyasətin fonunda "unudurdular."


## ƏDƏBİYYAT

1. *A Chronicle of Carmelites in Persia: The Safavids and the Papal Mission on the 17th and the 18th centuries. Editor H Chick, Introduction Rudi Matthee. Publisher: İ.B.Tauris: In 2 volumes. London, 2012.*
2. *Curzon G.N. Persia and Persian question. Vol. 2, London, 1892.*
3. *Dadaşova R. Səfəvilərin son dövrü. Bakı: Nurlan, 2003.*
4. *Mahmudov Y.M. Azərbaycan diplomatiyası. Bakı : Təhsil, 2006.*
5. *Маркс К. Капитал. Т. 3, Госполитиздат, 1951.*
6. *Мюллер А. История Ислама.с основания до новейших времен (пер. с немецкого под. ред. Н.А. Медникова). Т. 3, Спб, 1896.*
7. *Новосельцев А.П. Города Азербайджана и Восточной Армении в 17-18-го вв. История СССР, 1959.*
8. *Savory R.M. Iran under the Safavids.*
9. *Wilson A.T. The Persian Gulf.A historical Sketch from the earliest times to the beginning of the 20th century. Oxford.*



**Ключевые слова:** *Империя Сафавидов, Османская империя, Англия, Нидерланды, Португалия, Хроника Кармелит.*

**Keywords:** *Empire of Safavids, Ottoman Empire, England, Netherlands, Portugal, Chronicle of Carmelite.*



**РЕЗЮМЕ**

**Борьба европейских государств за влияние в империи Сефевидов (на основе «Хроники кармелитов»)**

В статье рассматривается фактор антитурецкой коалиции в борьбе за европейское влияние в империи Сефевидов. Исследования показывают, что борьба за европейский капитал в XVI веке для выхода на рынок империи Сефевидов была сильнее в начале 17 века. На переднем плане стояла одна линия в ходе борьбы между голландскими, венецианскими, португальскими и британскими столицами за господство на восточном рынке. Папа римски и европейские послы правителей Сефевид переписки, но тексты ясно показывают, что тонкая и тщательная политика пап и последователей «турецкой угроза» пищеварительная система не в состоянии Сефевид империи в лице и бил их, ища Османскую империю жестока и тиранию, как способ письма, который они «пропустили» свою христианскую миссию на фоне общей политики.



**SUMMARY**

**The struggle of the European states for influence in the Azerbaijan Safavid Empire (based on the "Carmelite Chronicle"**

The article considers the factor of the anti-Turkish coalition in the struggle for European influence in the Safavid empire. Studies show that the struggle for European capital in the 16th century to enter the market of the Safavid empire was stronger in the early 17th century. In the foreground there was one line in the struggle between the Dutch, Venetian, Portuguese and British capitals for domination in the eastern market. Rome papalarının and European ambassadors of the Safavid rulers correspondences, but the texts clearly show that the subtle and thorough policy of popes and followers of the "Turkish threat" of the digestive system is not able to Safavid Empire in the face and beat them, seeking the Ottoman Empire cruel and tyranny as a way of writing, which they "missed" their Christian mission on the background of a common policy.

# Region

VASİF NƏBİYEV
Bakı Dövlət Universiteti

## QIRĞIZISTAN RESPUBLİKASININ AZƏRBAYCAN RESPUBLİKASI İLƏ ƏLAQƏLƏRİ (1993-2016-cı illər)



Mərkəzi Asiya geosiyasi cəhətdən önəmli çəkiyə malik, təbii sərvətlərlə zəngin və bəşər tarixinin mühüm sivilizasiyalarına ev sahibliyi etmiş əhəmiyyətli bir regiondur. Regionun istər coğrafi mövqeyi, istərsə də zəngin təbii sərvətləri Mərkəzi Asiyanı böyük və regional güclərin geosiyasi maraqlarının toqquşduğu məkana çevirir. Mərkəzi Asiya hazırda yüksələn Çin və regionda öz üstün nüfuzunu qorumağa çalışan Rusiya, həmçinin xüsusi maraqları və baxışları olan ABŞ arasında regional dominantlığa nail olmaq uğrunda mübarizə meydanına çevrilmişdir. Bu ölkələrdən əlavə Türkiyə, İran və Hindistan kimi önəmli ölkələrin də regionda xususi maraqları və qeyd edilən "geosiyasi oyunda" özünəməxsus rolları vardır. Xəzər vasitəsilə Azərbaycanla həmsərhəd olan Mərkəzi Asiya ölkəmiz üçün ortaq tarix, dil, din və ənənələrin daşıyıcısı olan xalqların yaşadığı, çoxsaylı azərbaycanlı diasporasına ev sahibliyi edən, ortaq enerji və nəqliyyat maraqlarını paylaşan region, həmçinin önəmli bazar və investisiya məkanı kimi əhəmiyyətlidir.

Mərkəzi Asiya ölkələri ilə ilkin təmaslar və onlar arasında ilk rəsmi sənədlərin imzalanması hələ bu ölkələrin öz mustəqilliyini elan etməsi prosesi tam başa çatmamışdan əvvəl reallaşmışdır. 1991-1993-cu illərdə bütün Mərkəzi Asiya dövlətlərinə Azərbaycanı təmsil edən müxtəlif səviyyəli numayəndə heyətlərinin səfərləri və region dövlətlərinin rəsmi şəxsləri ilə görüşləri keçirilmiş, bir çox istiqamətlərdə əməkdaşlığı nəzərdə tutan sənədlər imzalanmışdır (1,s.277). Müxtəlif

beynəlxalq tədbirlərdəki görüşləri nəzərə almasaq, Azərbaycanın dövlət başçıları son 25 il ərzində Mərkəzi Asiya dövlətlərinə 22 səfər etmiş və beş region dövlətinin prezidentlərinin Azərbaycana 22 rəsmi və işguzar səfəri baş tutmuşdur (7,s.132). Azərbaycan üçün Mərkəzi Asiya bilavasitə qonşuluğumuzda yerləşən, ortaq dil, din, tarix və sivilizasiyanın daşıyıcıları olan xalqların yaşadığı əhəmiyyətli bir regiondur. Belə ki, regionun 5 dövlətindən dördü (Tacikistan istisna olmaqla) türkdilli dövlətlərdir ki, bu dövlətlərlə təkcə ikitərəfli deyil, həmçinin türkdilli ölkələrin müxtəlif inteqrasiya platformaları çərçivəsində də əməkdaşlıq edilir. Eləcə də postsovet məkanının tərkib hissəsi kimi region Azərbaycan üçün xususi əhəmiyyət kəsb edir. Mərkəzi Asiyanı Azərbaycan üçün maraqlı edən amillərdən biri də region ölkələrində mövcud olan diasporamızın fəaliyyətidir. Regionda Azərbaycan diasporası 30-cu illər sovet repressiyaları, ikinci dünya müharibəsi və nisbətən sonrakı dövlərdəki zorla köçurmələr hesabına formalaşmışdır. Hazırda Qazaxıstanda 90 min, Özbəkistan və Türkmənistanın hər birində 60 min, Qırğızıstanda 15 minə yaxın soydaşımız yaşayır (2).

Mərkəzi Asiya fonunda Qırğızıstanla olan əlaqələrimizə nəzər yetirsək ilk öncə onu qeyd etməliyik ki, diplomatik münasibətlər yarandığı gündən Qırğızıstan-Azərbaycan ikitərəfli əməkdaşlığı ənənəvi şəkildə qarşılıqlı surətdə faydalı tərəfdaşlıq, dostluq əsasında qurulmuş və bütövlükdə siyasi, ticarət-iqtisadi, elmi-texniki, mədəni və digər sahələrdə uğurla inkişaf etmişdir. Bu münasibətlərə daim qarşılıqlı etibarın mövcudluğu, ikitərəfli maraq kəsb edən bir çox aktual beynəlxalq və regional məsələlər üzrə mövqelərin yaxınlığı və ya onların tam üst-üstə düşməsi xarakterikdir (7,s.174).

Azərbaycanla Qırğızıstan arasında diplomatik munasibətlər 1993-cü ilin əvvəllərində qurulsa da, bu əlaqələr ilk vaxtlar özunun intensivliyi ilə seçilməmişdir. Mustəqilliyin ilk illərində Azərbaycan-Qırğızıstan əlaqələri, Mərkəzi Asiyanın digər türk dövlətləri ilə olduğu kimi, əsasən beynəlxalq və regional təşkilatların



tərkibində əməkdaşlıq çərçivəsində həyata keçirilmişdir. İki ölkənin dövlət rəhbərləri arasında ilk görüş 1993-cu ilin sonlarına təsadüf etmişdir. Belə ki, həmin ilin dekabrında Türkmənistanda Müstəqil Dövlətlər Birliyinin Dövlət Başçıları Şurasının iclası zamanı Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevlə Qırğızıstan Respublikasının Prezidenti Əsgər Akayevin ikitərəfli görüşü keçirilmişdir. Azərbaycan Respublikasının Prezidentinin Bişkekə ilk işguzar səfəri iki il sonra baş tutmuşdur. 1995-ci ilin avqustunda Türkdilli Ölkələrin Dövlət Başçılarının III Sammitində iştirak etmək üçün Qırğızıstana gedən Heydər Əliyev Əsgər Akayevlə görüşmüş, səfər çərçivəsində həmçinin Bişkekdə "Manas" dastanının 1000 illik yubileyinə həsr edilmiş bayram tədbirlərində iştirak etmişdir (4). 2007-ci il mayın 16-da Azərbaycan Respublikasının Qırğızıstanda səfirliyi açılıb, 2008-ci il yanvarın 18-də isə Qırğızıstan Azərbaycana yeni səfirini təyin edib. Müstəqilliyin ilk illərində Qırğızıstan-Azərbaycan əlaqələrinin genişlənməsində ümummilli lider Heydər Əliyevin əvəzsiz xidmətləri olmuşdur.

Azərbaycan Respublikasında İlham Əliyev prezident seçildikdən sonrada qonşu və regional ölkələrlə münasibətlər yüksək xəttlə inkişaf etdirilmişdir ki, bunu Qırğızıstanla olan münasibətlərə də aid edə bilərik. 2006-cı il noyabrın 17-də Antalyada keçirilən Türkdilli Ölkələrin Dövlət Başçılarının VIII Zirvə görüşu çərçivəsində Prezident İlham Əliyevin Qırğızıstan Respublikasının Prezidenti Kurmanbek Bakiyevlə görüşu baş tutmuşdur. 2009-cu ilin sentyabrın 28-də Bakıda Türkdilli Ölkələrin Parlament Assambleyasının (TürkPA) açılışı baş tutdu ki, təsisçi dörd ölkə-Azərbaycan, Türkiyə, Qazaxıstan və Qırğızıstan parlament nümayəndələri iştirak ilə iki günlük sammit olmuşdu. Gərargah şəhəri Bakıda yerləşən TürkPA-nın baş katibliyi təsis edilmişdir. Qırğızıstan Toraqa Joqorku Keneşinin (parlament) spikeri A.Taqayev sammitdə TürkPA-nın əhəmiyyətindən bəhs edərək-"türkdilli ölkələrin sammitinin bu ölkələrin bir-birlərinə yaxınlaşmasında böyük rol oynamasını" qeyd etmişdir (8,s.133).

Son dövürdə Qırğızıstan və Azərbaycan arasında parlamentlərarası əlaqələr kifayət qədər inkişaf edir. Belə ki, 2014-cü il iyunun 11-də Bakıda səfərdə olan Qırğızıstan Respublikası parlamentinin sədri A.Jeenbekov TürkPA-ya üzv ölkələrin 5-ci plenar iclasında iştirak etmişdir. Səfər zamanı Azərbyacan Respublikasının prezidenti İlham Əliyev və Milli Məclisin sədri Oktay Əsədov ilə görüşlər keçirilmişdir.

2009-cu il oktyabrın 3-də Azərbaycan Respublikasının Naxçıvan şəhərində keçirilən Türkdilli Ölkələrin Dövlət Başçılarının IX Zirvə görüşündə K.Bakiyev iştirak etmiş və Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasının yaradılması haqqında Naxçıvan Sazişini və zirvə görüşunun yekunu olaraq "Naxçıvan Bəyannaməsi"ni imzalamışdır. 2012-ci ilin 30-31 mart tarixlərində Qırğızıstan Respublikasının Prezidenti Almazbek Atambayev Azərbaycan Respublikasına rəsmi səfərə gəlmiş, dövlət başçısı və hökümət nümayəndələri ilə görüşlər keçirmiş, o cümlədən Milli Məclisdə çıxış etmişdir (7,s.177).

2012-ci ilin 23 avqustunda Azərbaycan Respublikasının Baş Naziri A.Rasi-zadə Bişkekedə keçirilmiş Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının II Zirvə görüşündə "Ala Arça" dövlət iqamətgahında Qırğızıstan Respublikasının Baş naziri O.Babanovla görüşü olmuş və ikitərəfli münasibətlər müzakirə edilmişdir. Müzakirədə əlaqələrin və görüşlərin müntəzəmliyi, ölkələrin rəhbərləri arasında səmimi və konstruktiv münasibətlər, yüksək səviyyəli qarşılıqlı siyasi təsirin göstəricisinin əla səviyyədə olması qeyd olunmuşdur.

2013-cü ilin avqustun 15-16-da Qəbələdə (Azərbaycan), 2014-cü ilin iyununun 4-5-də Bodrumda (Türkiyə), 2015-ci ilin sentyabr ayının 11-də Astanada (Qazaxıstan) keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Zirvə görüşlərinin bu ölkələrin gələcək inkişaf proqramlarının müəyyən edilməsində, habelə Qırğızıstan-Azərbaycan əlaqələrinin daha da dərinləşməsində misilsiz rolu olmuşdur.

Qırğızıstan Azərbaycanın ərazi bötövlüyünü tanıyır, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunmasının tərəfdarıdır. Bu münaqişə ilə bağlı BMT-nın Təhlükəsizlik Şurasının 822; 853; 874 və 884 saylı qətamələrinin qəbulu zamanı Qırğızıstan onun lehinə səs verən ölkələrdən biri olmuşdur (10).

İki ölkə arasında son dövrdə səfirliklər səviyyəsində də

müəyyən işlər görülmüşdür. Burada əsas məsələ azərbaycanlı iş adamlarında qırğız sənayesinə olan marağın artırılması və investisiya qoyulmasıdır. Bununla bağlı Qırğızıstan Respublikasının səfirliyi orada keçiriləcək auksiyonlar haqqında Azərbaycan Respublikasının rəsmi dairələrini tez-tez məlumatlandırır. Beləki, Qırğızıstan Respublikasının Ak-Suy, Terrekan, Min-Kuş, Sulyunktiskoe №12, Mərkəzi Çanaç, Teqene, Çakuşskoe, Kara-Keçei və s. kimi rayonlarına sənaye və kənd təsərrüfatı sahəsində investisiya qoyuluşu üçün çox daim təşviq edir. Qırğız səfirliyi bununla belə azərbaycanlı iş adamları və iri şirkətlərin münayəndələri ilə görüşlər keçirərək Qırğızıstanın gələcək inkişaf mexanizmlərini işləyib hazırlayır. Bundan əlavə keçirilən görüşlərdə ölkəmizdə qırğız sənaye və kənd təsərrüfatı məhsulları üçün əlverişli satış bazarının əldə olunması da müzakirə edilir.

Qırğızıstan-Azərbaycan əlaqələrinin başlıca istiqamətlərini tənzimləyən əsas sənəd 1997-ci il aprel ayının 23-də Bakıda imzalanmış “Dostluq və əməkdaşlıq haqqında müqavilə” hesab olunur. Bu müqavilədə tərəflər arasında ikitərəfli münasibətlərin əsas prinsipləri müəyyən edilmişdir ki, bunlara da dövlət müstəqilliyinə və suverənliyinə qarşılıqlı hörmət; hüququbərabərliyi; bir-birinin daxili işlərinə müdaxilə etməmək; dövlət səviyyəsində olduğu kimi, eləcə də təsərrüfat subyektləri səviyyəsində qarşılıqlı faydalı iqtisadi əməkdaşlığın yaradılmasına ikitərəfli səy göstərmək (5,s.180).

2009-cu ildə iki ölkə arasında ticarət dövriyyəsi 4.8 milyon, 2011-ci ildə 11.4 milyon dollar olmuşdur. 2012-ci ildə isə ticarət dövriyyəsi hiss olunacaq dərəcədə düşmüşdür. 2014-cü ildə isə bu yüksələrək Qırğızıstanın ölkəmizdən şəkər tozu, zeytun, günəbaxan və təbii bitki yağlarını idxal etməsi ilə xarici ticarət dövriyyəsi 25.8 milyon dollar həcmində olmuşdur. 2015-ci ilin yanvar-avqust aylarında isə ticarət dövriyyəsi enərək 4.2 milyon dollar olmuşdur (11). Göründüyü kimi, beynəlxalq iqtisadi əlaqələrin “dairəvi” hərəkətini nəzərə alsaq göstərilən illərdə xarici ticarət dövriyyəsində baş verən belə əyri xəttli inkişaf Qırğızıstan-Azərbaycan münasibətlərinə xələl gətirməmişdir. Bununla belə, Azərbaycan rəhbərliyi “Günəşli” yatağında baş verən bədbəxt hadisə ilə bağlı çətin vəziyyətdə olsada 2015-ci ilin dekabrında Qırğızıstanın Oş vilayəndə baş vermiş zəlzələ ilə əlaqədar öz qardaşlıq əlini uzatmış və 72 milyon som (som-Qırğızıstan milli valyutası) dəyərində humanitar yardım göstərmişdir. 2015-ci ildə enerji resurslarının böyük ixracatçısı kimi Azərbaycan milli valyutasının devalvasiyaya düçar olması onun sonda maliyyə sektoruna öz mənfi təsirini göstərmişdir. Həmin il də habelə, ümumdünya neft bazarında qiymətlərinin aşağı düşməsi və ABŞ dollarının məzənnəsinin yüksəlməsi ikili münasibətlərdə öz dərin izini qoymuşdur. Lakin, bütün bunlara baxmayaraq öz iqtisadi sitabilliyini sosial proqramlardan imtina etməmək şərti ilə saxlamağı bacarmışdır. Bişkek-Bakı münasibətlərinin inkişaf etdirilməsində məhz bu faktor əsas “açar rolu”nu oynamışdır. Burada Qırğızıstan tərəfdən sabiq pezidentlər Kurmanbek Bakıyev, Almaz Atambayev, Azərbaycan tərəfdən isə prezident İlham Əliyevin xidmətləri olmuşdur.

İqtisadi əlaqələrdə 2017-ci ilin oktyabrın 30-da rəsmi açılışı olan Bakı-Tbilisi-Qars dəmir yolu Böyük İpək yolunun qərbə doğru uzantısı kimi Mərkəzi Asiya ölkələrini Avropa ilə əlaqələndirən müəkəmməl kamunikasiya xəttidir ki, gələcəkdə Qırğızıstan Respublikasının Qazaxıstan, Türkmənistan və Özbəkistan Respublikaları kimi də bu xəttə qoşulması həm beynəlxalq səviyyədə, həm də regional səviyyədə Qırğızıstan-Azərbaycan əlaqələrinə böyük töhvə verəcəkdir.

Qloballaşan dünyada baş verən inteqrasiya prosesləri çərçivəsində Qırğızıstan-Azərbaycan arasında mədəni əlaqələr özündə maraqlı hadisələri əks etdirməklə çox qədim köklərə malikdir. Çağdaş dövürdə iki ölkə arasındakı mədəni əlaqələr iki xalqın bir-birlərinin mövqelərini tanıması, uzunmüddətli və etibarlı əməkdaşlığa zəmin yaratmışdır. Hələ müstəqilliklərinin ilk illərində Azərbycan Respublikasının Prezidenti Heydər Əliyev 1995-ci ildə Qırğızıstan Respublikasına səfər edərək “Manas” dastanının 1000 illik yubileyində iştirak etmişdir. 2000-ci ildə isə Qırğızıstan Respublikasının sabiq prezidenti Əskər Akayev qarşılıqlı olaraq Azərbyacana səfər edərək “Dədə-Qorqud” dastanının 1300 illik yubileyində iştirak etmişdir. Bu müstəqillik illərində hər iki dövlətin mədəni sahədə ilk qarşılıqlı əlaqələri kimi hesab etmək olar. Elə həmin ildə Azərbaycan münayədə heyəti Qırğızıstanda Oş şəhərinin 3000 illik yubileyində iştirak etmişdir (12).

2005-ci ilin dekabrında Azərbaycan Respublikasının M.F.Axundov adına Milli Kitabxanası ilə Qırğızıstan Respublikasının Milli Kitabxanası əməkdaşlıq haqqında saziş imzalanmışdır. Bu hadisə ölkələrarası mədəni sahə ilə birlikdə elm və təhsil əlaqələrinin möhkəmlənməsinə xidmət etmişdir. Mədəni əlaqələr sonrakı illərdə daha da genişlənmişdir. Belə ki, 2006-ci il sentyabrın 5-8-də Bakıda “Şərq-Qərb” kinofestivalı çərçivəsində müasir dövrün qazax-qırğız kinomatoqrafçılarının birgə hazırladıqları filimlər nümayiş etdirilmişdir. 2008-ci il fevralın 25-də Azərbaycanda məşhur qırğız yazıçısı Çingiz Aytumatovun 80 illik yubileyi keçirilmişdir. Yubileydə iştriak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yazıçını Azərbycan-Qırğızıstan əlaqələrinin möhkəmləndirilməsindəki xidmətlərinə görə “Dostuq” ordeni ilə təltif etmişdir. Bu istiqamətdə unudulmaz tədbirlərdən biri də 2008-ci il martın 13-də Qırğızıstandakı Azərbaycan səfirliyinin Qırğızıstanın Mədəniyyət və Turizim Nazirliyi ilə birgə Azərbaycan bəstəkarı Qara Qarayevin adan olmasının 100-illik yubileyinə həsr olunmuş festivalı təşkil etməsi idi. Festival bədii istiqaəmtdə təşkil olunmuş və musiqili hissəsi Azərbaycan dirijoru Yalçın Adıgözəlovun rəhbərliyi ilə keçirilmişdir (12).

Yaxın keçmişdə Qırğızıstan-Azərbaycan arasında mədəni əlaqələrin müqavilə-hüquqi bazasını 2012-ci il martın 30-da mədəniyyət sahəsində və həmin ilin aprelin 23-də turizim sahəsindəki əməkdaşlığa dair saziş təşkil edir. Azərbaycanda olduğu kimi Qırğızıstanda da milli mədəniyyət və dilin inkişafı üçün bütün şəraitlər yaradılmışdır. Bu sahədə ilk addım kimi Qırğızıstandakı diasporumuzun “Azəri” ictimai birliyini təşkil etməsidir. “Azəri” ictimai birliyinin nəzdində Azərbaycan məktəbi, ansamblı fəaliyyət göstərir, milli-mənəvi, mədəni, dini dəyərlərimiz qorunub saxlanılır. Birliyinin sədri Akif Allahverdiyevdir (6). Mütərəqqi hadisədir ki, 2009-cu il sentyabrın 14-də Qırğızıstanın Çuy vilayətinin Kant şəhərində 4 nömrəli gimnaziyasında Azərbaycan dili sinfinin açılışı olmuşdur. Sinifdə təmir bərpa işləri aparılıb, son texnoloji avadanlıqlarla təhciz olunub və peyk vasitəsi ilə Azərbaycanın Qırğızıstanandakı səfirliyinə bağlanmışdır. Açılışda Azərbaycan Respublikasının Qırğızıstan Respublikasında səfiri A.Ağayev, Qırğızıstan Xarici işlər Nazirliyinin əməkdaşları B.Kenenbayev və Qırğızıstandakı “Azərbaycan ictimai birliyi”nin prezidenti A.Alaferdov iştirak etmişlər (14).

İki tərəfli əlaqələr beynəlxalq təşkilatlar çərçivəsində də özünü ehtiva edir. Belə ki, 2016-ci il aprelin 26-da Bakıda BMT-nın “Sivilizasiyalar ittifaqı”nın 7-ci qlobal formu öz işinə başlamışdı.




Forumda 140 ölkə təmsil olunmuşdu. Forumda Qırğızıstan Respublikası nümayəndə heyətinə sədirlik edən mədəniyyət, informasiya və turizm naziri Altınbek Maksutov form iştirakçılarına "Beynəlxalq Köçəri Oyunu"nu haqqında məlumat vermiş və onların hər birini Qırğızıstanda keçiriləcək bu oyuna dəvət etmişdir (9). Forumda Altınbek Maksutov Azərbaycan Respublikasının Xarici İşlər naziri Elmar Məmmədyarovla görüşmüşdü. Görüşdə mədəniyyət, informasiya, idman və turizm sahəsində ikitərəfli əlaqələr müzakirə edilmişdi. Tərəflər həmçinin, Qırğızıstanda "Azərbaycan günləri"nin Azərbaycanda isə "Qırğızıstan günləri"nin keçirilməsi haqqında fikir mübadiləsi aparmışlar (8,s. 136).

Beləliklə, tarixən mədəni, dil, din və etnik cəhətdən bir-birinə bağlı olan Qırğızıstan-Azərbaycan əlaqələri yeni imkanlar və impulslar əldə etməkdədir. Bunun ən bariz nümunəsi qlobal maliyyə böhranlarının və ölkələr arasında coğrafi cəhətdən məsafə olmasına baxmayaraq ictimai-siyasi, iqtisadi istiqamətdə dövlətlərarası komissiyanın təsis edilməsi və onun bu istiqamətdə icra etdiyi işlərdir. Təbii ki, bütün bunlar qarşılıqlı inkişaf və prespektiv cəhətdən gələcəyə böyük ümidlər verir.



## ƏDƏBİYYAT


*1. Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri (1991-2016) /məqalələr toplusu /. Bakı: "Poliart" MMC, 2017, 904 s.*

*2. Azərbaycan diasporasının məskunlaşma coğrafiyası, Azərbaycan Respublikasının Diaspora ilə İş uzrə Dövlət Komitəsi. - http:// diaspora.gov.az/ index. Php? Options =content &id=86 (01.06.16)*

*3. Azərbaycan Prezidenti İlham Əliyev Bişkekdə MDB Dövlət Başcıları Şurasının iclasında iştirak edib. http:// azertag.az / xeber/ Azerbaycan_Prezidenti_ Ilham_ Aliyev_ Biskekde_MDB_Dovlet_ Baschilari_ Surasinin_ iclasinda_ istirak_ edib__YENILANIB_ VIDEO-992980*

*4. Azərbaycan–Qırğızıstan munasibətləri. /Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi. –http://www.mfa.gov.az/files/file/ Qirgizistan.pdf*

*5. İkitərəfli munasibətlər: Asiya. / Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi. – http://mfa.gov.az/ content/37 86*

*6. Qırğızıstan azərbaycanlıları- http://olaylar.az/news/ diaspora/65428*

*7. Müstəqil Azərbaycanın 25 ili səfirlərin gözü ilə / məqalələr toplusu /. Bakı, "BEST-TMS"MMC, 2016, 645 s.*

*8. Буранов А.В. Развитие кыргызкого-азербайджанскогоме жгосударственного,*
*экономического и культурного сотрудничества на современном этапе // Вестник КРСУ, Политология, Москва, 2016. Том 16. № 10, с. 132-136*

*9. В Азербайджане презентовали проморолик Всемирных игр кочевников // URL: http://ru.sputnik. Kg/ culture/20160427/1024754382.html*

*10. В Баку открывается саммит Парламентской ассамблеи тюркоязычных стран // URL: http:// www.vesti.az/news. php?id=17717*

*11. В одной из гимназий Канта открылся класс азербайджанского языка // URL: http://kg.akipress. Org/ news:120081*

*12. Двусторонние отношения // URL: http://bishkek. mfa.gov. az/*

*13. Посол КР в Азербайджане: "Нашим межгосударственным связям характерны взаимное доверие и близость позиций по многим актуальным вопросам" // URL: www.kabar.kg/interview/ full/105762*

*14. Товарооборот Азербайджана и Кыргызстана не отвечает их потенциалу –посол // URL: http:// kyrtag.kg/ economy/tovarooborot-azerbaydzhana ikyrgyzstana-*
*ne-otvechaet-ikh-potentsialu-posol*

*15. Garibov A.,Ibrahimov R., Geopolitical Competition in the Central Asia. The Dynamics of Relations with Azerbaijan / SAM Comments, Baku, Volume IX, 2013, p 81.*



**Açar sözlər:** *Qırğızıstan, Azərbaycan, əlaqələr, beynəlxalq və regional təşkilatlar.*
**Ключевые слова:** *Киргизия, Азербайджан, отношения, международные и региональные организации.*
**Key words:** *Kyrgyzstan, Azerbaijan, relations, international and regional organizations.*



## РЕЗЮМЕ
## ОТНОШЕНИИ КИРГИЗСКОЙ РЕСПУБЛИКИ С АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКОЙ (1993-2016 ГГ.).

Азербайджанский и кыргызский народы связаны очень тесными узами с точки зрения исторических, языковых, религиозных и культурных ценностей. Отношения между этими двумя народами уходят корнями в глубины истории. В первые годы независимости азербайджано-кыргызские связи как и связи с другими тюркскими государствами Центральной Азии осуществлялись, в основном, в рамках сотрудничества в работе международных и региональных организаций. В расширении же двусторонних отношений имел неоценимые заслуги Общенациональный лидер Гейдар Алиев.

## SUMMARY
## RELATIONS THE KYRGYZ REPUBLIC WITH THE AZERBAIJAN REPUBLIC (1993-2016 YEARS).

The Azerbaijani and Kyrgyz peoples are bound by very close ties in terms of historical, linguistic, religious and cultural values. Relations between these two peoples are rooted in the depths of history. In the first years of independence, the Azerbaijani-Kyrgyz relations as well as relations with other Turkic states of Central Asia were carried out, basically, within the framework of cooperation in the work of international and regional organizations. In the expansion of bilateral relations, the national leader Heydar Aliyev.



# Etnosiyasət

HUMAY TAĞIYEVA
Bakı Dövlət Univeriteti

## ETNOSİYASİ MÜNAQİŞƏLƏR BEYNƏLXALQ MÜNAQİŞƏLƏRİN BİR NÖVÜ KİMİ



***Müasir dövrümüzdə beynəlxalq münaqişələrin ən geniş yayılmış növü etnosiyasi münaqişələr hesab olunurlar. Etnosiyasi münaqişələr, bir qayda olaraq, maddi və mənəvi resursların bölüşdürülməsi uğrunda gedən geosiyasi mübarizədir. İkinci Dünya Müharibəsindən sonra çoxsaylı humanitar təşkilatlar etnik əsaslı beynəlxalq hərbi münaqişələrin baş verməsinin qarşısını almaqdan ötrü çalışmağa başladılar, lakin çoxsaylı insan ölümlərinə, böyük ekoloji, siyasi və iqtisadi problemlərə səbəb olan münaqişələrin sayı nəinki azalmadı, əksinə artmağa başladı. Bu səbəbdən etnosiyasi münaqişələrin öyrənilməsi və qarşısının alınması məsələsi çox aktual və çox müzakirə olunan bir məsələdir. Məqalədə etnik münaqişələrin öyrənilməsinin həm nəzəri aspektləri əks olunmuş, həm də müasir dünya siyasətinə olan təsirləri nəzərdən keçirilmişdir.***

Bəşəriyyət tarixi münaqişələr və müharibələrin gedişi ilə inkişaf edir və dəyişir. Baxmayaraq ki, siyasi və yaxud ideoloji münaqişələrin baş vermə ehtimalı həmişə mümkündür, müasir dövrdə etnosiyasi münaqişələr daha aktual xarakter daşıyır və daha çox danışılır. İkinci Dünya Müharibəsindən sonra çoxsaylı humanitar təşkilatlar etnik əsaslı beynəlxalq hərbi münaqişələrin baş verməsinin qarşısını almaqdan ötrü çalışmağa başladılar, lakin çoxsaylı insan ölümlərinə, böyük ekoloji, siyasi və iqtisadi problemlərə səbəb olan münaqişələrin sayı nəinki azalmadı, əksinə artmağa başladı. İkinci Dünya Müharibəsindən sonrakı dövrdə baş vermiş vətəndaş müharibələrinin böyük əksəriyyəti etnik muxtariyyət və ya müstəqillik naminə aparılmışdır. 1950-ci illərdən başlayaraq etnik münaqişələrin sayı sürətlə atrmağa başladı və 1993-1994-cü illərdə özünün ən yüksək nöqtəsinə çatdı.




[4, s 2]

Müxtəlif etnik münaqişələrin dinamikasını və onların idarəolunma və nizamlanma strategiyalarının mümkünlüyünü anlamaqdan ötrü ilk öncə etnik azlıqları bir-birlərindən fərqləndirmək lazımdır. Etnik azlıqları 3 növə bölmək olar:

1) xarici azlıqlar, yəni bir dovlətin ərazisində yaşayan, amma digər dövlətin (çox vaxt qonşu dövlətin) titullu xalqı ilə etnik qohumluq təşkil edən etnik azlıqlar (məsələn, Kosovada yaşayan albanlar, Rumıniya və Slovakiyada yaşayan macarlar, Mərkəzi və Şərqi Avropada, Cənubi Tirolda, Belçikada, Danimarkada və Fransada yaşayan almanlar və s.);

2) transmilli azlıqlar, yəni vətənləri bir neçə dövlətin ərazisinə düşən, lakin bu dövlətlərin heç birində titullu xalq olmayan etnik azlıqlar (məsələn, İspaniya və Fransada basklar və katalonlar);

3) yerli azlıqlar, yəni bir dövlət daxilində öz tarixi vətənlərində yaşayan, lakin titullu xalq olmayan etnik azlıqlar (məsələn, İspaniyada qallar, Fransada korsikalılar və bretonlar və s.). [10, s 2-3]

Etnik azlıqlar məsələsinə ilk sistematik beynəlxalq yanaşma Birinci və İkinci Balkan Müharibələri dövründə meydana gəldi və Birinci Dünya Müharibəsindən sonra daha da genişləndi. Birinci Dünya Müharibəsindən sonra yaranan Millətlər Liqası azlıqların hüquqlarına, xüsusilə də, onların dil, təhsil və siyasi təmsil olunma məsələlərinə çox diqqətlə yanaşmağa başladı. Lakin Millətlər Liqası yeni müstəqillik əldə etmiş mandat ərazilərində etnik məsələlərin siyasiləşməsinin qarşısını ala bilmədi. [4, s 4]

İkinci Dünya Müharibəsindən sonra etnik münaqişələrə qarşı Qərbin siyasəti kökündən dəyişdi. Əgər Millətlər Liqası dövründə “azlıqların hüquqları” müdafiə olunurdusa, İkinci Dünya Müharibəsindən sonra yeni hegemon dövlət olan ABŞ insan hüquqlarının müdafiəsini daha çox təbliğ etməyə başladı. Bundan əlavə, Soyuq Müharibə dövründə kommunizm və kapitalizm cəbhələrinə ayrılmış dövlətlərdə azlıqların hüquqları, etnik ixtilaflar elə də önəmli məsələlərdən hesab olunmurdu və vahid düşmənə qarşı birləşmiş millətlər öz aralarında olan problemləri ikinci plana atmışdılar. Soyuq Müharibənin bitməsindən sonra Qərbin siyasi düşüncəsi etnik münaqişələrə müəyyən qədər fərqli yanaşmağa başladı. İlk öncə Qərb öz kapitalı vasitəsiylə inkişaf etməkdə olan ölkələrə siyasi və hərbi müdaxilələr etməyə başladı, xüsusən də post-kommunist ölkələrinə demokratiya, bazar iqtisadiyyatı, qanunun aliliyi və s. kimi dəyərlərin inkişafı və müdafiəsi altında aparılan siyasi müdaxilələr geniş vüsət aldı. Bu islahatların uğurla həyata keçirilməsi üçün isə etnik münaqişələrin olmadığı siyasi sabit mühitin mövcudluğu vacib şərt idi. Bundan əlavə, Balkanlar, İraq, Türkiyə, Şri-Lanka, Efiopiya və s. ərazilərdə baş verən etnik müharibələr çoxsaylı qaçqınların Qərbə tərəf üz tutmalarına səbəb olurdu ki, bu da Qərbdə terrorizm, miqrantlar və s. problemlərlə nəticələnirdi. BMT, NATO, Avropa Şurası, ATƏT kimi beynəlxalq təşkilatlar, bir sıra qeyri-hökumət təşkilatları, bir çox dövlətlər etnik münaqişələrin qarşısının alınması, yumşaldılması və ya sülh yolu ilə tənzimlənməsi üçün müxtəlif siyasi yanaşmalar işləyib hazırlamağa başladılar.

Etnosiyasi münaqişələrin sayının artması prosesinə paralel olaraq bu münaqişələri anlamaq və araşdırmaq prosesi də inkişaf etməyə başladı. Belə ki, son onilliklərdə, xüsusən də Soyuq Müharibə bitdikdən sonra dövlətlər və beynəlxalq təşkilatlar etnosiyasi münaqişələri qlobal miqyaslı təhlükəsizlik problemi kimi görməyə başladılar və etnik münaqişələrin tənzimlənməsinə dünyada sülh, sabitlik və insan haqlarının qorunmasının təbliği kimi yanaşılmağa başlanıldı.

“Soyuq müharibə”nin başa çatması dünyanın hər yerində insanların rahat nəfəs almasına səbəb oldu, belə ki, o, nüvə və adi müharibələr riskini xeyli azaltdı, siyasi demokratiyanın və iqtisadi liberallaşmanın genişlənməsinə rəvac verdi. Amma bundan sonra keçmiş Yuqoslaviyada və sabiq Sovet İttifaqının Cənubi Qafqaz bölgələrində etnik münaqişələrin artması böyük təəccüb və məyusluq doğurdu. “Soyuq müharibə” zamanı qarşı-qarşıya duran ideoloji düşərgələrdə üst-üstə düşən azsaylı düşüncələrdən biri din, dil və ya irqi əsasda münaqişələrin qəbuledilməzliyi idi. Rəsmi kommunist ehkamı bəyan edirdi ki, sinfi mübarizə yeganə real mübarizədir, “bütün insanlar qardaşdır”, buna görə də macarlar və rumınlar bir-birlərinə qarşı inamsızlığa son qoymalı, bütün dünyanın zəhmətkeşləri varlı istismarçılara qarşı birləşməlidir. Liberal qərbdə isə, etnik münaqişələrə, 1 qayda olaraq, keçmişin təkrarlanması, faşistləri və nasistləri motivə edən bir şey kimi baxılırdı. Liberallarla marksistlər araasında siyasi və ya iqtisadi demokratiya, mətbuat və söz azadlığı, yaxud da maddi rifah nemətlərindən bərabər şəkildə faydalanma kimi daha vacib məsələlərdə kəskin fikir ixtilafları mövcud idi. Amma onların hər ikisi dini, yaxud mədəniyyət fərqliliyi səbəbindən müharibə etməyin kifayət qədər axmaqlıq olması, prinsipcə, Birinci və İkinci Dünya Müharibələrini məhz bu cür münaqişələrin doğurması, bu səbəblərin köhnəlmiş baxışları əks etdirməsi və onların daha müasir baxışlarla əvəz edilməsi fikri ilə bir çox cəhətdən razılaşırdı. NATO və Varşava Müqaviləsi Təşkilatlarının qarşıdurması dövründə etnik məsələlərlə məşğul olan müşavirlər hər iki düşərgədə kölgədə qalmışdılar.

Alman filosofu və siyasətçisi, marksizm və lelinizm nəzəriyyəsinin banisi Karl Marks proqnozlaşdırırdı ki, sinfi inqilabi mübarizə XX əsrdə bütün dünyanı dəyişəcək. Lakin, əksinə olaraq XX əsr etnik münaqişələr dövrü oldu. 1814-cü il Vyana konfransı və 1919-cu il Versal müqaviləsinin imzalanması arasında olan dövrdə milli azadlıq və ya muxtariyyət uğrunda aparılan müharibələr bu dövr ərzində baş verən bütün müharibələrin cəmi 1/5 hissəsini təşkil edirdi. Versal müqaviləsinin imzalanmasından 2001-ci ilə qədərki dövrdə isə etnomilli müharibələrin payı 45% idi. Soyuq müharibənin bitməsindən sonra isə bu rəqəm 75% oldu. [3, s 316]

Etniklik anlayışı kütləvi informasiya vasitələrində və beynəlxalq münasibətləri tədqiq edən müəlliflər tərəfindən həddindən artıq çox istifadə olunan bir anlayışdır. Bununla belə, çox az insan bu terminin dəqiq izahı və mənası ilə maraqlanır. Lakin bu çox vacib məsələdir, belə ki, bu anlayış müxtəlif etnik münaqişələrin izahı və şərhi üçün istifadə olunur. Ted Qarr qeyd edir ki, etnik qrup psixoloji birliyin bir parçasıdır. Yəni, onların vahid tarixləri, identiklikləri, mədəni dəyərləri, inamları, dilləri və ümumi “Ana Vətən”ləri vardır [6, s 5]. Digər bir müəllif Stuart Kaufmann yuxarda sadalanan xüsusiyyətlərə ümumi ad, eyni mənşədən gəlmə, ümumi adətlər və dərinin rəngi kimi xüsusiyyətləri də əlavə edib. [8, s 150]

Antoni Smitə görə, etnik identiklik 6 şərtlə müəyyən olunmalıdır:

1) Ad - ən vacib şərtdir, şəxsiyyəti tərənnüm edir.

2) Ümumi keçmiş – qrupun ayrı-ayrı şəxslərinin bir-birlərinə qarşı bağlılığını təmin edir.

3) Tarix- qrupa mənəvi ilham verir və qrupda vahid keçmiş və ortaq tale əhval-ruhiyyəsi yaradır.

4) Mədəniyyət - ən böyük kateqoriyadır, özündə geyim, yemək, musiqi, memarıq adət-ənənəsini və ən əsası din və dil faktorlarını birləşdirir.

5) Ərazi – etnik qrupun tarixən yaşadığı bölgəni nəzərdə tutur. Etnik qrup sürgündə yaşayarsa, ərazi anlayışı çox vaxt simvolik xarakter daşıyır.

Həmrəylik – qrup üzvləri arasında bağlılığın gücünü göstərir, qrupun birliyinin təcəssümüdür. [5, s 4]

Etnik münaqişə - ölkədaxili və ya ölkələrarası səviyyədə vətəndaş qarşıdurmasının bir formasıdır ki, bu qarşıdurmada tərəflərdən

ən azı biri etnik icma adından çıxış edir və ya fəaliyyətini bu istiqamətdə müəyyənləşdirir. Etnosiyasi münaqişələr ideoloji və siyasi qarşıdurmanın əsasını təşkil edən etnik prinsiplərə görə yaradılmış müxtəlif sosial qrupların mübarizəsidir. [4, s 193]

Etnik münaqişələrin yaranmasının əsas səbəblərindən birini millətlərin qarşılıqlı ərazi iddiaları təşkil edir. Belə münaqişələr dövlətlərarası, regionlararası və yerli səviyyədə yaranır. Lakin etnosiyasi münaqişələrin yaranmasının əsas səbəbləri təkcə ərazi iddiaları deyil, siyasi status, müstəqillik, hakimiyyətdə təmsil olunma, maddi ehtiyyatlara sahib olma, dil azadlığı, din azadlığı, iqtisadi mənafelər və s. ola bilər.

Bir çox etnosiyasi münaqişələr özü-özlüyündə bir sıra geosiyasi faktorların cəmidir. Bu səbəbdən onları geoetnosiyasi münaqişələr kimi də nəzərdən keçirmək olar. Regional səviyyədə baş verən etnosiyasi münaqişələr müxtəlif etnomilli birliklərin maraqlarını təmsil edən siyasi institutlar arasındakı ziddiyyətlərin nəticəsidir. Müasir dövrdə etnosiyasi münaqişələr daha çox Avropa, Asiya və Yaxın Şərq regionlarında baş verir. Xüsusilə də, Priney yarımadasından başlayaraq Balkanlar və Qafqazdan keçən Tibet və İndoneziyada bitən geniş Avrasiya münaqişələr zolağını qeyd etmək lazımdır. Regional etnosiyasi münaqişələrin baş verdiyi digər bir region Afrika qitəsidir. Bu qitədə baş verən etnosiyasi münaqişələrin digərlərindən əsas fərqi ondadır ki, bu münaqişələr müstəmləkə ərazilərinin müstəmləkəçilikdən azadolunması prosesində yaranan ərazi problemləri səbəbiylə baş vermişdir.

İstənilən etnosiyasi münaqişə ilk öncə cəmiyyətdə müəyyən gərginliyin yaranması ilə başlayır. Etnoslararası gərginlik etnik cəmiyyətin elə bir psixoloji halıdır ki, etnosun maraqlarını, onun vəziyyətinin sabitliyini pozan və inkişafınıləngidən əlverişsiz şərait qarşısında etnosda yaranan birlik hissidir. Etnoslararası gərginlik halı nəinki münaqişələrin psixoloji aspektlərini əks etdirir, həmçinin etnosun öz maraqlarını müdafiə etməkdən ötrü bütün daxili və xarici resurslarını səfərbər etməsini stimullaşdırır. Etnoslararası gərginlik və etnosiyasi münaqişələr yalnız etnik sferanın varlığı ilə deyil, etnosferanın pozulmasına olan təhdidlərə görə baş verir. [1, s 42]

Etnosiyasi münaqişələr qədim dövrlərdən bəri baş versələr də, bu cür münaqişlələrin öyrənilməsinə bir qədər gec başlanmışdır. Bugünkü günümüzdə etnik münaqişələrin öyrənilməsi ayrıca bir elmi istiqamətə çevrilib. Çoxsaylı elmi jurnallar və tədqiqat mərkəzləri, institutlar, ayrı-ayrı politoloqlar etnik münaqişələr problemini araşdırırlar. Etniklik və etnosiyasi münaqişələr məsələsi bir çox nəzəriyyələr tərəfindən izah olunsa da, 3 yanaşma – primordialist, instrumentalist və konstruktivist yanaşma daha məşhurdur.

***Primordializm.*** Primordialist yanaşmanın tərəfdarları etnikliyi çoxəsrlik tarixi təcrübə nəticəsində yaranan davamlı sosial fenomen kimi izah edirlər. Bu nəzəriyyə eyni zamanda fərdin əsas xüsusiyyəti kimi doğulduğu gündən bəri əldə edilən etnik kimliyi görür, etnikliyin üstünlüyünü və onun fərdin psixologiyasına təsirini vurğulayır. Primordializmə essensializm və ya substansionalizm də deyilir. Primordialist yanaşma etnosiyasi münaqişələrin səbəbini güclü avtoritar rejimlər daxilində hökm sürən "qədim düşmənçilik"də görür. Avtoritar rejim zəiflədikdə həmin "qədim düşmənçilik" yenidən baş qaldırır. Primordialist yanaşma tərəfdarları serb və xorvatlar arasındakı münaqişəni bu xalqların bir-birlərinə qarşı olan nifrətinin nəticəsi kimi izah edirlər və qeyd edirlər ki, Yuqoslaviyada Tito rejiminin zəifləməsi bu nifrətin yenidən alovlanmasına səbəb oldu. [2, s 189]

Primordialistlərə görə, etnik münaqişələrin əsas səbəbi cəmiyyətdə olan etnik kimliklərin fərqli olmasıdır. Hər bir fərd dünyaya gəldikdə öz etnik kimliyini qazanır və bunu nəsildən-nəslə ötürür. Primordializmə görə, etnik kimlik dəyişməz və yaxud çox çətin dəyişilə bilən bir faktordur. Primordialist yanaşmanın tərəfdarı hesab edirlər ki, etnik münaqişələrin əsasında hökmranlıq altına düşmə, sürgün olunma və hətta nəslin yox olması təhlükəsi durur və bu qorxu etnosda zorakı hərəkətlərə, vəhşiliklərə səbəb ola biləcək dərin





emosiyalar yaradır. Primordializmə görə, dünya tarixində ən faciəvi soyqırım sayılan 1994-cü il Ruanda soyqırımı, Yuqoslaviyada, Konqo Demokratik Respublikasında baş vermiş soyqırımlar, kütləvi qırğınlar, zorakılıqlar yalnız yüksək dərəcədə nifrət və düşmənçilik hissinin təsiri altında baş verə bilərdi. [7, s 147]

***İnstrumentalizm.*** Antoni Smit qeyd edir ki, instrumentalist yanaşma 1960-1970-ci illərdə ABŞ-da məhşurlaşdı. Bu yanaşmada etniklik həlledici amil hesab olunmur. Bu yanaşmanın tərəfdarları etnik fərqliliyin bir çox münaqişələrin əsas hissəsi olmasını və bir çox insanın məhz bu fərqliliklər uğrunda mübarizə apardığını düşündüklərini inkar etmirlər, sadəcə olaraq, onlar hesab edirlər ki, etnik fərqliliklər bu münaqişələri izah etmək üçün kifayət etmir. Onlar inanırlar ki, etnik münaqişə müəyyən etnik qrupun digərinin hesabına əldə etdiyi üstünlüklər səbəbindən baş verir. Bu bərabərsizlik və diskriminasiya etnik qeyri-stabilliyin əsas səbəbidir. [9, s 158]

İnstrumentalizmə görə, etnik münaqişə etnik qruplar arasındakı münasibətlər siyasiləşdiriləndə və yaxud siyasi və sosial-iqtisadi üstünlüklər əldə etmək üçün etnik qrupun mənafelərinin digər etnik qrupun xeyrinə qurban veriləndə baç verir. İnstrumentalist yanaşma etnosiyasi münaqişələri xalqların arasında olan "qədim düşmənçilik" kimi deyil, xalqlararası rəqabət nəticəsində meydana gələn instrument və ya resurs kimi görür, etnikliyi münaqişələrin səbəbi hesab etmir. Bu yanaşmaya görə etnosiyasi münaqişələrin səbəbi etnik qrupların uyğunsuzluğu deyil, iqtisadi və ya təbii sərvətlər uğrunda gedən qruplararası rəqabətdir. İnstrumentalist yanaşmaya əsasən serb və xorvatlar arasındakı münaqişə siyasi liderlər tərəfindən bu iki etnik qrupu bir-birlərinə qarşı toqquşdurulmasının nəticəsidir. [2, s 189]

***Konstruktivizm.*** Konstruktivizm ABŞ, Kanada və Avstraliya kimi emmiqrant ölkələrin etnopolitologiyasında daha geniş yayılmışdır. Kontruktivist nəzəriyyə etnik kimliyi müxtəlif vasitələr, o cümlədən işğal, müstəmləkəçilik və ya immiqrasiya nəticəsində formalaşmış bir sosial qrup hesab edir. Etnik kimlik sosial, iqtisadi və siyasi proseslər nəticəsində formalaşır. Konstruktivistlər hesab edir ki, hər bir cəmiyyətdə siyasətçilərin asanlıqla idarə edə biləcəkləri qruplar mövcuddur. Kontruktivistlərə görə etnik münaqişə konkret tarixi proseslərin məhsuludur və bu tarixi proseslər etnik qruplar arasındakı münasibətlər təsir edərək düşmənçiliyə səbəb olur. [7, s 149]

Konstruktivist yanaşma da instrumentalist yanaşma kimi hesab edir ki, etnik mənsubiyyət özü-özlüyündə münaqişələrə səbəb ola bilmir. Münaqişələrin baş verməsinin və böyüməsinin əsas səbəbi bu münaqişələrdən öz maraqları üçün istifadə edən hakimiyyət elitasıdır. [2, s 189]

Göründüyü kimi, etnik münaqişələrə dair bütün nəzəriyyələr münaqişələrə müxtəlif aspektlərdən yanaşsalar da, bu münaqişələrin destruktiv xarakterini və qarşısının alınmasının vacibliyini qeyd edirlər. Etnosiyasi münaqişələr və beynəlxalq terrorizm XXI əsrin ən böyük problemlərindəndir. Hər iki problem nəinki regional, həmçinin qlobal təhlükəsizlik üçün böyük təhdiddir. Bu səbəbdən etnosiyasi münaqişələrin öyrənilməsi, onların vaxtında qarşısının alınması dünyada sülh və təhlükəsizliyin qorunması üçün olduqca vacibdir.

## ƏDƏBİYYAT

*1. А. Н. Асаул, М. А. Джаман, П. В. Шуканов "Этногеографические факторы глобализации и регионализации мира". Санкт-Петербург 2010. 197s.*

*2. Тишков В.А., Шабаев Ю.П. "Этнополитология: политические функции этничности". Москва 2011. 376s.*

*3. Andreas Wimmer, Brain Min, Lars-Erik Cederman. American Sosiological Review, 2009. Vol 74 april. 337s.*

*4. Andreas Wimmer "Facing ethnic conflicts: Toward a new realism. UK 2004. 384s.*

*5. Brown, Michael E. Ethnic Conflict and International Security. Princeton. Princeton University Press 1993. 288s.*

*6. GURR Ted R. / HARFF Barbara, Ethnic Conflict in World Politics, Boulder, Westview Press, 1994, 256 s.*

*7. How useful are the main excisting theories of ethnic conflict?" Academic Journal of İnterdisciplinary Studies, MCSER Publishing, Rome-Italy. Volume 4. N 1. March 2015. 508 s.*

*8. KAUFMAN, Stuart J., "An 'international' theory of inter-ethnic war" Review of International Studies (1996), Volume 22, 232s.*

*9. "The causes of ethnic conflict in Multi-ethnic societies". World Scientific News. Author: Hossien Mohammadzadeh. Volume 42 (2016). 316 s.*

*10. Ulrich Schneckener, Stefan Wolff "Managing and Settling Ethnic Conflicts: Perspectives on Successes and Failures in Europe, Africa and Asia". London 2004. 291 s.*

**Açar sözlər:** *etnik münaqişələr, etnik azlıqlar, etnoslararası gərginlik.*

**Ключевые слова:** *этнические конфликты, этнический меньшинства, межэтносная напряженность*

**Keywords:** *ethnic conflicts, ethnic minorities, interethnic tension*

**РЕЗЮМЕ**

**Этнополитические конфликты как один из видов международных конфликтов**

**Хумай Тагиева**

В наше время, самым распространенным видом международных конфликтов являются этнополитические конфликты. Этнополитические конфликты - это, как правило. геополитическая борьба за материальные и моральные ресурсы. После Второй Мировой Войны, большое количество гуманитарных организаций начали работу над предотвращением международных военных конфликтов на этнической основе, но количество конфликтов, приведших к большому количеству человеческих смертей, большим экологическим, политическим и экономическим проблемам, не только не уменшилось, но начало расти. По этой причине, задача изучения и предотвращения международных конфликтов является очень актуальной и обсуждаемой. В статье отражены как теоретические аспекты изучения этнических конфликтов, так и их влияние на мировую политику.

**SUMMARY**

**Ethnopolitical conflicts as the type of international conflicts**

**Humay Taghiyeva**

Nowadays, ethnopolitical conflicts are the most widespread type of international conflicts. Ethnopolitical conflicts are as a rule geopolitical struggle for material and moral resources. After World War II large number of humanitarian organization started to work on prevention of international military conflicts on ethnic base. However, the number of conflicts that led to large number of human deaths and big ecological, political and economic problems not only did not decrease but started to grow. For this reason, the task of researching and preventing international conflicts is very actual and discussed. The article represents both theoretical aspects of ethnic conflicts and their influence on global politics.

# İqtisadiyyat

## KİÇİK BİZNESİN İNKİŞAFINDA KLASTER ŞƏBƏKƏLƏRİNİN YARADILMASININ ƏHƏMİYYƏTİ

LYUDMİLA İSMAYİLOVA
Sumqayıt Dövlət Universiteti




Ölkənin innovasiya yönümlü iqtisadiyyatının formalaşdırılmasının, iqtisadi təhlükəsizliyinin strateji resurslarından biri kiçik biznesdir. Kiçik biznes iqtisadi artımın və sosial sabitliyin real amili olmaqla, rəqabətin lazımi səviyyədə saxlanmasına, innovasiya proseslərinin sürətlənməsinə, iqtisadi fəallıq səviyyəsinin yüksəldilməsinə əhəmiyyətli dərəcədə təsir edir. Kiçik sahibkarlıq bazar iqtisadiyyatının sosial əsası, dövlətin və cəmiyyətin sabitliyinin təminatçısıdır. Kiçik biznes iqtisadiyyata dinamiklik və çeviklik verən mühüm faktordır. Kiçik müəssisələrin fəaliyyət miqyasını genişləndirməklə, onun infrastukturunu inkişaf etdirməklə bir sıra problemlər həll edilir. Kiçik sahibkarlığın inkişafı cəmiyyətin eləcə də əhalinin tələbatlarını yüksək səviyyədə ödəməyə qadir olan rəqabətli bazar münasibətlərinin formalaşdırılmasında, mal və xidmətlərin keyfiyyətinin yüksəldilməsində, iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin artırılmasında vacib rol oynayır. Respublikamızın müasir inkişaf strategiyası iqtisadiyyatımızı hərtərəfli inkişaf etdirməyə, yeni keyfiyyət vəziyyətinə keçirməyə qadir olan hakimiyyət, biznes və innovasiya iştirakçılarının uzlaşdırılmış fəaliyyətini tələb edir.

İqtisadiyyatımızın modernləşdirilməsinə innovasiyalı inkişaf və yeni xarakterə malik sənayeləşmə daxildir. İnnovasiya yönümlü iqtisadiyyatda sabit iqtisadi artıma əsas etibarilə yenilik, yığım və sosial kapitaldan səmərəli istifadə hesabına nail olunur. İnnovasiya yeni məhsul, proses və xidmət yaradılması üçün intelektual fəaliyyətin nəticəələrinin tətbiqidir. İnnovasiya fəaliyyəti sahibkarlıq fəaliyyəti ilə qırılmaz surətdə bağlıdır və innovasiya kommersiyalaşdırıldıqda maraq yaradır. Bu prosesdə kiçik biznes böyük rol oynayır və çox böyük potensiala malikdir. İqtisadiyyatın klaster modeli əsasında diversifikasiyası prioritet sektorların və bütövlükdə iqtisadiyyatın inkişafının perspektiv vasitəsi kimi çıxış edir. Klasterlərin fərqləndirici cəhəti isə onun innovasiya yönümlüyüdür. Klaster bazarda oxşar vəzifələri olan və lokal ərazilərdə yerləşən kampaniya və firmalardır. Deməli, klaster dedikdə məhdud çoğrafi ərazi çərçivəsində istehsal-texnoloji, elmi-texniki və kommersiya əlaqələri əsasında kiçik və orta müəssisələrin aparıcı iri firmalar ətrafında cəmləşməsi başa düşülür. Bu cəmləşmə əməkdaşlığın səmərəli formasını nəzərdə tutur. İqtisadiyyatın diversifikasiyasının və modernləşdirilməsinin ənənəvi metodları ilə müqayisədə biznesin təşkilinin daha adekvat modeli kimi klasterləşmə ölkə iqtisadiyyatını qlobal rəqabətin təziyqlərinə qarşı durmağa imkan verir. Regional səviyyədə klaster strategiyası əsasında iri və kiçik biznesin, universitetlərin, innovasiya sistemi iştirakçılarının, maliyyə strukturlarının dinamik qarşılıqlı fəaliyyətinin dəstəklənməsi, bütövlükdə iqtisadiyyata dinamiklik verməklə, onun rəqabətqabiliyyətliyinin yüksəldilməsini təmin edir. Respublikamızda kiçik sahibkarlığın inkişafının iqtisadi cəhətdən ən səmərəli istiqaməti klasterlərin formalaşdırılması yolu ilə iri bizneslə inteqrasiyasıdır[1,s.78]. Klasterləşmə prosesinin miqyasının genişlənməsi və onun

üstünlüklərinin sübut olunması klaster şəbəkələrinin mahiyyətinə, təşkili formalarına, fəaliyyət xüsusiyyətlərinə dair baxışları inkişaf etdirmiş və zənginləşmişdir. 2008-ci ildə BMT-nin AİK-nın "Firmanın innovasiya səviyyəsinin yüksəldilməsi: siyasətin seçilməsi və praktiki vasitələr" adlı icmalında klasterlərin əsas xüsusiyyətlərinə aşağıdakılar aid edilir:

- çoğrafi mərkəzləşmə (yaxın yerləşmiş firma istehsalın qarşılıqlı fəaliyyətində daha qənaətli imkanlarla cəlbedici olur);
- ixtisaslaşma (klasterlər müəyyən fəaliyyət sferası ətrafında cəmləşir);
- iqtisadi agentlərin çoxluğu (klasterlərin fəaliyyəti, yalnız firmaları deyil, bütün innovasiya iştirakçılarını əhatə edir);
- əməkdaşlıq və rəqabət;
- daxili dinamikada və inkişafda səmərəni əldə etmək üçün klasterlərin həcmində zəruri "kritik kütləyə" nail olmaq;
- klasterlərin həyat fəaliyyətinin uzunmüddətli perspektivə hesablanması;
- klasterə daxil olan firma və müəssisələrin innovasiya proseslərinə cəlb edilməsi.

Klasterin qeyd edilən xüsusiyyətlərindən göründüyü kimi, klasterləşmənin vəzifəsi müxtəlif səviyyələrdə, xüsusilə regional səviyyədə kapitalın hərəkətinin müxtəlif formalarını gücləndirməkdən, həm klaster daxili, həm də klaster şəbəkələri arasında biznes, hakimiyyət və innovasiya fəaliyyətinin digər iştirakçılar arasında səmərəli əməkdaşlıq əlaqələrini inkişaf etdirməkdən ibarətdir. Klaster şəbəkələrinin yaradılmasında əsas məqsəd innovasiya iştirakçıları arasında ənənəvi əməkdaşlığın diversifikasiyası, yüksək texnologiyaların səmərəli tətbiq edilməsi, regionun, sahənin, sektorun və bütövlükdə iqtisadiyyatın innovasiya-investisiya fəallığının artırılması, mütəxəssislərin hazırlanması və s. ola bilər.

Bazar iqtisadiyyatı şəraitində kiçik müəssisələrəsasən hər hansı bir şəkildə iri müəssisələrin maraqları dairəsindədir. Kiçik müəssisələrin sabit fəaliyyəti və gəlirləri, maliyyə və investisiya imkanları onların iri bizneslə münasibətlərindən birbaşa asılıdır. İri bizneslsəəməkdaşlıq şəbəkəsində kiçik biznes müəssisələri iri müəssisələrin istehsal strukturlarının tərkib hissəsi kimi çıxış edir. Bu formada əməkdaşlıq iri biznes müəssisələrinə yeni satış bazarlarına çıxması, qabaqcıl yeni texnologiyalar haqqında vacib informasiyanın operativ əldə edilməsi və digər bu kimi məsələlərdə işgüzar fəallığın yüksəldilməsinə imkan verir. Klaster strategiyası əsasında iqtisadiyyatını inkişaf etdirən ölkələr iqtisadi üstünlüyü o zaman əldə edir ki, bu ölkələrdə oxşar sahələrin (klasterlərin), müəssisələrin təmərküzləşməsi mövcud olmuş olsun. Bu cür üstünlük, həmçinin klasterlər çərçivəsində sahə və ərazi üzrə müəssisələrin və firmaların qarşılıqlı surətdə əlaqədə olmasından qaynaqlanır. Klaster şəbəkəsi daxilində fəaliyyət göstərən kiçik müəssisələr bir sıra məsələlərin həll edilməsinə nail olur. Belə məsələlərə innovasiyanın yayılması, istehsalın təşkilinin asanlaşması, texnoloji baxımdan yeni qərarların qəbul edilməsində rəqabət imkanının olması və s. aid etmək olar. Qeyd edilənlərdən aydın olur ki, klaster onun iştirakşılarının fəaliyyətinin qarşılıqlı tamamlanmasına kömək edir, bütövlükdə klasterin rəqabət üstünlüyünü yaradır və işgüzar fəallığı stimullaşdırır. Araşdırmalar klaster nəzəriyyəsinin əsasında "istehsal miqyasının" səmərəsinin müəssisələrə təsiri və onların regional qarşılıqlı fəaliyyəti haqqında fərziyyə durduğunu göstərir. Klaster şəbəkəsində müəssisələr ümumi mülkiyyət və idarəetmə sistemi əsasında birləşmir. Klasterləşmə müəssisələrin coğrafi baxımından təmərküzləşməsi olub, regionun resurslarını, istehsal proseslərini, bu istiqamətdə müəyyən qarşılıqlı əlaqələri özündə birləşdirir və əks etdirir. Klaster ixtisaslaşmış xammal tədarükçülərini bu əməkdaşlıqda sinergetik səmərəni əks etdirən komplektləşdiricilərin yaxud xidmətlərin meydana çıxmasına səbəb olur və klasterin özündə marketinq, maliyyə və s. bu kimi ixtisaslaşmış xidmətlərə olan tələbin artmasına gətirib çıxarır.

Klasterin ilk tədqiqatçısı olan M.Porter onların ayrı-ayrı tiplərinin mövcudluğunun regional iqtisadiyyatın xüsusiyyətlərindən asılı olduğunu qeyd edir və üç əsas tipini bir-birindən fərqləndirir. Birinci tip klasterlər yerli sənaye müəssisələrini birləşdirir və onlar klasterdə olan yerli bazarlarda məhsul və xidmətlərini təklif edirlər. Bu növ klasterlər adətən həmin regionda əhalinin bölgüsünə proporsional olaraq paylanır və onlara yerli səhiyyə xidmətini, kommunal xidməti, pərakəndə ticarəti, tikinti xidmətini, tikinti materialları istehsalını və s. aid etmək olar. İkinci tip klasterlər əsas etibarı ilə ən zəruri təbii resurslar olan ərazilərdə yerləşən resurslardan asılı müəssisələrdən təşkil olunur. Onlara misal olaraq hasilat müəssisələrinin klasterlərini göstərmək olar. Üçüncü tip klasterlər belə müəssisələrin rəqabət qabiliyyətini yüksəltmək məqsədilə yaradılır. Belə klasterlər peşəkar tiplərə görə birləşən müəssisələrə əsaslanır. Bu klasterlər təbii resurslardan asılı






deyildirlər. Onlar öz məhsul və xidmətlərini bir sıra hallarda müxtəlif ölkələrdə satırlar[2, s.105]. Onlar klaster müəssisələrin rəqabətqabliyyətliyini yüksəltmək məqsədilə yaradılır. Klasterləşmənin ilkin şərtləri kimi aşağıdakıları qeyd etmək olar:

- bazar iqtisadiyyatı şəraitində klasterlərin inzibati qərarlarla yaradılmaması;
- bütün səviyyələrdə, o cümlədən regional səviyyədə dövlət dəstəyi tədbirləri ilə klasterlərin formalaşdırılmasına və inkişafına fəal təsir edilməsi;
- klasterləşmənin dəstəklənməsinin məqsədli xarakter daşıması və rəqabət qabiliyyətlilik potensialı daha yüksək olan sahələrə istiqamətlənməsi;
- klaster siyasətinin prioritet istiqamətlərinin daimi monitorinqi və onların seçilməsi üçün etibarlı vasitələrin olması;
- klasterlərin dəstəklənməsi prinsip və müxanizmlərinin müəyyən edilməsi.

Kiçik sahibkarlığın inkişafının ən səmərəli, rəqabətqabiliyyətli və perspektivli istiqaməti klasterlərin formalaşdırılması vasitəsilə onun iri bizneslə əməkdaşlığıdır. Klaster şəbəkəsinin inkişafı həm hakimiyyətə, həm də biznesə müəyyən üstünlüklər verir. Belə ki, hakimiyyət üçün belə üstünlüklərə vergi bazasının artırılması, ayrı-ayrı biznes qruplarından asılılığın azaldılması, iqtisadiyyatın difersifikasiya imkanlarının artmasını, biznes üçün isə kadr infrastrukturunun yaxşılaşdırılması, tədqiqat və elmi-texniki araşdırmalar üçün infrastrukturun yaranmasını, məsrəflərin azaldılmasını, dünya bazarına daha uğurla çıxmaq üçün imkanların yaranmasını və s. aid etmək olar. Klasterlər aşağıda qeyd edilən səbəblərdən daha çox yenilik qabiliyyətinə malikdir:

- klaster iştirakçıları - firmalar istehlakçıların tələbatına daha tez və adekvat reaksiya vermək qabliyyətindədir;
- klaster iştirakşıları təsərrüfat fəaliyyətinin müxtəlif istiqamətlərindən istifadə edərək yeni texnologiyalara əl çatanlığını asanlaşdırır;
- innovasiya prosesinə istehlakçılar və tədarükçülər, həmçinin digər sahənin müəssisələri daxil edilir;
- firmadaxili kooperasiya nəticəsində elmi-tədqiqat və təcrübə-konstruktor işlərinə yönəldilən xərclər azalır;
- klasterdə olan firmalar intensiv rəqabət təzyiqi altında olurlar və şəxsi təsərrüfat fəaliyyətini onoloji kampaniyaların işləri ilə müqayisələrini gücləndirilər.

Klaster yüksək innovasiya fəallığını nəzərdə tutur. Klaster şəbəkəsində bir araya gələn kiçik sahibkarlar müxtəlif istiqamətlərdə rəqabət qabiliyyətliliyini artırmaq imkanı qazanırlar. Bu istiqamətlərə aşağıdakıları göstərmək olar[3, s. 303]:

➢ Yüksək innovasiya layihələrinə üz tutmaqla rəqibləri ilə müqayisədə daha yüksək iqtisadi artıma nail olunması;

➢ Eyni coğrafi zonada işləmək üstünlüyündən istifadə edərək məhsuldarlığın yüksəldilməsi;

➢ Yeni fəaliyyət istiqamətlərinin yaradılmasının stimullaşdırılması;

Kiçik sahibkarlığın inkişafının ən perspektivli, səmərəli və rəqabət qabiliyyətli istiqaməti klasterlərin formalaşdırılması vasitəsilə onun iri bizneslə əməkdaşlığıdır.

Respublikamızda klaster modeli əsasında kiçik sahibkarlığın inkişafına mane olan əsas problemlərə aşağıdakıları aid etmək olar:

➢ Klaster texnologiyasının reallaşdırılmasını təmin edən effektiv metodoloji bazanın olmaması;

➢ Biznes nümayəndələrinin, icraedici hakimiyyət orqanlarının klasterləşmənin tətbiqi barəsində kifayət qədər məlumatlarının olmaması;

➢ Klasterlərin təşkili üzrə mütəxəssislərin olmaması;

➢ İnnovasiyalı kiçik sahibkarlığın yeni formalarının inkişafının aşağı səviyyədə olması və s.

Kiçik müəssisə klasterlərinin fəaliyyət mexanizminin fərqləndirici xüsusiyyəti bir sıra müsbət səmərənin yaranmasıdır(bax: Şəkil 1):

**Şəkil 1. Kiçik müəssisə klasterlərinin müsbət səmərəsinin təxmini sxemi.**




Şəkil 1-dən göründüyü kimi, müəssisələrin istehsalda və yaxud hər hansı bir xidmətin göstərilməsində ixtisaslaşması əsasında iqtisadi fəaliyyətin miqyas səmərəsi yaranır. Bu isə son nəticədə klasterlərin fəaliyyətində multiplikativ səmərəyə gətirib çıxarır. Klaster şəbəkələri daxilində bir neçə növ məhsulun eyni vaxtda istehsalının təşkili əhatə səmərəsini verir. Müəssisələrin qarşılıqlı fəaliyyəti prosesində bir sıra əlavə xərclərin ixtisarı nəticəsində xərclərin azaldılması səmərəsinin ortaya çıxması məhsulun istehsalının daha az xərclə başa gəlməsinə şərait yaradır. Klasterli model çərçivəsində səmərəli fəaliyyət mexanizmlərinin seçilməsi və onun təmin edilməsi müxtəlif amillərin qarşılıqlı fəaliyyətinə, sinerqetik səmərəsinə şərait yaradır[4, s. 245]. Kiçik biznesin fəaliyyətinin klasterli yanaşma əsasında formalaşdırılmasının əsas prinsipləri kimi aşağıdakıları göstərmək olar:

➢ Müstəqillik və korporasiyalaşma. Klaster şəbəkəsi iştirakçıları öz fəaliyyətində azadlığını və müstəqilliyini saxlayır, eyni vaxtda bəzi məsələlərin həllində, onların tənzimlənməsində əlaqələndirilmiş fəaliyyət təmin edilir;

➢ Rəqabət prinsipi. Klasterə daxil olan müəssisələr həm daxili mühit subyektləri ilə, həm də klaster çərçivəsində öz aralarında rəqabət aparır;

➢ Sərbəst giriş və çıxış prinsipi. Klasterləşmə mexanizmi qaydalarına müvafiq olaraq klasterin istənilən subyekti şəxsi

təşəbbüsü ilə onun tərkibinə daxil ola və çıxa bilər;

➢ Öhdəçilik prinsipi. Klasterə daxil olan subyekt hüquqi, kommersiya və istehsal-texnoloji müstəqilliyini saxlamaqla digər iştirakçılarla qarşılıqlı fəaliyyət üzrə öz üzərinə öhdəlik götürür. Klaster daxili layihələri reallaşdırmaq üçün yeni ideyaları və daxili vəzifələrin daha səmərəli həllini nəzərdə tutan yeni tərəf-müqabilləri cəlb etmək yolu ilə sahənin inkişafını dəstəkləməlidir.

➢ Qarşılıqlı tamamlama prinsipi. Klaster iştirakçıları arasındakı münasibətlər ən az xərclə qısa müddətdə məhsul istehsalına və onun bazara təklifinə nail olunmasına gətirib çıxarmalıdır.

➢ Məlumatlılıq prinsipi. İstehsaldakı, müxtəlif innovasiya proseslərindəki bütün dəyişikliklər haqqında məlumatlar klaster iştirakçılarının hamısı üçün əlçatan olmalıdır.

Ölkənin uzunmüddətli sosial-iqtisadi inkişaf konsepsiyası ayrı-ayrı sahələrin və ərazilərin rəqabət potensialını reallaşdıran diferensiallaşdırılmış istehsal klasterləri şəbəkəsinin, bir çox yüksək texnoloji innovasiya klasterinin formalaşdırılmasını nəzərdə tutur. İqtisadiyyatın mühüm sektoru olan kiçik biznesdə klasteri formalaşdıran zaman bir sıra məsələlərin nəzərə alınması, əksər kiçik müəssisələrin innovasiya fəaliyyətinə meylliliyi, onların innovasiya fəallığının kommersiya istiqamətliliyi, kiçik müəssisələrin klasterli qarşılıqlı fəaliyyətə yüksək həssaslığı, kiçik biznes mühitində yüksək rəqabət səviyyəsi, kiçik sahibkarlığın formalaşmış infrastruktutunun, normativ bazasının olması və s. vacibdir. Bu prosesdə minimum prioritetlik kriteriyaları kimi iqtisadiyyatımız üçün təsərrüfat əməkdaşlığının inkişaf dərəcəsi və dinamikası, innovasiya sahibkarlığının prioritet inkişaf istiqamətlərinin ölkə reallıqlarına uyğun siyahısı və s. olmalıdır. Bunlarla bərabər klasterin inkişaf sisteminin vəzifələrinə aşağıdakı məsələlər aid edilməlidir:

➢ Mövcud texnologiyaların səviyyəsinin davamlı artımı üçün şərait yaratmaq;

➢ Həm klaster iştirakçısı kimi müəssisələr, həm də kənar təşkilatlar arasında səmərəli qarşılıqlı fəaliyyət sistemini formalaşdırmaq;

➢ Klaster modelinin genişləndirilməsinin prioritet istiqamətlərini müəyyənləşdirmək.

Beləliklə, klaster həm ayrı-ayrı sahələrin, regionların, həm də bütövlükdə iqtisadiyyatın rəqabət qabiliyyətini yüksəltməyə, innovasiya xarakterinin gücləndirilməsinə və ixracat potensialının artırılmasına, davamlı iqtisadi artımın resursları kimi sahibkarlığın, xüsusən də kiçik biznesin inkişafına təkan verən yeni idarəetmə texnologiyasıdır. Kiçik sahibkarlıq klasterlərinin formalaşdırılması və inkişafı iki yanaşma əsasında mümkündür. Əvvəla, birgə fəaliyyət göstərmək məqsədilə öz resurslarını birləşdirmək və potensiallarını gücləndirmək qərarına gələn müstəqil təsərrüfat subyektlərinin təşəbbüsü, ikincisi, ictimai əhəmiyyətli layihələrin reallaşdırılmasında müxtəlif səviyyəli hakimiyyət orqanlarının aktiv iştirakı vasitəsilə yaradılan klasterlərdir. Birinci halda klasterlərin fəaliyyəti öz-özünü tənzimləmə, müvafiq müqavilələr əsasında, hər hansı bir dövlət orqanının iştirakı olmadan həyatakeçirilir. Klasterlərin yaradılmasının bu variantı bəzi şərtlərin olmasını tələb edir. Buna görə də klaster modeli əsasında kiçik biznesin inkişaf təcrübəsinin lazımi səviyyədə olmadığı şəraitdə bu sektorun real imkanlarına cavab verə daha perspektivli təsir bağışlayan variant ikinci variantdır. İqtisadiyyatını və biznesini klasterli model əsasında inkişaf etdirən və bu sahədə uğur əldə edən ölkələrin təcrübəsi davamlı iqtisadi artım, rəqabət qabiliyyətli və innovasiya yönümlü iqtisadiyyatın formalaşdırılması üçün dövlətin aktiv tənzimləyici rolunun zəruri olduğunu göstərir və s.

**ƏDƏBİYYAT**


*1. Карпова Д.П. Использование кластерного подхода в управлении региональной экономикой // Региональная экономика и управление,№4.-2007.*

*2. Михеев А.А. Развитие кластеров в региональных экономических системах: преимущества проблемы, пути поддержки // Проблемы современной экономики, №3.-2008.*

*3. Семенова Н. Кластеризация – новое явление в мировой экономике. http://www.nikst.ru.*

*4. Муравьев А.И. Предпринимательство: Санкт-Петербург, Издательство «Лань».-2011.*



**Açar sözlər:** *kiçik biznes, klaster şəbəkələri, innovasiya fəaliyyəti, innovasiyalı iqtisadiyyat.*

**Ключевые слова:** *малый бизнес, кластерные сети, инновационная деятельность, инновационная экономика.*

**Keywords:** *small business, cluster networks, innovation, innovative economy.*


**РЕЗЮМЕ**

**ВАЖНОСТЬ СОЗДАНИЯ СЕТИ КЛАСТЕРОВ В РАЗВИТИИ МАЛОГО БИЗНЕСА**


В статье отображены направления и потенциал развития сектора малого бизнеса, а также задачи необходимости формирования сети кластероа в этой сфере в современных условиях. Новизна работы заключается в определении принципов кластерного подхода в развитии малого бизнеса и роли малого инновационного предпринимательства в формировании инновационной экономики, выявлены её преимущества и проблемы в этой сфере. Результаты исследования могут иметь особое значение в подготовке конкретных рекомендаций по развитию малого инновационного предпринимательства и формированию промышленных кластеров.


**SUMMARY**

**THE IMPORTANCE OF CREATING A NETWORK OF CLUSTERS IN THE DEVELOPMENT OF SMALL BUSINESS**


The article displays the direction and development potential of the small business sector, as well as tasks need to form the cluster networks in this field today. The novelty of the work is to determine the principles of the cluster approach in the development of small businesses, the role of small innovative business in the formation of an innovative economy, identifying its strengths and problems in this sphere. The results of the research may be of particular importance in the preparation of specific recommendations on the development of small innovative entrepreneurship and the formation of industrial clusters.

# Tarix

## NƏSİMİNİN FƏLSƏFİ GÖRÜŞLƏRİNDƏ İDEAL İNSAN OBRAZI

GÜNEL QARAYEVA
BDU-nun Fəlsəfə tarixi və Mədəniyyətşünaslıq kafedrası



Nəsimi şerində insan ən yüksək qatda təqdim edilir. Bu səbəblə Nəsiminin insan konsepti ayrılıqda nəzərdən keçirilməlidir. Nəsimi yaradıcılığında insan "vəhdəti – vücud" fəlsəfəsinin tərkibidir, ancaq bu baxış İslama inancı ilə tamlıq təşkil edir. Nəsimi Allahı danmadan insanı onun tərəfindən yaradılan ən kamil varlıq kimi qələmə verir. Nəsimi insanların batini xüsusiyyətlərinin zahirdə biruzə verdiyini söyləyir, Allahın insanı gözəl yaratdığını düşünür. Kamillik məqamına çatdıqda kafir və mömin insanlar yoxdur, yaradıcısı ilə bütünləşmiş, tamamlanmış insan var. Nəsimi hesab edirdi ki, insan həm fiziki, həm mənəvi anlamda mükəmməl olmalı, möhkəm iradəyə, inama sahib olmalıdır. Hürufilik Nəsiminin yaşadığı zamanda proqressiv ideya, dünyagörüşü kimi geniş yayılmışdı. Bu təlimin əsasını insana yeni baxış, insan daha fərqli mövqe təşkil edirdi. Bu düşüncə xalqımızın ruhu, onun ictimai – siyasi mövqeyi və həyat tərzi ilə bağlı idi [1, 312]. Hürufilikdə səcdə edilən insan idi. Hürufiliyin ən görkəmli siması Nəsimiyə görə, varlığın əsasın qoyan tək qanun səsdir. Səs görüntüyə sahibləndikdən sonra hərfə çevrilir. Bu səbəbdən səs əsasdır, hərf isə törəmə. İnsan hərflərdən ibarət bir tamdır. Tanrı əvvəl səs, sonra görünüşə yiyələnib hərf oldu, insanda ən yetkin formasını tapdı. İnsan danışan Quran, Quran isə canlanmış insandır. Bunu anlamaq üçün mükəmməlliyin ən yüksək zirvəsinə çatmaq lazımdır. Buna görə insanın üzündə yeddi hərf var: ağız, burun, qulaq, qaş, göz, bığ, saqqal. Bunlar yeddi yaradıcı özüldür, Quranı təzahür etdirir. Quranın Fatihə surəsi yeddi ayədən ibarətdir, insanın cismi torpaq, axar sular isə qandır. İnsan kainatın özüdür, bütün varlıq növlərinin yekunudur, bu səbəblə müqəddəsdir. Tövrat, Zəbur, İncil, Quran kimi dörd müqəddəs kitab insanın varlığında əksini tapmışdır. Buna görə də insana inanmaq Tanrıya ibadət etməkdir, Tanrıya inanmaq isə insana ibadət etməkdir. Nəsimi deyirdi ki, varlıq vahiddir.

Hürufilikdə yaradılış gözəgörünməzlikdən görünən hala bir keçiddir. Yaratmaq yoxdan var etmək deyil, gözəgörünməz ikən görünən olmaqdır. Nəsimi düşüncəsincə, varlıq təkdir, bu səbəbdən öz - özünə səbəbdir, yetərlidir.

Nəsiminin qəzəllərindən yaradıcıya sevgi duyulur, o bizə Allahın müdriklik, xeyirxahlıq kimi simalarını göstərməyə çalışır, onun hər şey qadir olduğunu deyir. O, Allahı özündən, aləmdən kənarda görmür, yaradıcını öz içində görür, elə İblisi də. *"Məndə sığar iki cahan ..."* deməklə pis və yaxşı başlanğıcın hər bir insanda olduğunu söyləyir və belə qənaətə gəlir ki, insanların qərarları və davranışı hansı tərəfə daha çox meyl etdiyini göstərir. Ancaq öz vicdanı qarşısında insan cavabdehdir. Öz özümüzdən günahlarımızı gizlədə bilmərik. Allahı başqa yerdə axtarmayın, Allah sizə şah damarınızdan daha yaxındır, o hər bir hərəkətinizi görür, hər niyyətinizi bilir. Onun ölçüsü və şəkli yoxdur. Quranın bir çox surələri Nəsiminin ifadələrində bu şəkildə izahını tapır. Nəsimi hər şeyin insanın öz əlində olduğu – yolunu özü seçdiyini demək istəyir.

*Məndə sığar iki cahan, mən bu cahana sığmazam,*
*Gövhəri laməkan mənəm, könvü məkana sığmazam*

misraları ilə Nəsimi bəlkə də tamamən fərqli bir fikir ifadə edirdi. Məndə iki dünya – yaşadığım və öləndən sonra gedəcəyim dünyalar qarışır, birləşir. Ancaq Allah o qədər böyükdür ki, bü dünyalara sığmır. O hər şeyin əsasıdır, hər yerdədir, ancaq mövcud olan hər şeyə sığışmır. Allah bizi özünəbənzər yaratmışdır, öz ruhundan bir parçanı bizdə yerləşdirmişdir. Həmin misralar bədən və ruhun uyuşmazlığı kimi də başa düşülə bilər, ruhum bədənimə sığmır sanki anlamında.

Nəsimi lirik şerlərində sadəcə inandığı fikir və fəlsəfəni yaymaq və başqalarına da öyrətmək məqsədi güdməmiş, həm də belə bir təfəkkür və inancın öz ruhunda oyandırdığı, qəlbinə sığmayan həyəcanları tərənnüm etmək ehtiyacı ilə yazmışdır. Nəsimi kainatın bir bütün olduğunu; varlıqların Xaliq və məxluq deyə iki hissəyə bölünmədiklərini; bütün varlıqların əzəldən bəri ilahi bir eşqlə sərxoş

olduqlarını söyləyərkən, bütün varlığı ilə inandığı həqiqi inamını tərənnüm edirdi.

Nəsimi Nəimi, Şibli, Həllac Mənsurun təlimlərinə uyğun ruhda əsərlər yazırdı. Nəsimi şeri ehkamçılıqdan, məişət zəminli düşüncədən uzaqdır. Nəsiminin "haqq mənəm, haqq məndədir, haqq söylərəm" müddəaları onun kafir damğası alması üçün əsaslı səbəb idi orta əsrlərdə. Nəsimi şerində insan islam dinində olduğu kimi yer üzünün əşrəfidir, Allahın bir zərrəsidir. İnsan bu şairin şerində bir daha yüksəlir və bəşəriyyət uca məqama çatmış olur. Nəsiminin əsl məqsədi insan müqəddəs məqama, haqq mərtəbəsinə yüksəltmək, ona ilahi varlığın bir zərrəsi kimi layiq olduğu dəyəri qazandırmaq olmuşdur.

Nəsimi qeyd edirdi ki, vətəni qorumaq, onun bütövlüyü uğrunda mübarizə aparmaq, ədəalətsizliyə qarşı çıxmaq üçün vətən oğulları, şübhəsiz, cəsur, güclü olmalıdırlar. Düşmənlə döyüşlərdə layiqli mübarizə aparmaq üçün fiziki və mənəvi cəhətdən güclü insanların tərbiyəsi hər zaman ən önəmli məsələlərdən biri kimi diqqət mərkəzində olmalıdır.

Nəsimi islam dininin bəzi prinsiplərinə, özəlliklərinə qarşı çıxır, dini ayrı seçkiliyi tənqid edir, qeyri – müsəlmanlara hörmətlə yanaşır, bəzi dini ənənələrin formallığı və birtərəfliliyinə qarşı mübarizə aparırdı. Nəsimi hökmran təbəqənin zülm, özbaşınalığına. ədalətsizliyinə qarşı çıxış edir və iddia edirdi ki, yüksək vəzifələri buna layiq olmayan insanlar tutur və gözəl idarəedicilik qabiliyyətinə malik insanlar isə kasıbçılıq içərisində səfil vəziyyətdə yaşayırlar. Dahi şair ömrünün sonuna qədər öz ideyalarına sadiq qaldı.

Şair hesab edirdi ki, əgər insan acgözlük və başqa mənəvi cəhətdən pis vərdişlərə qarşı mübarizə apara bilirsə, bu elə əqlin hislər üzərində üstünlüyünün sübutudur. Vacib olduğu məqamda pis əməllərdən çəkinmək dərhal mümkün olmur. Bu insandan möhkəm iradə, dözüm, güclü xarakter tələb edir. Bu və digər müsbət keyfiyyətlər tərbiyə fiziki kamilləşmə prosesində formalaşır. Nəsimiyə görə, acgözlüyü dəf etmiş insanları şərqin Zöhrab, Rüstəmi – zal kimi qəhrəmanları ilə müqayisə etmək olar [2, 635 – 636].

İlin dörd fəslinin hər birində özünəməxsus əhval – ruhiyyə olduğu kimi insan həyatının hər bir dövrünün fərqli xüsusiyyətəri vardır. Nəsimiyə görə, dinin iddia etdiyi kimi əsl gözəllik o biri dünyada deyil, dörd vacib ünsürdən ibarət olan yaşadığımız real dünyadadır.

*Bir söz de mənə, Nəsimi, vəsf elə məni, şair.*
*- Vəsf zamanı deyil, afət – Ölümə gedirəm, yalvarıram.*
*- Seni bu hüsn-ü camal, bu kamal ile görüb,*
*Qorxdular haqq deməyə, döndülər insan dedilər.*

Nəsimi özü əqli, fiziki və mənəvi anlamda sağlam idi və bu onun əsərlərində əksini tapırdı. Şerlərində mərdlik, cəsurluq kimi xüsusiyyətləri mədh edir, yaltaqlıq, zəif iradəliliyi tənqid edirdi. Akademik M.Quluzadə Həllac Mənsurun ideya ardıcıllarından biri olan Nəsimi haqqında yazmışdı: "Həllac Mənsur əsrlər boyu Yaxın Şərq ədəbiyyatında mərdlik, cəsarət, özünə inamın simvolu kimi tanınmışdı. Nəsimi də gənc yaşlarında bu panteist şairi dərindən mənimsəmiş, əsərlərində onu həqiqətə sadiq möhkəm iradəli və cəsur insan kimi mədh etmişdir. Həllac Mənsurun panteist düşüncələri, iradə və inanc azadlığı ruhunda yazılmış şerləri Nəsimi zövqünə uyğun idi" [4, 8].

Şah İsmayıl Xətai də Nəsiminin mətanəti və əyilməzliyi qarşısında baş əyirdi. Şerlərinin birində qeyd edirdi ki, Nəsimi də Həllac Mənsur kimi ölümündən öncə sözündən dönmür [5,116]. Nəsiminin adı Yaxın Şərq ədəbiyyatında və tarixində məğlubedilməzliyin, sədaqətin rəmzinə çevrilmişdi. Onu dərin zəkaya, incə ruha malik biri kimi yad edirdilər. Hürufi mütəfəkkirləri işərisində Həllac Mənsura daha çox üstünlük verərək, onu dövrünün ən ağıllı, igid, patriot insanı hesab etmişdir. İnancına sonuna qədər sadiq qaldığı üçün ona hörmət etmiş, ənəlhəqq ideyasını qəbul etmişdir. O bu həqiqət uğrunda mübarizin ideya ardıcılı olması ilə qürur duyurdu [2, 5].

Bütün yaradıcılığı boyu Nəsimi ənəlhəqq ideyasından çəkinməmişdir. Nəsimi yaradıcılığının tədqiqatçısı akademik H.Arazlı dahi şairin mərdliyinə xüsusi önəm vermişdir. O qeyd etmişdir ki, türk dünyasının igidlik simvolu olan şəxslərin arasında Nəsiminin yeri özəldir: "Artıq beş əsrdən artıqdır ki, Nəsimi adı Yaxın Şərqdə igidlik, iradə və fədakarlıq simvolu kimi səslənir... Əqidəsinə görə dərisini soysalar da o öz düçüncələrinə sadiq qaldı. Həbsxanada olduğu zamanlarda da ölümdən qorxmadığını, hər zaman məqsədi və ideyaları uğrunda mübarizəyə hazır olduğunu, bu yolda hər şəkildə əzaba dözəcəyini şerlərində ifadə etmişdi [2, 5-6]. Artıq 600 ildir ki, Nəsimi dünya ədəbiyyatında yaradıcılığı ilə cəsurluq, iradə, mərdlik heykəlinə çevrilmişdir. Nəsimi soydaşların zəhmətkeş, dözümlü, fiziki cəhətdən baxımlı görməyi arzulayır, onları sosial ədalətsizlik, özbaşınalıqla barışmamağa çağırırdı. Şerlərində döyüş meydanına yalnız güclülərin çıxmalı olduğunu, qorxaqların döyüşdə gərəksiz olduğunu söyləyirdi [2, 512].

## ƏDƏBİYYAT


1. *Сафарли А., Юсифли Х. История азербайджанской литературы в древний период и в средних веках. Баку: Озан, 1988*
2. *Насими И. Избранные произведения. Баку: Азернешр, 1973*
3. *Карамов Н.К. Туристы и географы страны огней. Баку: Азернешр, 1984*
4. *Хатаи. Дехнаме. Баку: Азернешр, 1959. - 184 с.*
5. *Гулузаде М. Поэт великих идеалов. Баку: Гянджлик, 1973*



**Açar sözlər:** *kamil insan, ədalətli cəmiyyət, yaradan*

**Ключевые слова:** *совершенный человек, справедливое общество, создатель*
**Keywords:** *perfect man, just society, creator*


## РЕЗЮМЕ

**Гюнель А.Гараева**


В статье рассматриваются проблема волевого совершенства человека в творчестве великого азербайджанского поэта и мыслителя Имадеддина Насими. Определена галерея героев, воспетых поэтом, наделенных твердым убеждением, силой воли, стойкостью и духовным совершенством.

Основу его учения составляло новое отношение к человеку, новое его понимание.


## SUMMARY

**Gunel A.Qarayeva**


The article deals with the problem of strong-willed human perfection in the work of the great Azerbaijani poet and thinker Imadeddin Nasimi. A gallery of heroes, sung by the poet, endowed with firm conviction, will power, steadfastness and spiritual perfection is defined. The basis of his teaching was a new attitude to man, his new understanding.

# İqtisadiyyat

## AZƏRBAYCAN-TÜRKİYƏ İQTİSADİ-TİCARƏT ƏLAQƏLƏRİNDƏ ƏN SON TRENDLƏR, BUNA TƏSİR EDƏN QLOBAL FAKTORLAR VƏ YENİ ƏMƏKDAŞLIQ İSTİQAMƏTLƏRİ

XUMAR ABDULLAYEVA
Azərbaycan Respublikasının
Prezidenti yanında Dövlət
İdarəçilik Akademiyası



***Ticarət əlaqələrinin ən son vəziyyəti.*** Azərbaycanla Türkiyə arasında yüksək templə inkişaf edən ticarət əlaqələri bütün xarici iqtisadi risklərə baxmayaraq 2014 və 2015-ci illərdə də davam edib[1]. Azərbaycan 2014-cü ildə Türkiyəyə 482,2 tonluq 484 min dollar dəyərində meyvə və tərəvəz konservləri, 11.7 milyon dollarlıq xam neft, 11.4 milyon dollarlıq kerosin, 207 milyon dollarlıq dizel yanacağı, 13.7 milyon dollarlıq sürtgü yağları, 11.4 milyon dollarlıq atsiklik spirtlər və onların törəmələri, 5.7 milyon dollarlıq elektrik enerjisi, 48 milyon dollarlıq etilen polimerləri, 35.9 milyon dollarlıq neft, kumaron, inden qatranları və politerpenlər, 5.3 milyon dollarlıq emal olunmamış qoyun və quzu dəriləri, 5.6 milyon dollarlıq pambıq parça ipliyi, 1.7 milyon dollarlıq emal olunmamış qurğuşun, 79.3 milyon dollarlıq emal olunmamış alüminium ixrac edib.




*Mənbə: tuik.gov.tr/PreTablo.do?alt_id=1046*

2014-cü ildə Türkiyə isə Azərbaycana plastik kütlədən borular, şlanqlar və onların fitinqləri, malların daşınması və qablaşdırılması üçün plastik kütlədən məmulatlar, kağız və kartondan sanitar-gigiyenik məmulatlar, soyuq yayılmış polad prokatı, qara metallardan boru fitinqləri, metal konstruksiyalar, qara metallardan mətbəx peçləri və cihazları, yeyinti sənayesi üçün avadanlıqları, elektrik transformatorları, izolyasiya edilmiş məftillər və kabellər, quş yumurtaları, təzə tərəvəz, makaron məmulatları, çörək və unlu qənnadı məmulatları, kvars, sabun, sintetik yuyucu maddələr idxalında liderlik edib. 2014-cü ildə Azərbaycanın Türkiyəyə ümumi illik ixracı 291.3 milyon dollar, 2015-ci ildə isə əvvəlki ilə nisbətən 20% azalma ilə 232.3 milyon dollar olmuşdur. 2014-cü ildə Azərbaycanın Türkiyədən ümumi illik idxalı 2.875 milyard dollar, 2015-ci ildə isə əvvəlki ilə nisbətən 33.9% azalma ilə 1.899 milyard dollar olmuşdur.




*Mənbə: tuik.gov.tr/PreTablo.do?alt_id=1046*

Türkiyə ilə Azərbaycanın və digər aparıcı ticarət partnyorlarının ticarət əlaqəsinə enerji daşıyıcılarının qiyməti də təsir edir. 2002-ci ildən sonra sürətli bir şəkildə yüksələn enerji qiymətləri, Türkiyə kimi enerjidə dəqiq idxalatçı mövqedə olan ölkələr üçün enerji idxal fakturasının əhəmiyyətli ölçüdə artmasına səbəb olmuşdur. Türkiyə xüsusəndə baxıldığında yüksələn qiymətlərə böyüyən iqtisadiyyatla birlikdə artan tələbdə əla və olununca, enerjidə xaricə asılılıq xarici ticarət defisitinin ən əhəmiyyətli səbəbi halına gəlmişdir. 2002-ci ilin sonunda 9,2 milyard dollar səviyyəsində olan Türkiyənin ümumi illik enerji idxalatı qlobal böhran sonrası yaşanan yüksək böyümə mühiti ilə birlikdə 2012-ci ildə 60,1 milyard dollar qədər yüksəlmişdir. 2012-ci ildən sonra iqtisadi böyümənin yavaşlaması ilə tələbdəki artım sürət kəsməklə birlikdə enerji idxalatı yüksək qalmağa davam etmiş və 2014-ci ilin sonunda ümumi enerji idxalatı 54,9 milyard dollar olaraq reallaşmışdır.

**Türkiyənin ümumi illik enerjiidxalatı (milyard dollar)**




*Mənbə: http://www.hazar.org/analizdetail/analiz/turkiye_dusuk_petrol_fiyatlarindan_ne_kadar_faydalandi__1367.aspx?currentCulture=tr-TR*

Hətta bəzi təxminlərdə neft qiymətlərindəki hər 10 dollarlıq enişin cari hesablar balansının kəsirinə 4 milyard dollar çatanmiqdarda müsbət təsiredəcəyi hesablanırdı. Enerji daşıyıcılarının qiymətinin yüksək olduğu dönəmdə Türkiyə neft-qazın net idxalatçısı kimi neft-qaz ixrac edən ölkələrə hər il ortalama 60 milyard dollar ödəyirdi və ölkənin tədiyyə balanısının defisiti durmadan artırdı. Amma bununla yanaşı neft-qaz ixrac edən ölkələrin zənginləşməsi Türkiyənin bu ölkələrə ixracatını da kəskin artırırdı. Son illər neft-qaz ixrac edən ölkələr Türkiyənin ixrac səbətində az qala 25%-lik paya sahib idilər. İndi isə əks proses gedir. Ucuz neft qiymətləri Türkiyənin idxal etdiyi enerji daşıyıcıları üçün xaricə ödədiyi valyutanı azaldır.Ancaq indi də neft-qaz ixrac edən ölkələrin iqtisadiyyatlarının kiçilməsi və alıcılıq qabiliyyətinin azalması Türkiyənin bu ölkələrə ixracatına neqativ təsir edir.Amma burada bəzi istisnalarda var (məsələn, Səudiyyə Ərəbistanı). Bu zaman konkret ölkələrə ixrac səbətinin strukturuna nəzər salmaqda fayda var.

**Türkiyənin 20 əsas ticarət tərəfdaşı olan ölkələrə ixracında 2015-ci ildə bir əvvəlki ilə görə ən böyük artım və azalmalar səviyyəsi**




*Mənbə: http://risk.gtb.gov.tr/istatistikler/istatistikler/dis-ticaret-istatistikleri/resmi-dis-ticaret-istatistikleri*

Türkiyənin 20 əsas ticarət tərəfdaşı olan ölkələrə ixracında 2015-ci ildə bir əvvəlki ilə görə ən böyük artım İsveçrə (+77%) və Səudiyyə Ərəbistanı (+14.1%) ilə, ən böyük azalma isə Rusiya (-39.5%) və Azərbaycanla (-33.9%) olub. 2015-ci ilin fevralında Azərbaycanda yaşann birinci devalvasiyadan sonra Türkiyədən mal idxal edənlərin sayının azalmasının yaratdığı statistik göstərici kimi də baxmaq olar bu indikatora. Amma eyni zamanda fikir versək görərik ki, Türkiyənin ixracında artımın olduğu ve ya azalmanın ən az olduğu ölkələr yalniz zengin olan və deməli həm də keyfiyyətli mallar istehlak edən öllkələrdir- İsveçrə, İngiltere, ABŞ, Səudiyye, BƏƏ və s. Deməli 2015-ci il ərzində Türkiyə ixracatı həm də keyfiyyətcə yüksəlmişdir.

Türkiyə getdikcə daha çox elm tutumlu, daha az əmək və xammaltutumlu, daha çox brend mallar ixracatçısına çevrilməkdədir. Başqa sözlədesək, Türkiyə getdikcəinkişaf etməkdə olan ölkələr kateqoriyasından çıxıb inkişaf etmiş ölkələr kateqoriyasına girməkdədir.İxracın ən çox azaldığıölkələr isə daha keyfiyyətsiz mallar istehlak edən vəTurkiyədən belə mallar alan daha kasıb ölkələrdir. Getdikce Turkiyədəaz elmtutumlu mallar daha baha başa gəlir, elmtutumlu brend mallar ise daha ucuz başa gəlir.Yəni müqayisəli üstünlüklər nəzəriyyəsi ilə ifadə etsək - Türkiyə elm və brend üzrə ixtisaslaşır.

Azərbaycanın ümumi illik ixracı isə 2014-cü ildə 21.8 milyard dollardan 2015-ci ildə 11.4 milyard dollara qədər azaldı (- 47.7%). İxracın 2015-ci 86%-ni xam neft, neft məhsulları və təbii qaz təşkil etmişdir. Ölkənin 2014-cü ildəki idxalı 9.188 milyard dollar olmuşdu, 2015-ci ildə isə bu göstərici 9.221 milyard dollara çatıb (+0.36%).2015-ci il ərzində idxalda isə yeyinti məhsulları, qara metallar və onlardan hazırlanan məmulatlar, Maşın, mexanizm, elektrik aparatları, avadanlıqlar və onların hissələri, nəqliyyat vasitələri və onların hissələri birlikdə 67.8%-lə dominantlıq etmişdir.

Türkiyə ilə idxal-ixrac əməliyyatları 2015-ci ildə Azərbaycanın ümumi illik ticarət dövriyyəsinin 7.15%-ni təşkil etməklə bu ölkə İtaliya, Almaniya və Rusiyadan sonra ölkəmizin 4-cü əsas xarici ticarət partnyoru olmuşdur[2].

Azərbaycanda malların statistik dəyəri idxal və ya ixraca dair

**Cədvəl 1. Azərbaycanın 2015-ci il üzrə idxalında ən çox artım olan 5 məhsul kateqoriyası**

| | |
|---|---|
| *1. Meyvə-tərəvəz* | ***130.5 %*** |
| *2. Oduncaq və məmulatları* | *78.2 %* |
| *3. Qara metallar və məmulatları* | *56.2 %* |
| *4. Nəqliyyat vasitələri və hissələri* | *44.6 %* |
| *5. Əczaçılıq məhsulları* | *19.8 %* |
| | ***Mənbə: Dövlət Gömrük Komitəsi*** |

bağlanmış müqavilələrin qiymətləri əsasında, Mərkəzi Bankın gömrük bəyannaməsinin buraxıldığı günə müəyyən etdiyi məzənnə üzrə ABŞ dolları ilə müəyyən edilərək vahid qiymət bazisinə gətirilir.İdxalın dəyərinin qiymətləndirilməsi malın gömrük bəyannaməsində göstərilmiş SİF baza qiymətlərinə gətirilmiş faktura (kontrakt) dəyəri üzrə aparılır.SİF- (dəyər, sığorta, fraxt)-malın satış şərtidir ki, buna görə malın qiymətinə onun dəyəri, malın sığorta edilməsi və nəqli üzrə xərclər daxil edilir.İxracın dəyərinin qiymətləndirilməsi malların gömrük bəyannaməsində göstərilmiş FOB baza qiymətlərinə gətirilmiş faktura (kontrakt) dəyəri üzrə aparılır. FOB (bortda azad)-malın satılma şərtidir ki, buna görə malın qiymətinə onun dəyəri, malın çatdırılması və gəmi bortuna yüklənməsi üzrə xərclər daxil edilir.

***Yeni əməkdaşlıq istiqaməti olaraq mikromaliyyələşmə.*** Türkiyə təcrübəsi əsasında Azərbaycanda kiçik sahibkarlığın dəstəklənməsi, kiçik biznesin qısamüddətli cari maliyyə tələbatının çevik ödənilməsi və mikromaliyyələşmə ilə məşğul olan kredit təşkilatlarının manatla kredit verəbilmə qabiliyyətinin artırılması üçün qısa müddətdə təcili maliyyə dəstəyinə ehtiyacı olan fərdi sahibkarlar və kiçik biznes subyektləri üçün Azərbaycan Respublikası Sahibkarlığa Kömək Milli Fondu mikrokreditlərin verilməsi vasitəsilə "Dövlət Sadələşmiş Mikromaliyyələşmə Proqramı"nın icrasına başlaya bilər[3].

Belə güzəştli mikrokreditlər yolu ilə aparılan mikromaliyyələşmə hansısa kiçik fermer təsərrüfatında yem xərclərindən tutmuş yerli istehsalçının hansısa cari logistika xərclərini ödəyib, cari problemini həll etməsinə qədər geniş bir spektrdə istifadə oluna bilər."Azərbaycan Respublikası Sahibkarlığa Kömək Milli Fondunun vəsaitlərinin istifadəsi Qaydaları"nın 5.1-ci maddəsinə əsasən sahibkarlıq subyektlərinə Fondun vəsaitlərindən müəyyən hədlərdə güzəştli kredit verilə bilər. Belə ki, hazırda Fondun kredit portfelinə 5 000 manatdan 50 000 manatadək kiçik həcmli kreditlər, 50 001 manatdan 500 000 manatadək orta həcmli kreditlər və 500 001 manatdan 10 000 000 manatadək böyük həcmli kreditlər daxildir.Cari biznes məsələlərinin həllində istifadə edilmək üçün SKMF mövcud təsnifatda məbləği 500 manatdan 5000 manata qədər olan və digər güzəştli kreditlərlə eyni faiz dərəcəsi ilə, yəni cəmi kredit məbləğinin 6 %-dən çox olmamaqla veriləcək mikrokreditləri də əlavə edə bilər. Bu mikrokreditlərin Fondun digər vəsaitləri kimi sahibkarlıq subyektlərinə çatdırılması müvəkkil banklar və bank olmayan kredit təşkilatları vasitəsilə onların öz adından və öz riskləri hesabına həyata keçirilə, tələb olunan sənədlərin sayı minimuma endirilə bilər.Mikrokreditlər üçün qısa maliyyə planı, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi və şəxsiyyət vəsiqəsinin pin kodu əsasında onlayn müraciət proseduru da tətbiq edilə bilər.

Müraciətçinin onlayn müraciətindən sonra Mərkəzi Bankın Mərkəzləşdirilmiş Kredit Reyestri sistemindən həmin kiçik sahibkarlıq subyektinin digər kredit borclarının olub olmaması yoxlanıla bilər.Elə müraciət günü ərzində də Fondun və ya müvəkkil təşkilatın kreditin verilməsi və ya imtina ilə bağlı qərarı ona bildirilə bilər.Təklif edilən sadələşmiş prosedur yeni yaradılan Maliyyə Bazarlarına Nəzarət Palatası və Mərkəzi Bankla razışılaşdırılmalıdır.Bu layihəyə ilk öncə pilot xarakterli və daha sonra kütləvi prosesə öz tövsiyyələri ilə dəstək vermək üçün Azərbaycan Mikromaliyyə Assosasiyası kimi peşəkar maliyyə birliklərini də cəlb etmək olar. "Dövlət Sadələşmiş Mikromaliyyələşmə Proqramı" təbii ki, bütün gələcək kredit riskləri nəzərə alınmaqla icra olunarsa, hazırda bank olmayan kredit təşkilatları, kredit ittifaqları və mikromaliyyə ilə məşğul olan bankların maliyyə vəsaitlərinin cəlbini xeyli





yaxşılaşdıra bilər.Burada üzərinə riski götürən və vəsaitləri yerləşdirən yenədə mikromaliyyə ilə məşğul olan banklar, bank olmayan kredit təşkilatları və hətta kredit ittifaqları olacaq. Dövlətə ehtiyac indiki situasiyada 2 səbəbdəndir: (i) ciddi olaraq kredit portfelində problemli kreditlərin yüksək səviyyəsindən və ödəmələr problemindən əziyyət çəkən maliyyə institutlarının (xüsusən, bank olmayan kredit təşkilatları) manatla mikrokredit vermək qabiliyyətini bərpa etməsi üçün dəstək; (ii) mikromaliyyələşmə mexanizmlərinin kütləviləşməsinə təkan vermək.

Mikromaliyyə proqramı ilə yanaşı "biznes qrant»ların verilməsi də əslində gündəmə gətirilə bilər, yəni Türkiyə təcrübəsindəki «hibe» sistemi əsasında özişini qurmaq istəyənlərə geri ödənilmək şərti olmayan maliyyə yardımı verilə bilər.Belə bir biznes qrant» proqramının Azərbaycanın dövlət büdcəsinə maliyyə yükü 9 milyon manat ola bilər. Amma indiki situasiyada həm iqtisadi, həm sosial effekt verə bilər.

Türkiyədə "Kiçik və orta biznesin inkişafı və dəstəklənməsi idarəsi" (KOSGEB)adlı qurum mövcuddur və bu qurum mikromaliyyələşmə və biznes qrantlarla bağlı Azərbaycan üçün faydalı ola biləcək maraqlı sistem qurublar. KOSGEB ilk öncə öz işini qurmaq istəyən gəncləri təlim proqramına seçirlər, həmin təlim proqramı ərzində gənc biznes bilikləri qazanır və paralel olaraq biznes-plan hazırlayır.Sonda ona verilən sertifiktla həmin biznes-planı birgə təqdim etməklə həmin qurmaqda olduğu yeni işə görə 50.000 TL-yə qədər (təqribən 27.000 manat) biznes qrant alır.Bu məbləğin 2000 TL-si biznesi qurarkən gənc sahibkarın çəkdiyi ilkin xərcləri qarşılayır (qeydiyyat və s.), 18.000 TL-si ofisin təchizatı, istehsal avadanlığı, proqram təminatı və s.-yə xərclənir, 30.000 TL isə əməliyyat xərcləri (əmək haqqı və s.) üçün xərclənir.

Yəni burada KOSGEB-in proqram yanaşması var və dəqiq bilinir ki, dəstəklənən biznesi gənc sahibkarın özü qurub[4]. Ümumiyyətlə, KOSGEB-in "Sahibkarlıq Dəstək Proqramı"nın əsas məqsədi sahibkarlığın dəstəklənməsi, sahibkarlığın yayılması və müvəffəqiyyətli müəssisələrin qurulmasıdır. Proqramdan kiçik və orta ölçülü müəssisələr, sahibkarlar, iş inkişaf etdirmə mərkəzini idarə etmək üzrə qurulan hüquqi şəxslər faydalana bilər. Proqramın əhatə dairəsinə tətbiqi sahibkarlıq təhsili, yeni təşəbbüskar dəstəyi və işinkişaf mərkəzi dəstəyi daxildir.

***Səhiyyə və təhsil sahəsində əməkdaşlıq.*** Hazırda Türkiyədə kəskin həkim çatışmazlığı hiss edilir və Azərbaycan Türkiyəyə ölkədə həkim çatışmazlığı problemini həll etməyə kömək edə bilər.Hazırda Türkiyənin bəzi dövlət və özəl klinikalarında Azərbaycandan həkimlər işləyirlər və gələcəkdə onların sayının artacağı istisna edilmir. Türkiyədə həkim çatışmazlığının aradan qaldırılması üçün bəzi təsirli tədbirlər görülür və Türkiyədə Azərbaycanın da kadr dəstəyi ilə bu problemin yaxın 6-7 il ərzində həllinin mümkün olacağına ümid edilir[5].

Azərbaycan Təhsil Nazirliyinin məlumatına görə, "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın icrası çərçivəsində 3185 nəfər xaricdə təhsil almağa göndərilib. Onlardan 821 nəfəri təhsilini başa vurub, 2286 tələbə isə hazırda təhsilini davam etdirir. Tələbələrin əsasən Türkiyə, Böyük Britaniya və digər ingilis dilli ölkələrdə təhsil almağa üstünlük verdiyi müşahidə olunub. Bu illər ərzində tələbələrin oxumaq üçün daha çox maraq göstərdiyi ölkələr isə bunlardır: Böyük Britaniya (902 nəfər), Türkiyə (662 nəfər), Almaniya (427 nəfər), Kanada (221) və Niderland (144 nəfər). Bu, yalnız "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində xaricdə təhsil almaq hüququ qazanan tələblərdir. Amma öz hesabı ilə xaricdə, o cümlədən Türkiyədə təhsil alan azərbaycanlı gənclərin ümumi sayı 10 mindən də çoxdur.

Ümumiyyətlə isəTürkiyəyə ən çox tələbə göndərən ölkələr Türkmənistan, Azərbaycan və İrandır.Dövlət Statistika Komitəsinin məlumatına görə, Azərbaycanın ali təhsil müəssisələrində 58 xarici ölkənin 4189 vətəndaşı təhsil alır. Əcnəbi tələbələrin sırasında Türkiyə vətəndaşları üstünlük təşkil edir[6].

## İSTİNADLAR


*1. http://tr.trend.az/scaucasus/azerbaijan/2493263.html*
*2. http://customs.gov.az/files/aarayish201501122208cap.pdf*
*3. http://sia.az/az/news/economy/527426-iqtisadcidan-yeni-teklif*
*4. http://www.kosgeb.gov.tr/Pages/UI/Destekler.aspx?ref=8*
*5. http://az.trend.az/azerbaijan/society/2493836.html*
*6. http://a24.az/turkiyede-tehsil-alan-azerbaycanlilarin-sayi-artir/*


## ƏDƏBİYYAT


*1. Türkiyə Statistika Qurumu xarici ticarət statistikası (2015) tuik.gov.tr/PreTablo.do?alt_id=1046*
*2. Azərbaycan Dövlət Gömrük Komitəsi xarici ticarət statistikası (2015) http://customs.gov.az/files/aarayish201501122208cap.pdf*
*3. Türkiye Bakü Büyükelçisi: "Azerbaycan Türkiye için inanılan ve güvenilen en iyi ortak". 11.02.2016. http://tr.trend.az/scaucasus/azerbaijan/2493263.html*
*4. Fatih Macit. "Türkiye Düşük Petrol Fiyatlarından Ne kadar Faydalandı?". 18.09.2015 http://www.hazar.org/analizdetail/analiz/turkiye_dusuk_petrol_fiyatlarindan_ne_kadar_faydalandi__1367.aspx?currentCulture=tr-TR*
*5. Türkiyə Gömrük və Ticarət Nazirliyi xarici ticarət statistikası (2015) http://risk.gtb.gov.tr/istatistikler/istatistikler/dis-ticaret-istatistikleri/resmi-dis-ticaret-istatistikleri*
*6. "İqtisadçıdan yeni təklif". SİA. 06.02.2016 http://sia.az/az/news/economy/527426-iqtisadcidan-yeni-teklif*
*7. KOSGEB sahibkarlığa dəstək proqramları http://www.kosgeb.gov.tr/Pages/UI/Destekler.aspx?ref=8*
*8. "Türkiyə azərbaycanlı həkimləri işə dəvət edir". 12.02.2016. http://az.trend.az/azerbaijan/society/2493836.html*
*9. "Türkiyədə təhsil alan azərbaycanlıların sayı artır". 06 İyul 2015 http://a24.az/turkiyede-tehsil-alan-azerbaycanlilarin-sayi-artir/*


**Açar sözlər:** *ticarət əlaqələri, idxal, ixrac, enerji daşıyıcıları, mikromaliyyələşmə*

# İdarəetmə

## DÖVLƏT QULLUĞU SİSTEMİNİN MÜASİR İNKİŞAF PROBLEMLƏRİ VƏ PERSPEKTİVLƏRİ

AZƏR BAYRAMOV
Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyası




Dünya ölkələrinin inkişaf prosesləri, siyasi sistemin formalaşması, idarəçilik ənənələri müasir dövrdə qlobal tendensiyaların və komponentlərin təsiri altında əhəmiyyətli səviyyədə deformasiyalara məruz qalmışdır. İdarəetmə ənənələri, həmçinin uzun illər ərzində mükəmməl dövlət qulluğu sistemi üzrə dünya təcrübəsi dəyişikliklərlə bərabər, yeni yanaşmaların, daha təsirli mexanizmlərin tətbiqini şərtləndirir. Prioritetlər və meyarların, qlobal vəzifələrin, dövlətin qarşısında duran strateji hədəflərin müxtəlifliyindən asılı olmayaraq, bütün hallarda həyata keçirilən siyasi proseslərin və idarəetmə funksiyalarının mərkəzində aparıcı qüvvə - dövlət qulluğu dayanır. Dövlət qulluğu ölkə konstitusiyasının və qanunlarının müqəddəs və mühüm müddəalarının qorunmasında, dövlət siyasətinin həyata keçirilməsində, dövlət rəhbərinin apardığı siyasətin əsas məqamlarının prinsipial olaraq qorunmasında, ədalətin bərqərar edilməsində, hakimiyyətlə vətəndaşlar, dövlətlə cəmiyyət arasında sağlam və etimada söykənmiş münasibətlərin formalaşdırılmasında əvəzedilməz rola malikdir. Dövlət qulluğu ölkə vətəndaşlarının və vəzifəli şəxslərin dövlət qulluqçularının qanuna müvafiq tələblərinin icra olunmasında, icra proseslərində şəffaflığın və dürüstlüyün qorunmasında, sosial-hüquqi prinsiplərin təmin edilməsində, ölkədə yüksək yaşayış səviyyəsinin formalaşdırılmasında əhəmiyyətli funksiyaları reallaşdırır.

Qeyd edək ki, Azərbaycan özünün müstəqilliyini bərpa etdikdən sonra, əsas strateji vəziflərdən biri də dövlətlə xalq, dövlətlə cəmiyyət, dövlət qulluqçuları ilə sıravi vətəndaşlar arasında olan qarşılıqlı etimadın təmin edilməsi, ölkə əhalisinin öz dövlətinə inamının gücləndirilməsi olmuşdur. Bu məqsədlə milli adət, idarəçilik ənənələrinə və təcrübəsinə, milli maraqlara söykənmiş dövlət qulluğu sisteminin formalaşdırılması və inkişaf etdirilməsi bir zərurət kimi ortaya çıxmışdır. Dövlətçilik və idarəetmə sahəsində dünya təcrübəsinə malik olan ulu öndərimiz Heydər Əliyevin tarixi səyləri nəticəsində qısa bir dövr ərzində mühüm dövlət orqanlarının və idarəetmə sisteminin formalaşdırılması, inkişaf etidrilməsi proseslərinin sürətləndirilməsi mümkün olmuşdur. Dahi zəkaya, dərin idarəetmə təcrübəsinə malik




olan Heydər Əliyev müstəqil Azərbaycanın milli maraqlarına xidmət edən dövlət qulluğu sisteminin əsasını qoymuşdur. Məhz onun rəhbərliyi altında Dövlət qulluğu haqqında Azərbaycan Respublikasının Qanunu hazırlanmış və 2001-ci ilin sentyabırın 1-dən qüvvəyə minmişdir[1]. Bu qanunda Azərbaycanda dövlət qulluğu sisteminin məqsədi, əsas vəzifələri, dövlət qulluğunun prinsipləri və idarəetmə orqanları, dövlət qulluğu haqqında qanunvericilik və dövlət orqanlarının təsnifatı, həmçinin dövlət orqanlarında vəzifələrin təsnifatı, dövlət qulluqçusunun andı, ixtisas dərəcələri, dövlət qulluqçusunun vəzifələri və əsas hüquqları, dövlət qulluğu ilə əlaqədar məhdudiyyətlər, dövlət qulluqçularının fəaliyyətinin qiymətləndirilməsi və digər məsələlər üzrə müddəalar yer almışdır. Keçən müddət ərzində ölkəmizdə dövlət qulluğu sisteminin inkişafı və təkmilləşdirilməsi üzrə görülən işlərin intensivliyi və səmərəliliyi daha da artmışdır. Prezident İlham Əliyevin rəhbərliyi altında aparılan islahatlar nəticəsində dövlət orqanlarının işinin dövrün tələblərinə uyğun yenidən qurulması, güclü kadr korpusunun yaradılması istiqamətində zəruri tədbirlər görülüb və bu gün də görülməkdədir. Ölkə başçısı dövlət qulluğunun daha səmərəli təşkili məsələlərini daim diqqət mərkəzində saxlayır, müvafiq qurumların strukturunun təkmilləşdirilməsinə, hüquq və səlahiyyətlərinin dəqiqləşdirilməsinə, bilavasitə həyata keçirdikləri vəzifələrin müəyyənləşdirilməsinə xüsusi əhəmiyyət verir[2]. Dövlət qulluğu sisteminin işləkliyi və optimallığı cəmiyyətin davamlı və dayanıqlı inkişafının təminatçısı kimi çıxış edir, dövlətlə vətəndaşlar arasındakı prosesləri və münasibətləri tənzimləyir, ölkənin sosial-iqtisadi problemlərinin həlli istiqamətində zəruri tədbirlərin planlı və sistemli şəkildə hazırlanaraq reallaşdırılmasını təmin edir, ölkə iqtisadiyyatının qarşınıda duran strateji vəzifələrin yerinə yetirilməsinə əsaslı zəmin yaradır, ölkənin balanslı inkişafı və imicinin artması, gücünün və qüdrətinin yüksəlməsi üçün vacib addımların atılmasını təmin edir. Dövlət qulluqçusu dövlətin idarəetmə sisteminin güzgüsüdür və güzgünün şəffaf, ləkəsiz olması hər bir dövlət qulluqçusunun hərəkətlərindən, davranışından, prinsipiallığından, bir sözlə mənəvi keyfiyyətlərindən çox asılıdır[3]. Dövlət qulluğu sistemi fasiləsiz rejimdə dəqiq və dürüst fəaliyyət göstərməli, dövlətdəki və cəmiyyətdəki münasibətlərin adekvatlığı ilə yanaşı, mövcud problemlərin kompelks baxılması, hər bir problem üzrə əsaslandırılmış dövlət siyasətinin formalaşdırılması, uyğun mexanizmlərin hazırlanması və həyata keçirilməsi tədbirlərini təmin etməlidir. Bundan əlavə, dövlət qulluğu dövlətin və cəmiyyətin, ölkə iqtisadiyyatının balanslı və tarazlı, davamlı və dayanıqlı, intensiv inkişafı üçün tələb olunan tədbirlərin reallaşdırılmasına nail olmalıdır. Qlobal tendensiyalardan ölkənin müstəqilliyini, siyasi və iqtisadi sistemini, milli maraqlarını təhdid edən təzyiqlərə və tendensiyalara qarşı milli immunitet komponentləri və dayaqları hazırlanmalı, xüsusi ilə bu məqsədlərlə bağlı preventiv tədbirlərin görülməsi diqqət mərkəzində saxlanılmalıdır. Dövlət qulluğu və dövlət idarəçilik sistemi funksional fəaliyyətin optimal təşkili üçün güclü kadr potensialına malik olmalı və bu sahədə ardıcıl tədbirlər həyata keçirilməlidir. Dövlət orqanları üçün kadr hazırlığı, ilk növbədə bu kadrların cavab verməli olduğu peşəkarlıq səviyyəsinə tələblərin formalaşdırılmasını, bu səviyyəni təmin etməyə imkan verən tədris planları və proqramlarının olmasını tələb edir. Dövlət qulluqçularının idarəetmə fəaliyyətinə hazırlanmasına, qərar qəbuluna, siyasətin işlənib hazırlanması və təhlilinə, strateji idarəetməyə, dövlət idarəetməsinin islahatlarına, liderlik nəzəriyyəsi və praktikasına və sairəyə xüsusi diqqət yetirilir [4]. Ölkəmizin dövlətçilik və iqtisadi inkişaf mexanizmləri, strategiya və konsepsiyaları reallaşdırıldıqca daha mürəkkəb strateji vəzifələr qarşıya çıxır, siyasi və iqtisadi sistemlərin yeni inkişaf mərhələlərində həllini gözləyən problemlər yaranır və bunların öhdəsindən gəlmək üçün dövlət qulluğu sisteminin mobil və çevikliyi, şəffaflığı, bu sistemin səmərəliliyi mütləq şəkildə təmin olunmalıdır. Heç də sirr deyildir ki, qlobal dəyişikliklər nəticəsində əksər dövlət idarəçiliyi mexanizmlərinin və həmçinin dövlət qulluğu sisteminin bu və ya digər elementlərinin yenilənməsi, yaxud təkmilləşdirilməsi zərurəti ortaya çıxır. Məsələn, qlobal təsirlərdən, dünya ölkələrində baş verən siyasi və iqtisadi proseslərdən ortaya çıxan kənar təsirlərə qarşı adekvat tədbirlərin görülməsi ölkənin siyasi və iqtisadi sistemlərinin təkmilləşdirilməsini şərtləndirir və bu proseslərdə əsas yük dövlət qulluğu sisteminin üzərinə düşür.

Ölkəmizdə aparılan dövlət qulluğu siyasətinin əsas qayəsini məsuliyyətli və demokratik idarəçiliyin yaradılması, dövlət orqanlarının fəaliyyətində çevikliyin və şəffaflığın gücləndirilməsi, vətəndaşların qayğı və ehtiyaclarının daha dolğun təmin edilməsi, habelə dövlət orqanlarının üzərinə düşən funksiyaların səmərəli şəkildə yerinə yetirilməsinə xidmət edən təcrübəli və peşəkar dövlət qulluqçusu korpusunun formalaşdırlması təşkil edir[5]. Dövlət qulluqçusu korpusunun fəaliyyəti dövlətin və millətin

milli ənənələrinə, maraqlarına uyğun təşkil olunmalıdır. Bu məqsədlə dövlət qulluğu sisteminin güclü qanunvericilik bazası formalaşdırılmalı, dövlət qulluğunun əsas vəzifələri və hüquqları müəyyənləşdirilməli, dövlət qulluğunun müasir dövrün çağırışlarına adekvat təşkili və idarəedilməsi sisteminin təkmilləşdirilməsi təmin edilməlidir. Dövlət quluqçusu xalqın xidmətçisidir. İnsanlara xidmət, onların qayğıları ilə yaşamaq onun əsas vəzifəsidir. Artıq Azərbaycan Respublikasının özünəməxsus dövlət qulluğu sistemi mövcuddur və bu sahədə qabaqcıl dövlətlərin təcrübəsindən istifadə edilmişdir[6]. Bundan əlavə, müasir dövrdə daha çevik dövlət qulluğu sisteminin formalaşdırılması və onun mexanizmlərinin qabaqcıl dünya təcrübəsinə uyğunlaşdırılması problemləri də sistemli şəkildə həll edilməkdədir. Ötən dövr ərzində dövlət qulluğunu tənzimləyən "Dövlət qulluğu haqqında" Qanuna dövrün tələblərinə uyğun olaraq, o cümlədən idarəetmə sisteminin təkmilləşdirilməsi ilə əlaqədar bir sıra dəyişikliklər və əlavələr edilmişdir. Dövlət orqanlarının fəaliyyətinin əsas prinsiplərini müəyyən edən digər normativ hüquqi aktlar da müntəzəm olaraq təkmilləşdirilir[7].

Qeyd edək ki, son onillikdə dövlət qulluğu sisteminin inkişaf etdirilməsi, bununla əlaqədar hazırlıqlı, müasir bacarıq və biliklərə malik olan kadr korpusunun – dövlət qulluqçuları korpusunun təşkili məqsədi ilə davamlı və məqsədli işlər aparılmışdır. 2017-ci il yanvarın 1-nə ölkədə dövlət qulluqçularının sayı 30,1 min nəfər təşkil etmişdir. Dövlət qulluqçularının 28,6 %-ni qadınlar təşkil edir və 2016-cı ilin yekununa görə dövlət qulluqçularının orta aylıq nominal əmək haqqı 634,3 manat olmuşdur[8].

Şəkil 1-də Azərbaycan Respublikasında 2005-2016-cı illərdə dövlət qulluğunun vəzifələrini tutmuş işçilərin sayı verilmişdir.




**Şəkil 1. Azərbaycan Respublikasında 2005-2016-cı illərdə dövlət qulluğunun vəzifələrini tutmuş işçilərin sayı, nəfər (ARDSK-nın məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır)**

Şəkil 1-ə nəzər salsaq görərik ki, 2005-2016-cı illər ərzində Azərbaycan Respublikasında dövlət qulluğu vəzifələrini tutmuş işçilərin sayında artım tendesiyası nümayiş etdirilmiş və 2017-ci il yanvarın 1-nə 30,1 min nəfərə yaxın olmuşdur. Qeyd edək ki, dövlət qulluğu vəzifələrini tutmuş işçilərin əsas korpusu inzibati vəzifələrin təsnifatı üzrə 4-7-ci təsnifatlarda cəmlənmişdir. Şəkil 2-də 2017-ci il yanvarın 1-nə dövlət qulluğunun 4-7-ci təsnifatları üzrə inzibati vəzifələri tutmuş işçilərin sayı verilmişdir.

Şəkil 2-yə nəzərə saldıqda görmək mümkündür ki, dövlət qulluğunun 4-7-ci təsnifatlar üzrə inzibati vəzifələrini tutmuş işçilərin sırasında baş məsləhətçilər daha çoxdur və 2017-ci il yanvarın 1-nə bu vəzifələri tutmuş vəzifələrin sayı 5898 nəfər təşkil etmişdir.




**Şəkil 2. Azərbaycan Respublikasında 2017-ci il yanvarın 1-nə olan məlumata görə dövlət qulluğunun 4-7-ci təsnifatlar üzrə inzibati vəzifələrini tutmuş işçilərin sayı, nəfər (ARDSK-nın məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır)**




**Şəkil 3. Azərbaycan Respublikasında 2017-ci il yanvarın 1-nə olan məlumata görə dövlət qulluğunun 4-7-ci təsnifatlar üzrə inzibati vəzifələri tutmuş işçilərin sayı, faizlə (ARDSK-nın məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır)**

Şəkil 3-də isə Azərbaycanda 2017-ci il yanvarın 1-nə olan məlumata görə dövlət qulluğunun 4-7-ci təsnifatlar üzrə inzibati vəzifələrini tutmuş işçilərin yekuna görə faizlə bölgüsü öz əksini tapmışdır.

Dövlət qulluğu sisteminin ölkənin qarşısında duran problemlərin həllində rolunun yüksəldilməsi, dövlət və cəmiyyət arasındakı münasibətlərin sağlam ruhda təmin edilməsi, ölkənin inkişafı üçün mühüm fəaliyyət istiqamətlərinin səmərəli təşkili problemləri aktual olaraq qalmaqdadır. Tədqiqatçılar A.Qusev, S.Matveyev, V.Silkin, M.Şediy, A.Moiseyev, K.Vostrikov dövlət qulluğunun transformasiyalar və qlobal tendensiyalar şəraitində daha çevik və səmərəli olmasının vacibliyini xüsusi ilə qeyd etmişlər[9;10;11;12;13;14]. Dövlət qulluğu sisteminin təkmilləşdirilməsi prosesləri dövlət aparatının modernləşdirilməsi üzrə islahatların əsas tərkib hissəsi kimi götürülməlidir. Dövlət qulluğu dövlət idarəçiliyinin inkişafına mühüm tövhələr verməklə bərabər korporativ mədəniyyətin cəmiyyətdəki inkişafına kifayət qədər müsbət təsir göstərmək potensialına malikdir. Əslində dövlət qulluğu mənəvi-mədəniyyət institutu kimi dəyərli xüsusiyyəti də özündə birləşdirir. Bu sistemin vasitəsi ilə sosial-siyasi və sosial-iqtisadi proseslərin tarazlı və davamlı inkişafı təmin olunur. Dövlət qulluğunun əsas inkişaf meyilləri sırasında bu sahədə qanunun aliliyi ilə yanaşı, şəffaflıq və operativliyin təmin edilməsi, məsuliyyət və hesabatlılığın təmin olunması, insan ehtiyatlarının və dövlət qulluğu sisteminin kadr korpusunun peşəkarlıq səviyyəsinin yüksəldilməsi və dövlət idarəçilik sistemində innovativ texnologiyaların tətbiqinin genişləndirilməsi zərurəti daha çox diqqət çəkir.

Beləliklə, qeyd etmək mümkündür ki, yaxın perspektivdə ölkəmizdə dövlət qulluğu sisteminin daha da təkmilləşdirilməsinə

zərurət artacaqdır. Hazırda Azərbayacanda dövlət strukturunun müasir dövrün tələblərinə uyğun təkmilləşdirilməsi prosesləri davam edir və ölkə iqtisadiyyatının strateji hədəflərinin reallaşdırılması istiqamətlərində görülən tədbirlər intensivləşməkdədir[15]. Bütün bunlar dövlət qulluğu sisteminin daha səmərəli və optimal mexanizmlərinin tətbiqinin sürətləndirilməsini şərtləndirir. Azərbaycanın inkişaf etmiş ölkələr sırasında yer almaq hədəfi və əhalinin yaşayış səviyyəsinin yüksəldilməsi ilə bağlı strateji məqsədləri dövlət qulluğu sisteminin üzərinə daha məsuliyyətli vəzifələr qoyur və bu amillər baxımından, dövlət qulluğu sisteminin dövlət idarəçiliyində və cəmiyyətdə rolunun daha da artacağını proqnozlaşdırmaq mümkündür.

Son zamanlar baş verən qlobal siyasi və iqtisadi proseslər, insanın əqli potensialına və innovativ idarəetmə metodlarına artan tələbat və informasiya texnologiyalarının yeni imkanlarının idarəetmədə geniş tətbiqi dövlət orqanlarında insan resurslarının idarə olunması sahəsində fəaliyyətin təkmilləşdirilməsini zəruri edir. Dövlət qulluğunda insan resurslarının idarə olunması insan istedadının və bacarıqlarının üzə çıxarılmasını və dinamik inkişafını tələb edir. Dövlətin sahib olduğu bütün ehtiyatlar içində ən dəyərli və vacib ehtiyatın insan resurslarının olduğunu nəzərə alaraq dövlət orqanlarında kadr siyasətinin inkişafı ilə bağlı strategiyanın hazırlanması müasir dövrün tələbidir.

### ƏDƏBİYYAT


1. *Dövlət qulluğu haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 21 iyul 2000-ci il, №926, IQ.*
2. *Xəlilov B. Azərbaycanda dövlət qulluğunun inkişafı (Azərbaycan qəzeti – 22.06.2008). Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi. http://www.dqmk.gov.az/index.php/home/post/302.*
3. *İsmayılov S. Dövlət qulluğu xalqa xidmət nümunəsidir. AZƏRTAC – Azərbaycan Dövlət İnformasiya Agentliyi, Bakı, 21 iyun 2017-ci il. https://azertag.az/print/1072207.*
4. *Qəndilov S. Heydər Əliyevin idarəçilik irsi dövlətin kadr hazırlığının əsas qayəsinin təşkil edir. Azərbaycan.- 2010.- 22 aprel.- S.3 http://www.anl.az/down/meqale/azerbaycan/2010/aprel/116269.htm.*
5. *Bədəlov Ə. Azərbaycanda dövlət qulluğu sistemi və onun hüquqi bazası beynəlxlaq standartlara uyğunlaşdırılmışdır. http://xalqqazeti.com/az/news/social/23298.*
6. *Dövlət qulluğu xalqın xidmətçisidir (“Xalq qəzeti”, 23 iyun 2013-cü il). Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi, http://www.dqmk.gov.az/index.php/home/post/1123.*
7. *Məmmədova D. Heydər Əliyev Azərbaycanda müsir dövlət qulluğu sisteminin banisidir. 23 iyul 2013-cü il. http://www.azerbaijan-news.az/index.php?mod=3&id=25489.*
8. *Dövlət qulluqçuları. Statistik məcmuə. Rəsmi nəşr. Azərbaycan Respublikasının Dövlət Statistiika Komitəsi. Bakı, 2017.- 111 s.*
9. *Гусев А.В. Государственная гражданская служба Российской Федераци: проблемы прававого регулирования. Дисс. д-ра юрид. наук. Екатеренбург, 2009.- 448 с.*
10. *Матвеев С.П. Система государственной службы: проблемы развития и совершенствования// Вестник Воронежсkго института МВД России, 2016. https://cyberleninka.ru;*
11. *Силкин В.В. Влияние пространства политической коммуникации на процессы модернизации государственного управления. Дисс. д-ра полит. наук. Москва, 2016.-334 с.;*
12. *Шедий М.В. Ценности как фактор развития корпоративной культуры государственной службы. Дисс. канд. социоло. наук. Орел, 2004.-183 с.;*
13. *Моисеев А.В. Институт государственной службы в условиях трансформации современной России. Дисс. канд. полит. наук. Москва, 2007.-179 с.;*
14. *Востриков К.В. Институт государственной службы: становление, социально-политические характеристики. Дисс. канд. полит. наук. Кемерово, 2003.-145 с.;*
15. *Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.*



**Açar sözlər:** *dövlət qulluğu, dövlət idarəçiliyi, kadr siyasəti, dövlət orqanları, dövlət qulluğu sistemi, innovativ idarəetmə.*

**Ключевые слова:** *государственная служба, государственное управление, кадровая политика, государственные органы, система государственной службы, инновационное управление.*

**Key words:** *civil service, public administration, personnel policy, public bodies, civil service system, innovative management.*



### РЕЗЮМЕ
**Проблемы и перспективы современного развития системы государственной службы**

В статье исследованы проблемы и перспективы современного развития системы государственной службы в контексте глобальных изменений. Анализированы роль и значения системы государственной службы в оптимальной организации государственного управления и деятельности государственного аппарата. Отмечена важность системы государственной службы в обеспечении плодотворного и тесного сотрудничества государства с обществом и решение социально-экономических проблем. Указаны значения системы государственной службы в повышении эффективности политической системы и обеспечения устойчивого развития страны.



### SUMMARY
**Problems and prospects of modern development of the civil service system**

The article explores the problems and prospects of modern development of the civil service system in the context of global changes. The role and values of the civil service system in the optimal organization of public administration and the activities of the state apparatus are analyzed. The importance of the civil service system in ensuring fruitful and close cooperation between the state and society and the solution of social and economic problems was noted. The values of the civil service system in enhancing the effectiveness of the political system and ensuring sustainable development of the country were indicated.

# 2017-Cİ İLDƏ "GEOSTRATEGİYA" JURNALINDA NƏŞR OLUNMUŞ MƏQALƏLƏRİN SİYAHISI

## GEOSİYASƏT

**Али Гасанов.** Ходжалинский геноцид: причины, последствия и признание на международной арене — №. 01 (37) səh. 3-11
**Rufiz Qonaqov.** Xəzər dənizi enerji ehtiyatı mənbəyi kimi regionun siyasi-iqtisadi maraq dairəsində — №. 01 (37) səh. 27-31
**Hüseyn Hüseynli.** NATO-nun Qərbi Balkanlarda yeni genişlənmə dalğası və Türkiyənin mövqeyi — №. 01 (37) səh. 29-31
**Şəbnəm Zeynalova.** Avropa İttifaqı çərçivəsində inteqrasiya proseslərinin həyata keçirilməsinin əsas mərhələləri — №. 01 (37) səh. 57-51
**Азиза Агаева.** Исторические корни мультикультурального общества в Азербайджане — №. 01 (37) səh. 62-64
**Həmidə Əhmədova.** NATO-nun sülhməramlı əməliyyatlarında Azərbaycan Respublikası Silahlı Qüvvələrinin və hərbi birləşmələrinin rolu — №. 01 (31) səh. 65-68
**Алиага Мамедли.** О влиянии социально-экономических факторов на состояние межэтнических отношений и конфликтов на постсоветском пространств — №. 02 (38) səh. 8-12
**Xalid Niyazov.** Milli təhlükəsizlik siyasəti və Azərbaycan — №. 02 (38) səh 25-29
**Rufiz Qonaqov.** Xəzər hövzəsinin Geoiqtisadi xarakteristikasına siyasi nəzəri baxış — №. 02 (38) səh. 30-33
**Мамедали Фарухов.** Военно-силовая составляющая геополитического аспекта национальной безопасности Азербайджанской Республики — №. 02 (38) səh. 34-37
**Bəxtiyar Nəbiyev.** Geosiyasi tədqiqatlarda nəzəri mühakimələrin qurulma metodologiyası — №. 02 (38) səh. 38-41
**Alı Balayev.** Azərbaycan-Moldova əlaqələri: yüksək səviyyəli dostluq və əməkdaşlıq münasibətlərinə doğru — №. 02 (38) səh. 42-43
**Hacı Abdulla.** Şimali Azərbaycanın Zəngəzur bölgəsinin Ermənistana birləşdirilməsi böyük dövlətlərin və qonşu ölkələrin Qafqaz siyasətində — №. 02 (38) səh. 62-65
**Кямиля Джаббарова.** Важные направлении и элементов государственной политики по кибербезопасности в современных условиях — №. 02 (38) səh. 74-76
**Сафия Мехбалиева.** Социально-экономические, политические и правовые аспекты территориальных притязаний Армении на Нагорный Карабах — №. 03 (39) səh. 14-19
**Elçin Əhmədov.** Azərbaycanın daxili və xarici siyasətində multikultural və tolerant dəyərlər — №. 03 (39) səh. 24-27
**Samir Quliyev.** Amerika Birləşmiş Ştatlarının Qafqaz strategiyasında təhlükəsizlik və enerji amili — №. 03 (39) səh. 28-31
**Rəşad Məhərrəmov.** Siyasi innovasiyaların mahiyyəti və siyasi sistemlərin işlənməsi amili kimi — №. 03 (39) səh. 36-39
**Şəhriyar Məmmədov.** Azərbaycan-ABŞ münasibətləri: humanitar və iqtisadi əlaqələr — №. 03 (39) səh. 59-61
**Elşad Həsənli.** KİV informasiya təhlükəsizliyinə xidmət edən əsaslardan biri kimi — №. 03 (39) səh. 62-64
**Ülkər Məmmədzadə.** Heydər Əliyev siyasəti və İlham Əliyev tərəfindən bu siyasətin yerinə yetirilməsi — №. 03 (39) səh. 65-68
**Murad Əsədov.** Qafqazda "Yeni Böyük Oyun"- Türkiyənin xarici siyasəti — №. 03 (39) səh. 69-71
**Hikmət Babaoğlu.** Davamlı inkişafın insan resursları və informasiya təminatı — №. 04 (40) səh. 7-10
**Ирада Нуриева.** Армянская военная агрессия – нарушение территориальной целостности Азербайджанского государства на примере Нагорного Карабаха — №. 04 (40) səh. 17-20
**Pərvanə İbrahimova, Könül Niftəliyeva.** "Azərbaycanın geosiyasəti" əsərinin tipoloji-kontent analizi — №. 04 (40) səh. 21-24
**Ülviyyə Haqverdi.** "Azərbaycanın innovativ inkişafında çoxpartiyalılığın funksiya və mexanizmlərinin politoloji təhlili" — №. 04 (40) səh. 25-28
**Şəhla Gülməmmədova.** Beynəlxalq təhlükəsizliyin mahiyyəti — №. 04 (40) səh. 33-35

**Ləman Qocayeva.** Cənubi Qafqaz Rusiya Federasiyasının geosiyasi maraqlarında №. 04 (40) səh. 43-47
**Günay Feyziyeva.** Dünyada mövcud olan qlobal eneri böhranı №. 04 (40) səh. 52-54
**Гюнель Мусаева.** Азербайджан-Великобритания: первые шаги сотрудничества №. 04 (40) səh. 55-57
**Şəfəq Mustafayeva.** Avropa İttifaqı çərçivəsində Fransanın Gürcüstan daxili münaqişənin tənzimlənməsində rolu №. 04 (40) səh. 65-68
**Günel Musayeva.** Avropa İttİfaqının "Şərq Tərəfdaşlığı" proqramı. Bu proqramın zəifləməsinin səbəb və nəticələri. №. 04 (40) səh. 73-76
**Əli Həsənov.** Azərbaycan dünyada mühüm nəqliyyat-logistika mərkəzlərindən birinə çevrilmişdir №. 05 (41) səh. 3-5
**İbrahim Əliyev.** Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası və inkişafı dövründə Azərbaycan-Türkiyə münasibətləri №. 05 (41) səh. 6-9
**Aydan Rahimli.** Immıgratıon rıghts before and durıng Obama era ın Unıted States of Amerıca №. 05 (41) səh. 24-27
**Akif Marifli.** Beynəlxalq təşkilatların fövqəladə hallar fəaliyyəti və antiterror siyasəti №. 05 (41) səh. 33-36
**Şəhla Gülməmmədova.** Beynəlxalq təhlükəsizliyin nəzəri-konseptual əsasları №. 05 (41) səh. 37-42
**Ülviyyə Quliyeva.** Müasir dövrdə Azərbaycanın xarici siyasəti: yeni istiqamətlər və perspektivlər №. 05 (41) səh. 43-46
**Bəxtiyar Nəbiyev.** Azərbaycanın xarici siyasətində geosiyasi vasitələrin dəyərləndirilməsi baxımından Gürcüstan Azərbaycanlıları amili №. 05 (41) səh. 47-50
**Севиндж Мамедли.** Этапы трансформации политической элиты Турции №. 05 (41) səh. 71-73
**İbrahim Əliyev.** 2017-ci il: gözləntilər və nəticələr №. 06 (42) səh.3-4
**Səfiyyə Mehbalıyeva.** Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasəti və münaqişənin beynəlxalq-hüquqi aspektləri №. 06 (42) səh.10-15
**Nafilə Rəhimova.** Müasir dövrdə Türkiyə- Rusiya münasibətləri №. 06 (42) səh.20-22
**Сабина Гарашова.** Геополитические интересы США в мире и возможности их реализации №. 06 (42) səh.33-38
**Bəxtiyar Nəbiyev.** Bakı-Tbilisi-Qars dəmir yolu xəttindən Tehran sammitinə doğru: uğurların geosiyasi dəyərləndirilməsi №. 06 (42) səh.39-42
**Elgün Əliyev.** ABŞ-da federal səviyyədə uşaq siyasətinin mühüm cəhətləri №. 06 (42) səh.43-46
**Vasif Nəbiyev.** Qırğızıstan Respublikasının Azərbaycan Respublikası ilə əlaqələri (1993-2016-ci illər) №. 06 (42) səh.51-54
**Humay Tağıyeva.** Etnosiyasi münaqişələr beynəlxalq münaqişələrin bir növü kimi №. 06 (42) səh.55-58

## TARİX

**Арастун Мехтиев.** Основные этапы становления нефтяной стратегии Азербайджана в период независимости №. 01 (37) səh. 12-17
**Вадим Михайлов.** Мусульманское «политическое пробуждение» и двоевластие в Азербайджане в 1917 г. №. 01 (37) səh. 18-22
**Dilavər Əzimli.** Həsən Padşah Ağqoyunlunun dini siyasətinə dair №. 01 (37) səh. 44-47
**Elman Cəfərli.** Özbəkistan Respublikasının Qaraqalpaqstan Respublikası №. 01 (37) səh. 48-52
**Aygün Qədirova.** XIX-XX əsrin əvvəllərində Mingəçevir və ətraf bölgələri əhalisinin ənənəvi kişi geyimləri №. 01 (37) səh. 69-72
**Şəfa Mövsümova.** 1941-1945-ci illər müharibəsində Bakı neftinin əhəmiyyəti məsələsi Azərbaycan Sovet tarixşünaslığında №. 01 (37) səh. 73-76
**İbrahim Əliyev.** SSRİ-nin iflasının səbəb və nəticələri haqqında №. 02 (38) səh. 3-7
**Вадим Михайлов.** Октябрьский переворот и установление двоевластия в Азербайджане В конце 1917 – начале 1918 гг. №. 02 (38) səh. 13-18

**Тофиг Наджафли.** О флагах Азербайджанского государства Сефевидов №. 02 (38) səh. 19-23
**Anar Ömərov.** Osmanlı, Portuqaliya və Səfəvi münasibətlərində Hörmüz məsələsi №. 02 (38) səh. 46-49
**Elman Cəfərli.** Tacikistan Respublikasının Dağlıq Bədəxşan Muxtar Vilayəti №. 02 (38) səh. 14-17
**Bəxtiyar Əhmədov.** Göyçə mahalında yaşayan azərbaycanlıların diskriminasiyası və 1988-1989-cu illər deportasiyası №. 02 (38) səh. 55-58
**Elşən Aslanov.** Bakı Xalq Komissarları Sovetinin tarixi xarici tarixşünaslıqda №. 02 (38) səh. 59-61
**İbrahim Əliyev.** SSRİ-nin beynəlxalq münasibətlər sahəsində Heydər Əliyevin xidmətləri №. 03 (39) səh. 3-6
**Könül İmamverdiyeva.** Azərbaycanən Dövlət rəmzlərinin təşəkkül və inkişaf tarixindən №. 03 (39) səh. 7-9
**Наргиз Ахундова.** Шейх Сефи Ад-Дин Исхак Ардебили и Шейхзаде Джамал Ад-Дин Али №. 03 (39) səh. 10-13
**Şahlar Şərifov.** Naxçıvan şəhəri və onun Xilafət tərəfindən fəthi №. 03 (39) səh. 32-35
**İbrahim Əliyev.** 1980-ci illərdə SSRİ-də Y.Andropov hakimiyyəti və onun islahatları №. 04 (40) səh. 3-6
**Tofiq Nəcəfli.** Azərbaycan Səfəvi dövlətinin bayraqlarına dair №. 04 (40) səh. 11-16
**Vaqif Abışov.** Azərbaycanda Bolşevik rejiminin qurulması milli tarixşünaslıqda (1940-1950-ci illər) №. 04 (40) səh. 29-32
**Elvin Paşayev.** Amerika Birləşmiş Ştatlarının enerji siyasətində günəş enerjisinin yeri №. 04 (40) səh. 39-42
**Məhərrəm Zülfüqarlı.** XX əsrin oğuz dastanı, “Topxana harayı” (17 noyabr-5 dekabr 1988) №. 04 (40) səh. 48-51
**Lamiyyə Namazova.** 1960-1970-ci illərdə Rocer Seyvorinin əsərlərində Azərbaycan Səfəvi dövlətinin tarixinin tədqiqinə dair №. 05 (41) səh. 55-58
**Ədalət Mustafayev.** Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində “Halqa” əməliyyatının rolu və mahiyyəti №. 05 (41) səh. 67-70
**Tofiq Nəcəfli.** Bakı nefti orta əsr mənbələrində №. 06 (42) səh. 5-9
**Sevinc Məlikzadə.** Azərbaycan Səfəvi imperiyasında nüfuz uğrunda Avropa dövlətlərinin mübarizəsi (“Karmelit xronikası” əsasında) №. 06 (42) səh. 47-50



## MƏDƏNİYYƏT

**Гюнай Гафарова.** Первый профессиональный скульптор Азербайджана - Зейнал Ализаде №. 03 (39) səh. 40-43
**Bilal Dədəyev.** Osmanlı mədəni həyatına töhfə vermiş azərbaycanlı rəssam- şair Şahqulu Pənahi №. 03 (39) səh. 56-58
**Vüsal Bağırov.** Sanat Eğitiminde Türk Grafik Sanatının Önemi №. 05 (41) səh. 28-32
**Севиль Керимова.** Иконография Царицы Томирис в мировом и отечественном изобразительном искусстве №. 06 (42) səh. 27-32
**Günel Qarayeva.** Nəsiminin fəlsəfi görüşlərində ideal insan obrazı №. 06 (42) səh. 63-64

## SOSİAL ELMLƏR

**Müslüm Nəzərov.** Təhsil problemləri sosiomədəni konteksdə №. 01 (37) səh. 23-26
**Müslüm Nəzərov.** Təhsil mentaliteti metodoloji paradiqma kimi №. 04 (40) səh. 36-38
**Xalid Niyazov.** İnformasiya təhlükəsizliyinin hüquqi əsasları: komporativ yanaşma №. 05 (41) səh. 19-23
**Leyla Əlizadə.** Şəxsiyyətlərarası ünsiyyətin psixolinqvistik məsələləri №. 05 (41) səh. 51-54
**Taleh Əhmədov.** Multikulturalizm və etika əlaqəsinin bəzi cəhətləri №. 05 (41) səh. 63-66
**Azər Bayramov.** Dövlət qulluğu sisteminin müasir inkişaf problemləri və perspektivləri №. 06 (42) səh. 69-72

## İQTİSADİYYAT


| | |
|---|---|
| **Şəfa Əliyev.** Azərbaycanda strateji yol xəritələrinin reallaşdırılmasında xüsusi iqtisadi zonaların əhəmiyyəti | №. 01 (37) səh. 32-35 |
| **Hənifə Cəfərli.** Müasir dövrdə milli iqtiasdi inkişaf modelinin strateji aspektləri | №. 01 (37) səh. 36-39 |
| **Əsli Kazımova.** Qeyri-Neft sektoru sahələrinin fəaliyyətinin və maliyyə mənbələrinin gücləndirilməsi problemləri və prespektivləri | №. 01 (37) səh. 40-43 |
| **Rasim Abbasov.** Azərbaycanda demoqrafik vəziyyət nəzərə alınmaqla idxalın dövlət tənzimlənməsinin qanunvericilik bazasının gücləndirilməsi və prioritet istiqamətləri | №. 02 (38) səh. 66-68 |
| **Yaşar İskəndərov.** Müasir dövrdə tikinti materialları bazarında kommersiya münasibətlərinin təkmilləşdirilməsi istiqamətləri | №. 02 (38) səh. 69-71 |
| **Баяз Абдуллаева.** Пути совершенствования системы внутреннего аудита на предприятиях нефтехимического комплекса | №. 02 (40) səh. 72-73 |
| **Şəfa Əliyev. Səmədzadə T.R.** Strateji yol xəritələrinin icrasinin intensivləşdirilməsində milli iqtisadi diplomatiyanin gücləndirilməsinin əhəmiyyəti | №. 03 (39) səh. 20-23 |
| **Elvin Paşayev.** OPEK-in proqnozları və onun strateji kursunda baş verən dəyişikliklər | №. 03 (39) səh. 44-47 |
| **Rəşad Əsgərov.** Dünya praktikasında kiçik və orta sahibkarlığın inkişafı və idarə olunması | №. 03 (39) səh. 48-51 |
| **Sevda Hüseynova.** Azərbaycanın Ümumdünya Ticarət təşkilatı ilə əməkdaşlığı üçün yaranmış zəmin və digər ölkələrin təcrübəsinin müqayisəli təhlili | №. 03 (39) səh. 52-55 |
| **Almaz Həmidova.** Qlobal iqtisadi çağırışlar şəraitində strateji yol xəritələrinin həyata keçirilməsində logistika sisteminin əhəmiyyəti | №. 03 (39) səh. 72-73 |
| **Elnarə Əhmədova.** Müəssisənin təsərrüfatçılıq fəaliyyəti və onun yaxşılaşdırılması istiqamətləri | №. 03 (39) səh. 74-76 |
| **Şəlalə Məmmədova.** Sənaye müəssisəsinin istehsal planının optimallığında strateji analiz və planlaşdırmanın müasir aspektləri | №. 04 (40) səh. 58-60 |
| **Ata Babayev.** Qlobal təhlükələrin artdığı şəraitdə ekoloji-iqtisadi sistemin dayanıqlı inkişafının müasir aspektləri | №. 04 (40) səh. 61-64 |
| **Gülbəs Rüstəmova.** Müəssisənin marketinq fəaliyyətinin metodoloji yanaşmalarının səmərəliliyi məsələləri | №. 04 (40) səh. 69-72 |
| **Anar Eminov.** Sosial investisiyaların qiymətləndirilmə meyarları və metodları | №. 05 (41) səh. 10-13 |
| **Şəfa Əliyev.** Heydər Əliyev dühası və əsrin müqaviləsi | №. 05 (41) səh. 14-18 |
| **İlahə Əliyeva.** Azərbaycanda turizm kadr ehtiyyatının artırılmasında təhsil və sənaye əməkdaşlığının təşkili | №. 05 (41) səh. 59-62 |
| **Эльвин Рашидов.** Восприятие образа гостиницы | №. 05 (41) səh. 74-76 |
| **Anar Eminov, Aynur Lətifli.** Sosial sahələrə ayrılan xərclərinin effektivliyinin ölçülməsinə yeni yanaşmalar | №. 06 (42) səh. 16-19 |
| **Lalə Mahmudova.** Milli iqtisadiyyat sahələrinin innovasiyalaşdırılmasının strateji aspektləri | №. 06 (42) səh. 23-26 |
| **Lyudmila İsmayilova.** Kiçik biznesin inkişafında klaster şəbəkələrinin yaradılmasının əhəmiyyəti | №. 06 (42) səh. 59-62 |
| **Xumar Abdullayeva.** Azərbaycan-Türkiyə iqtisadi-ticarət əlaqələrində ən son trendlər, buna təsir edən qlobal faktorlar və yeni əməkdaşlıq istiqamətləri | №. 06 (42) səh. 65-68 |